TURAL SAHAB

# *LƏMAN*

***(roman)***

Bakı-2017

Redaktor: Ümbülbanu

Dizayner: Sahil Amir

Tural Sahab
(Nuriyev Tural Elmar oğlu)
("Ləman")

*Bu, müəllifin ikinci kitabıdır. Bundan əvvəl Tural Sahabın* **"Onun adı Elyanora deyil"** *adlı hekayələr toplusu işıq üzü görmüşdür.*
*Ümid edirik ki, gənc müəllifin "Ləman"ı da oxucuların sevimlisinə çevriləcək.*

## MÜQƏDDƏS DUYĞULARIN SORAĞINDA

Müasir texnikanın kosmik sürətlə inkişaf etdiyi əsrdə yaşayırıq. Amansız və zamansız müharibələrin tüğyan etdiyi, viran qoyduğu, insan ölümlərinin ucuzlaşdığı, baş alıb getdiyi bir dövrə çatmışıq. Dəyərlərimizi və dəyərlilərimizi itirmək də sanki getdikcə adiləşir. Böyük anlam olan İnsanlıq dərin, xilası mümkün olmayan, bir daha geriyə dönə bilməyəcək bir uçuruma anbaan yaxınlaşmaqdadır. Yoxluğa – məhvə gedən dünyamızı kimlər və necə xilas edəcək? Və ümumiyyətlə, buna ümidimiz nə qədərdir?

Müharibə dedikdə, gözlərimiz önündə dağıdılmış, xaraba qalmış şəhərlər, göz yaşları, əzablar, işgəncələr, ölüm canlanır. Bəşər övladının əlindən hər şeyi alan müharibə belə yalnız bir güc qarşısında daim aciz qalıb. Sevgini sağ qalanın ürəyindən silməyə, ölənin sevgisini özüylə bərabər aparmağa mane ola bilməyib. Çünki məhəbbətin, sevginin gücü əlçatmazdır – İlahi qüvvədir.

Bəli, dünyanın və İnsanlığın yeganə xilaskarı müqəddəs, ilahi qüvvə olan sevgidir. Sevgini hər kəs öz anladığı kimi dəyərləndirir: – Kimisi adi, ani və ötəri hiss kimi, kimisi hissiyyatın dili, sevənlərin vüsala qovuşduğu andan məhəbbətin yox olması, bəzən də şəhvət hissinin mənbəyi kimi yozur. Deməli, həyəcan təbili çalmağın vaxtı çatıb. Müharibələrin məhv edə bilmədiyi müqəddəs və ali

hisslər elə beşiyindəcə boğulur, ölür. Belə olan surətdə əgər şam işığı qədər ümid yeri varsa, o zaman bütün gözəlliklərin, duyğuların, İnsanlığın xilasına inanmaq olar.

Son zamanlar nəşr olunmuş bəzi bədii əsərlərin əksəriyyətində (istər yaşlı, istər gənc müəlliflərin) müqəddəs hiss olan sevgi-məhəbbət olduqca bayağı, süni, parnoqrafik səhnələrlə təsvir olunur. Oxucuda belə fikir formalaşır ki, guya sevgi qarşılıqlı məhəbbətdə dəyəri olan, ancaq qurşaqdanaşağı hisslərə xidmət edən bir vasitədir. Belə «yazarları» müqəddəs duyğuları hələ qönçə olan gənclər də, əsrlərin sınağından çıxmış, hər aşiq olana örnək ola biləcək tarixi qəhrəmanlar da zərrəcə maraqlandırmır. Onlar sevgi adlandırdığı, bədiilikdən tamam xali olan, açıq-saçıq, intim münasibətləri iyrənc şəkildə ön plana çəkməklə daha çox oxucu toplamaq, populyarlaşmaq istəyənlərdir. Təəssüf ki, ədəbiyyatımızda gözəl tərənnüm edilən məhəbbət əsərlərinə parodiya sayıla biləcək belə yazılar gündən-günə çoxalmaqdadır. Maraqla oxuduğum «Ləman» povestində isə tam əksinə, məhəbbətin ülviliyi, gözəlliyi müəllif tərəfindən incəliklə, həssaslıqla qələmə alınıb.

Gənc yazar Tural Sahab ali təhsilini Bakı Dövlət Universitetində başa vurub, ixtisasca filoloqdur. Hazırda Gədəbəyin ucqar kəndlərindən biri olan ____ kəndində müəllim işləyir. Turalın hekayələri vaxtaşırı müxtəlif qəzet və jurnallarda dərc olunur. 2016-cı ildə «Onun adı Elyanora deyil» hekayələr kitabı nəşr olunub. Bu dəfə «Ləman»

povesti ilə yenidən oxucuların görüşünə gəlib. Saf, müqəddəs hisslərə köklənmiş bu povest maraqlı süjet xətti, obrazların səmimi və inandırıcı təsviri ilə oxucunun diqqətini çəkir və yazıçının təqdim etmək istədiyi hər şeyi oxucu olduğu kimi qavraya bilir.

Əsərin qəhrəmanı Ləmandır. Həyatın sınaqlarından hər zaman qələbə ilə çıxan Ləman gözlənilmədən ağır, sağalmaz dərdə – xərçəngə mübtəla olur. Həmişə onu çox sevən əri Bəxtiyarın birdən-birə üzü dönür və onu xəstə halında tək qoyur. Ləmanın iztirabı birə yüz artır, ərinin bu dönüklüyünə dözə bilmir, ölmək istəyir. Yaşadığı şəhərlə sonuncu dəfə vidalaşmaq üçün evdən çıxır. Bu zaman Fərhadla rastlaşır. Fərhadın yüksək insani keyfiyyətləri onu yenidən həyata bağlayır: «Onu gördükdən sonra ölmək fikrini unutdum. Qərar vermişdim, nə olursa-olsun, savaşacaqdım sonuna qədər: – həm xəstəliklə, həm də ailəmin dağılması nəticəsində ruhumda açılan yaralarla. Ölüm Fərhadın gözlərindən daha gözəl deyildi…».

Yazıçı Fərhad obrazı ilə sübut etməyə çalışır ki, bəli, insanlıq hələ ölməyib, diridir, yaşayır. Ali, müqəddəs hisslər var və olacaq. Fərhadın saflığı, müqəddəs hissləri sayəsində Ləman ölümlə çarpışır və bütün duyduqlarını qələmə alaraq bir roman yazır.

Fərhad əxlaqı, mərdliyi, həssaslığı ilə başqa bir qadını – Mariyanı çirkabdan çıxarır, əxlaqsızlıqdan, sonu fəlakətə söykənən, hər addımı ilə ölümə tərəf gedən yoldan

uzaqlaşdırır. Nəticədə, Mariya Fərhada yaxınlaşdıqca, onun iç dünyasını tanıdıqca özü də təmizlənir, gənc oğlanın gözəl xüsusiyyətlərindən ibrət dərsi alır.

Gənclərimizə məhəbbətin böyüklüyünü, ölməzliyini aşılayan povestdə yaşadığımız cəmiyyətdəki aktual problemlər də öz əksini tapır. Gənclərin bütün dünyanı bürüyən «Ağ ölümlə» dostlaşaraq həyatlarını qaraltması, təhsildən yayınan, İnternet vasitəsilə tanış olduqları oğlanların tələsinə düşərək faciəli sonluqla üzləşən qızların həyatı maraqlı səhnələrlə təsvir olunub.

Kitablara, mütaliəyə olan həvəsin az qala yox olmaq təhlükəsi də günümüzün aktual problemlərindəndir. Gənc müəllifin bu sahədə olan boşluğu doldurmağa cəhd etməsi təqdirəlayiqdir. Maraqlıdır ki, müəllifin qələmə aldığı obrazların əksəriyyəti tariximizi, milli dəyərlərimizi sevə-sevə öyrənən gənclərdir. Küçələrdə veyillənib təhsildən yayınan, meşşan həyat sürən Mariya da artıq dərsdən sonra boş vaxtını kitab mağazasında keçirir: «…Özüm də boş dayanmır, müştəri olmayanda oxuyurdum, eyni ilə Fərhadım kimi. Bu günlərdə Xalid Hüseyninin «Min möhtəşəm Günəş» əsərini oxuyub bitirdim. Orada Nizami Gəncəvi və Saib Təbrizidən sevgi ilə bəhs edildiyini görüb çox sevindim, ancaq əsərin sonunda müəllif Saib Təbrizini fars şairi kimi göstərir. Buna da mən çox pis odum. Əlbəttə, burada yalnız Hüseynini günahlandırmaq düzgün olmazdı. Günah bizdədir ki, öz şairimizi qoruyub, sahiblənə bilməmişik, eyni ilə

torpaqlarımızı qoruya bilmədiyimiz kimi…». Və yaxud: «Həqiqətən də, nə yaxşı ki, kitablar var. Nə zaman dünya dənizində yolumu azsam, dumana-çənə düşsəm, sığınacağım liman olurdu oxuduğum kitablar…». Mariyanın dili ilə verilən bu sözlər gənclərdə kitaba, mütaliəyə həvəs aşılayır. Bu isə, eyni zamanda vətənpərvərliyə çağırışın bir formasıdır və müəllif buna da ustalıqla güzgü tutur.

Əsərdəki maraqlı, müsbət obrazlardan biri də Bəxtiyarın tələbə yoldaşı Beytullahdır. Həm fiziki, həm mənəvi cəhətdən zəif olan Bəxtiyar dostunun köməyi ilə kamilləşir: «Bu həyat bir dərgah, bir məktəbdi, başımıza gələn hadisələr də müəllimlərimiz. Acılarla, əzablarla bişirik. Yoxsa çiy-çiy kimə aşiq deyilər, kimə insan deyilər ki… Aşiq olmaq üçün öncə insan olmaq lazımdı Bəxtiyar. İnsan olmayan birindən aşiq-filan olmaz. Eşq təmiz olduğu üçün kirli qəlblərdə yuva qura bilmir. Təmiz qəlbin sahibi acı çəksə də, əzablarla qovrulsa da, nəticədə bişir, tamamlanır. Vay yarımçıq qalanların, bütövləşmədən köçənlərin halına…».

Hər iki gənc – Fərhad da, Beytullah da mənəviyyatca zəngindirlər. Böyük hind filosofu və müdriki Budda demişdi: «Alov metalları birləşdirir, məqsəd birliyi heyvanları və quşları, qorxu və tamah axmaqları, bircə baxış isə ləyaqətliləri birləşdirmək üçün kifayətdir». Fərhadla Beytullahın dostlaşdığı insanlar da özləri kimi saf qəlbli, həssasdırlar. Bir-birini ilk baxışdan anlayanlarda həmişə ruhi

dinclik bərqərar olur. Elə bir dinclik ki, insanın qəlbi gözəl, zərif duyğularla dolub-daşır, daxilində mənəvi toxluq yaranır. Belə olanda bütün dünya malı, çəkdiyi əzablar, yaşadığı acılar da adiləşir. İnsan özü öz gözündə kiçildikcə, Tanrıya bir o qədər yaxınlaşır, ilahi gözəlliklərə qərq olur. İnsanlara münasibəti, davranışı xeyirxahlıqlarla zənginləşir, ölümə belə qalib gəlir.

Cərrahiyyə əməliyyatına gedərkən Ləman yolüstü məscidə gedir və dua edir ki, əgər ölüm gələcəksə, elə sevdiyi Fərhadın görkəmində gəlsin və canını alsın. Ölümü anbaan yaxınlaşan Ləman çox zaman qorxur, ancaq onun inandığı, güvəndiyi bir yer bu qorxunu onun canından çıxarır: «Bəzən məni qorxu bürüyür – ölüm qorxusu. Təkbaşına, soyuq, qaranlıq məzarda çürüyəcəyini düşünmək kimin qəlbinə qorxu salmaz ki… Ancaq mən məzarda yox, sevdiyimin ürəyində olacam…».

Povestdə təsvir olunan hadisələrdə təbiət təsvirləri də, obrazların danışığı da bədiiliyi ilə seçilir. Bu povesti təhlil etmək fikrindən uzağam. Söz də, fikir də oxucunundur. Bu yazıda sadəcə, gənc yazıçının İnsanlıq və həyat haqqındakı müdrik düşüncələrinə güzgü tutmağa çalışdım. Əsər boyu bir məqsədə daha çox üstünlük verilib: – Şüşədən də nazik olan insan ürəyi ilə oynamaq olmaz, günahdır. Çətində, darda olana kömək əlini uzatmasan, dünya məhv olar. Müqəddəs hisslər, vicdan deyilən bir şey var ki, ondan qaçmaq olmur. Əgər haqsızsansa, heç kim duymadan vicdan sənin öz

ürəyindəcə sənə ən ali məhkəməsini quracaq və sənin iç dünyanı ölümə məhkum edəcək. «Yamanlığa yaxşılıq» hissi hər kəsdə olmasa da, yazıçı bu gözəl və ali duyğunun hamıda olmasını, həyatın çətin anlarında kiməsə əl uzadaraq: «qorxma, yanındayam» deməsini arzulayır və təlqin edir.

Sözlərimi Qədim Yunan filosofu Sokratın fikri ilə tamamlamaq istəyirəm: «Adamlar o qədər əlləşirlər ki, daşı yonub adama oxşatsınlar. Amma fikirləşmirlər ki, özləri daşa oxşamasınlar». Bəli, xeyirxahlıq gözəl nemətdir, qara buludların altından qəfil çıxan Günəşə bənzəyir. Tural Sahab gəncdir, amma insanların iç dünyasına enmək, hisslərini çözmək, psixoloji məqamları ustalıqla qələmə almaqla əks etdirmək qabiliyyəti danılmazdır.

Gənc, istedadlı yazıçı Tural Sahaba daha böyük yaradıcılıq uğurları arzulayıram.

**ÜMBÜLBANU,**
***Azərbaycan Yazıçılar və Azərbaycan Jurnalistlər Birliklərinin üzvü, yazıçı-publisist, «Qızıl qələm» mükafatı laureatı***

## LƏMAN

***Sevilmədən ölən kişilərə və qadınlara həsr olunur...***

Balaca bir şəhərdə dünyaya gəlmişdim. Ömrümün ən gözəl illəri o balaca şəhərdə keçdi. İndi uşaqlıq xatirələrimi düşündükcə bütün dərdlərimi unudur, bir qar dənəsi kimi xoşbəxt oluram. Nə üçün qar dənəsi dedim, bilirsinizmi? Deyilənə görə hər qar dənəsini bir mələk endirir yer üzünə. Onun üçün mən də qar dənəsi kimi xoşbəxt olduğumu deyir, o günləri düşündükcə özümü bir mələyin qollarında hiss edirəm. Əslində, o zaman mənim bir yox, düz iki mələyim vardı - atam və anam. Bu iki insan mənim üzümü güldürmək üçün nələr eləmirdi. Sanki daha sonra yaşayacaqlarımdan xəbərdarmış kimi, indidən sevincli günlərimi yaşadırdılar mənə.

Evimiz həyət evi idi, balaca bir bağçamız vardı. Atam bu balaca bağda bir neçə ağac əkmişdi. Boş qalan yerləri isə anamın gülləri bəzəyirdi. Yaz aylarında bizim bağımız sanki cənnəti xatırladırdı. Yazın əvvələrində ağaclar çiçəkləyir, mənim bu balaca dünyam bəyaza qərq olurdu. Çox sevinirdim bu zamanlar. Atam mənim üçün balaca bir stul düzəltmişdi. Bu stulu istədiyim yerə apara bilirdim. Ağaclar çiçəklədiyi zaman onların altında özümə yer edirdim. Hərdən çiçəklərdən biri ağacdan düşüb saçlarıma qonur, ancaq bu zaman ona toxuna bilirdim. Ağacda olduğu zaman heç bir çiçəyi qoparmırdım, onları incitməkdən qorxurdum. Yazda kəpənək və arılar da qonaq gəlirdi bağçamıza. Arılar yəqin çox uzaqlardan gəlirdi. Bildiyimə görə şəhərdə arı saxlayan bir kimsə yox idi. Kəpənəklər ağaclarımızın başına hərləndikcə elə sevinirdim ki, bu mənzərənin bitməsini heç istəmirdim. Ancaq bitirdi... Gözəl olan hər şey kimi, uşaqlığım kimi....

Ağacların çiçəkləri yavaş-yavaş tökülür və tumurcuqlar əmələ gəlirdi. Bu tumurcuqlar bir neçə aydan sonra çox dadlı meyvələr olacaqdı. Çiçəklər töküldüyü zaman çox üzülürdüm. Bu anlarda atam yanıma gələr, balaca stulumda əyləşər, məni də dizlərinin üzərinə alardı. Başıma sığal çəkər, saçlarımdan öpə-öpə: qızım, inan ki, sənin saçların bu bahardan, çiçəklərdən daha ətirlidir. Mənim gözəl qızım,

üzülmə. Bax, o çiçəklər tökülməsə, ağaclar tumcuqlamaz və bizə dadlı meyvələr verməz. Əziz balam, sən də indi tumurcuq kimisən. Böyüyüb gözəl bir meyvə olacaqsan- deyirdi. Atamın sözləri bütün dərdlərimə dərman kimi gəlirdi o zamanlar. İndi düşünürəm ki, kaş atam sağ olaydı, yenə dərdlərimin başına sığal çəkəydi. Ancaq yox, o, indi qara torpağın altında yatıb. Mən universitetin birinci kursunda oxuyanda, daha doğrusu həmin ilin yayında dünyadan getdi. Çiçəklərdən bir az sonra atam da torpağa düşdü. O zaman çiçəklərin yerə düşməsinə o qədər ağlamışdım ki, sanki onların ağacdan düşməsi atamı məndən almışdı.

Sadə bir insan idi mənim atam. Şəhərimizdə olan zavodların birində işlədi ölənə qədər. Aldığım hər nəfəsi onun qabarlı əllərinə borcluyam. Öləndə elə yaşlı deyildi, qırx beş yaşında əlvida dedi bizlərə. O zamana qədər ölümdən, ölülərdən yaman qorxurdum. Ancaq atam ölən günü bu qorxularım yoxa çıxdı. Onun evimizdə keçirdiyi sonuncu gecədə mən böyüdüm. Sabaha qədər atama sarılıb yatdım. Bəli, mən, məzarlıqdan gündüz vaxtı tək keçməyə qorxan mən, o gecəni bir ölünü qucaqlayıb yatdım. Axı o, mənim atam idi. Ölü də olsa, diri də... O günə qədər elə bilirdim ki,uşaqlar atasız-anasız qalanda ölür. Sən demə, ölmürmüş, sadəcə böyüyür və öz ölümlərini gözləməyə başlayırlar. Mən on doqquz yaşımda idim. O yazdan sonra bir daha bağçamızda ağaclar çiçək açmadı, bir neçə ildən sonra isə tamamilə qurudu. Daha anam da gül əkmirdi bağımıza. Atamın ölümündən sonra anam işləməyə başladı. Sağ olsunlar atamın dostları, elə atamın ömür qoyduğu zavodda anama bir iş tapdılar. Nə qədər dedimsə, anam məni işləməyə qoymadı. Mən oxumalı, təhsilimi başa vurmalı idim. Bu üç ildə anam qocaldı. Anam atamdan beş yaş kiçik idi. Atamın öldüyü zaman anamın qırx yaşı vardı. Ancaq üç il sonra anama baxanlar ona azı altmış yaş verərdilər. Sanki anam ömrünün geri qalanını mənə bağışlamışdı. Onun saçlarına baxanda özümdən utanırdım. Axı, mən niyə izn verdim onun bu hala düşməsinə? Məgər oxumaq, ali təhsil almaq bu qədər vacibdirmi?!

Dördüncü kursun sonları idi. Qiymətlərim əla olduğu üçün dövlət imtahanından azad olunmuşdum. Sadəcə diplom işi

qalırdı üniversitetlə mənim aramda. Onu da yazıb, müdafiə etsəm, bütün əziyyətlər bitəcəkdi. Bir aya yaxın kitabxanalarda axşamladım. İyirmi qəpiklik kökələrlə gün keçirdiyim vaxtlar olurdu. Az qalırdı, dözməliydim, anam üçün dözməliydim. Diplomu alandan sonra bir iş tapacaq, anamı da işləməyə qoymayacaqdım. Heç bir iş olmasa belə, evimizdə uşaq hazırlayar, bir təhər dolanardıq. Ancaq bir ayın içində həyatımı dəyişəcək iki hadisə baş verdi. Diplom rəhbərim cavan bir oğlandı. Yenicə müdafiə eləsə də, çox savadlı olduğundan, özünə hörmət qazanmışdı. Öz biliyi ilə illərin müəllimlərini geridə qoyurdu. Bəxtimdən mən diplom işimi yazanda məni ona tapşırmışdılar. Mövzu onun çox gözəl bildiyi Əhməd Yəsəvinin” Divani- hikmət” əsəri idi. Mövzular paylandığı zaman istər-istəməz ayaqlarım məni Türkologiya kafedrasına gətirmişdi. Buradakı müəllimlər dörd il ərzində mənə çox mehriban davranmışdılar. Əslində tək mənə yox, bütün düşüncəli və yaxşı oxuyan tələbələrə. Beləliklə, Bəxtiyar müəllimlə birlikdə mövzunu öyrənməyə başladım. Diplom işim hazır olana qədər çox əziyyətimi çəkmişdi, ancaq kaş elə bura qədər olaydı bizim dostluğumuz. Diplom işimi müdafiə etdikdən sonra onun əlini sıxaydım, ayrılaydıq. Ancaq olmadı. Hər şey çox gözəl keçmişdi. Piri türküstan olan Yəsəvini elə gözəl anlatmışdım ki, müəllimlər sual verməyə vaxt tapmamışdılar, bir də vaxt bitəndə ayılmışdılar. Çölə çıxanda Bəxtiyar müəllim mənə birlikdə çay içməyi təklif etdi. Təbii ki, sevimli müəllimimin təklifini rədd edə bilməzdim. Üniversitetin həyətindəki ağacların altında əyləşib çayımızı içirdik. Ancaq birdən gözləmədiyim bir şey oldu. Müəllimim məni sevdiyini söylədi. O ana qədər belə bir şeyi heç düşünməmişdim. Ancaq onun sevgi dolu sözləri dodaqlarından ürəyimə axdıqca həyəcanlandığımı, qızardığımı hiss edib, özümü danladım: - “özünə gəl Ləman, sən nə edirsən? İndi elə biləcək ki, onun dərdindən ölürsən”. Ancaq olan olmuşdu. Tək bir sözü ilə, tək bir təklifi ilə “ hə” cavabını almışdı məndən. İnana bilmirdim, bu necə ola bilər axı, mən necə belə tez razı ola bilərdim? Sonralar anladım ki, sən demə mən elə ilk gündən müəllimimi sevirəmmiş. Sadəcə sevginin nə olduğunu bilməyən mən, bu duyğunun adını bilməmişəm. Həm də müəllimim mənə çox əlçatmaz

görünürdü. Beləcə başlamışdı bizim hekayəmiz. Kaş heç başlamayaydı. Nə biləydim ki, müəllimim, sevdiyim adam bir gün məni yarı yolda qoyacaq!

Aradan bir neçə gün keçəndən sonra anam öldü. Ancaq bu dəfə mən böyüмədim, nə də ölümə yaxınlaşmadım. Mən bu dəfə yazıçı oldum. Anamın dəfn işləri bitəndən sonra birinci hekayəmi yazdım. İlk oxucum Bəxtiyar oldu. Çox bəyənmişdi yazımı. Yaza biləcəyimi, sonuna qədər mənə dəstək olacağını söylədi. Beləliklə, ilk hekayəm üniversitetin qəzetində çap olundu. Daha evimizə qayıda bilməzdim. Həm ata-anamın xatirəsi, həm də indi məni buraya bağlayan bir sevdiyim vardı. Bir il - anamın ili çıxana qədər nişanlı qaldıq. Sonra hər gənc qızın xəyalı olan ağ gəlinliyi geyindim. Bir neçə il çox xoşbəxt oldum. Bu zaman ərzində hətta Bəxtiyarın dəstəyi ilə romanımı da yazdım. Ancaq nə biləydim ki, romanda öz taleyimi yazmışam. Həyat romanlara heç bənzəmirmiş. Mənim xərçəng xəstəsi olduğumu öyrəndiyi zaman Bəxtiyarın rəngi ölü rəngi kimi ağardı. Onun bu halını görüb çox üzüldüm. Elə bildim ki, sevdiyinin xəstəliyi onu sarsıdıb. Əməliyyat lazım idi, özü də çox qısa bir zamanda. Yoxsa həyatımı xilas etmək mümkün olmayacaqdı. Ancaq bu əməliyyat mənim qadın gözəlliyimi və ana olmaq arzumu yox edirdi. Bəli, sol döşüm kəsilməli idi. Bax, bunu biləndən sonra Bəxtiyarın mənə olan düşüncələri tamamilə dəyişdi. Bir az keçmədi ki, boşanmaq istədiyini söylədi. Mənim hekayəm burada bitə bilərdi, ancaq bitmədi. Çünki, həyat - biz planlar qurarkən başımıza gələnlərdi. Bəli, bir yay səhərində qərarımı vermişdim, intihar edəcəkdim. Daha başqa yolum qalmamışdı. O məqsədlə də evdən çıxdım. O, qarşıma çıxdı və mən dənizin yaxınlığında olan qayalıqlara deyil, onun balaca, şirin dükanına getdim...

## Fərhad

Onu ilk dəfə bir yay səhərində gördüm. Səhər deyəndə ki, saat təxminən on bir olardı. Yay olsa da, ancaq hava payızdakı kimi soyuq

və kövrəkdi. Bəli, Tanrı bizlərə bu isti yay günündə bir payız havası hədiyyə etmişdi. Dünən istidən qıvrılan yarpaqlar, otlar bu gün üşüyür, payızın gəldiyini düşünərək, öz ölüm nəğmələrini oxumağa hazırlaşırdılar. Havanın sərin olduğunu görüb gəzintiyə çıxmışdım. Mənim üçün tətil deyilən bir söz yoxdu. Demək olar ki, hər gün tezdən oyanır, öz balaca kitab dükanımı açıram. İşə gələrkən yolumun üstündə olan şirniyyat dükanından iki simit alır, dükanımda gözəl bir çay dəmləyib, özümə bir yoldaş da tapıb çayımı içirəm. Kitabların arasında olmaq dünyanı gəzməkdən daha gözəldi. Hər gün yeni kitablar gəlir və mən onlardan birini günəş batana qədər bitirirəm. Dedim axı, o gün onu gördüyüm gün hava sərin idi. Qulaqcıqlarımı taxıb yol gedir, bu hündür binaların yarışdığı şəhərdə toxuna biləcəyim- ruhuma toxunacaq yarpaqlar gəzirdim. Hərdən yağış da çisələyir, küləyin qovduğu damlalar özünü dodaqlarıma vururdu. Asta-asta gedir, tələsmədən bu gözəlliyi ruhuma hopdurmaq istəyirdim. İnsan harasa getməyəndə, tələsməyəndə yerimək də xoşbəxt edir onu. Bəli, mən indi xoşbəxt idim, yəni onda, o gün... Bəs, mən kiməm? Elə qoca deyiləm, cavan da olmadığım kimi. Otuz beş yaşında saqqalı, uzun boylu qadınların yaraşıqlı adlandıracağı bir kişiyəm. Qadınlar üçün yaraşıqlı olsam da, heç vaxt bir qadın mənim üçün gözəl olmadı, olmayacaqdı da... Əgər o gün buludlar günəşin önünü kəsməsəydi. Məndən başqa beş qardaşımın olmağı mənə azad hərəkət etməyə imkan verdi. Atamın hər şeyi vardı, uzun sözün qısası, mənə ehtiyacı yoxdu. Ağlım kəsəndən sonra evdən ayrıldım. Çox oxusam da, ali məktəbə getmədim. Nədənsə diplomdan daha çox kitablar məni özünə çəkdi. Ali məktəbə itirəcəyim zamanı kitab oxumağa sərf etmək istədim. Oxumaq üçün də ən uyğun yer kitab dükanı olacaqdı, həm də insanlardan mümkün qədər uzaq olacaqdım. Bura gələn insanlar da istər- istəməz mənimlə ancaq kitab haqqında danışmalı olacaqdı. Yəni, mən bir növ qadınların və kişilərin ağılsız dediyi o tiplərdənəm.

Saqqalımı isladan yağmur damlalarını silərkən onu gördüm. Bir xeyli aralıdan mənə doğru gəlirdi. Hiss olunurdu ki, o da tələsmədən addımlayır. Uzun qara saçları küləklə oynayır, ona qonaq

gələn yağış damcılarını böyük mehribanlıqla qarşılayırdı. Boyumuz eyni olardı, ancaq məndən gəncdi. İyirmi beş yaşı ancaq olardı. İndi ona yaxınlaşmaq üçün (gözlərini görmək istəyirdim əslində) addımlarımı tez- tez atmağa başlamışdım. İndi tələsirdim, indi xoşbəxt deyildim... ancaq ürəyimə tabe olmuşdum. Bu uzun, sərt adam ilk dəfə öz ürəyinə məğlub olmuşdu. Aradakı məsafə bir neçə addım olardı, ancaq o, məni görmürdü. Onun da qulaqlarında qulaqcıq vardı. Kim bilir, hansı dünyalara səyahət edir, nə düşünür? Bir neçə saniyədə ağlımdan keçənləri çox yox, beş dəqiqə öncə mənə desəydilər gülərdim. İndi isə bir uşaq düşüncəsi ilə onun mənə doğru gəlməsinə izn verdim. Fikirli olduğundan mənimlə toqquşacağını güman etməzdi. Bəlkə də, heç məni görmürdü. Astaca başı çiynimə dəydi. O, mənə toxunmaqla elə bil yuxudan oyandı, mənsə yuxuya-xəyala ayaq basdım. Çox utanmışdı bu səhvi üçün. Dönə-dönə üzr istəyirdi. Yazıq qız bilsə ki, bu oyunu onunla tanış ola bilmək üçün mən etmişəm, yəqin ki, saçıma- saqqalıma baxmadan bir sillə yapışdırardı üzümə. Ancaq bilmirdi və özünü günahkar hiss edirdi. Bu an yağış da daha romantik çisələməyi dayandırdı. Hər ikimizi özündən uzaqlaşdırmağa çalışırdı sanki. Cəsarətimi toplayıb, onu çox da uzaqda olmayan dükanıma dəvət etdim. Həm yağış kəsənə qədər kitablara baxarsan, həm də daha rahat- islanmadan üzr istəyərsən. Axırıncı sözləri deyərkən ikimiz də gülümsədik. Razı olmuşdu. İndi ikimiz də parkdan bir az aralıda olan, doqquzmərtəbəli binanın birinci mərtəbəsində yerləşən dükana doğru tələsirdik. Maraqlıdı, demək insan tələsərkən də xoşbəxt ola bilərmiş. Bunu da indi öyrəndim. Mütləq olan yalnız yaradıcı idi. Geri qalan hər şey dəyişər, bir formadan başqa formaya keçə bilərdi. Məsələn, bayaq insanları özünə çəkən yağış, indi özündən uzaqlaşdırırdı. Ya da ki, mənim düşüncələrim...

Dükandan içəri girəndə ikimiz də xeyli islanmışdıq. Ancaq yağış bu gözəlliyi soldura bilməmişdi. Üz-gözündə, dodaqlarında boya olsaydı indi eybəcər hala salmışdı onu, ancaq üzü bir uşaq üzü kimi təravətli və gözəldi. Yağış dayanmaq istəmirdi. Dayanmasını heç mən də istəmirdim. Yağış dayansa çıxıb

gedəcəkdi. Elə bir şey etməliydim ki, bir az daha qalsın. Getsə belə, yenə gəlsin, onu görə bilim.

Dükana girəndən bəri danışmırdı, ancaq kitablara baxırdı. Yəqin ki, kitabları o da sevir deyə düşündüm. O, kitablara baxarkən mən də çay dəmlədim. Qonağımı çaya dəvət edəcəkdim bir azdan. Artıq bir neçə dəqiqə olardı ki, üzərində gül rəsmlərinin olduğu qalın romana baxırdı. Və birdən qeyri-ixtiyari olaraq..” haçandı bu kitabı oxumaq istəyirəm..” dedi və dərindən nəfəs aldı. Artıq çayı süzdüyümdən onu masaya dəvət etdim. Utana- utana əyləşdi. Çayı dodaqlarına yaxınlaşdırarkən əllərinin əsdiyini gördüm. Bir az sonra yağış dayanmış, o da çayını içmişdi. Qalxmaq üçün ayağa qalxanda, ondan bir dəqiqə gözləməsini xahiş edib, bayaqdan baxdığı o “güllü romanı” ona uzatdım. Nəsə kitabı almaq istəmirdi. Utana- utana “bunun qiyməti çox bahadı, ala bilmərəm” dedi. O an mən də pis oldum. Axı satmaq üçün uzatmamışdım kitabı ona. Əgər hədiyyə etdiyimi söyləsəm, bəlkə qəbul etməyəcək, etsə də utandığından bir daha gəlməyəcəkdi bura. Onun üçün də oxuyub, qaytara biləcəyini söylədim. Buradan istənilən kitabı alıb, oxuya biləcəyini söyləyəndə gözlərinin içinin güldüyü gördüyüm an mənim də, sevgimin də canı cəhənnəmə dedim ürəyimdə. Bir insanın gözlərindəki gülüşün səbəbi olmaqdan daha gözəl nə ola bilərdi. Qapıdan çıxarkən: “adım Elyanoradı” dedi və qaça- qaça uzaqlaşdı məndən.

Geri döndüm, onun çay içdiyi fincana çay süzdüm. Rəflərə yaxınlaşıb, o “güllü roman”dan birini götürdüm və oxumağa başladım. Fincanı dodaqlarıma yaxınlaşdırarkən əlimin əsdiyini gördüm. Bəli, onun toxunduğu bir şeyə toxunarkən mənim də əllərim əsirdi. Çay içdiyim fincana bir az öncə onun dodaqlarının dəydiyini, əlimdəki kitabı indi onun da oxuduğunu düşündükcə ürəyim sanki yerindən çıxacaqdı. Çıxacaq və çox uzaqlara gedəcək deyə qorxurdum.

Bəli, o günə qədər tələsmədən yeriyərdim, səhər simit və çay, sonra oxuduğum bir roman xoşbəxt edə bilirdi məni. Ancaq o gündən sonra hər şey dəyişdi. Axşam evə gələndə ilk işim artıq məndən bir

parça olan saqqallımı qırxmaq oldu. Daha sonra saçımı darayıb, ən gözəl paltarlarımı geyindim və aylardır getmədiyim ailəmin yanına getdim. Məndən ümidlərini kəsdikləri üçün məni itirib- axtarmırdılar. Yenə də hörmət etdikləri üçün seçimlərimə - yaşam tərzimə qarışmırdılar. İndi qapıda məni bu halda- saqqalsız, səliqəli geyimdə görüncə anam, sanki bir an tanımadı məni. Bəli, dəyişmişdim. Buludları günəşin önünə çıxaran Tanrı, mənim qarşıma da Elyanoranı çıxartdı.

***

Bu arada mən də o "güllü romanı" maraqla oxumağa başlamışdım. Romanı gənc yazar xanımlarımızdan biri yazmışdı. Yaşının az olmasına baxmayaraq, çox gözəl yazmışdı əsəri. Təcrübəmə əsaslanaraq deyə bilərdim ki, bu roman heç də dünya klassiklərinin əsərlərindən geri qalmırdı. Bu günə qədər bu yazarı tanımadığım üçün heyfsiləndim. Əsər insanı özünə çəkir, haldan-hala salırdı. İlk cümləsindən neçə dəfə ağladım, güldüm, neçə dəfə ehtiraslandım, xatırlamıram. Bütün insani duyğuları çox təbii şəkildə anlatmışdı. Bir gənc qızın həyatından bəhs edirdi əsəri: - Xərçəng xəstəliyinə tutulmuş cavan bir qız və onu bəladan xilas etməyə çalışan sevgilisi. Özümü gah qızın, gah da oğlanın yerinə qoyurdum. İlk dəfə idi ki, tək - yalnız olduğuma üzüldüm deyəsən. İndi ağır bir xəstəliyə yaxalansam mənim üçün üzüləcək, dua edəcək bir sevdiyim yoxdu. Tək başına öləcəkdim. Gecə boğazım qurusa bir fincan su verən olmaz, susuzluqdan öncə məni kədər boğardı. Və ya o qızın sevgilsinin yerində olsaydım, yəni mənim sevdiyim xərçəng olsaydı, mən nə edərdim? Bu sual məni əməlli-başlı düşündürdü. Bir an gözlərimin önünə Elyanora gəldi. Axı, indiyə qədər nəsə hiss etdiyim tək qadın o idi. Ürəyim yerindən sıçradı elə bil. Mən dayana bilməzdim, sevdiyimin gözlərimin önündə əriməsinə. Qıraqdan baxanda uzun boylu, dəmir iradəli çox güclü görünən mən, o an əslində nə qədər zəif olduğumu anladım. Demək ki, indiyəcən bir yalana hər kəsi inandırmışam, ən başda da özümü. Ailə - uşaq əslində

ən çox istədiyim şeydi, ancaq onlara nəsə olsa, dayana bilməzdim. Uşağım yıxılıb dizi qanasa,o qan ürəyimdən axardı. İndi romandakı o qız üçün gözlərimdən yaş axırdı. Əvvələr bir əsər oxuyanda bərkdən gülməyi, ağlamağı, o əsəri yaşamağı sevirdim. Ancaq nəsə bu əsər fərqli idi. İlk dəfə bir əsər ruhumun dərinliklərinə enməyi bacarmışdı. Yəqin ki, Elyanora da indi eyni hissləri yaşayırdı. "Görəsən sevdiyi varmı?!" düşündüm...

Beş yüz səhifəlik əsəri bir neçə gündə bitirmişdim. Əslində daha öncə, daha tez bitirərdim, ancaq dükana gələn insanlarla da məşğul olmaq lazım idi. Daimi müştərilərim olan gənclər vardı. Kitab almaq üçün gəldikləri zaman birlikdə çay içər, bəzən saatlarla söhbət edərdik. Bu balaca dükan, həm də kitabxana olmuşdu. Gənclərin bura gəlmələrinin bir səbəbi də, demək olar ki, mənim buradakı kitabların hər birinin yazarı haqqında məlumatımın olması idi. İnsan oxuduğu əsərin müəllifini tanıdıqca yazdıqlarını - onun kədərini, sevincini daha yaxşı anlayır. Məsələn: Stendalı tanımadan Julian Soreli necə anlamaq olardı ki?!

Düşünürdüm ki, yəqin Elyanora da kitabı oxuyacaq və geri gətirəcək. Onu yenidən görəcəm deyə az qala həyəcandan öləcəkdim. Hər səhər işə gələndə təraş edir, səliqə ilə ütülənmiş köynəyimi geyib, gözəl ətirlər səpirdim . Görəsən, məni saqqalsız görəndə nə düşünəcək və ya mənim haqqımda nəsə düşünübmü? Vaxt keçdikcə dəli kimi olurdum, ancaq o, gəlmirdi ki, gəlmirdi. Getdikcə ümidimi itirməyə başladım. Əvvəl günlər, sonra həftələr keçdi. Daha gözləmirdim onu, gəlməyəcəyini bilirdim. Yenə əvvəlki halına dönmüşdüm - uzun saqqal, kədərli və ciddi bir mimika. Di gəl ki, daha ruhum əvvəlki deyildi. Elyanora ruhumu bir uşaq ruhuna çevirməyi bacarmışdı.

Aradan bir xeyli keçmişdi. Mənə poçtla bir qutu gəldi. Heç nəyə marağım olmadığından qutunu bir kənara atdım. Daha özümü də, Elyanoranı da unutmuşdum. Unutmadığım bircə dodaqlarımı isladan yağmur, dodaqlarıma dad verən o fincandan çay içməkdi...

Bir gün o qutunu açmalı oldum. Bir də nə görsəm yaxşıdı, o kitab və içində də bir məktub...

“Əziz dostum, o gün gəzmək üçün parka çıxanda səninlə rastlaşdıq. Onu deyim ki, mənə doğru gələn bu yaraşıqlı oğlanın özünü bilərək mənə vurmasından əsəbiləşmədim, hətta xoşuma belə gəldi deyə bilərəm. Onun üçün səninlə dükana gedib, çay içməyə razı oldum. Bir az aralıda həyat yoldaşım maşında məni gözləyirdi. Üzündən kədər yağan bu cavan oğlanı qırmaq istəmədim. İnan ki, evli olmasaydım kitabı sənə özüm qaytarardım. Hə, bir də onu deyim ki, o baxdığım kitabın müəllifi mənəm. Onu imzalayıb sənin üçün geri göndərirəm. Dostum, əmin ol ki, növbəti romanımda Elyanora ilə sənin hekayəni yazacam və bu hekayə gözəl bitəcək. İnşallah qəlbində mənə qarşı kin, nifrət olmaz.....”

Sevgilərlə: Ləman.

Məktubu oxuyub bitirəndən sonra ruhumda bir yüngüllük duydum. Daha acı çəkmirdi qəlbim. Gəlmişdi Elyanora, bəli gəlmişdi...

Yazar dostum növbəti romanında nə yazacaq, bilmirəm, ancaq onun növbəti əsəri mənim ürəyimə sevgini öyrətmək oldu. Daha bu yaraşıqlı oğlan qəlbini qızlardan gizlətməyəcəkdi...

O gün bir dəlilik edəcəkdim. Belə qərara gəldim, ancaq ürəyimin bir yerində nəsə yarımçıqdı, tamamlaya bilmirdim özümü. Üzülmürdüm, lakin sevinmirdim də. Bədbəxt deyildim, ancaq xoşbəxt də ola bilmirdim. Dükanı hər zamankı vaxtından tez bağlayıb, sahilə tərəf getdim. Dükandan metroya çatana qədər iki siqaret yandırdım. Canım acıyanda, siqaretdən doya bilmirdim. Nazik siqaretləri bir-iki dəfə içimə çəkməklə bitirirdim. Di gəl ki, qalınları çəkə bilmədiyimdən yenə naziklərdən çəkirdim. Bilirəm ki, siqaret sağlamlığa ziyandı, insanı xəstələndirir, öldürür. Ancaq onsuz da ölməyəcəyikmi, deyə vecimə almırdım belə sözləri. Mən sağlam ölmək istəmirdim. İkinci siqareti yaxındakı zibil qabına atıb, metroya düşdüm. Hələ axşama xeyli qaldığından, o qədər də sıxlıq deyildi, ancaq oturmadım. Nəsə metroda oturmaqdan xoşum gəlmirdi. Qapıların ağzına yaxın bir yerdə dayanıb, metronun qaranlığın içində “axmasını” izləyirdim. Bir qədər sonra qapılar açıldı və mən çıxış

qapısına doğru addımlamağa başladım. Pilləkənlər məni yuxarıya qaldırarkən, əks tərəfdə geri dönən sevgililərə baxırdım. Bir çoxu tələbələrdi. Necə də xoşbəxt görünürdülər. Sanki bu dünyanın heç bir dərdi yoxdu. Yəqin ki, ayrılıb evə getdikləri zaman da, yataqlarına uzanıb, bir-birilərini düşünəcəkdilər. Bütün bu hisslər mənə indiyə qədər yad idi, ancaq Elyanora məni həyata qaytardı, mənə sevməyi öyrətdi. Kitabın üzərində yazdığına görə onun adı Ləmandı, lakin mən onu Elyanora olaraq sevdim.

Sahilə çatmışdım. Yenidən bir siqaret yandırdım və dənizin üzərindəki qağayılara baxdım. Qağayılar dənizini necə sevirdi! Bax, Elyanora, mən də səni elə sevirəm. Bütün ayrılıqlar sənə gedilən yoldur, əzizim Elyanora. Deyəsən, mən bu günə qədər elə səni gözləmişəm. Ürəyim səni gözlədiyi üçün kimsələrə qapı açmayıb. Ancaq sən evli bir qadınsan. Mənə kiminsə arvadını sevmək yaraşmaz. Səni unutmalıyam, bağışla məni. Unutmaq dedim də... bu an bir qağayı sahildəki qayaların üzərinə qondu. Qanadlarını açıb, bir qədər elə qaldı və yenidən özünü dənizinə doğru atdı. Bu an düşüncələrim ürəyimdə qaldı, eyni ilə sözlərin düyümlənib, boğazımızda qaldığı kimi. Anladım ki, unutmaq deyilən bir şey baş verməyəcək. Deməli, unutmadan, ancaq bacardığım qədər ondan uzaq yaşamalıydım. Ləmanı tapmaq elə də çətin deyildi. İnternetdə kiçik bir araşdırma ilə onu tapmaq olardı, Elyanoranı isə ancaq bu dənizdə, bir də kitabların arasında tapmaq olar. Və mən, Ləmanı yox Elyanoranı sevirəm. Bax, beləcə dolaşırdım sahili o başa- bu başa. Eyni ilə sevdiyindən “ yox” cavabı alan tələbə oğlanlara bənzəyirdim. Dolaşarkən, ətrafda olan gözəl qızların baxışlarını üzərimdə hiss edirdim. Hətta, bəzən söz də atırdılar. Tək olanlar yanımdan utana-utana keçərkən, yanında yoldaşı olanlar nəsə bir söz atırdı. İndi onlardan birinin önünü kəsib, əlimi uzatsam, yəqin ki, heç nə deməsəm belə məni qəbul edərdilər... Allah məni yaraşıqlı yaratmışdı, ancaq yaraşıqlı oğlanların taleyi də, gözəl qızların taleyinə çox bənzəyir. Sahib olmaq istəyən çox olur, ancaq çox vaxt finalda tək qalırlar. Bax, bu ətrafda gördüyüm qızların çoxu məni istəyir, lakin biri də məni sevmir. Məsələn, onlarla gəzsəm, onları öpsəm, çox

xoşbəxt olarlar. Ancaq heç biri ürəyimdən keçənləri duya bilməz. Bunun üçün də, bu günə qədər yalnız qalmışdım, ancaq Elyanoranın xatirəsindən xilas olmaq üçün, bu qızlardan birinə möhtacdım.

Hə, bu gün bir dəlilik etməliydim. Dəlilik etmək üçün də ağıllı insanları seçmək olmaz. Bayaqdan gördüyüm qızların heç biri dəliyə oxşamırdı. Bir xeyli gəzdikdən sonra, nəhayət ki, axtardığım dəlini görmüşdüm. Skamyalardan birində əyləşmişdi. Əlində siqaret, əynində isə dizləri sökük cins şalvar. Hələ ayaqqabılarını heç deməyim- hər ayağında başqa,hərəsi bir cür ayaqqabı vardı... Saçları da necəydi, indi onu sözlə demək olmur. Dodaqlarındakı boya siqareti rəngləmişdi. Klassik bir yolla tanış olmaq qərarına gəldim. Sakitcə onun əyləşdiyi skamyaya yaxınlaşdım və oturdum. Bir qədər sonra bir siqaret çıxarıb, onda alışqan olub-olmadığını soruşdum. Başını qaldırıb gözlərinin ucu ilə məni süzdü. Belə bir yaraşıqlı oğlana yox deməyəcək qədər dəliydi, deyə düşündüm. Yandıran əvəzinə mənə əlindəki siqareti verdi. Siqaretimi yandırdım, ancaq siqaretdə olan dodaq boyası barmaqlarıma bulaşmışdı. Tüstünü ciyərlərimə çəkdim, beş on saniyə içimdə saxladıqdan sonra tüstünü havaya buraxdım. Hələ də mənə baxırdı. Bu zaman dodaq boyasına qərq olan barmaqlarımı, dodaqlarıma yaxınlaşdırdım və gülümsəyərək ona göz vurdum. Ancaq düşündüyüm kimi olmadı. Qız ayağa qalxdı və oradan uzaqlaşmağa başladı. Nəhlət sənə kor şeytan ,axı, bu qız niyə getdi? Normalda, başqa qızlar olsa, indi çoxdan saçlarının qoxusu ilə məni məst eləməyə çalışardılar. Ancaq bu qız getmişdi. Deməli, dəlilik üçün düz insanı seçmişdim. Kənardan tələbəyə oxşayırdı, yaşı elə də çox deyildi. Nəsə, yerimdən qalxıb, onun arxasınca getmək istədim. Elə də etdim. Bir saata yaxın sahildə dolaşdıqdan sonra nəhayət, metroya doğru getdik, o, öndə, mən isə onun arxasınca. Yəqin ki, onu izlədiyimi görürdü, amma yaxşı və ya pis heç bir reaksiya vermirdi. Bu isə, məni daha da maraqlandırırdı. Artıq, qaranlıq qarışmaq üzrə olduğundan içəridə adam çoxdu. Onu itirməmək üçün, lap yaxınına gəldim. İndi nəfəsimi saçlarında hiss edir, yenə də heç bir hərəkət etmirdi. İnsan bir dönüb ya gülümsəyər, ya da acı bir baxışla nəsə deməyə çalışar, deyə ürəyimdən keçirdim. Ancaq mənim dəlim

sakitcə insanların arasından sıyrılıb, vaqona mindi, mən də arxasınca. Oturmağa yer yox idi. Onun üçün qapının yanındakı dəmirdən tutub, ayaq üstə dayandı. Gözəl bir fürsətdi, deyə düşündüm. Onun tutduğu dəmirdən mən də tutdum və yanında dayandım. İndi saçlarının qoxusunu duya bilirdim. Vaqon tərpəndikcə onu mənə yaxınlaşdırırdı. Birdən gözlərim vaqonun pəncərəsinə sataşdı. Sürətlə gedən qatarda sanki bir an Elyanoranı gördüm, mənə baxıb acı-acı gülümsəyirdi. Tez əlimi çəkib, qızın yanından uzaqlaşdım. Mən uzaqlaşarkən, bir an qızla baxışlarımız toqquşdu. Mənə sevgi dolu gözlərlə baxır, baxışları “getmə” deyə yalvarırdı. Ancaq ilk dayanacaqda düşdüm.

Dünənki gündən sonra gecə yaxşı yata bilmədim, ancaq sabaha yaxın gözlərimi bir saatlıq yuma bildim və Günəşin ilk göz vurması ilə də, yataqdan qalxdım. Ancaq yuxusuz qalmağıma baxmayaraq, beş dəqiqə olsa da yatmaq istəmədim. Qalxıb əl-üzümü yudum, bir fincan qəhvə içib dükana doğru yol aldım. Dükandan öncə nəşriyyata gedib, yeni kitablar götürməli idim. Onun üçün də bir az tələsirdim. Yarım saatdan sonra nəşriyyatdan götürdüyüm kitabları taksiyə qoyub dükana gəldim. Dükanın yanında məni sürpriz gözləyirdi. Bir neçə gənc kitab almaq üçün qapının ağzında dayanmışdı. Son zamanlarda belə gənclərin sayı günü- gündən çoxalırdı. Bu da məni çox sevindirirdi. Həm kitab sata bilirdim, həm də savadlı bir gənclik yetişdirdi. Ancaq məni təəccübləndirən bu deyildi. Dünən sahildə arxasınca düşdüyüm və yarı yolda qaçdığım qız da onların içində idi. Bu bir təsadüfmü idi, bilmirəm, lakin bildiyim bir şey varsa, o da bu həyatda təsadüf deyilən şeyin olmadığı idi. Qızı görüncə, bir an utandım, boğazım qurudu. Amma tezliklə özümü toparlayıb, dükanı açdım və onları içəri dəvət etdim. Qız bu vaxt ərzində bir dəfə də olsun başını qaldırıb baxmamışdı mənə. Görəsən, tanımadımı, deyə düşündüm. Lakin elə bir şey mümkün deyildi. Axı, dünən dəfələrlə göz-gözə gəlmişdik. Biz unutsaq da, gözlərimiz bir- birini unuda bilməzdi. Gənclər maraqla rəflərdəki kitablara baxır, sevdikləri kitablardan danışırdılar. Balaca qızın kitab seçməkdə çətinlik çəkməsi gözümdən yayınmamışdı. Bu arada dünənki halından əsər- əlamət yoxdu. O, bu gün “ insana” bənzəyirdi.

Nə üçün etdim, bilmirəm, ancaq ona yaxınlaşaraq Elyanoranın kitabını oxumasını tövsiyə etdim. Heç nə demədən kitab əlində qapıya tərəf gəldi. Kitabın pulunu uzatdı, mən də aldım, ancaq o gedəndən sonra ondan pul aldığım üçün çox peşman olmuşdum. Pulu ödədikdən sonra qapının ağzında bir siqaret çıxartdı. Siqaret dodaqlarına yaraşırdı, nə yalan deyim. Ancaq indi dodaqlarında boya olmadığından, o dünənki romantika yaşanmayacaqdı. Bu dəfə o məndən yandıran istədi. Aman Allah, ürəyimin titrədiyini hiss etdim. Yandıranı çıxarıb, ona uzatdım, sonra daha bir peşmanlıq yaşamamaq üçün özüm yandırdım siqaretini. Tüstünü içinə çəkdi, sonra mənim üzümə üfürərək gülümsədi və oradan uzaqlaşdı...

O getdikdən sonra digərləri də aldıqları kitabların pulunu verib, dükandan çıxdılar. Mən isə özümü çox pis hiss edirdim. Elyanoradan xilas olmaq istəmişdim, bəli... Bəs, indi niyə canım yanırdı axı? Bu balaca qızla xoşbəxt olmaq olardı. Bəs, niyə ona Elyanoranın kitabını verdim? E-e-e-e, axı, Elyanora kimdi? Yoxdu axı, elə biri. Ləman var- evli qadın Ləman. Bu düşüncələr beynimdə savaşarkən, özümdən qorxmağa başladım. Yoxsa, yavaş- yavaş ağlımımı itirirdim?...

Elyanora, axı, sən kimsən? Mən niyə, xilas ola bilmirəm səndən? Sən o yağışlı gündə dodaqlarıma enən bir yağış damcısı idin, ancaq bir damcı yağış dodaqlarımı deşib aşağıya- ürəyimə endi. İndi xilas ola bilmirəm səndən. Yox, ancaq, xilas olmalıyam... Sən yoxsan əslində, bəlkə də varsan. Mən sevgimin adına Elyanora demişdim. Bəs, niyə mənim sevgimin adını sən qoydun... Ləman kimdi, indi haradadı? İlk dəfə bu düşüncələri ağlımdan keçirdim, ancaq onu axtarmağa qorxurdum. Ləman evliydi. İndi yəqin ki, ailəsinin yanında çox xoşbəxtdi. Haqqım yoxdu, kiminsə sevgi dünyasına, xoşbəxtliyinə burnumu soxmağa. Ah, Elyanora niyə mənə bunları etdin? İndi mən səni haralarda axtarım, harada tapım...

Axşama qədər bu halda əyləşdim dükanda. Hərdən bir gələn müştəriləri yola salır, sonra yenə Elyanora adlı qaranlığıma qərq olurdum. Bu gün uzun zamandan sonra ilk dəfə simitlə çay da içmədim. Çayım fincanda yavaşca soyudu, simitləri isə dükanın

qabağındakı pişiklərə atdım. Bir parça çörək üçün  necə sevinirdilər, İlahi. Onları görərkən bir an ağlımdan keçirdim “bəlkə də eşq elə yaşamaqdı, gözəl yaşamaq...”

## Ləman

Fərhad... Fərhaddı adı... Onu gördükdən sonra ölmək fikrini unutdum. Dükanından çıxıb, sakitcə evimizə gəldim, daha doğrusu Bəxtiyarın evinə. Qərar vermişdim, nə olursa, olsun, savaşacaqdım sonuna qədər: - Həm xəstəliklə, həm də ailəmin dağılması nəticəsində ruhumda açılan yaralarla. Ölüm Fərhadın gözlərindən daha gözəl deyildi. Fikirli- fikirli pilləkənləri yuxarı qalxdım. İndi ayaqlarımın üzərindəki ağırlıq onları yorur, haldan salırdı. Birtəhər açarı kilidə yaxınlaşdırıb qapını açdım. İçəri girəndə Bəxtiyarı divanda əyləşən gördüm. Sakitcə oturmuşdu, məni gözləyirdi. Heç nə demədən mən də əyləşdim. Beş-on dəqiqə danışmadıq. Soyuq baxışlarımızı yerə dikib, eləcə qaldıq. Nə danışacaqdıq ki.....” bağışla” - dedi, bağışla. Sonra yenə susdu. İlahi, bu insana necə həsədlə baxırdım tələbəlik illərində. Məndən ötrü əlçaltmaz biri idi. İndi isə gözlərimdən düşən- xəstə arvadını atan bir əclaf olmuşdu. Artıq bu sükutda boğulmaq istəmədiyimdən mən sözə başladım:

- Yaxşı, boşanaq, Bəxtiyar. Sənə heç bir problem yaratmayacam. Bundan sonra fikrini dəyişsən, belə sənin kimi biri ilə yaşaya bilmərəm. Sən xəstə arvadını atacaq qədər əclafın birisən. Heyif, səninlə keçirdiyim günlərə, heyif sevgimə...

- Ləman....
- Sus, heç nə demə, daha səni eşitmək istəmirəm. Bəxtiyar, mən ata-anamdan sonra səni sevmiş, səni onların yerinə qoymuşdum. Axı, niyə bu qədər zəif oldun sən? Vallah, sənə deməyə söz tapa bilmirəm.
- Ləman, inan ki, belə olmasını mən də istəməzdim, ancaq bacara bilmərəm. Mən xəstə biri ilə həyatımı keçirə bilmərəm. Həm də ki, xəstəliyin olmasa belə səninlə ayrılmağı düşünürdüm.
- Nəəəəəə?

- Bəli, Ləman bir neçə aydır mən başqasını sevirəm. Bağışla, istəməzdim bu hekayə belə bitsin, ancaq çox vaxt istəmədiyimiz şeyləri etmirikmi?
- Bəxtiyar, sənin ürəyindəki sevgi ola bilməz, özünü aldatma. Sevgi saf, təmiz duyğudu, səninki kimi, pas tutmuş bir ürəkdə yaşaya bilməz.
- Sus, Ləman təhqir etmə məni. Onsuz da canım yanır...
- Sənin canın var ki?... Canın cəhənnəmə...
- Ləman...
- .....

Elə o gün əşiyalarımı yığdım, o evdən ayrıldım. Çıxarkən Bəxtiyarın üzündə ən kiçik bir peşmanlıq hissi görmədim. Müvəqqəti olaraq rəfiqələrimin birinin yanında qalacaqdım. Boşanma, əməliyyat deyərkən nələr olacaqdı, bilmirdim. Bildiyim tək şey, məni çox çətin günlərin gözlədiyi idi.

Rəfiqəmin evinə əşiyalarımı qoyandan sonra şəhərə gəzməyə çıxdım. Artıq, Günəş dağlara çatmaq üzrə idi. İndi bir az sərinlik çökmüşdü şəhərimizin üstünə. Bir qədər dolaşandan sonra ayaqlarım məni Fərhadla qarşılaşdığımız o parka gətirdi. Skamyalardan birinə əyləşib, doyunca ağlamaq istəyirdim. Həyatım birdən-birə necə məhv olmuş, uşaqlığımın o gözəl günləri bir yaz yağışı kimi gəlib keçmişdi...

Sabah-sabah güclü külək vardı, şəhərdə- yarpaqları ağaclardan qoparan, yaraşıqlı oğlanların saçları ilə oynayan bir külək. Külək bəlkə yenə yağış gətirər deyə düşünürdü. Ancaq külək olsa da göyün üzü açıqdı, yağışın yağması heç ağla batan görsənmirdi. Saat 11: 00-da olacaqdı məhkəmə. Ona kimi şəhərdi dolaşmaq, başını qatmaq istəyirdi. Bir az sonra bitəcəkdi evliliyi. Çox maraqlıdır, bir ömür birlikdə yaşlanacağın insanla yollarının heç gözləmədiyin yerdə, bir binada, tanımadığın insanların arasında bitməsi... yəqin ki, elə həyat budur. Soyuq məhkəmə otaqları neçə sevgilərə məzar olmuşdu. Hər

zaman baş çəkdiyi bir kafe vardı. Yavaş- yavaş ora doğru gəlirdi. Külək sanki uzaqlardan, yaxınlardan bütün yaşadıqlarını onun üzünə vurur, ruhunu çıxarıb aparmaq istəyirdi. Beş dəqiqədən sonra kafeyə çatdı. Sakitcə keçib boş masalardan birinə yaxınlaşdı. Buranın işçiləri onu çox gözəl tanıyırdı. Hər zaman bura gələndə onlarla çox gözəl, səmimi söhbətlər edir, gülər üzü ilə insanların sevgisini qazanırdı. İçində qoz ləpəsi olan bir kökədən sifariş verirdi həmişə. Səliqə ilə doğranmış  kökə və bir fincan çay. Bu gün də elə oldu. O, heç nə demədən sifarişini gətirdilər. Çayın içinə iki ədəd qənd atıb, uzun müddət qarışdırdı. Fincandakı çay qarışarkən, onun düşüncələri də keçmişi ilə gələcəyi arasında gedib- gəlirdi. Nəhayət pəncərədən çölə baxa-baxa çayını içdi, kökəsini yedi. Ən çətin anlarında belə sevdiyi şeylərdən vaz keçmirdi. Çünki, o, mübariz bir qadındı. Savaşmağı da ən azı, yaşamağı sevdiyi qədər sevirdi. Birdən saatına baxdı. Məhkəmənin başlamasına bir saatdan da az vaxt qalırdı. Səksən qəpik edirdi hesabı həmişə- otuz qəpik çay, əlli qəpik də kökə. Onun üçün də kimsəni narahat etmədən pulu masanın üzərinə qoyub, çölə çıxdı. Məhkəmənin keçiriləcəyi bina buradan çox da uzaqda yerləşmirdi. Piyada getsə on- on beş dəqiqəyə çatacaqdı. Onun üçün yeriməyi seçdi. Qulaqcıqlarını taxıb, sevdiyi mahnılardan birini dinləyə-dinləyə başladı addımlamağa...

Salonda Bəxtiyar və ondan başqa sadəcə məhkəmənin işçiləri vardı. Kimsə gəlməmişdi onların bu bədbəxt günlərinə şahid olmağa. Bir an toylarını düşündü. Nə qədər adam gəlmişdi. Nədənsə, onda deyil də, bax indi - bu məhkəmə salonunda o zamanki insanların səmimiyyətdən kənar olduğunu anladı. Bəy-gəlin masasının yanında şəkil çəkdirməyə gələn yekə-yekə kişilər, üzləri boyadan görünməyən qadınlar... Hamı, hər şey gözləri önündən keçirdi. İndi onların üzlərindəki təbəssümdən də diksinirdi. Onu xəyallarından hakimin sözləri ayırdı. Hakim, “nə üçün boşanırsınız”- deyə bir sual vermişdi. Kaş Bəxtiyar bir az kişi olaydı və düzünü deyəydi, ancaq hardadı onda o kişilik. Bəxtiyar sakit səslə - dolana bilmirik, fikirlərimiz üst-üstə düşmür – dedi. O, bu sözləri deyərkən, Ləmanın dodaqlarında acı bir təbəssüm əmələ gəlsə də, heç nə demədi və Bəxtiyarın dediklərini

təsdiqlədi. Hətta bir az daha irəli gedərək – başqa birini sevdiyini, daha Bəxtiyarla yaşamaq istəmədiyini dedi. Bir qədər sükut çökdü salona. O, bu sözləri deyərkən Bəxtiyar qıpqırmızı qızarmışdı. Bir az sonra hakim qərarını oxudu. Hər iki tərəf razı olduğu üçün, məsələ çox uzanmadı, bitdi - boşandılar. Bir ömür sürəcək dedikləri sevgiləri bitmişdi. Bəxtiyar heç nə demədən salonu tərk etdi. Ləman isə bir müddət orada qaldı, qalxa bilmədi əyləşdiyi oturacaqdan. Nədənsə dağılan ailəsini yox, Fərhadı düşünürdü. Fərhadın gözlərini xatırlamağa çalışır, beləliklə dərdlərindən uzaqlaşırdı. Sonra ayağa qalxdı və salonu tərk etdi. Çıxarkən bir an kitab dükanına tərəf getmək istədi və getdi də. Bu qərarı bax, elə indicə vermişdi. Gedəcək və ona hər şeyi danışacaqdı. Bir neçə dəqiqə öncə ağlında belə bir düşüncə yox idi. Nədənsə, qəlbi həyəcanla döyünməyə başladı, ancaq bu həyəcan çox çəkmədi. Sol döşündən tutan sancı ona həyatı, xəstəliyini xatırlatdı. Bir qədər dayanıb nəfəs aldı, sonra yenidən yoluna davam etdi. Məhkəmə bir saatdan çox çəkməmişdi...

Dükanda əyləşib kitab oxuyurdu. Saçları bir az da uzanmışdı, keçən dəfə gördüyümdən bəri. Yenə saqqalı vardı- çox da uzun olmayan bir saqqal. Saçı, saqqalı ona çox yaraşırdı. Saçlarını səliqə ilə yığıb, arxadan bağlamşdı. Beləcə bir müddət onu seyr etdim. Deyəsən oxuduğu kitabın içində dərin bir yolculuğa çıxmışdı. Arabir önündəki fincanı dodaqlarına yaxınlaşdırır, bir udum içidikdən sonra yerinə qoyurdu. Onu gördükdən sonra bütün acılarım dinmişdi. Sanki bir az öncə məhkəmədə ailəsi dağılan, ağır bir xəstəlikdən əzab çəkən adam deyildim. Bir ömür beləcə ona baxaraq keçirsəydim, inanın ki, yorulmazdım. Ancaq qapının önündə çox dayana bilməzdim və dayanmadım da. Sakitcə içəriyə daxil oldum. Məni hələ də görməmişdi. Bunun üçün də düz keçib qarşısında əyləşdim. Birdən başını qaldırıb, məni gördü. Gözlərinə inana bilmirdi. Bunu baxışlarından oxuya bilirdim. “Elyanora”- dedi və susdu. Daha başqa söz deyə bilmədi. Gözlərindən saqqalına doğru yaşlar axırdı. Onu belə görəndə ürəyim parçalandı. Fərhad ağlayırdı, ancaq kişi kimi... Kişi kimi ağlamaq necə olur bilirsinizmi, sadəcə gözlərdən yaş süzülür. Ah-uf, fəryad etmədən... Bax, Fərhadım da bu cür ağlayırdı.

Gözlərindən yaş axa- axa mənə baxıb gülümsündü. İlahi, insan ağlarkən, gülə bilərdimi? O, gülərək ağlayırdı. Daha artıq dayana bilməyib, ayağa qalxdım. Ona yaxınlaşarkən ürəyim az qala sinəmdən çölə çıxacaqdı. Yaxınlaşdım əllərimi üzünə tərəf apardım. Göz yaşları öpmüşdü barmaqlarımdan. Daha gözlərindən yaş axmadı. Ayağa qalxdı və mənə sarıldı. Uzun zaman eləcə də qaldıq. Bu dəfə mən ağlayırdım. Fərhad öz Elyanorasına qovuşmuşdu. Bir qədər sakitləşəndən sonra ilk görüşdə olduğu kimi çay dəmlədi. Fincanları doldurub masanın üzərinə qoydu. Bir müddət hər ikimiz susduq. İndi heç birimizin danışmağa taqətimiz qalmamışdı. Sadəcə gözlərimiz ayrılmırdı bir-birindən. Nələr oxuyurdum, nələr bu nəmli gözlərdən. O zaman anladım ki, Fərhad Elyanoradan ibarətdir. İlk gördüyümdə, o yaraşıqlı oğlan Fərhaddı. İndi isə ondan əsər-əlamət qalmamışdı. Baxışları Elyanora olmuşdu, sözü, söhbəti, aldığı hər nəfəsi Elyanora idi. Bir an öz uydurduğum yalanı qısqandım. Mən Ləmandım, ancaq O, Elyanorasını sevirdi. Nə edəcəyimi bilmirdim. O qədər gözəl baxırdı ki, mənə. Hər şeyi unudur, heç nə düşünmək istəmirdim. İndi buradaydım və onunla eyni otaqda nəfəs alırdım. Bu, bütöv bir ömrə dəyərdi. O an xəstə olduğuma, bəlkə də çox yaxında öləcəyimə daha üzülmürdüm. Nə idi həyat, yaşamaq... Nə idi eşq? Eşq elə yaşamaqdı, gözəl yaşamaq. Həyat isə gözəl anların, günlərin cəmiydi. Bəzən bir an üçün ömür fəda edilməzdimi, bir an bütöv ömrə dəyməzdimi? Bax indi mənim ömrə dəyən, ölümə meydan oxuyan bir anım vardı...

Başıma gələn hər şeyi tək-tək danışdım. İstəmirdim məni bir yalan olaraq xatırlasın, bilsin. Bəli, bu gün mən Fərhadın Elyanorasını öldürdüm və xəstə Ləmanla tanış etdim onu. Bütün düşüncələri alt-üst olmuşdu. Heç nə deyə bilmirdi, ancaq baxışlarından anlayırdım ki, çox üzülür... Ən çox da Bəxtiyarın mənə elədiklərinə əsəbiləşdi. O an yanında olsaydı, onu cücə kimi boğardı. Mənim dərdlərim belini bükmüşdü sağlam bədənli, bu gənc oğlanın. Daha nələrdən danışdıq xatırlamıram, ancaq onu bilirəm ki, Günəş batana qədər orada qaldım. Sabah bu şəhərdən gedəcəyimi deyəndə, mənimlə getmək istədiyini söylədi. Xəstə-xəstə məni tək buraxa bilməzdi. Narahat olmağıma heç bir səbəb yox idi. Məni evimizə yerləşdirdikdən sonra evin

yaxınlığında qalmağa bir yer tapacaqdı özünə. Təki mənə yaxın olsun, nəsə bir ehtiyacım olsa, köməyimə çata bilsin. Onunla razılaşmamaq olmazdı. Düzü, təklikdən qorxurdum. Xəstə- xəstə orada başıma bir iş gəlsə, axırım necə olardı. İki həftə qalacaqdım evimizdə. İki həftədən sonra bir dəfə daha yoxlanılacaq və böyük ehtimalla əməliyyat olunacaqdım. Bilmirdim, bəlkə də sağ çıxa bilməyəcəkdim bu əməliyyatdan. Onun üçün də bu iki həftəni evimizdə, ata-anamın xatirəsi ilə keçirmək istəyirdim. Beləliklə, sağollaşıb oradan ayrıldım. Hazırlaşmalıydım, sabah tezdən yola çıxacaqdıq. Ünvanımı verdim, saat səkkizdə binanın qarşısından öz maşını ilə məni götürəcəkdi.

Dükandan çıxıb, rəfiqəmin evinə doğru gedərəkən bu böyük ürəkli adamı mənim qarşıma çıxardığı üçün, Tanrıma təşəkkürümü bildirirdim. Bir gecənin içində bütün həyatını alt-üst edib, işini-gücünü atıb, iki həftəlik mənimlə gedəcəkdi. Bir an belə düşünmədən... Həmişə pis insanları tanıdıqca: – Allahım, mən nə etmişdim ki, bunları mənim qarşıma çıxarmısan – deyirdim. Bu dəfə, daha o sualı vermədim. Çünki, Fərhad kimi bir insana özümü layiq bilmirdim.

Səhəri gün tezdən maşınla həyətdə məni gözləyirdi. Gecə bir anlıq da olsa, tərəddüd etmişdim ki, birdən fikrindən daşınar, bu dəlilikdən əl çəkər, ancaq olmamışdı. O, indi həyətdə məni gözləyirdi. Çantalarımı rəfiqəmlə birlikdə həyətə düşürüb, maşına qoyduq. Belәlliklə, bizim yolculuğumuz başladı. 350 kilometrlik bir yolumuz vardı. Yol üçün su və başqa qidalar belə hazırlamışdı. Şəhərdən çıxandan sonra, aşağı səsdə bir mahnı da oxuyurdu maşınımızda. Kədərli bir sevgi mahnısı idi. Onun üçün, ikimiz də göz yaşlarımıza əngəl ola bilmədik. Maşın sürətlə irəliləyir, binaları, maşınları geridə qoyurdu. Biz isə sanki itirdiklərimiz üçün ağlayırdıq. Birdən " səni çox sevirəm Elyanora" – dedi və susdu. Bir daha da yol boyunca danışmadı. Demək olar ki, bir saatdan bir maşını saxlayır, nəsə bir ehtiyacım varsa yerinə yetirməyimi istəyirdi. Mənsə, hər dəfə maşından düşüb bir az hərlənir, təmiz hava alırdım. Yaman çox siqaret çəkirdi. Hər dəfə maşını saxlayanda iki siqaret yandırıb,

tüstünü ciyərlərinə acgözlüklə çəkirdi. Bilmirəm, daha öncələr də beləydimi...

Deyəsən, saat dörd idi. Nəhayət ki, maşın gəlib, həyətimizin yanında dayandı. Ata ocağım məni yaman soyuq qarşıladı. Ot basmış həyətimiz kövrəldi məni görüncə... Mən qapıdan içəri keçən kimi yağış yağmağa başladı. Bu balaca şəhərimiz dağlara yaxın olduğundan, yay da olsa, tez-tez yağardı yağışlar. İçəriyə keçmədən qapıda olan skamyada əyləşib yağışı izləyirdik. Küləksiz, sakit bir yağışdı. Leysan deyildi, ancaq elə zəif də yağmırdı. Romantik bir yağış yağırdı. İndi sevgili olmaq vardı, məsələn iyirmi yaşlarında. Belə yağışlı bir havada, gözdən uzaq bir parkda görüşə çıxardıq. Sonra yağış isladardı məni. Sevdiyim də pencəyini çıxarıb mənə verə... Mən belə xəyallar quracaq yaşı çoxdan keçmişdim. Fərhad hələ də danışmırdı. Sonra özüm ona kiçik suallar verərək danışmağa məcbur etdim. Beş-on dəqiqədən sonra yağış kəsmişdi. Qapını açıb içəri keçdim. O, gəlmədi, qalmaq üçün bir yer tapmalıydı. Çantalarımı maşından gətirib, evə qoyduqdan sonra getdi.

Darvazadan çıxandan sonra qapını arxadan bağlayıb, evimizə girdim. Çox yorulmuşdum. Anamın yatdığı yatağa yaxınlaşıb, üzü üstə yerə yıxıldım. Yataqdan anamın qoxusu gəlirdi... "ana"- dedim və bərkdən ağladım. Bir zamanlar anamın başını qoyduğu yastıqda göz yaşlarımda boğula-boğula yuxuya getdim. Yuxuda yenə uşaqdım, yaz fəsli idi deyəsən. Həyətimizdə olan ağaclar da çiçəkləmişdi. Mənsə o yan-bu yana qaçır, ağaclardan düşən çiçəklərlə oynayırdım...

## Mariya

Adım Mariyadı. İyirmi yaşım var. Ali məktəblərin birində təhsil alıram. İstər- istəməz mən də bu hekayəyə daxil olmalı oldum və mənə elə gəlir ki, xoşbəxtliyimi tapa biləcəm.

O gün sahildə qarşıma çıxdı Fərhad. Bir dəfə bütün həyatım dəyişmişdi. Öncəliklə, adımla bağlı onu deyim ki, atam uzun illər xarici ölkələrin birində işləyib. Mən dünyaya gələndə də ilk

məhəbbətinin adını mənə qoydu, yoxsa mən də sizin kimi bu millətin bir fərdiyəm. Adımın Mariya olması mənə qarşı yanlış fikirlər yaratmasın sizdə. Həyatımı iki yerə bölsək- Fərhaddan öncə və sonra... Öncəki dumanın, çiskinin içində idi, siqaret dumanında boğulurdum. Yanlış insanlarla, yanlış yollar sonumu hazırlayırdı...

Son zamanlarda bir qrup gənc peyda olmuşdu ölkədə. Bunlar özlərini hamıdan ağıllı hesab edir, heç bir dəyəri qəbul etmirdilər. Özlərini dünya vətəndaşı adlandırır, boyunlarından xaç asır, islam dinini söyürdülər. Nə yazıq ki, yaşım az olduğundan bu insanların təsirinə çox tez düşdüm. Özümə gələndə əlimdə siqaret, kitab klublarında gecələyən gördüm özümü. Kitab klubu dedim, də səhv başa düşməyin, bu yerlərdə kitab oxumaqdan başqa hər şey edirdik. Axı, biz hamıdan ağıllı idik. Digər gəncləri də, bu azadlıqla tanış etməliydik. Beləliklə, sosial şəbəkələrdə " cəsarətli" statuslar yazıb, gəncləri öz ətrafımıza toplayırdıq. Gənc oğlanlar, qızlar bizə qoşulur " azadlığı" iliklərinə qədər yaşayırdılar. Bu azadlıq əsasən seksual azadlıq, içki içmək, siqaret, hə, bir də kitablarla şəkil çəkdirib, paylaşmaqdan ibarət olurdu çox vaxt. Qısa zamanda mən bu azad gənclərin ən fəallarından olmuşdum. Onlarla olduğum zamanlarda neçə oğlanla sevgili oldum, heç özüm də bilmirəm... O zamanlar bütün bunlar mənə yanlış gəlmirdi. Özüm bunları yaşayır, gənclərə də təbliğ edirdim. Əməlli-başlı siqaret çəkən olmuşdum. Gündə bir paket bəzən bəs etmirdi. Ucuz çay evlərində içilən pivələrin isə sayı-hesabı yox idi... Bütün bunlar o günə qədər davam etdi. Deyəsən, sahildəki skamyaların birində əyləşib kitab oxuyurdum, elə onda onunla tanışlığımız başladı. İlk görüşdə bu yaraşıqlı oğlana vurulmuşdum. Fərhad, tanıdığım, gəzdiyim azad düşüncəli gənclərin heç birinə bənzəmirdi. Onun üzündə əsl kişilərə xas cizgilər vardı. Düzdü, o da saçlarını uzatmış, müasir görünüşlü bir gəncə bənzəyirdi, ancaq o, kişi idi. Onu görəndən sonra, ətrafımda gəzən kişiciklər gözümdən düşdü.

Fərhad mənə yaxınlaşanda çox həyəcanlı idim. Həyəcandan ürəyimin sinəmdən qaçacağını düşünmüşdüm o gün. Məni izlədiyi üçün, mən də naz edirdim. Və ilk dəfə birinə naz etmək bu qədər xoşuma gəlirdi. Ancaq birdən-birə metrodan enib, insanların

arasında yox olmağa çalışdı. İndi naz etməyin yeri deyildi daha. Onu izləməsəm, bəlkə də bir daha görə bilməyəcəkdim. Onun üçün mən də özümü onun arxasınca vaqondan çölə atdım və onu izlədim. Bəlkə ilk dəfə idi ki, bu şəhərdə bir qız hansısa oğlanın arxasınca düşmüşdü. Ancaq olsun, heç nə vecimə deyildi. Əvvəlcədən danışdıqlarımdan da anlamısınız ki, insanların nə dediyi, nə düşündüyü zərrə qədər vecimə deyildi. Onun üçün də onu izlədim və işlədiyi yeri öyrəndim. O gecə güclə yatdım, bəlkə də heç yata bilmədim... Səhər açılan kimi tanış uşaqlardan bir-ikisini başıma yığıb dükana, kitab almağa gəldim. Onu ikinci dəfə görəndə yəqin ki, çox təəccübləndi. Yəqin, bunun xoş bir təsadüf olduğunu düşündü. Yoxsa hardan biləydi ki, bu dəli onu addımbaaddım izləyib. Onun dükanından ilk kitabı elə Fərhadın tövsiyəsi ilə aldım.

Onu yaxından görmək, onunla danışmaq elə gözəldi ki... Məni sahildə gördüyü kimi yox, əynimdəki qəribə paltarları dəyişib, gəlmişdim bu səfər. İstəmirdim məni bir daha elə görsün. İlk dəfə qadın olduğumu, sevmək istədiyimi hiss etdim. Bütün kirli düşüncələr silinmişdi beynimdən. İndi sadəcə sevmək, sevmək istəyirdim. Eşqi iliklərimə qədər yaşayacaqdım. İndiyə qədər qısqanclığa qarşı idim. Normal, ağıllı insan da qısqanarmı deyə, indiyədək nə qədər statuslar paylaşmış, neçə- neçə adamlarla mübahisə etmişdim. Ancaq indi, Fərhadı qısqanmağa başladım. Görəsən bir sevdiyi varmı həyatında? Yəqin ki, olmamış olmaz. Belə yaraşıqlı oğlanın həyatında mütləq onu sevən bir qadını olmalı idi. Bir an o qadının saçını yolmaq keçdi ürəyimdən. Bu düşüncələrlə oradan ayrıldım. Bir də Fərhadı uzun zaman görə bilməyəcəkdim...

Sadəcə iki dəfə gördüyüm bu adam, həyatımı elə dəyişmişdi ki, təsəvvür edə bilməzsiniz. İlk günlərdə siqareti atdım. Bir sabah güzgüdə özümə, dodaqlarıma baxarkən nədənsə bu zəhəri yaraşdırmadım bu gözəl dodaqlara. Bir az özümə fikir versəm, çox gözəl bir qız olardım. “Qadınlar sevildiyi zaman gözəlləşir” - demişdi şair. İndi mənim ürəyimə bahar kimi gəlmişdi sevda və mən dəyişməli idim, dəyişməyə məcburdum... Samir adlı birlikdə gəzdiyim bir oğlan vardı. O zamanlar xoşuma gəlsə də, indi Samirin nə qədər əclaf, alçaq

biri olduğunu anlayırdım. Neçə-neçə qızın həyatını məhv etmişdi, öz " azadlıq" düşüncəsi ilə. Onlardan biri də mən idim. Ancaq pis-yaxşı sevgili idik- sevgisiz sevgili. İndi mən aşiq olmuşdum və ondan xilas olmalı idim. Bu, ilk baxışda o qədər də asan görünmürdü. Elə bir bataqlığın içində idim ki, oradan xilas olmaq üçün uzun müddət çırpınmalıydım. Bir əl uzanmışdı mənə, o əli tutacaq və bu bataqlıqdan xilas olacaqdım. Bu əl, Fərhada olan sevgim idi. Son zamanlarda Samirlə az-az danışır, mesajlarına bəzən cavab vermirdim. İlk günlərdə bu onu elə də çox narahat etmirdi. Bəlkə də ona xeyir eləyirdi. Mən yazmadığım zamanlarda inetrnetdə qızlarla yazışır, öz bataqlığına yeni qurbanlar çəkmək istəyirdi. Lakin bu hal çox da davam etmədi. Bir müddətdən sonra mənim onu atmaq istədiyimi anladı. Məni itirməmək üçün hər şey edirdi. Ən böyük bəhanəsi, bizim bu düşüncə ilə, başqa bir həyat yaşaya bilməyəcəyimizdi. Bəlkə də haqlı idi. Bu qədər qələtlər elədikdən sonra normal insanların içində hansı üzlə yaşaya biləcəkdik ki? Ancaq mən qərarımı vermişdim. Mütləq bu bataqlıqdan xilas olmalıydım. Samirin hərəkətləri son zamanlarda məni qorxutmağa başlamışdı. Məni açıqca təhdid edirdi. Ancaq günlərin birində bu dərddən tamamilə xilas oldum. Yəqin ki, bu Tanrımın mənə açdığı bir qapı idi və o qapıdan içəri girdim...

Samir elə öz bataqlığında boğulub məhv oldu. O, əsas " düşüncə" düşmənlərindən olan birinin əlində cəhənnəmə yuvarlandı. İlkay adında millətçi bir gənclə uzun zamandı ki, münasibətləri qaydasında deyildi. Samirin azad düşüncələri, İlkayın müqəddəslərinə dil uzadırdı. İlkay savadlı bir gəncdi. Yazı yazmağı da, savaşmağı da bacarırdı. Hələlik onun silahı qələmi olduğundan, bir çox yazılar yazırdı. Bu millətin gənclərinin belə axmaq düşüncələrin arxasınca gedib məhv olmağını istəmirdi. O, yaxşı anlayırdı ki, ancaq milli düşüncəli gənclərlə millətin gələcəyini xilas etmək olar. Onun bu hərəkətləri, düşüncələri Samiri getdikcə daha çox qıcıqlandırırdı. Demək olar ki, Samirin murdar düşüncələrinin qarşısını bir sədd kimi kəsirdi, İlkayın mərd, milli düşüncəsi. Ona görə də İlkayı məhv etmək fikrinə düşdü. Bunun ən gözəl yolu isə İlkayın birinci kursda oxuyan

bacısını yoldan çıxarmaqdı. Beləliklə, saxta bir profillə qıza yazmağa başladı. Ancaq işlər bu dəfə onun istədiyi kimi getmədi. Qız öz qardaşına onu bir nəfərin narahat etdiyini söyləmişdi. Görüş yerinə qız yox, İlkay gəldi və orada Samiri kimsə onun əlindən ala bilmədi. Boğazından yapışmışdı tək əli ilə və sona qədər də onun əlini Samirin boğazından ayıra bilmədilər. Bir az sonra şəhərin kənarındakı parkda üzərinə qəzetlər salınmış bir cəsəd yatırdı...

Hə, Samir adlı dərdim bitəndən sonra digər uşaqlarla da əlaqəni təmiz kəsdim. Özümü daxilən o qədər kirli hesab edirdim ki, uzun müddət təmizlənə biləcəyimə inanmırdım. Bəzən güzgüdə özümə baxanda, diksinirdim qarşımda gördüyüm insandan, yəni özümdən. Günlərcə ağladım, hərdən elə olurdu yatağımdan çıxmırdım. Bu qədər çirkli günlərin arasından bir günəş də doğmaq istəyirdi hərdən. Bu günəş, Fərhada olan təmiz sevgim idi. Bu sevgi məni xilas edə biləcəkdimi, bilmirdim... İnsan görəsən keçmişindən xilas olmağı bacarırmı, etdiyi yanlışlıqları bir kənara atıb, yaşaya bilirmi... Heç nə bilmədən belə anlarda, ancaq Fərhadı, onun gözlərini düşünürdüm. Nə olsa, olsun. İndi məni xoşbəxt edən şey, onu düşünməksə, niyə də düşünməyim? Saçları necə də gözəldi. Bir kişiyə uzun saç bu qədərmi yaraşarmı, ilahi?!

Bir neçə gündən sonra özümdə güc tapıb, yenidən onun dükanına getdim. Bu dəfə saat on bir olardı. Ancaq ora çatanda özlüyümdə qurduğum xəyallar çilik-çilik oldu. Dükanın qapıları bağlı idi. Ətrafdakı dükanlarda işləyənlər mənim gözlədiyimi görüb, Fərhadın bir müddət burada olmayacağını söylədilər. Elə bil ki, qolum sınıb, yanıma düşdü, ayaqlarımın mənə gücü çatmırdı. Birtəhər yaxınlıqdakı parka gedib skamyaların birində əyləşdim. Əvvəllər olsa, mütləq bir siqaret yandırmışdım. Ancaq siqaret düşünən kimi Fərhadın gözlərini xatırlayır, bu arzumu yox edirdim. Bir neçə saat səssizcə oradaca əyləşdim. Sonra ayağa qalxıb, evə doğru getməyə başladım. Yol boyunca o tərəf- bu tərəfə gedən insanların üzlərinə baxır, gözlərindən həyatlarını oxumağa çalışırdım. Sevən insanları gözlərindən tanımaq olurdu, hər kimin ürəyinə eşq düşmüşdüsə, gözlərinin içi gülürdü. İnanın ki, eşq acısını çəkən, eşqsiz

yaşayanlardan insanlardan xoşbəxt olur. Bu düşüncələrlə gəlib evə çatdım. Kitablardan birini açıb oxumaq istədim ki, bəlkə başım qarışa, az da olsa onu unudam. Di gəl ki, səhifəni sona çatanda görürdüm oxuyan dodaqlarımdır, düşüncələrim çox uzaqlardadı...

Bu günlərdə mahnı da dinləyə bilmirdim. Hansı mahnını dinləsəm, mənə sevdiyimi xatırladırdı. Sadəcə darıxırdım onunçün. Ağlamaq, ətrafdakı şeyləri qırmaq, dağıtmaq istəyirdim. Elə bir lənətlənmiş adama çevrilmişdim ki, bütün dost-tanış, qohum- əqraba indi mənə nifrət edirdi. Mənə bir söz deyəni elə acılayırdım ki... Sonra piyada yol getməyin mənə yaxşı təsir etdiyini gördüm. Çox sevdiyim mahnıları dinləyə- dinləyə saatlarla yol gedir, sanki özümdən qaçmaq istəyirdim. Ancaq nə qədər bərk getsəm, qaça bilmirdim, xilas ola bilmirdim düşüncələrimdən. O qədər yeriyirdim ki, ayaqlarım gücdən düşür, bədənim çökürdü və yalnız bundan sonra yuxulaya bilirdim. Oyandıqda yenə eyni işlərin təkrarı... Bu günlərdə bəlkə də həyatımı xilas edəcək bir hadisə oldu. Atam bizi bir zamanlar yaşadığı- uşaqlığının keçdiyi kəndə apardı. Bu şəhərdən getmək istəmirdim sanki, axı özü burada olmasa da Fərhadın xatirələri buradaydı, ancaq getməli oldum. Ağlımı itirməmək üçün atamın təklifini qəbul etdim. Ölkənin şimalında yerləşən, bu balaca dağ kəndi mənə doyunca gəzmək, yerimək üçün qucağını açdı. Kəndin yaxınlığından gur çay axırdı. Çayın ətrafında isə qayalar vardı. Özüm üçün hündür bir qaya tapmışdım ilk günlərdən. Bu qayanın başında oturub, çayın səsini dinləyirdim. Yalnız burada olduğum zamanlarda bütün düşüncələrimdən xilas ola bilirdim. Sadəcə bir boşluq yaranırdı beynimdə və mən özümlə baş-başa qala bilir, uzun zamandan sonra özümlə danışır, dərdlərimi dinləyirdim. Sən demə, özüm üçün çox darıxmışammış. Bu çay öz mənbəyini yaxınlıqdakı dağlardan götürürdü. Çay bu qayalıqlardan axır, uzun bir yolçuluqdan sonra böyük ümmanlara qovuşurdu. Görəsən, mənim də qovuşacağım bir ümmanım olacaqdımı? Yoxsa özümü səhralara vurub əriyəcəkdim, yox olacaqdım?

İlk dəfə idi ki, bu qədər dərin şeylər düşünürdüm. İndiyə qədər nə qədər mənasız bir həyat yaşamışdım. Azadlıq deyirdim

əvvəllər tez-tez. Bu söz həyatımın mənasına çevrilmişdi. İndi düşünürəm, nəydi bu azadlıq? Bəli, mənim istədiyim azadlıq bu deyilmiş, bu ancaq xaos imiş. Bax, bu çay öz yatağı ilə axdığı zaman azaddır və öz ümmanına qovuşa bilər, ancaq yatağını qoyub özünü çöllərə vursa, yox olardı. Bəli, mənim azadlığım bax, belə bir şey olmalıydı. Bunun üçün də öz yatağımı, yolumu tapmağa məcburdum.

Kənddə digər sevdiyim bir şey də, uşaqlarla oynamaq oldu. Böyük insanların kirli dünyasından azad olmaq, onların günahsız baxışlarında dincəlmək... Bütün bunlar az da olsa acımı dindirirdi. Leyla adında bir balaca dostum vardı. Yamyaşıldı Leylanın gözləri. Ailədə yeddi qardaşdan sonra dünyaya gələn bir qız övladı idi. Yəni, anlayacağınız yeddi qardaşın bir dənəcik sevimli bacısı. Kəndə gəldiyim ilk günlərdən dostlaşdım bu yeddi yaşlı qızcığazla. Yuxudan oyanar- oyanmaz yanıma gəlib, mənə çoxlu suallar verərdi. Şəhər haqqında, oradakı insanlar haqqında elə qəribə suallar verirdi ki, bəzən cavab verməkdə çətinlik çəkirdim. Onun balaca dünyasında şəhər, cənnət kimi bir yerdi. Hər şeyin gözəl olduğu bir cənnət. Həqiqətləri çılpaqlığıyla deyib, onun bu balaca, cənnət xəyallarını başına yıxmaq istəmirdim. Kəndin hər daşını, kəsəyini o qədər gözəl tanıyırdı ki... Kənddə qaldığım on gün ərzində məni gəzdirdi, kəndin gözəl yerlərini mənə göstərdi. Əziz Leylam, səninlə keçirdiyim bu on günü heç vaxt unutmayacam. Sənin gözlərinin dərinliyindəki saflığı, təmizliyi, bəlkə də öz uşaqlığımı gördüm. Leylacan, səni unutmayacam. Sən də məni unutma. Balaca sinəndə döyünən, böyük ürəyində hər zaman saxla məni...

Çox tez keçmişdi, bu on gün. Nəhayət, şəhərə qayıtmışdım. İndi daha güclü idim, ancaq eşqə qarşı deyil. Mən əvvələr də, cəsur bir qızdım. Bütün ölkənin qəbul etdiyi dəyərlərə qarşı çıxacaq qədər cəsur, lakin indi fərqli idi vəziyyət. Mən bir çay kimi axacağım yatağı deyəsən yavaş-yavaş tapırdım. Di gəl ki, Fərhadın adı çəkildiyi zaman ürəyim sancır, dizlərim əsir və mən qorxağın biri olurdum. Şəhərə gecə avtobusu ilə qayıtdıq. Fərhadı görmək üçün elə, avtovağzaldan birbaşa kitab dükanına gəldim. Bu dəfə üzülmədim. Mən ora çatanda Fərhad dükanın qapısını açırdı. Bir kənarda gözlədim. Dükanı açıb,

içəri girdi. Qapıdan göründüyü qədər kitabları qaydaya salırdı. Necə də incəliklə toxunurdu kitablarına! Kaş saçlarıma da o cür toxunaydı - deyə keçirdim ürəyimdən.

O, mənim saçıma əlini uzatsaydı yəqin ki, saçlarım utandığından bir şeirə dönüb barmaqlarına dolanardı. Bir qədər sonra cəsarətimi toplayıb, içəri girdim. Burada gözləməklə heç nə olmayacaqdı. İnsan yalançı xəyallarla deyil, həqiqətlərlə yaşamalıdır. İnsan ölə də bilər, yaşayar da, lakin sürünməməlidir. İçəri girəndə məni gözəl qarşıladı. Necə olsa, ilk dəfə o düşmüşdü arxamca. Sevməsə də, bu səbəbdən hörmət etməliydi. Mənə yer göstərdi nəzakətlə. Keçib əyləşdim. Masanın üzərində, salafanda iki simit vardı. Fərhad çay dəmləyirdi. Heç nə demədən onu izləyirdim. Bu dəfə də çaydanı, fincanları da qısqandım deyəsən. Fincanın belindən tuturdu və mən dəli olurdum... Çay dəmlənmək üzrə idi. Masanın üzərinə bir qəzet sərdi və simitlərdən birini mənə uzatdı. Təşəkkürümü bildirib, mənə uzatdığı simiti aldım. O isə fincanlara çay süzdü. Sonra birlikdə çay içdik. Xırda söhbətdən sonra anladım ki, çay Fərhadın ən çox sevdiyi şeylərdən biridir. Çay və qəhvə içmədən keçirmədiyi gün olmur. Ancaq nədənsə üzgün idi. Və o bu haqda danışmır, nə də mən soruşmurdum...

Sahildə etdikləri üçün məndən üzr istəyəndə yanaqlarım qızardı. Fərhad o gün yanlış bir şey etdiyini düşünürdü, amma bilmirdi ki, həyatımı xilas etmişdi. Bir neçə saat idi ki, danışırdıq. Dükana gələn müştəriləri yola salır, sonra yenidən söhbətimizi davam etdirirdik. Öncə mən o gündən sonra yaşadıqlarımı danışdım. Əvvəllər necə lənətli bir həyatım olduğunu biləndə, üzüldüyünü hiss etdim. Siqaret yandırarkən mənə də təklif etdi. Siqareti atdığımı deyəndə çox sevindi.

“Mən müasir düşüncəli bir insanam. Bir insan- bir qadın siqaret çəkirsə, bu onun öz həyatıdı, kimsə qarışa bilməz. Lakin mən heç vaxt incə qadın dodaqlarına siqareti yaraşdıra bilmirəm” - dedi. O, öz fikrini necə gözəl ifadə edirdi. Siqaret çəkən bir qadına bu cür sözlər deyilsə, əminəm ki, atar siqareti. Ancaq o, mənə heç nə danışmırdı,

heç nə... Bu iki həftəni harada olduğunu, nə iş gördüyünü... Onun bu hərəkəti məni çox üzürdü.

Dükandan çıxıb, evə gəldim. Sevinc və kədər eyni anda ürəyimi işğal etmişdi. Nə sevinə bilirdim, nə də üzülə... Onu görmüşdüm, ancaq görə bilməmişdim. Gördüyüm Fərhadın cismi idi, özü idi. Bəs, ruhu...bəs, ürəyi? Ürəyinin harada olduğunu, gözlərini-baxışlarını izləyərək tapa bilərdim, ancaq tərəddüd edirdim, orada görə biləcəklərindən qorxurdum. Hələ buna hazır deyildim. Dükandan çıxarkən bir kitab da almışdım. Bir-iki günə onu oxuyacaqdım....

Bəxtiyar

Ləman evi tərk edəndən sonra toy eləmək düzgün deyildi. Bir müddət gözləməli idi. Əslində, Bəxtiyar elə də pis insan deyildi, sadəcə acizdi. Bu cəmiyyətin köhnəlmiş qaydaları ilə mübarizə apara biləcək qədər cəsur deyildi. Məsələn, anası ondan sağlam bir gəlin, nəvələr istəyirdi. Ləman isə nə sağlamdı, nə də ki uşaq doğa biləcəkdi. Burada haqsız olan kimdi? Hər kəs özünə görə haqlı idi. Hər ananın arzusu deyilmi gəlin qulluğu görmək, nəvə oynatmaq?! Hər kişi sağlam bir qadın ilə yaşlanmaq istəməzmi? Deyəsən burada haqsız olan bir Ləmandı, ancaq Ləmanın məhv olan həyatının hesabını kim verəcəkdi, bax, məsələ bu idi... Yəni, bu qədər asandırmı, xəstədi, ayrıl, get başqasını al.

Bəxtiyar xoşbəxt kimi görünsə də, xoşbəxt ola bilmirdi. Demək olar ki, hər gecə kabuslar görür, qan-tər içində oyanırdı yuxudan. Bir quyunun içində görürdü özünü- qaranlıq,dibsiz bir quyunun içində. Sonra Ləman gəlirdi quyunun başına və əlindəki atəşi quyuya atırdı. Beləcə quyuda olan su neftə dönür və başlayırdı yanmağa. İndi bu yuxular o qədər çoxalmışdı ki, yata da bilmirdi. Az qala ağlını itirəcəkdi. Yatmasa öləcək, yatsa, ölməkdən betər olacaq... Bəxtiyarın gəzmədiyi həkim qalmadı. Lakin heç bir həkim onun dərdinə əlac edə bilmədi. Çünki, bu ruh məsələsiydi. Ruhu sağaldacaq həkim yox idi. Son zamanlarda siqareti çox çəkir, içki şüşəsi əlindən düşmürdü. Onun bu səfil halı işlədiyi universitetdən qovulması ilə nəticələndi. Təzə sevgilisindən isə danışmağa dəyməzdi. Çoxdan rədd eləmişdi onu həyatından. İndi geriyə bir yolu qalırdı - ölmək. Ancaq yaşayacaq qədər cəsarəti olmayan birinin ölməyə heç gücü çatmaz. İntiharı bəzən zəiflik əlaməti hesab edirlər. Ancaq belə deyil. Yalnız cəsur insanlar özünü öldürə bilər. Bu dünyası var işin, o bir dünyası var. Din deyir, intihar edənin yeri cəhənnəmdi və oradan xilas ola bilməyəcək. İndi deyək ki, bu dünyadan birtəhər getdi, bəs o biri? Gedəcəyi yerdə də qorxularından xilas ola bilməyənlər intihar edə bilməz. Bəxtiyar da belə qorxaq insanlardandı. Onun üçün nə yaşamağı bacarmışdı, nə də indi ölə bilirdi... Bütün günü küçələrdə,

əlində içki şüşəsi, səfil- səfil gəzirdi. Anasıda, atası da az qalmışdı ki, üz çevirə ondan, ancaq bunu etmədilər. Nə qədər qorxaq da olsa, pis də olsa övlad, övladdı. Bəxtiyarı həyata qaytarmaq üçün çox çalışdılar, olmadı. Hərdən Ləmanı düşünürdü Elnurə xala, ancaq gec idi... Sağlam gəlin, nəvə arzulayarkən, gözlərinin önündə oğlunu da itirirdi... Elnurə xalanın həyatını danışmağa başlasaq, gərək qalan hər şeyi unudaq. Ətrafımıza baxanda onun kimi onlarca, yüzlərcə qadın görə bilərik. Nə ata evində, nə ər evində bir gün görməyən, hər zaman acılar çəkən bir qadın. Elə bəlkə də ona görə istəyirdi oğlunun gözəl bir ailəsinin olmasını- oğul, uşaq sahibi olmasını.

Bəxtiyarın iki bacısı vardı. Bunlar evlənmiş və çox uzaqlara getmişdilər, neçə ildən bir görə bilə, ya bilməyə. Bəxtiyarın həyatı daha önəmli idi Elnurə xala üçün. O, əslində pis bir şey istəmirdi. Yəni, etdiyi hərəkətin necə pis olduğunu bilmirdi. Qız uşağının sevilmədiyi bir ailədə dünyaya gəlmiş, evlilik yaşı çatanda da bir əşiya kimi satılmışdı. Ərindən heç vaxt gözəl söz eşitməmişdi. Cahandar kişi çox sərt təbiətli insan idi. Onun nəzərində sevgi, gözəl sözlər acizlik əlaməti sayılırdı. Cahandar kişi oxumağa qarşı deyildi, ancaq oğlan uşağının oxumasına. Elə ona görə də qızlarını ərə vermiş, Bəxtiyarı isə oxutmuşdu.

Ləmanı hələ indi düşünürdü Elnurə xala. Səhv etmişdi, nə olursa olsun onun bu evdən getməsinə izn verməməliydi. Öləcəkmi, qoy ölənəcən bu evdə yaşasın, son nəfəsində yanında olaq. Axı, o qızın kimsəsi yox idi... Yenə deyirəm, gecdi daha. Ləman getmiş, Bəxtiyar isə hər gün daha da tükənirdi. Elnurədən fərqli olaraq, Cahandar kişi yenə özünün sərtliyini qoruyurdu. Heç nə demirdi oğluna. Sadəcə onu gördükcə başını bulayıb, bir siqaret yandırırdı. Ləman haqqında isə umumiyyətlə düşünmürdü. Qıraqdan baxanda bu insanın bir ürək daşıdığını demək olmazdı. Bax, Bəxtiyar belə bir ailənin övladı idi. Bunu deməkdə məqsədim Bəxtiyar Ləmanı niyə atdı, sualına cavab axtarmağınız üçündür.

O, həyatından keçsə də, həyat, daha doğrusu səhvləri ondan əl çəkmirdi. Son on gündə hər gecə evə gələndə bir kölgə onu qapının ağzına qədər izləyirdi. Onun nəfəsini hiss edir, lakin heç nə görə

bilmirdi. Yavaş- yavaş qorxuya düşmüşdü. İndi ölümdən qorxduğunu anlamışdı. On birinci gün evə bir az tez gəldi, daha gecəyə qalmadı. Ancaq gecə pəncərədən çölə baxanda, o kölgəni yenə gördü. Bura hündür binaların çox olduğu bir ərazi idi. Evləri üçüncü mərtəbədə yerləşsə də, ancaq yenə qorxurdu. Əvvələr yalnız yatdığı vaxt Ləmanın xəyalı onu izləyirdisə, indi də bu çıxmışdı. Gündüzlər normal keçirdi. Elə ki, gecə gəldi, o kölgə daima onu izləyirdi uzaqdan. Bunu hiss edirdi və evdən çölə də çıxmırdı. Pərdələri bağlayıb özünü otağına həbs etmişdi. Ağacların kölgəsi pərdələrdə rəqs etdikcə qorxub çarpayının altına girərdi. Çarpayının altında bir az qaldıqdan sonra ona elə gəlirdi ki, o bayaqki kölgə pəncərədən içəri girdi və indi yatağın üzərinə uzanıb. Tez çıxırdı gizləndiyi yerdən və qapıya tərəf qaçırdı. Səsinə Elnurə xala gəlir, onu yataqda, otaqda kimsənin olmadığına inandırıb gedirdi. Bir az sakitləşib, yerinə uzanırdı. Bu zaman yatağın altından kölgənin əlini ona tərəf uzatığını düşünürdü. İş o yerə çatdı ki, Cahandar kişi otaqdan çarpayını çıxartdı. Otaq bomboş idi. Xalçanın üzərinə döşəklər salınmışdı. İndi otağın qapısı bağlı saxlanılırdı. Əslində, Bəxtiyar ağıl xəstəxanasında yatmalıydı. Gəl ki, bu Cahandar kişinin adına xələl gətirə bilərdi. Onlar evlərində bir dəli saxlayırdılar. Elnurə xala ağlamaqdan birtəhər olmuşdu...

Otaq boş olsa da, pəncərədən düşən kölgələr onu narahat edirdi. Yenə axşam olmuşdu, günəş yerini övladlarına verib, getmişdi Cənub yarımkürəsini aydınlatmağa. Sakit bir külək əsirdi axşamtərəfi. Gecə düşdükcə, külək də öz sürətini artırırdı. İllərin sınağından keçmiş şam ağacları düz onun pəncərəsinə qədər uzanmışdı. Külək ağacları oxşadıqca, ağ pərdədə Ləmanın xəyalı görünürdü. Deyəsən, ilk görüşə tələsirdi Ləman. Bəxtiyarla- sevimli müəllimi ilə görüşəcəkdi. Necə də həyəcanlıdır bu tələbə qız. Gözlərindəki sevincə nə qədər şeir yazmaq olar. İndi Bəxtiyar onu görür, yenidən aşiq olurdu. O zamanlar iki dəst paltarı vardı Ləmanın. Dərsə gedəndə də, gəzməyə çıxanda da hər zaman bu paltarları geyinərdi. Bir vaxtlar bunu düşündükcə ürəyi necə də pis olurdu, ona dünyanın ən gözəl paltarlarını almaq istəyirdi. Hə, ilk görüşə hazırlaşırdı Ləman. Çox

gözəl paltarları yoxdu, ancaq sevgi ilə bəzənirdi. Sevgi ətri səpir, sevginin rəngi ilə boyayırdı dodaqlarını. Bütün gənc qızlar kimi bir az dəcəllik edib görüşə gecikmək istəmişdi. Sonra özünü gördü Bəxtiyar. Parkda həyəcanla gözləyir sevdiyini. Yarım saatdı buradadı. O tərəf-bu tərəfə gedib- gəlir. Bir yandan əsəbdən, həyəcandan siqaret çəkir, o bir yandan da tez yarpızlı saqqızı çeynəyirdi ki, nəfəsindən siqaretin qoxusu gəlməsin. Bir qədər də keçəndən sonra bax budur, Ləman gəlir. Necə də utancaqdır, ay Allah... Başını aşağı salıb addımlayır, sanki ətrafda kimsə yoxdu. Bəli, Ləman üçün Bəxtiyardan başqa kimsə yox idi bu dünyada. Gözləri də, ürəyi də, sadəcə Bəxtiyara aiddir. Görüşürlər və yanaşı addımlamağa başlayırlar. Ləmanın ürəyi həyəcandan titrəyir ki, indi əlindən tutsa, necə olacaq, necə dayanacaq bu həyəcana... Eyni zamanda Bəxtiyar da sevdiyinin əlindən tutmaq üçün bəhanə gəzir... Heç nə danışmadan addımlayırlar. Sonra əlindən tutmaq üçün izn istəyir Bəxtiyar... Bu zaman külək daha da möhkəm əsir, böyük şam ağaclarının kölgəsini Bəxtiyarın otağına tərəf qovurdu... İndi daha kölgələrdən xəyal görmür, sadəcə xatırlayırdı o günü və Ləmanı.

Bir də gördü ki qorxmur. Bəli, indi o heç nədən qorxmurdu. Ayağa qalxdı və pəncərəyə yaxınlaşdı. Gözlərindən axan yaşı silib, pərdələri çəkdi, uzun zamandan sonra ilk dəfə pəncərələri açıb çölə baxdı. İndi külək şəhərin kirli havasını onun otağına doldurur, onu deyəsən özünə qaytarırdı. Bu zaman gözləri təsadüfən çöldə birinə sataşdı. Uzun boylu bir kişi ağacların arasından onun pəncərəsini izləyirdi. Demək bu, xəyal deyildi. Hər şey ola bilərdi, ancaq daha bunu düşünmək üçün çox gecdi. Tez əynini geyinib, tələsik aşağı düşdü. Onun qapıdan çıxdığını, daha doğrusu necə çıxdığını görən Cahandar kişi yaman narahat olmuşdu. Axı qapı kilidlənmişdi, necə aça bilərdi bu kilidi. Cahandar dayının qorxduğu, Bəxtiyarın bir dəli kimi küçələrə düşüb, onu biabır etməsi idi. Onun üçün də tez Bəxtiyarın arxasınca aşağıya düşdü. Bəxtiyar binaların arasınadakı ağaclığa tərəf qaçırdı.Onun gəldiyini görən “ kölgə” çoxdan yoxa çıxmışdı. Ancaq o, uzaqlaşarkən Bəxtiyar onu arxadan

dumanlı da olsa, görə bilmişdi. Külək bu nəhəng adamın saçlarını dalğalandırırdı. Uzun saçları ilə gecəyə yoxa çıxmış, yoxa çıxmışdı...

Geriyə döndü, həyətdəki skamyalardan birində əyləşdi. İndi atası da yanına gəlmişdi. Cahandar kişi oğlunda qeyri-adi bir hərəkət bir anormallıq görmədi və heç nə demədən yanında əyləşdi. Ata ilə oğlu arasında o qədər dərin uçurumlar vardı ki, indiyədək heç vaxt birlikdə əyləşib səmimi söhbət etməmişdilər. Bu gecə ilk dəfə atasına yaxınlaşdı, boynunu qucaqladı. İndi onun göz yaşları atasının çiyinlərinə düşürdü. Sanki, bu yaşlar ürək olub Cahandar kişinin sinəsinə yerləşdi. İndi hər ikisi bir- birinə sarılıb ağlayırdı. Bir xeyli bu şəkildə qaldılar. Sonra atasından siqaret istədi. Əvvəllər olsaydı yəqin ki, yaxşı bir sillə dəyərdi üzünə. Ancaq bu gecə bu iki insan arasında olan buzlar ərimişdi. Oğluna siqaret uzadıb yandırdı. Birini də özü götürdü. İndi ata ilə oğul gecənin ayazında, küləyində heç nə danışmadan göy üzünə baxır, ciyərlərini tüstü ilə doldurub, yaşaya bilmədiklərini ürəklərindən boşaldırdılar. Sonra atasından izn istəyib qalxdı və şəhəri gəzmək üçün yola düşdü. İndi Cahandar kişi qorxmurdu oğlunun başına gələ biləcək pis şeylərdən... Bu qədər yaşında, ilk dəfə oğlunu möhkəm, cəsur kişi kimi görürdü...

Qaranlığa doğru addımlayır, yox olmaq istəyirdi sanki. Addımladıqca yenidən ilk görüşlərini xatırladı, yenidən gördü Ləmanı. İlahi, necə çox sevirdi onu. Dərsdə onun gözlərinə baxdıqca, necə xoşbəxt olurdu. Birlikdə nədənsə danışdıqca, ürəyində güllər açırdı. Sabah Ləmanın üzündə təbəssüm görəndə, o da gülürdü bütün günü. Nə zaman Ləmanı üzgün görsə, onun da həyatı cəhənnəmə çevrilirdi. İndi bunları xatırladıqca, uşaq kimi, hıçqıra-hıçqıra ağlayırdı. Axı, necə üzdü, necə atdı sevdiyini?! Onunla birlikdə yaşamaq gözəl ikən, o, sürünməyi seçmişdi. Bu həyatda ən yaxşı bildiyi insan duyğuları idi. Bu qədər kitab oxuduqdan sonra bunlarımı öyrənmişdi Əhməd Yəsəvinin əsərlərindən? Bu nəticənimi çıxarmışdı?!

Daha bərk yeriyirdi indi, daha bərk... Külək yenidən gücləndi. Yanaşı gedir Ləmanla və yavaşca onun əlindən tutur. İlk dəfə tuturdu bir qadının əllərindən. Sanki, bu incə əli ehtiyatla, qorxa-

qorxa tuturdu. Onu incitməkdən, əzməkdən qorxurdu. " Əllərindən bəlli olar, bir qadın"- demişdi şair. Hə, indi Ləmanın əlləri bir şeir kimi idi və o, şeir oxuyurdu barmaqları ilə. Bax, belə gedirlər birlikdə. Axır ki, gözəl bir yer tapıb əyləşdilər. Onda da külək əsirdi, ancaq belə möhkəm deyildi. Külək Ləmanın saçlarının qoxusunu ona gətirdikcə, onlar bir- birilərinə yaxınlaşırdılar. Əlləri ilk dəfə toxunurdu sevdiyinin saçlarına... Sevgi elə gözəl, fərqli bir hiss idi ki, heç tanımadığın birinə bir anda bütün həyatını təslim etmək istiyirsən. Ləman sakitcə başını onun çiyinlərinə qoydu. Bu anda əlacı olsa, gücü yetsə onu ürəyinin içində gizlədərdi ki, inciməsin... Sonra ilk dəfə dodaqlarını Ləmanın saçlarına aparmışdı. Saçlarından öpmüşdü sevdiyi qadının. Saçları dağ havası qədər gözəl qoxuyurdu. Onun nəfəsini hiss etdikcə uşaqlığında, kəndlərində çay kənarında yarpızların suya qarışan qoxusunu duyurdu... Sonra kimsə suya bir daş atdı, yarpız qoxusunu külək uzaqlara apardı. Daha, bundan sonrasını gətirə bilmədi gözlərinin önünə.

Yağış başlamışdı, leysan yağırdı. Ancaq o, dayanmadan gedir, sanki bütün acılarından xilas olmaq istəyirdi. Nə qədər böyük səhv etdiyini anlamışdı, ancaq gecdi daha...

Doğrudanmı gecdi? Ləmanı çox gözəl tanıyırdı. Bütün bu olanlardan sonra təkbaşına küçədə ölərdi, lakin onu qəbul edib, yenidən güvənməzdi. Nə etmək olardı, savaşacaqdı itirdiklərini geri qaytarmaq üçün.

Bir az yeridikdən sonra evinə qayıtdı. Uzun zamandı oğlu üçün darıxan ana, onun yolunu həsrətlə gözləyirdi. Qapıdan içəri girəndə oğlunun boynunu necə qucaqladı, necə ağladı, bunu sözlə anlatmaq olmaz. Çünki, heç bir söz, bir ananın acılarını, sevincini daşıyacaq qədər güclü deyil. Bu gecə ilk dəfə ailə oldular. Cahandar kişi də öz arvadına yaxşı davranırdı. Ömründə ilk dəfə sevgini hiss etmişdi, Elnurə xala. Bəxtiyar bir az sonra izn istəyib, öz otağına getdi. O da darıxmışdı özü üçün. Çoxdandı özündən, düşüncələrindən uzaq qalmışdı. Ona görə də bu gecə doyunca danışmaq istəyirdi özü ilə, doyunca düşünmək...

O yenə də yuxu gördü, ancaq digərlərindən fərqli. Quyunun yanında dayanmış, qorxa- qorxa baxırdı. Quyu ağzına qədər su ilə dolu idi. Ləman yanında göründü  və itələdi onu quyuya. Birdən-birə özü atəş oldu. İndi onun atəşi ilə yanırdı, su quyusu. Daha acı çəkmirdi. Sabaha yaxın oyanmışdı yuxudan. Qan- tər içində deyildi. Sadəcə gözlərində bir neçə damcı yaş vardı. Bəli, indi o, Ləmandan daha çox acı çəkirdi. Onun üçün atəş quyusuna atılmamışdı yuxuda, özü atəş olmuşdu... Uzun zamandır itirdiklərinin sancısını indi duyurdu. Tələbələri üçün çox darıxmışdı. Onun işi gələcək nəsilləri yetişdirmək idi, ancaq özünü də yox etmişdi. Yaxşı bilirdi ki, itirdiklərini yenidən qazanmaq çətin olacaqdı. Nə qədər çətin olsa da, savaşacaqdı. Bu gün ilk işi Ləmanı axtarıb tapmaqdı. Onun bu şəhərdə gedəcəyi sadəcə bir yer vardı, rəfiqəsi Ayselin evi. Həqiqətən də Ləman Ayselgildə qalırdı. Aysel də ailəsi dağılmış bir xanımdı. Öz evində bacısı ilə birlikdə yaşayırdı. Ləmanı da ən azı bacısı qədər sevirdi. Bu yaxınlarda yenidən ailə quracaqdı Aysel. Ləman onun xoşbəxt olacağına ürəkdən inanırdı. Kənardan baxanda bu güclü, ancaq içində körpə bir uşaq kimi olan qızcığaz xoşbəxt olmağa çoxlarından daha layiqdi. Bu cəmiyyət o qədər korlanmışdı ki, ailəsi dağılan qadınlara ikinci bir şans vermirdi. Ləman da, Aysel də yazılarında bax bu köhnəlmiş qaydalara savaş açmışdılar. Onlar güclü idilər, hər şeyi yenidən başlayacaq qədər güclü, savaşacaq qədər cəsarətli idilər. Lakin minlərcə qadının həyatı məhv olurdu bu cəmiyyətdə. Boşanmaların sayı günü- gündən artır, bədbəxt qadınlar məmləkətin dörd bir yanına yayılırdı. İndi, ən ucqar kənddə belə, mütləq bir- iki boşanmış gəlin vardı. Belə qadınlar kişilər üçün əsl ovdu. Biri çıxıb bunlardan biri ilə evlənmək istəsə, cəmiyyət onları biqeyrət elan edərdi. Onlarla ancaq gəzmək, əylənmək olardı... Bəs bu qadınların sonu necə olacaqdı? Onlardan biri idi Ləman. Xəstə, kimsəsiz halı ilə necə savaşacaqdı bu cəmiyyətdə, necə ayaqda qala biləcəkdi?!

Bəxtiyar qapının ağzında uzun zaman dayanıb gözlədi. Barmaqları qapının zəngini sıxacaq qədər güclü deyildi.. Bütün yaşadıqları, yenidən gözlərinin önündən keçirdi. Toy günü necə

həyəcanlı idilər. Hələ Ləman, yerə- göyə sığmırdı. Yaz günəşi kimi işıq saçırdı ətrafına. Bir az sonra sevdiyi ilə birləşəcəkdi, sonsuza qədər. Ancaq sonsuzluq yox, son olmuşdu...

Qapının yanında əlləri əsirdi. Yox, o qapının zəngini sıxacaq, Ləmanın gözlərinə baxacaq qədər cəsarətli deyildi. Birdən pilləkənlərdə ayaq səsi eşitdi. Tez yuxarıya doğru qaçıb gözlədi. Bir az sonra uzun boylu, uzun saçlı bir cavan oğlan qapıya yaxınlaşdı, zəngi sıxdı. Qapı açıldı və o, içəri daxil oldu. Bu adamı tanıyırdı. Bu, onu izləyən kölgə idi. Birdən ürəyində bir fırtına qopdu. Bir zamanlar atdığı qadını itirdiyini bu andaca anladı sanki. Bu adam Ləmanı çox gözəl tanıyırdı, həmçinin onu da... Yoxsa günlərcə onu izləməzdi. Yenidən qəlbində bir qorxu hiss etdi və tez pilləkənlərdən düşüb, oradan uzaqlaşdı. Bu qorxu əvvəlki qorxulara bənzəmirdi - qürurlu bir qorxu idi. O, ölmək istəmişdi, ancaq anlayırdı ki, belə tez ölə bilməyəcək. Onun cəzası, bu acı ilə yaşamaq, bəlkə də sevdiyi qadını uzaqdan, yad bir adamla izləməkdi....

Kor-peşman geriyə qayıtdı. İndi başqa bir itiyinin- üniversitetdəki işinin arxasınca getməliydi. Əgər işini də belə görsəydi, daha onun üçün hər şey bitəcəkdi....

Fərhad

Əzizim Elyanora, bütün ayrılıqlar sənə gedilən yoldur, demişdim bir zamanlar. İndi düşünə bilmirdi Elyanoradan ayrılsa, onu itirsə bu yol onu hara aparardı... Bildiyi tək şey çox çətin suallar qarşısında qaldığı idi. İnsanın canını ən çox acıdan, cavab tapa bilmədiyi suallardı. Əslində bilirdi bu sualların cavabını, ancaq özünə belə etiraf etməkdən qorxurdu. Nə olacaqdı indi?

Elyanora... nə Elyanora eee... Ləman əməliyyatdan sağ çıxmasa nə edəcəkdi?! Ləmanın çox yaşamayacağını yaxşı bilirdi. Deyək, bu əməliyyatdan sağ çıxdı...sonra bir neçə il yaşadı və yenə ölüm. Ölüm, qaçmağa yeri olmayan bir sondu. Ölüm gələnə qədər yaşamaq lazımdı. Bu həyatın ən böyük qaydası idi. Ancaq necə yaşamaq? Bu düşüncələrlə qapıdan içəri daxil oldu. Divanın üzərində əyləşib, onu gözləyirdi Ləman. Bu gün əməliyyat günü idi. Bir-iki saatdan sonra otağa girəcək və oradan heç vaxt əvvəlki kimi çıxmayacaqdı. Yaxşı bilirdi ki, ya öləcək, ya... Bir qadın – gənc bir qadın üçün döşünün kəsilməsi ən pis vəziyyətdi. Ancaq nə edəsən ki, bu həyatdı və hər şey ola bilər. Aysel bir çay süzdü Fərhada. Ancaq çay masanın üzərində qaldı və soyudu. Ləmanın arzuları kimi...

Qolundan tutub, pilləkənləri aşağı enməkdə ona yardım etdi. Rəngi çox solğun görünürdü Ləmanın. Xəstəlik onun bütün gözəlliyini soldurmuşdu. Bu əməliyyat olmasa, tezliklə öləcəkdi. Nə isə maşına əyləşib, xəstəxanaya getdilər. Yol boyunca şəhərə, insanlara baxırdı Ləman. İlahi, hekayəsi yazılacaq nə qədər insan var. Əgər ölməsə, yaşasa, bu insanların hər birinin hekayəsini yazacaqdı. İndi anlayırdı həyatın nə qədər gözəl olduğunu, yazmağın necə gözəl yaşamaq olduğunu. İstəmirdi belə tez ölsün. O, romanında qızı öldürməmiş, sağaltmışdı. İndi özü Tanrının yazdığı romanın qəhrəmanı idi. Və bu romanın sonunun necə bitəcəyini bilmirdi. Ürəyindən dua etmək istədi rəbbinə, bu romanı gözəl bitirsin deyə. Fərhada onu bir məscidin yanına aparmasını xahiş etdi. Fərhad onun bu istəyini həyata keçirmək üçün maşının istiqamətini dəyişdi. Bəlkə də bu, sevdiyinin sonuncu istəyi olacaqdı. Güclə saxlayırdı özünü.

İndi, Ləmanın yanında ağlamaq istəmirdi. Yoxsa, uşaq kimi ağlayacaqdı- anası tərəfindən döyülən uşaq kimi. Bir az sonra maşın məscidin həyətində dayandı. Ləmana yardım etdi, maşından düşüb məscidə daxil olmaq üçün. İkimərtəbəli bir məscidin birinci mərtəbəsində qadınlar ibadət edir, ikinci mərtəbə isə kişilər üçün idi. Ancaq bayram və cümə namazlarında hər iki mərtəbədə kişilər ibadət edirdi. Hələ çox vaxt məscidin həyətində də çadırlar sərilir, insanlar namaz qılırdı. Təsəvvür edin, qar yağa- yağa namaz qılan insanlar olurdu burada. Necə gözəl bir mənzərə yaranırdı. Ləman qapıdan içəri daxil olub, divarların birinə söykəndi. İndi ağlaya- ağlaya dua edirdi rəbbinə. Məscidin içində fərqli bir hava vardı. Burada insan ümidlə dolurdu və qorxmurdu heç nədən. İndi yaşamaq üçün dua edirdi. Hələ ölmək istəmirdi...

-Rəbbim, sənə yalvarıram, mənə bir az möhlət ver. Savaşmaq üçün güc, qüvvət istəyirəm səndən. Bilirəm, gec də olsa, tez də olsa, sənin yanına gələcəm. Mənim günahlarımı bağışlamadan canımı alma, Tanrım. Etdiyim bütün günahlar, üsyanlar üçün məni bağışla. Sən mənə gözəl bir uşaqlıq yaşatdın. İki mələk verdin, məni xoşbəxt etmək üçün. Sonra qəlbimə yaza bilmək kimi, gözəl bir ilham bəxş etdin. İndi gözəl rəbbim, bu dünya adına səndən tək istəyim, bir az daha yaşamaq və yazmaq.Ətrafda o qədər yazılacaq hekayə var kı... Onları yazmadan ölmək istəmirəm. Həm də böyük Tanrım, unudulmaqdan qorxuram. İstəyirəm ölmədən böyük əsərlər yazım. Mən öldükdən sonra da düşüncələrim yaşasın, insanlarla danışsın. Səndən bir az daha möhlət istəyirəm...

Fərhad məscidin həyətində donub qalmışdı. İndi uşaq kimi ağlayırdı. Ağladıqca bütün pis düşüncələri, səhvləri gözlərindən düşür, ayaqlarının altına axırdı. Ləmanı belə tez itirmək istəmirdi. Birdən ağlına Mariya gəldi. Onunla necə edəcəkdi. Bu gənc qız da, onun səhvi nəticəsində ona vurulmuşdu. İnsanıq, səhvlərimizlə, doğrularımızla insanıq. Ancaq bəzi səhvlər var ki, onun üzrü yoxdu. İndi gedib Mariyadan üzr istəyə bilməzdi, onunla birlikdə ola bilməzdi... Bəs nə edəcəkdi?

Beş-on dəqiqədən sonra Ləman məsciddən çölə çıxdı. Yaxınlaşıb ona yardım etdi və maşına əyləşib xəstəxanaya doğru yola düşdülər. Ləmanın ürəyi bayaqkından az döyünürdü. Dua etmək, Tanrısı ilə danışmaq ona yaxşı təsir etmişdi. Fərhad üçünsə eyni şeyləri demək olmazdı. Maşın xəstəxanaya yaxınlaşdıqca, həyəcanı artır, ürəyi sıxılırdı. Elə çox istəyirdi ki, bir az daha gec çatsınlar xəstəxanaya. Ancaq əcəldən qaçmaq olmazdı. Bir az sonra maşın xəstəxananın həyətindəydi. Ləman əməliyyat otağına girənə qədər onun yanında oldu. İçəri girəndə əlləri ayrıldı, baxışlarının arasına qapı girdi. Necə dəyişmişdi, birdən- birə həyatı. O yağışlı gündə, Tanrı ona sevgini Elyanoranın cildində ayrılığı, acını hər şeyi göndərmişdi,. Əməliyyat üç-dörd saat çəkəcək, ondan sonra da həyəcanlı saatlar başlayacaq. Oyanacaqmı, oyanmayacaqmı deyə...

Ləmanı burada gözləyə bilərdi, ancaq həyəcandan, həm də onun öləcəyindən qoxub, həyətə- siqaret çəkməyə düşmək istədi. Pillkənlərlə sürünə- sürünə aşağıya endi. Sanki ayaqlarına zindan bağlamışdılar. Hər addımda az qalırdı yıxılsın. Daha ayaq üstə dayana bilməyəcəyini anladı. Gözünə qaranlıq çökdü, dünya sürətlə başına hərləndi və birdən ayağının biri büdrədi. Yıxılacağını sanarkən, kiminsə qoluna girib, onu skamyalardan birinə tərəf apardığını dumanlı şəkildə gördü. Mehriban bir nəfəs onunla maraqlanır, ona suallar verirdi. Bir qədər özünə gələndən sonra ona uzadılan suyu alıb içdi. Su ona sanki həyat verdi. Başını qaldıranda ona təbəssümlə baxan Mariyanı gördü. Bir müddət bunun həqiqətmi, xəyalmı, olduğunu anlaya bilmədi. Bu ola bilməzdi, axı. Ləman haqqında, onun xəstəliyi haqqında ona heç nə deməmişdi. Ancaq bütün bu olanlar həqiqət idi. Mariya indi onun yanında dayanmışdı, ona təsəlli verirdi. İnsana nə qədər böyük bir ürək vermişdi Tanrı. Birini sevirsən, ancaq bilirsən ki, sevdiyin səni sevmir və bir gün elə an gəlir sevdiyinə təsəlli verirsən. Özü də nə üçün? “ sevdiyi yaşayacaq”- deyə.... Bəzən insana elə acılar yazılır ki... İnanın, onu dağlar, daşlar daşıya bilməz. O an canı üç yerindən yanır, üç insanın acısını duyurdu. Birinci acı özünündü ki, bu ən az acıdırdı canını. Sevdiyindən ayrılan, sevdiyi xəstələnən, ölən tək o deyildi ki, buna

dözmək olardı... İkinci yerdə Ləman dayanmışdı. O isə yaşamaq mübarizəsi aparırdı. Ya öləcək, ya yaşayacaqdı. Ölüm isə hər kəsin yaşayacağı məntiqli sondu. Bu acıya da dayanmaq olardı. Üçüncü, ən çox canını acıdan isə Mariyanın halı idi.. Bax, bunu düşündükcə canı çox yanırdı. Bu qızın çəkdiyi acılara birbaşa səbəbkardı. O gün onun yanından düz keçib getsəydi, yəqin ki, bu acıları yaşamazdı...

Yay son nəfəsini verirdi, yerini payız tuturdu yavaş- yavaş. Payız ən çox sevdiyi fəsildi. Çünki özünü ən çox payızı bənzədirdi. Təbiətin ən gözəl, duyğulu zamanları idi bu günlər. Yarpaqlar tək- tək sarıya, qızmızıya, sonra da ölümə boyanır, yağışlar özünü daha bərk vururdu saçlarımıza. Ən gözəl şeirləri, romanları yazıdırdı bizə. Payız da təbiətin sevgi acısı yaşadığı zamanlardı. Təbiətin canı yanır, gözləri yaşarırdı, öz baharından, günəşindən ötrü. Ona görə bu qədər romantik olur, onun üçün bu qədər ağladırdı bizi... Ancaq bəzi insanlar bu duyğulardan məhrumdu. Torpaq, üzərində bitən güllərə aşiq olur, güllər, bahar günəşinə. Sonra günəş yandırır çiçəkləri və torpaq bu acıya dayana bilməyərək çatlayır yayın ən isti zamanlarında. Bu zaman buldular dayana bilmir torpağın bu acısına və ona yağmuru göndərir - payız gəlir. Bax, indi Mariyanın burada olması, ona bunları düşündürürdü. Bir payız yağışı kimi, Fərhadın yanan ürəyinə su olmaq istəyirdi, bu gənc qız. Ancaq insanın ürəyi torpağa heç bənzəmir, yandımı bir dəfə, daha onu heç bir su ilə söndürmək mümkün deyil... İnsan ürəyinin atəşi, o zaman sönür ki, insan ölür, torpağa qarışır bütün bədəni, ürəyi. Torpağa qarışan ürəyə payız yağışı toxunur və bu atəş sönür....

Əməliyyat uğurlu keçmişdi. Ən azı bir-iki il yaşayacaqdı Ləman. Sol döşünü itirsə də, yaşayacaqdı.. Bunun üçün Allahına təşəkkür edirdi. Oyanar-oyanmaz qələm-kağız istədi. Yazmaq istəyirdi, yaşaya bilmədiklərini və bütün yarımçıq qalan hekayələri. Ətrafda o qədər acı çəkən insan vardı ki, bunları yaza bilsəydi, dünyanın ən gözəl yazıları, romanları olacaqdı. Ən çox da Fərhadın- bu fədakar gəncin hekayəsini yazmaq istəyirdi. Bu zəmanədə belə bir insan... Ancaq bilirdi, Fərhadın bu cəmiyyət üçün ağır olduğunu, belə insanların yalnızlıqla mükafatlandırıldığını, acı çəkərək öldüklərini.

İndi ölməkdən yox, onu tək qoymaqdan qorxurdu. Dünyanın ən saf, təmiz sevgisi ilə sevərdi bu oğlanı - ömrü vəfa etsəydi. Fərhad isə onun bu halını gördükcə məhv olurdu. Qəlbində hələ də Bəxtiyara böyük bir nifrət vardı. Onun qarşısına çıxıb, onu öldürmək, heç olmasa ağız- burnunu qırmaq istəyirdi. Artıq uzun bir müddət idi ki, onun kabusuna çevrilmişdi. Gecələr addımbaaddım onu izləyir, mümkün qədər həyatını zəhər etmək istəyirdi. Düşündükcə dəli olurdu, insan sevdiyi qadını, necə belə bir halda tərk edə bilərdi. Axı sevgisini tapmadan, o qədər sevilmədən ölən insan vardı ki... Bir tikə sevgiyə möhtac yaşayan və ölən.

İnsan qəlbində sevginin olmaması cəhənnəmdi, ancaq sevgi dolu bir ürəyin yalnız qalması, cəhənnəmdən də betərdi... Laman indi yaxşı idi. Bir neçə gündən sonra xəstəxanadan çıxacaqdı. Bütün xəstəxana xərclərini özü ödəmiş, onun sağalması üçün əlindən gələni edirdi. Buradan çıxandan sonra da, onun rahat olmasını istəyirdi. Laman razı olsaydı, öz evinə aparıb, ona baxardı, lakin o, elə qız deyildi. Ölüm ayağında belə namusunu düşünən qadın idi. Ona görə də, evinin yaxınlığında ev tutdu, Lamana qulluq edəcək bir qadın tapdı. Ayselin evində qalmasını istəmirdi. Dost da olsa, yad bir yerdi və sevdiyinin rahat olmasını istəyirdi. Hər şey hazırdı, qalırdı Lamanın evə buraxılması. Bir- iki gün gözləməliydi.

Laman yazırdı, durmadan yazır, ürəyindəki bütün sevgini mürəkkəbə qatır, kağızlara köçürürdü. Belə zamanlarda bütün dünyanı, acılarını unudurdu. Bəlkə də, elə xoşbəxtlik bu idi. İndi yaza bilməsə, bu acılara dayana bilməzdi. Yazmaq, Tanrının insana verdiyi böyük bir silahdı. Mənim Elyanoram ölsə belə, onun yazdıqları, onun sevgisi savaşmağa davam edəcəkdi bu həyatda. Bax, bunu o da yaxşı bildiyinə görə bütün həyatdan vaz keçmək, ancaq yazmaq istəyirdi. Daha ölümdən qorxmurdu. Bilirdi, bilirdi ki, ölümsüzlüyü ölümü ilə başlayacaqdı...

Xəstəxanadan çıxıb dükana getdi. İşləri ilə məşğul olmaq, bir az dünyanı unutmaq istəyirdi. Lamanın qaçışı yazmaqdı, onunku isə oxumaq... Kitablarının arasında yox olmaq istəyirdi. Dükanı açıb, içəri girdi. Ancaq çay dəmləməyə heç halı qalmamışdı.

Sakitcə masanın arxasına əyləşib, gözlərini pəncərəyə dikdi. Kitab almaq üçün bir-iki adam gəldi,. Onları yola salır, yenə öz düşüncə bataqlığına qərq olurdu. Daha kitablar da acısını dindirə bilmirdi. Ağlamaq istəyirdi, ancaq ağlamaq nəyi dəyişəcəkdi ki, heç nəyi... Əgər ağlamaqla işlər düzəlsə, dayanmadan ağlayardı. Bu nəhəng adamın beli necə də bükülmüşdü, bu bir neçə gündə saçlarının arasına ağ tüklər də qarışmışdı. Ayağa qalxıb, qapıya tərəf yaxınlaşdı. Bir az gözlədikdən sonra siqaret yandırdı. Bu günlərdə tək dərd ortağı bu zəhərdi. Ürəyi sıxılanda yandırır, sanki acılarını nikatinlə boğmaq istəyirdi. Siqaret çəkə- çəkə gözü qapının ağzında gəzən pişiklərə sataşdı. Haçandı onlara çörək verə bilmirdi. Tez yaxınlıqdakı ərzaq dükanından bir çörək alıb gətirdi. Çörəyi kiçik parçalara ayırıb pişiklərə verdi. Onlar yeyib doyduqca, mehribanlıqla ətrafında gəzir, ayaqlarına dolaşırdılar. Bir az əhvalı düzəlmişdi. Yenidən eşqin yaşamaq olduğunu, gözəl yaşamaq olduğunu xatırladı... Ah, Elyanoram, səni necə sevirəm. İnan ki, sənin üçün yaşamaq, sənin üçün ölmək dünyanın ən gözəl işidi. Bəli, neçə ki, Ləman həyatdadı, o da yaşayacaqdı. Ancaq bir gün Ləmana nəsə olsa, onun da yaşamaq üçün səbəbi olmayacaqdı. Ölmək üçün Ləmandan daha gözəl bir səbəbmi tapacaqdı? Insan sevdikləri üçün yaşadığı zaman həqiqi insan olur və onlar üçün öldüyü zaman, bir mənası olur ölümünün... Gözəl bir söz oxumuşdu bu günlərdə kitabların birində: - “Vətənin üçün yaşa, eşqin üçün öl”. Vətəni üçün yaşaya bilmişdimi, buna “ hə” deyə bilmirdi, ancaq eşqi üçün öləcəkdi, buna əmindi. Ləman çox yaşamayacaqdı, bunu bilirdi. Uzağı, bir-iki il sonra xəstəlik yenidən baş qaldıracaq və bu dəfə onu xilas etmək mümkün olmayacaqdı. Onun üçün onunla keçəcək hər anın da, onsuz olanları da xəyal edirdi. Bir silah almışdı və bir də tək qurşun- gümüş bir güllə. Həyatda olduğu kimi, ölümdə də Ləmanın yanında olacaqdı. Onu dəfn etdikdən sonra elə oradaca silahını çıxarıb, o gümüş güllə ilə bitirəcəkdi hər şeyi...

Siqaretini çəkib yenidən yerinə əyləşmişdi ki, qapının ağzında bir gənc qızın utana- utana ona baxdığını gördü. Bəli, bu Mariya idi. İçəriyə gəlməyə, onu narahat etməyə utanırdı. Ayağa qalxıb,

təbəssümlə onu içəri dəvət etdi. Bu qızı çox istəyir, onun gözlərinə baxanda isə öz səhvini, peşmanlığını görürdü. Bəlkə də Elyanoradan öncə onu tanısa, hər şey çox fərqli olardı, bəlkə də...

Nə yazıq ki, həyatımız " kaş ki " lərlə, " bəlkə" lərlə məhv olurdu. Bəlkə də, atası, anası ilə deyil, başqa bir qadınla evlənsəydi, o, bu dünyaya gəlməyəcək və bu acıları yaşamayacaqdı. Mariyanı görəndə, ayağa qalxmaq üçün özündə güc tapmışdı. Qonağına çay dəmləməyi özünə borc bildi. Gənc qız bu dəfə əli boş gəlməmişdi. Çantasını açdı, bir simit çıxarıb, yarıya böldü. Onun bu halını görəndə Fərhad gülümsədi. Bu gənc qızın sevgisi necə də tərtəmizdi. İki simit almağa Ürəyi gəlməyib ki, birini iki yerə bölüb yesinlər. O an, yadına Elyanoranın onun dükanına ilk dəfə gəldiyi gün düşdü. O, Fərhadın çay içdiyi fincandan necə həsrətlə içirdi çayı. Bu qızla ən azı dost olmalıydı, buna məcbur idi. Bilirdi ki, ona yaxın olmaq qızın canını acıdacaq, lakin uzaq olmaq da, onu məhv edəcəkdi. Onun üçün də dost olmağa razı oldu. Bəlkə də zamanla bu sevgi bitərdi. Mariyanın onu necə izlədiyini,Ləmanla olanları az da olsa bilirdi. Fərhad bütün hekayəni danışmağı özünə borc bildi. Ancaq burada olmazdı. Çayı içib, bitirdikdən sonra dükanı bağlayıb çıxdılar. Şəhərə payızın soyuq nəfəsi gəlsə də, havalar hələ tam soyumamışdı. Bir qədər getdikdən sonra, həyətinə masalar qoyulan çay evinə döndülər. Bura şəhərin hündür yerlərindən biri idi. Buradan baxanda şəhər sanki insanın ayaqları altında qalır, böyük binaların arasından süzülüb, uzaqlara doğru axırdı. Çay sifariş verib əyləşdilər. Fərhad siqareti masanın üzərinə qoyub, birini yandırdı və başladı danışmağa. İlk gündən bəri başına gələnlərin hamsını danışdı Mariyaya. O anları təkrar yaşayırdı, çəkdiyi siqaretinin dumanı göz yaşlarını boğa bilmirdi. Ancaq axıra qədər danışa bildi. Sona çatanda Mariya da ağlayırdı. Bu küləklərin yuva qurduğu çay evində, bir sevgi hekayəsi dinləmişdi şəhər... Elə bir sevgi hekayəsi ki, içində həyata aid hər şey vardı.

Bundan sonra, Mariya, Fərhadı daha fərqli sevəcəkdi. Bax bunu bilə-bilə danışmışdı hekayəni Fərhad. İndi Mariya da sonu düşünürdü -Ləmandan sonrasını. O gümüş güllə bir xatirə olaraq

qalmalıydı, almamalıydı Fərhadı ondan... Bu necə bir hekayə idi, içində neçə adam , neçə acı vardı. Fərhad başını təmiz itirmişdi. İndi əlacı olsaydı özündən bir surət çıxartdırıb Mariyaya verərdi ki, o xoşbəxt olsun. Özü isə, Elyanorasına qaçar, onunla yaşayıb, onunla da ölərdi. Ürəyinin yanğısı ancaq payız yağışları ilə dinə bilərdi. Bir az sonra çay evindən ayrıldılar. Yol boyu oradan-buradan söhbətlər etdilər.Mariya onun hər sözünü necə diqqətlə, sevgi ilə dinləsə də, ancaq ayrılmaq vaxtı idi. Bir az sonra Ləmanı ziyarətə gedəcək, gecəni onun yanında keçirəcəkdi. Mariya da onunla gəlmək istədi, ancaq buna razı olmadı, razı ola bilməzdi. Ləman onun yanında bir qız görsə, bu qısa xoşbəxtliyindən vaz keçib, onu öz əlləri ilə qıza verərdi. O da  Ləmanın sözündən çıxa bilməz və ömrü boyu əzab çəkərdi. Yox, yox, Elyanoradan başqasını sevə bilməzdi, sevməyəcəkdi. Onun ömrü də, Ləmanın ömrü qədər olacaqdı. Bu düşüncələrlə Mariyadan ayrılıb, Ləmanın olduğu xəstəxanaya doğru qaçdı. Orada sevdiyi qadın onu gözləyirdi. Gedərkən sevginin rəmzi olan üç qızılgül almağı da unutmadı....

Ləman

Şair, mənə bir insan yaz,
Güclü, ancaq gücsüz.
Xoşbəxt, ancaq bədbəxt,
Gülsün, ancaq ağlasın.
Getsin, ancaq qalsın,
O insan, qadın olsun,
Gücsüz, ancaq çox güclü,
Küləklər kimi olsun,
Dəniz kənarında oxşayıb saçımı,
Ruhuma dolsun.
Bədbəxt, sən ol!
Onu xoşbəxt yaz.
Yaz ki, gülür hər yazı, qışı...
Şeirimdən də, gözəldi,
O qadının baxışı...
Yaz ki, sevincindən ağlayır,
Ürəyində kədər yoxdu,
Onu elə biri sevir ki,
Gülüşü, eşq uclu oxdu.
Bir qadın yaz, mənim üçün,
Ürəyində getmək sözü olmasın...

Bu şeiri Fərhadın dilindən yazmışdım onun üçün. Bu qədər gözəl bir insanın acı çəkməsinə dayana bilmirdim. Ətrafıma baxıram, axmaq insanlar necə də xoşbəxtdi. Elə götürək Bəxtiyarı. O məni tanıyanda, sevəndə gənc, sağlam bir qızdım. Ancaq Fərhad məni baharımda yox, payızımda sevmişdi. Yarpaqları saralmış bir ağacı sevən şair, ya da qışda gül üçün ağlayan bülbülü xatırladırdı mənə. Xəstəxanadan çıxaranda, məni evimə apardı- onun mənim üçün kirayələdiyi evimə. Bütün xəstəxana xərclərini ödəmişdi. İndi də bu elədikləri məni çox utandırırdı, lakin “eləmə” deyə bilmirdim, bilməzdim. O, sevdiyi qadın üçün əlindən gələn hər şeyi etmək

istəyirdi. Mənim bildiyimi, o da bilirdi. Bilirdi ki, mənim ömrüm vəfasızdı- çox yaşamayacağam.Ona görə də gücünün çatdığı hər şeyi etmək istəyirdi. Heç olmasa məndən sonra peşmançılıqla yaşamasın. Ah, Fərhad, ah! Sənin kimi adamı mən necə sevməyə bilərəm? Sənə olan sevgim dünyada yazılan bütün şeirlərdən daha gözəldi, bütün baharlardan daha yaşıl.....

İki otaqlı bir ev idi təzə mənzilim. Yüksəkliyi sevdiyimdən hündür mərtəbəli binalardan birini seçmişdi. Buradan şəhər demək olar ki, quş baxışı görünürdü. Ən əsası insanları görə bilirdim- hekayələrini yazmaq istədiyim insanları. İndi bilgisayarıma qovuşmuşdum. Xəstəxanada olanda başladığım yeni romanımı bitirmək istəyirdim tezliklə. İnsan ölümün yaxın olduğunu biləndə daha gözəl yazırmış. Bir xeyli yazırdım, sonra yazdıqlarımı oxuduqca göz yaşlarımı saxlaya bilmirdim. Bu yazdıqlarıma ürək dayanmazdı. Roman " Eşqin kölgəsi" adlanır. Hadisələr eşq üçün savaşan, lakin həqiqi eşqi deyil, onun kölgəsini görüb, aldanan insanlar haqqında idi. Burada istəyirdim ki, Fərhadı da yazım. Bütün bu yalanların içində tək həqiqət olan Fərhadı. Ancaq onu yazarkən, daha doğrusu, ondan yazarkən ürəyim dözmürdü. O, bir obraza sığmayacaq qədər böyükdü. Belə bir obrazı ancaq Tanrı yazıb-yarada bilərdi. Mənə etdiklərinə görə inşallah Tanrı onu mükafatlandıracaq. Ancaq yaman qorxuram məndən sonra bir dəlilik etməsindən. O qədər sevir ki, inanmıram məndən sonra bu həyatda qala bilsin. Onun üçün bu romanda nəsə fərqli bir şey yazmaq istəyirəm ki, məndən sonra sözlərim, düşüncələrim və sevgim onun yanında olsun, onu qorusun.

Axşama az qalır, o, bir azdan gələcək. Hər dəfə gələndə bir qızılgül gətirir mənə. Gətirdiyi güllərin qoxusu bu dünyaya, onun sevgilərinə aid deyil. Nəsə başqa bir aləmdən gəlir. Bu düşüncələrlə yazıram romanımı. Tələsirəm bitirməyə. Və budur, qapı döyüldü. Qulluqçu qız qapını açır. Bir az sonra Fərhad əlində tutduğu qızılgüllə içəri girir. Gözlərində kədərli bir sevinc var. Sakitcə keçib qarşımda əyləşir. Bilgisayarı söndürüb, kənara qoyuram. İşlərindən, insanlardan danışmağa başlayır. Danışdıqca daha yaxşı anlayıram onu. Niyə ailəsindən uzaqda yaşayır, niyə insanlardan qaçır. Bu qədər düşüncəli

bir insanı bu cəmiyyət anlamaz, anlaya billməz. İndi ona qarşı qəlbimdə bir ana sevgisi oyanır. Kaş onu qəlbimin, ruhumun içində gizlədib, qoruya biləydim insanlardan. Bəlkə də bu dünyadan gedərkən onu da aparmalıyam. Yox, yox, Fərhadın hələ bu dünyada görəsi çox işləri var. Yer kürəsi bəlkə də belə insanlara görə dağılmır. Bir yağış kimidi Fərhad  - dünyanı kirlərdən təmizləyən bir yağmur. Çay süzmək istəyən qızdan sadəcə bir fincana süzməsini xahiş edir. Əvvəl düşünürəm ki, yəqin çay istəmir. Ancaq bir qədər sonra hər şeyi anlayıram. Mənə uzadır fincanı, mən bir az içim sonra özü davam etsin, deyə...

Mənim içdiyim fincandan içmək istəyir çayını. Daha onun bu hərəkətlərinə dayana bilmir, gözlərimə təslim oluram, ağlayıram. İndi ikimiz də ağlayırıq. Bir az ağladıqdan sonra özümüzü toparlayır, sakitləşirik. Romanın necə getdiyini soruşur. Başlayıram yazdıqlarımdan, yazmaq istədiklərimdən danışmağa. Necə də maraqla dinləyir məni. Obrazlarıma ad qoymasını istəyirəm. Çünki, bu əsər hər ikimizin övladıdır. Evlənə bilməyəcəyik heç vaxt, uşaqlarımız olmayacaq. Heç olmasa ikimizə aid bir romanımız olsun istəyirəm. Bu əsər dünya durduqca, insanlar yaşadıqca yaşasın. Bizim sevgimizi, bizim hekayəmizi insanlara anlatsın istəyirəm. Sevdiyi oğlan, qız adlarından deyir. Bir kənara qeyd edirəm. Bu söhbətimizi duyan, eşidən olsa yəqin ki, dəli olardı. Yaxşı ki, qulluqcu qız mətbəxtdə qab yuyur.

Çayını içir mənim toxunduğum fincandan. Sonra siqaret yandırmaq üçün eyvana  çıxır. Bayırda soyuq payız küləyi əsir. Saçları bir az daha uzanıb. Külək saçlarını sığallayır. Gözəl bir mənzərə yaranır. Bunu mütləq romanımda yazmalıyam. Məsələn, küləkli bir gündə görüşə çıxan sevgililəri təsvir edərkən. Hər ikisi sağlamdı, hər ikisi uzun illər yaşayacaq, xoşbəxt olacaq. Bu onların ilk görüşüdü. Fəsillərdən yenə də payızdı. Bir göl kənarında, çinar ağacının altında əyləşiblər. Qız başını oğlanın çiyninə qoyub. Sakit əsən külək onların saçlarını bir- birinə qatır. Oğlanın saçları qızın üzündən, gözlərindən öpür. Necə də xoşbəxtdilər.

Ah, ürəyimdən qara qanlar axarkən belə gözəl cümlələri necə qura bilirəm? Ancaq yazmalıyam, sevgilim. Biz yaşaya bilməsək də, sevgimiz yaşamalıdır... Eyvanda siqaretini çəkib içəri girir. Bir az da söhbət edirik. Saatın əqrəbləri gecəyə doğru qaçır, yəni getmək vaxtıdı. Sağollaşırıq və o, gedir. Gəldiyi kimi səssiz, sədasız gedir. Şairlərdən biri sevdiyinin gəlib-getməsini bir bənd şeirə bənzətmişdi. Necə gözəl bir bənzətmədi, ilahi. Mənim Fərhadım da gözəl bir şeir kimi gəldi, dodaqlarıma qondu və getdi. O getdikdən sonra yenidən bilgisayarımı açır, yazmağa başlayıram. Onsuz da son zamanlar yata bilmirəm. Ağrılar, düşüncələr yuxunu məndən çox uzaqlara qovub. Yazıram. Ürəyimdən barmaqlarımın ucuna axır bütün həyatım. Sabah oyananda, özümü divanın üzərində görürəm. Haçan yuxuladığım yadıma gəlmir. Buradaca, yazarkən uyumuşam. Sağ olsun, qız da incitməyib məni. Bilgisayarı söndürüb, üstümü örtüb. Günəş pəncərəmdən göz vurduğu zaman oyanıram. Yerimdən qalxan kimi pəncərəni açıram, otağımı təmiz hava ilə mükafatlandırıram. Sonra əl-üzümü yuyub, çayın altını yandırıram...

Saat on bir olar, qapı döyülür. Elə bildim Fərhaddı. Ancaq Fərhad indi gəlməz, işdə olmalıdır. Bir az sonra qulluqcu qız qapını açır. Səsləri eşitməkdə çətinlik çəkirəm, ancaq kimsə, deyəsən, məni soruşur. Bəli, yanılmıram, bir nəfər mənim burada yaşayıb-yaşamadığımı soruşur qızdan. Qız nə cavab verəcəyini bilmir. Qapıdakı bir kişidi. Yəqin mənə zərər verə biləcəyindən qorxub, tərəddüd edir qız. Gücümü toplayıb ayağa qalxır, bir təhər qapıya yaxınlaşıram. O an beynimdən vururam sanki, bütün köhnə xatirələr hücum çəkir mənə. Qapıda onu görürəm- həyatımı məhv edib, məni yarı yolda qoyan insanı. Bir andaca bütün yaşadıqlarım sillə olub dəyir üzümə. Qapının yanından heç nə danışmadan geri qayıtmaq istəyirəm, ancaq bu, acizlik olardı. Onunla qarşılaşmalı, gözlərinin içinə baxmalıyam. Qoy görsün ki, mən ölməmişəm hələ, ondan ayrı da yaşaya bilirəm. Hələ bəlkə onu içəri də dəvət edim? Yox, bu artıq Fərhada hörmətsizlik olardı. Axı, mən indi Fərhadın sevdiyi qadınam. Onun üçün elə qapının ağzında onu qarşılamalı, cavabını verməliyəm. Bəxtiyar da, əvvəlki Bəxtiyar deyil. Bunu üzündən, gözlərindən

anlamaq olur. Sanki bu qısa zamanda çox dəyişib, qocalıb. Mən onun nəsə deməsini istəyirəm, ancaq o, heç nə demir, deyə bilmir. Sadəcə başını aşağı dikib dayanır. Yoxsa, bura peşman olduğunumu deməyə gəlib? Hər halda uşaq deyil. Özü də yaxşı bilir bunun faydasız olduğunu. Elə isə, niyə gəlib, nə demək istəyir? Deyəsən, gözlərindən yaş axır. Ağlayırmı, buna inanmıram... Bəxtiyar kimi məxluqat ağlaya bilməz. Mümkün qədər qarşısında dik dayanmağa çalışıram. İstəmirəm məni acı çəkərkən görsün. Ancaq çox dayana bilmərəm. Xəstəxanadan təzə çıxmışam. Onun üçün bir az da düz gözlərinin içinə baxıb, geri dönürəm. Yenə də heç nə demir. Elə qapının yanında dayanıb. Sakitcə içəri - yerimə qayıdıram. Qız qapını örtür. Daha nə etdiyini bilmirəm. Yenidən bilgisayarımı açır, yazmağa başlayıram. Bütün mənfi obrazlar bir- birinə bənzəyirdi. Hamısı birləşəndə lap Bəxtiyara bənzəyirdi.

Necə sevincli günlərimiz olmuşdu onunla. Bir zamanlar hər şeyim olan adam, indi nifrətimin adı olmuşdu. İndi o günlərin xatirəsi bıçaq kimi kəsirdi gülüşlərimi. İlk dəfə nə zaman toxunmuşdu dodaqlarıma... O gün necə də həyəcanlı idim. Az qala öləcəkdim. Evə getdikdən sonra üç gün ağzından dodaq boyasının dadı getməmişdi. Mənim isə boynum ağrıyırdı. İndi isə ruhum ağrıyırdı, xairələrim ağrıyırdı. İnsan bir zaman sevdiyinə heç vaxt həqiqi mənada nifrət edə bilmir. Bunu indi anlamışdım. O qədər çox sevmişdim ki, Bəxtiyarı, indi nə qədər nifrət etsəm də, o sevginin yanında kiçik qalırdı kinim. Bax, bu düşüncələrlə yazırdım romanımı. Demək, yazılan əsərlərdə yazıçının həmin andakı hissləri əsas rol oynayırdı. Məsələn, yazar xoşbəxtsə, obrazı da xoşbəxtdi, ya da əksi.  İndi yazır və bir an öncə axşamın gəlməsini gözləyirdim. Axşam, mənə Fərhadı gətirəcəkdi.

Bu axşam gələndə sadəcə bir fincan çay qoyacam masaya. Və ilk onun içməsini təklif edəcəm. Axı, o ləzzəti mən də yaşamaq istəyirəm. Gözlədiyin zaman vaxt dayanır, sanki günəşi kimsə baxışları ilə tutub saxlayır. Bəlkə də uzun zamandır görüşməyən sevgililər görüşüb, bu gün və onların ancaq günəş batana qədər vaxtları var? Bəlkə onların həsrətlə döyünən ürəkləridir günəşi saxlayan, batmağa qoymayan?

Tapdığım hər gözəl sözdən, fikirdən sonra uşaq kimi sevinirdim. Axı, niyə bu qədər gözəl sözlərin olduğu həyatda gözəl sevgilər yaşanmır, gözəl şeylər olmur? Məsələn, elə deyək mənə yardımcı olan qızın hekayəsi. Danışsam, ürəkləriniz parçalanacaq, həyata bir az da nifrət edəcəksiniz. Ancaq mənə elə gəlir ki, burada Gülnarın da günahı olub. O, üçüncü kursda oxuyanda, onbirinci sinif şagirdi bir oğlanla sevgili olub, nişanlanıblar. Oğlan gedib əsgərliyini çəkib gəlir. Bunlar evlənirlər. Gülnarın oxuması, ali təhsilli olması oğlanın ailəsinin xoşuna gəlmir. Onların düşüncəsinə görə, oxuyan qız pis yola düşmüş kimi sayılır. Təsəvvür edin, dörd ilə qıraq şəhərdə oxuyub. Nə biləsən, bu dörd ildə nə iş görüb, neçə oğlanla sevgili olub. Bax, bütün bunlara görə Gülnarı gəlin kimi heç vaxt qəbul etməyiblər. Bir neçə gündən sonra məcbur olub, şəhərə gəlirlər. Yola çıxarkən bir yaxşı yol belə deməyiblər. Gülnar əri ilə beləcə qaçıb gəlib. Ancaq burada da, çətinliklər onların yaxasını buraxmır. Bir yandan da ərinin xəstəliyi. Sən demə oğlanın heç vaxt uşağı olmayacaqmış. İmkanları da olmur, həkimə getməyə. Həyat təcrübəsi olmayan oğlan, düzəmməli bir iş də tapa bilmir. Ancaq tikintilərdə fəhlə kimi işləyirmiş. Bütün iş düşür Gülnarın üzərinə. Qazandıqları az pulla yaşaya bilmirlər. Günü-gündən problemlər, borclar artır. Elə günlər olur ki, evlərində qazan qaynamır. Oğlanın ailəsi heç bir yardım etmir, Gülnar da utanır ailəsindən kömək istəməyə. İşin sonunda belə getməyəcəyini anlayır və boşanmaq qərarına gəlirlər. Buna heç biri etiraz etmir. Gülnarın sözlərinə görə, əgər, bir övladı olsa, heç vaxt ayrılmazmış, lakin onunla qaldığı müddətdə ana olmaq şansı yoxmuş və ayrılırlar. Ayrılarkən də, borclarını yarıya bölüb, sağollaşırlar. Gülnar indi də ana olmaq sevgisi ilə alışıb yanır. Ancaq o, elə bir cəmiyyətdə yaşayır ki, boşanmış qadınlara yaşamaq üçün şans vermir cəmiyyət. Onun bir neçə yolu qalırdı. Məsələn, ya yaşı çox olan bir kişinin ikinci arvadı olacaq, ya pis yola düşəcək ya da belə əzab çəkəcək. O, namuslu bir həyatı - işi seçmişdi. Beləcə xəstə insanlara yardım edir, cəmiyyətdən uzaq olaraq həyatını davam etdirməyə çalışırdı. Boşandıqdan sonra ailəsi də üç çevirmişdi ondan. Onlar üçün, sanki Gülnar nəsə bir əxlaqsız iş görmüşdü. Bax, bu şəhər

belə qadınlarla, belə hekayələrlə doludur. Kimi dindirsən, öz yaralarından danışacaq... Bəzən öz- özümə düşünürəm: - görəsən, heçmi, xoşbəxt insan yoxdur bu dünyada... Məncə yoxdur, sadəcə bədbəxtlər iki yerə bölünür. Birincilər ki, bədbəxtdilər, ancaq bundan özlərinin xəbəri yoxdu deyə, özlərini xoşbəxt sanırlar. İkincilər isə bədbəxtdirlər və bunu bilirlər...

İndi günəşin batmasına az qalır. Sevgililər ayrılmalıdırlar. Oğlan uzaqda yaşayır. Bir neçə aydan bir ancaq görməyə gələ bilir sevdiyini. İndi ayrılmalıdırlar, ancaq heç birinin ürəyi istəmir bu ayrılığı. Bəlkə, bir daha görüşə bilməyəcəklər. Qız oğlanı özünə tərəf çəkir, qoxusunu ciyərlərində gizlətmək istəyir, üzündən öpür. Utanmasalar uşaq kimi ağlayarlar. Axı, niyə utanırlar ki, ağlamaq məgər pis bir şeydi? Və qalxırlar oturduqları skamyadan. Oğlan qızın əlindən möhkəmcə tutub, ancaq həyatda tuta bilmir. Bu son olur - son görüş. Onlar bir daha görüşə bilmirlər. Qız bir gün xəbər etmədən yoxa çıxır. Günlərcə ağlayır oğlan... Sonra adiləşir acı və bir gün unudur.

Bu həyatda ən pis şey adiləşən dərdlər, acılardı. Günəş batır yavaş-yavaş və bu dediklərim, sadəcə yazdığım romandan bir parça idi. Günəş batır. Demək bir azdan Fərhad dükanı bağlayıb, bura gələcək və mən sevdiyimi görə biləcəm. Gülnar çay dəmləyir. Masanın üzərində bir fincan sevgilimin dodaqlarını gözləyir. Günəş daha görünməz olur, dağların başına dolanıb gedir uzaqlara. Saatın səsi ilə bir vurur ürəyim. Saat tik- tak, tik- tak, ürəyim isə Fər- had, Fər- had deyə vurur. Və budur, qapının zəngi çalınır. Az qalıram ayağa qalxıb, qapıya tərəf qaçam. Ancaq Gülnar əngəl olur mənə və qapıya tərəf gedir. Budur, o, qapıdan içəri girir. Əlində yenə bir qızılgül və deyəsən simit də alıb çay içmək üçün. Zarafat edir, mənə gülə-gülə: “Tez sağal da, çayımızı dükanda içək, burada ləzzət eləmir” - deyir.

Onun üzündə təbəssüm görmək məni də sevindirir. Ancaq bilirəm, məni üzməmək üçün güldüyünü, gülən gözlərinin dərinliyində necə fırtınların qopduğunu. Onun bu halı çox üzür məni. Bütün acılarının mənbəyi mənəm. Bəzən “ ayaqlarım qırılaydı da, o

gün çıxmasaydım qarşısına" - deyirəm. Necə də sakit bir həyatı vardı. Sıradan bir həyat yaşayırdı, ancaq acı çəkmirdi. Bəlkə, xoşbəxt deyildi, lakin bədbəxt də deyildi.. Bəs, indi, indi onun halı necəydi? Mən ona nə vermişdim, daha doğrusu verə bilmişdim. Bəlkə, də yaşamaq üçün səbəb. Məna qatmışdım onun bomboş həyatına. Bəli, mən onun imtahanı idim. İmtahan isə mənim ölümümlə bitəcəkdi. Ya bu sınağı uduzaraq mənimlə birlikdə öləcəkdi, ya da sevgimiz üçün yaşayacaq və bu dünyaya gözəllik saçacaqdı. Bu gün də romanımı soruşdu. Mən də yazdığım maraqlı səhnələrdən dedim ona. Bəzən öz fikirlərini bildirir, mənimlə razılaşmadığı məqamları deyirdi. Ancaq əsasən razılaşırdıq. Mənə " özüm yazsam, ancaq bu qədər anlada bilərdim hisslərimi" - deyirdi. Demək ki, eyni şeyləri hiss edə bilirdik. Buna çox sevinirdim. Axı, bu bizim hekayəmiz, bizim romanımızdı. Biz öldükdən sonra, bizim yerimizə yaşayacaq, xoşbəxt olacaqdı.

Çay süzlmüşdü və mən, ilk onun içməsini istədim. Məsələni başa düşüb güldü. Gülnar smitləri səliqə ilə doğrayıb, masanın üzərinə qoymuşdu. Fərhadın dodaqları fincana toxunarkən, dəli bir qısqanmaq keçdi könlümdən. O an fincanı əlindən alıb, atmaq istədim. Sonra da bu uşaq düşüncələrimə güldüm. Sonra mənə uzatdı fincanı. İlahi, necə gözəl bir hissdi, sevdiyinlə eyni fincanı bölüşmək, ondan çay içmək. Bu belə gözəl olanda. gör indi eyni ömrü paylaşmaq necə gözəl olardı... Bax, yenə kövrəldim. Bağışla, sevgilim, bağışla ki, məni səninlə bölüşəcək bir ömrüm yoxdur. Ancaq mən səni çox sevdim, inan mənə hər şeydən- özümdən belə çox sevdim. Səninlə ancaq dərdərimi, acılarımı bölüşdüyüm üçün, məni bağışla. Əlbəttə, bunları ona demədim, sadəcə ürəyimdən keçirirdim. Ona desəm yəqin ki, çox üzüləcəkdi. O, üzüləcək, mən isə öləcəkdim... Sadəcə susdum və onun gözlərində bir yolculuğa çıxdım...

Bir dağ gölündə gedirik, balaca qayığımız var. Qayığı külək istədiyi kimi aparır. Heç nə demirik, düşünmürük. Axı, birdən bizi çox uzaqlara aparar, geri dönə bilmərik. Əsas odur ki, biz birlikdəyik və külək özü qayığımızı aparır. Deyəsən, onda da payızdı. Gölün üzərində saralmış yarpaqlar var. Onlar da bizimlə bir məchula doğru üzür. Heç nə danışmadan sakitcə dayanmışıq. Göyün üzündə

bir neçə bulud var. Buludlardan biri, dağlardan meşəyə tərəf qaçır. Bu qara bulud yağmur bulududur deyəsən. Meşədəki susuz ağaclar onu çağırır. O isə bu dəvət üçün tələsir. İndi onun yolunu həsrətlə gözləyən güllər, çiçəklər var. Digər buludların rəngi duman rəngindədir. Onların vəzifəsi nədir görəsən? Bəlkə də onlar hələ balacadırlar. Onlar da böyüyüb, qara bulud olub, bir çiçəyin dodaqlarına su olacaqlar.

Qayıq dayanmadan üzür. Əlimi gölə uzadır, quru yarpaqlardan birini götürürəm. Mənə baxıb gülümsəyir, həm yarpaq, həm Fərhad... Görəsən indi hara gedirik biz. Yəqin ki, xəyallar ölkəsinə. Bax, sağlamam mən, hər iki döşüm yerindədi, canım da yanmır. Fərhadın gözləri ürəkdən gülür. Üzü xoşbəxtliyə doğru üzürük. Yalanlar ölkəsindən qaçırıq, külək aparır bizi o getmək istədiyimiz uzaqlara... Buludların kölgəsini dağıdır qayığımız. Elə bu zaman göy guruldayır deyəsən. Geri dönmək lazımdır, ancaq istəyirikmi bunu? Məncə, yox... Külək istəyimizi duyur və istiqamətini dəyişmir. Sonra göl qurtarır, biz indi dağlardan, obalardan keçərək gedirik. Bəli, deyəsən uçuruq. Bütün bədbəxtliklərimiz görünür aşağılarda. Biz hara gedirik, hardan gedirik bilmirik... Aşağıda şəhərlər, kəndlər yox, acılar, dərdlər görünür və biz onların üzərindən keçib gedirik. Birdən gözlərini qırpır Fərhad və mən özümə gəlirəm və onun gözlərində gördüyüm dünyadan ayrılıram...

## Mariya

İndi heç olmasa dost olmuşduq onunla, ancaq sevdiyinlə dost olmaq? Bax, buna sevinəsənmi, üzüləsənmi, insan bilmir. Fərhadı daha yaxından tanıdıqca, sadəcə ona aşiq olmaq olardı, mən də aşiq olurdum. O, mənim işığımdı, pərvanə kimi onun ətrafında dönüb dolaşırdım. Ancaq o işıq bir başqası üçündü. Həyatını, həyatındakını, hər şeyi bilirdim. Bildikcə, tanıdıqca, necə sevməyəsən, bu insanı, necə...

Günlərim onun yan-yörəsində keçirdi. Oxuduğum üniversitet dükanına yaxın olduğundan dərsə gedərkən də, çıxarkən də mütləq onunla görüşürdüm. Daha mənim dostluğuma alışmışdı. Əminəm ki, bir dost kim o da məni çox istəyir- ancaq dost kimi. Elə istərdim ki, onun həyatı olmaq, həyatının vaz keçilməzi olmaq. Ancaq bir gün onun heç istəmədiyi, mənimsə, ürəyimdən olan bir hadisə baş verdi. Bundan sonra məndən bir az uzaqlaşmağa çalışırdı. Günlərin birində yenə dərsdən çıxırdım. Təxminən saat iki olardı. Bir az uşaqlarla danışdıqdan sonra, onun dükanına getdim. Sakitcə əyləşib kitab oxuyurdu. Bu sükutu tez-tez pozan yalnız dükandan kitab soruşan tələbələr idi.

Günörtda vaxtı olduğundan sıxlıqdı. Dərsə gedən, dərsdən gələn tələbələr bir- birinə qarışıb izdiham yaradırdı. Başı qarışıq olduğuna görə, ona yardıım etmək istədim. İndi mən də müştərilərlə maraqlanır, onlara yardımçı olurdum. Bu hərəkətim onu narahat etmədi, ancaq sevindirmədi də. O qədər soyuqqanlılıqla qarşıladı ki... Beləcə, bir saata yaxın vaxt keçdi. Yavaş- yavaş ara səngiyir, gələnlərin sayı azalırdı. Artıq tələbə yoldaşlarım ona olan hisslərimi, bu dükandan çıxmadığımı bilir, ancaq mənim əvvəlki həyatım, cəsarətim onları qorxutduğundan, heç nə demirdilər. Adımın onunla çıxmağı məni sevindirsə də, onun ürəyindən deyildi. Qorxurdu ki, birdən Ləmanın qulağına nəsə çatar. Üzülməz, ancaq... Yox bu olmazdı, olmamalıydı. Bu günlər, həftələr ərzində bir dəfə də olsa, mənə qarşı bir addım atmamışdı, ancaq balaca bir dostu kimi maraqlanırdı mənimlə. Ona görə Ləmanın yanında üzü ağ idi. Müştərilər tamamilə çəkiləndən sonra ac olduğumu, çıxıb nəsə yeməyi təklif etdim. Əvvəl qəbul etmədi, ancaq baş-beynini bir az apardıqdan sonra məcbur oldu, razılaşdı. Dükanı bağlayıb yola düzəldik. Onun yanında özümü bir uşaq kimi xoşbəxt hiss edir, hərdən şıltaqlıqlar edirdim. Mənim bu hərəkətlərimə əsəbləşmir, sadəcə gülümsəyirdi. Beləliklə, yaxınlıqdakı türk yeməkxanalarından birində əyləşib, dönər, ayran sifariş verdik. Bundan gözəl tələbə yeməyi ola bilməzdi. O, tələbə deyildi , ancaq balaca dostunun istəyi ilə razılaşmalı oldu. Üzündə təbəssüm olduğu zamanlarda belə,

gözlərindəki kədəri görürdüm. Mən onun yaşamasını, gülməsini istəyirdim. O, yaşayırdı əslində, onu yaşadan acıları idi. Bəzən qorxa-qorxa anlayırdım ki, bu acılar bir gün bitsə, o ölə bilər. Onun ürək döyüntüləri Ləmanın nəfəsi idi. Ah, o necə də incə bir insandır! Bu nəhəng gövdənin içində balaca bir uşaq vardı və mən, o uşağı sevmişdim. Ancaq o uşaq böyüməli idi. Fərhadın yaşaması üçün böyüməli idi içindəki uşaq. Qıraqdan o qədər güclü görünürdü ki, deyərdin bu adamı heç nə yıxa bilməz. Ancaq bir qadın, bir sevgi qarşısında tamamilə silahsız idi. Həyat davam edir, Ləmandan sonra da davam edəcək desəydim, bilirəm ki, məni bir daha görmək istəmədiyini söyləyəcəkdi. Yenə deyirəm, mən onun yaşamasını istəyirdim və bunun üçün əlimdən gələn hər şeyi edəcəkdim. Dönərdən sonra, bir dənə də limonlu çay içib oradan çıxdıq. Heç evə getmək istəmirdim. Ürəyim eləcə gəzmək- onunla birlikdə gəzmək istəyirdi. Bunu mızıldanaraq ona bildirdim. Qarşısında o qədər əzilib-büzüldüm ki, yenə məcbur oldu mənimlə razılaşmağa. Bax, onun axırına çıxan bu incə qəlbi idi. İstəsə mənimlə razılaşmaya bilər, dükanına- işinin başına gedərdi. Ancaq olmadı, qıra bilmədi məni.

Dənizin sahilinə getmək istəyirdim, qağayılarım üçün darıxmışdım. Olduğumuz yerdən dənizə qədər bir saatlıq yol vardı, ancaq yerimək istədik. Söhbət edə- edə, sahilə doğru gedirdik. Qoluna girmək, əlindən tutmaq istəyirdim, lakin qorxurdum- həm onu, həm də özümü incitməkdən. Bax, beləcə addımlayırdıq. Bəlkə də, kənardan baxanlar məni necə bəxtəvər biri adlandırıdı. Belə yaraşıqlı oğlanla yanaşı getmək neçə qızın arzusu idi. Ancaq ürəyimdən keçənləri bir mən bilirdim. Bir atalar misalı var ey "içim özümü yandırır, çölüm özgəni" bax, mənim vəziyyətim indi düz belə idi.

Yavaş-yavaş yaxınlaşırdıq sahilə. Dənizin qoxusu, qağayıların səsi insanı yaşamağa, sevməyə, xoşbəxt olmağa çağırırdı. Dəniz hər zaman insanın ürəyində romantik duyğular oyadır. Onun üçündür yəqin sevgililərin çox vaxt bura gəlməsi. Hər kəs sevdiyinin əlindən tutur, ona sığınırdı. Mən isə Fərhadın əlindən tutmağa belə qorxurdum. Əslində, heç də hər şey dediyim kimi deyildi. Bu dəniz kimi, insanları da kirlənmişdi bu şəhərin. Bir zamanların gözəllik

rəmzi olan dəniz indi sularında sadəcə kiri, pası daşıyırdı. Necə də kirlətmişdik buranı. Şeirlərdə masmavi dənizim demişdi şairlər, sevgililərin gözlərinə bənzədilmişdi dəniz. İndi kir- pas içində idi. Nə maviliyindən əsər qalmışdı, nə də hansısa sevgilinin gözlərinə bənzəyirdi.

Dəniz təmiz olanda sevgilər də, bu şəhər də, sevgi şeiri yazan şairlər də elə bil daha böyük, daha qiymətli olurlar... İndi nə sevgi qalmışdı, nə şeir. Gənclər buradan sanki bir otel kimi istifadə edirdi. Hər skamyada qucaqlaşan, öpüşən gənclər vardı. Və bunlar sevgidən çox uzaqdı. İnsan sevdiyinin əlindən tutub, bu gözəlliyi seyr etməli, həyəcanlanmalı idi əslində. Nələri itirmişdik, nələri... Bunları görüncə, Fərhadı tanıdığım üçün nə qədər şanslı olduğumu anladım. Mənim istədiyim nəydi? Saf bir sevgimi?

Elə isə, bu sevgini Fərhadın sayəsində iliklərimə qədər yaşaya bilirdim.

Əlindən tutmağa qorxduğum bir sevdiyim vardı. Daha o gənclərə həsədlə baxmırdım. Onlardan biri olmaq elə də çətin deyildi. Elə, indi də mənimlə bu cür sevgili olmağa hazır olan onlarca cavan oğlan vardı. Gələrdik bura, bir kənarda doyunca öpüşərdik, ancaq bu, əsla sevgi olmazdı. Fərhadla sahildə gəzir, uzaqlara baxır, dənizin göy üzü ilə birləşdiyi yerlərdə yoxa çıxırdı baxışlarımız. Bura gəlmək istəmişdim, çünki ilk dəfə burada tanış olmuşduq onunla. İnanırdım ki, burada nəsə olacaq yenə. Onun qəlbində yenə o gün yaranmış duyğuları canlandırmaq istəyir, belə düşündüyüm üçün bəzən özümə nifrət edirdim. Çünki mən, xəstə - ölümcül xəstə olan bir qadının sevgilisini əlindən almaq istəyirdim. Ancaq ağılla düşündükcə inanırdım ki, elə Ləman da onun sevdiyinin xoşbəxt olmasını istəyərdi. Ləman çox gözəl bilirdi ömrünün vəfasız olduğunu. O da bir bəhanə gəzirdi Fərhadı yaşatmaq üçün. Ləman həyatda olduğu müddətdə Fərhad onu atmayacaq. Bunu, heç mən də istəmirdim. Mənim bütün xəyallarım Ləmandan sonrası üçündü. Sevdiyimi yaşatmaq, onunla birlikdə yaşlanmaq istəyirdim. Bir az qabaqda ilk dəfə tanış olduğumuz skamya vardı. Çalışırdım ki, bir bəhanə tapıb, orada əyləşək. Bilirdim, bura onun da yadındadı və istəyəcək ki,

buradan uzaqlaşsın. Onun üçün ora çatana qədər ağlıma min bir fikir gətirdim. Və ora çatmağa az qalmış biləpəkdən özümü yerə atdım, güya biləyimi incitmişdim. Bunun qəsdən olduğunu anladımı, bilmirəm, ancaq qoluma girib, skamyaya əyləşmək üçün mənə yardımcı oldu. İndi orada yanaşı əyləşib, dənizi izləyirdik. Buranın havası tam fərqli idi. Bu romantika istənilən insanı yoldan çıxara bilərdi. Elə Fərhadı da ilk dəfə bu atmosfer başdan eləmişdi. Yavaş-yavaş ona yaxınlaşmağa çalışırdım. Ürəyim az qala yerindən çıxıb bu dənizə atacaqdı özünü. Külək onun saçları ilə oynadıqca ağlıma pis-pis fikirlər gəlirdi. Pis deyəndə ki, saçlarını oxşamaq, başımı çiyninə qoymaq kimi. Ancaq mən onun yanında əyləşməyə belə çəkinirdim. Külək dənizin qoxusunu üzümüzə vurduqca dərin düşüncələrə dalırdıq. İndi heç birimiz danışmır, sadəcə susurduq. Mən onu düşünürəm, onu, Ləmanı... Bəs, görəsən Ləman nə edir indi? Canı çox yanmır ki?...

Külək sürətini artırdıqca məni Fərhada doğru atırdı. Daha qorxmağın yeri yox idi. Həm də onun düşüncələri o qədər uzaqlara getmişdi ki, bəlkə də məni görmürdü. Sakitcə düz yanında əyləşdim. İndi əsən külək saçlarını üzümə vurur, onun qoxusunu hiss edirdim. Bu an elə xoşbəxt idim ki, istəyirdim heç bitməsin. Di gəl ki, insan övladı heç vaxt sahib olduqları ilə yetinmir, hər zaman daha artığını istəyirdi. Elə mənim də ağlıma başqa düşüncələr gəlirdi. Məsələn, “ indi başımı onun çiyninə qoysam görən nə olar” – deyə düşündüm. Bu an qağayılar haray verərək dənizə enir, sonra yenidən yuxarıya qalxırdı. Qəribədir, bəzən bir balığın üstündə bir neçə qağayı savaşır, savaşı qazanan, balıq ağzında daha da yuxarılara qalxaraq zəfərinə sevinirdi. Bəzən, Ləmanla özümü o qağayıların yerinə qoymaq istəyirdim, ancaq elə deyilldi. Ləman savaşmadan belə qalib gəlmişdi mənə. Bu xəstə halı ilə məndən daha güclü idi, çünki Fərhad onu sevirdi. Bu düşüncələrlə mən də özümdən keçmişəm.

Sahilə yaxınlaşan gəmilərdən birinin fiti məni özümə gətirdi. Başım Fərhadın çiyninə söykənmişdi... Bunu bilə- bilə etməmişdim, ancaq olmuşdu. İşin qəribəliyi də o idi ki, Fərhad da heç

nə etmir, yenə sakitcə dayanıb dənizə baxırdı. Başım çiynində olanda, indi onu daha çox istəyirdim.

Atəşə yaxın olub yanmamaq mümkün deyildi və mən yanmaq istəyirdim. Külək onun saçlarını üzümə vurduqca dəli olur, heç nə düşünə bilmirdim. Birdən tellərindən biri dodaqlarıma toxundu. Bu zaman tez dilimi çıxarıb o teli tutdum. İndi saçının qoxusu ilə yanaşı, dadını da hiss edirdim. Çox qorxurdum ki, birdən bilər, mənə acığı tutar. Ancaq şeytana lənət, ağlımı elə qarışdırmışdı ki, başqa heç nə düşünmür, onun mənə bu qədər yaxın olan dodaqlarına həsrətlə baxırdım. Görəsən, niyə qalxmır, niyə belə olmasına izn verir... Dəqiq bilirdim ki, bunu bilərək etmir. Onun bütün qəlbi, ruhu Ləmana aiddir. Sadəcə ani bir boşluq yaranmışdı və mən ondan istifadə edirdim. Külək isə şirin- şirin əsir, bizim xəyalımıza layla çalırdı, daha doğrusu mənim xəyallarıma... İndi gözlərimi dodaqlarından çəkə bilmir, onları ağzımda hiss etmək istəyirdim. Bu, imkansız görünürdü, lakin bayaqdan imkansız bildiyim çox şeyi etmişdim. Yavaşca ona tərəf əyildim. İndi onun nəfəsini də aydınca üzümdə duya bilirdim. Özümə də çox maraqlı idi, görəsən nə olacaq işin sonu? Əgər onu öpə bilsəydim əsəbləşsə də, məndən qaça bilməyəcəkdi, yox əgər bacarıqsız olsam, bəlkə də bir daha belə hadisənin olmaması üçün uzaqlaşacaqdı məndən. Qorxudan, həyəcandan dəli olmaq üzrə idim. Qalın, şirin dodaqları vardı. İlk dəfə bu qədər yaxından görə bilirdim. Azca islaq, bir az da quru- ölümüm olan dodaqlar. İndi burnum onun üzünə dəyirdi, ancaq hələ də olduğu yerdəcə dayanmışdı. Külək deyəsən bir az da bərkimişdi. İndi kimdir küləyi düşünən? Ulduzlar göydən yerə tökülsə də, məni tərpədə bilməzdi. Başımı azca yuxarı qaldırıb, dodaqlarımı saqqalına toxundurdum. Daha mən ölmüşdüm, daha doğrusu öldüyümü düşündüm. Bundan sonra düşüncələrimi itirdim. Olan hər şey öz- özünə oldu. Külək bir anlıq dayanmışdı, dəniz də dalğalanmırdı. Bayaqdan bəri uçan qağayılar da deyəsən yorulmuşdu. Sağ əlim üzünə haçan getdi bilmədim. Üzünü mən tərəfə çevirəndə gözlərimi yumdum. Qorxurdum, baxışlarını görsəm özümü itirər,

istəyimi həyata keçirə bilməzdim. Gözlərimi yumdum və onu özümə tərəf çəkdim. Hə, indi onun dodaqlarını duyurdum, yaşayırdım onu...

Bir neçə dəqiqə ərzində öpüşlərimə qərq etdim dodaqlarını. O, qarşılıq verirdi mənə. İndi bir sevgili kimi öpüşürdük, ancaq onun dodaqları soyuqdu. Bir damcı nə sevgi, nə ehtiras yoxdu dodaqlarında. Öpüşürdük, qağayıların dənizi öpdüyü kimi. Birdən sərt bir külək üzümüzə vurdu və ayıldıq bu röyadan. Tez ayağa qalxmaq istədi, lakin dodaqlarından tutub, onu qalxmağa qoymurdum. İstəmirdim bu mənzərənin bitməsini. O, qalxmaq istəyir, mən isə boynundan bərk- bərk yapışıb, buna əngəl olurdum. Bir an ürəyimdən dodağını dişləmək keçdi, ancaq bundan artıq irəli gedə bilmədim. Məcburən əllərim yanıma düşdü, dodaqlarını xilas edə bilmişdi məndən. Ayağa qalxandan sonra da heç nə demədi, mənə. Sadəcə tərs- tərs baxıb, bir siqaret yandırdı və oradan uzaqlaşmaq istədi.

Daha olan olmuşdu. Anasının ardınca qaçan balaca uşaqlar kimi, mən də onun arxasınca qaçmağa başladım. Nə ona yaxınlaşır, nə də gözdən qoyurdum. Düz metroya qədər bu şəkildə getdik- o öndə, mən isə arxada. Nə isə, metroya düşdük. Qatarda oturmağa yer olmadığından, elə qapının ağzında dayanıb dəmirdən tutmuşdu. Mən də tez içəri girib onun önündə dayandım, boynumu büküb, ona sığınmışdım. Qıraqdan baxan yenə məni balaca bir uşağa bənzədərdi. Anasının sözünə baxmayıb, danlanan, ancaq yenə anasına sığınan, balaca bir uşağa. Mənim bu halım deyəsən onun əsəblərini sakitləşdirmişdi. Mənə baxıb başını buladı və gülümsədi. Onun gülən gözlərindən cəsarət alıb bir az da sıxıldım ona. Bilirdim ki, burada, insanların içində heç nə deməsə belə, mütləq güclü danlanacam. Ancaq xoşbəxtdim, nə olacaqsa, olsun. Əsas o idi ki, onun yanındaydım, toxuna bilmişdim dodaqlarına. Ürəyim indi bir az sakit döyünürdü. Ancaq, Ləman ağlıma düşən kimi özümü günahkar hiss edir, bir sancı dolurdu sinəmə. Nəhayət ki, metrodan çıxdıq və dükana doğru getməyə başladıq. Daha doğrusu, o öndə gedir, mən də ondan əl çəkmirdim. Heç nə demədən sakitcə dükanın qapısını açıb içəri girdi, qapını da örtdü. Anlaşılan bu idi ki, mənim gəlməyimi istəmirdi. Mən də onu acıqlandırmamaq üçün içəri keçmədim. Elə

dükanın yanında, o tərəf- bu tərəfə gedir, məni içəri dəvət etməsini gözləyirdim. Hər halda pəncərədən məni görürdü və istəsə içəri dəvət edəcəkdi. Saat beşə yaxınlaşırdı. Payızın soyuq nəfəsi insanın üzünü dalayır, arada dağlardan qonaq gəlmək istəyən yağmur damcıları saçlarımıza qonurdu. Deyəsən, bir az üşümüşdüm. İnsafsız, deyə keçirdim ürəyimdən. O, orada, isti yerdə otursun, mən də burada soyuqdan üşüyüm... Sonra elədiklərimi xatırladım və ona haqq qazandırdım. Adamı rəsmən yoldan çıxartmışdım. Yəqin, mənim yerimdə bir başqası olsaydı indi çoxdan çıxıb getmiş və uzun müddət utancından üzə çıxmamışdı. Mən isə inadla qapının yanında gəzir, içəri dəvət edilməyi gözləyirdim. Əvvəl-axır vicdanı sızlayacaq və məni içəri çağırcaqdı. Bəs, sonra nə olacaq? Deyək ki, girdim içəri, o da qapını örtdü. Orada onunla nə danışacam, səhvimi hansı sözlərlə ifadə edəcəkdim, bilmirdim. Bunları düşünərkən bir an qaçmaq istədim. Ancaq bu düşüncəni özümə yaraşdırmadım. Mən qorxaq bir qız deyildim ki, qaçam. Nə olacaqsa, olsun.

Ya bağışlasın, ya da qovsun məni yanından. Ancaq üzləşək, danışaq, bu məsələ həll olunsun. On dəqiqə də hərləndim oralarda. Birdən qapı açıldı və o, çölə çıxıb bir siqaret yandırdı. İndi hava əməllicə soyuqlaşmışdı. Oktyabrın son günləri idi. Yavaş- yavaş yağış çisələyir, adamı əməlli- başlı üşüdürdü. O isə siqaretini çəkir, məni görmək istəmirdi. Bir az yaxınlaşıb, düz yanında dayandım. Ona tərəf gəldiyimi görüb bir az qapının ağzından uzaqlaşdı. Elə mənə də bu lazım idi. Tez qaçıb içəri girdim. İçəri qəşəng isti idi. Çaydanda çay da vardı. Özümə bir çay süzüb, onu gözləməyə başladım. O isə başını bulaya- bulaya ikinci siqareti yandırmışdı. Bu gün onun başına açdığım oyunlardan sonra nə etsə, haqqı vardı mənə. Çay içib isinmişdim, ancaq indi də o, içəri girmir, çöldə, soyuqda dayanırdı. Əgər bir az da gəlməsə, çıxıb gedəcək və onu narahat etməyəcəkdim. Bu sonuncu hərəkəti məni bərk incitmişdi. Onu çox sevirdim, lakin qürurumun bu qədər incidilməsinə də izn verə bilməzdim. Bu hərəkətlə özümü, özümə olan hörmətimi itirərdim. Ancaq belə olmadı. O, ikinci siqareti zibil qabına atıb içəri girdi. İndi qarşımda dayanmışdı. Üşüyə biləcəyini düşünüb, ona da bir çay süzdüm.

Gözlədiyim kimi heç nə demədi, məni danlamadı. Sadəcə qarşımda əyləşib gözlərimin içinə baxırdı. Bu, cəzaların ən böyüyü idi. Kaş nə isə ağır bir söz deyəydi, ancaq susmazdı. Susaraq nə qədər çox şey demək olurmuş, bunu indi anlayıram.

Gözləri mənə Ləmandan danışırdı. Mən xəstə bir qadının sevdiyinə əl uzadacaq qədər əclaf idim onun nəzərində. Sonra həyatı boyunca yalnız Ləmanı sevəcəyini söylədi gözləri. Yalnız onu sevirdi, özü də ölümünə... Bax, o an anladım onun üçün bir heç olduğumu, mənim bütün varlığımın, Ləmanın bir saç telindən daha az dəyərli olduğunu.

Fərhad susur, gözləri isə məni real həqiqətlə tanış edirdi. Az qalırdı ağlayam, ancaq ağlamırdım. Sonuna qədər onu dinləməliydim. Birdən gözlərində bir mərhəmət qırıntısı duydum. Bu dəfə başqa bir şey də dedi, gözləri mənə. “Əgər Ləmandan öncə səni tanısaydım, əgər”- dedi. Bu sözlər bundan sonra yaşamaq, savaşmaq üçün mənə güc verəcəkdi. Ancaq daha özümü saxlaya bilmədim, ağladım. Hıçqıra-hıçqıra ağlayırdım. Daha orada qala bilmədim və özümü qapıdan çölə atdım. Arxama baxmadan qaçırdım. Qorxurdum ki, birdən arxamca gələr və bu dəfə mən dayana bilmərəm. Düz evə gələnə qədər dayanmadım. Tez qapını açıb içəri girdim və otağıma keçdim. Kimsə məni narahat etməsin deyə otağın qapısını arxadan bağladım. İndi çarpayımda üzüüstə uzanıb ağlayırdım. Bu gün nə qədər şey yaşamışdım! Sevgi, ehtiras, həyəcan və peşmanlıq. Sonuncu hamısına dəyərdi. İndi peşman olmuşdum. Gərək ona toxunmayayadım. Mən həqiqətən pis bir qızam. Bir ara düzəldiyimi düşünmüşdüm, ancaq yanılmışam. Xəstə bir qadının sevdiyini əldə etmək istəmişdim və hələ də bu istəyimə qalib gələ bilmirdim...

## Bəxtiyar

Ləmanı gördükdən sonra atəşim daha da artmışdı. Onu görməyə getdim, ancaq bir söz belə deyə bilmədən geri döndüm. Deməyə sözüm yoxdu. Onu elə görəndə özümə, kişiliyimə nifrət

etdim. Bağışla demək, indi ona bir söyüş olardı. Nəyi və necə bağışlasın? Anladım ki, bağışlanacaq bir şey yoxdur. Bu acı vicdan əzabı ilə vuracam ömrümü başa. İndi sevdiyim qadına bir başqa kişi sahib çıxıb qoruyurdu. Bir sözlə, nə başınızı ağrıdım, mən ölmüşdüm. İnsan ölər və ölümün əzabını duyardı. Mən yaşamağıma baxmayaraq, həm həyatın, həm də ölümün acısını duymağa, yaşamağa məhkum edilmişdim. Ləmanı elə gördüm, içimdə nəsə qırılıb düşdü torpağa. Onu götürmək üçün əyiləndə yerdə torpaq görə bilmədim. Hər yan beton, asfalt idi. O an anladım ki, düşən həm də mənim sevgim, gələcək ümidlərimdi. Mən qorxaq olmuşdum, lakin bu həyatda heç nəyi, heç kimi Ləman kimi sevməmişdim. Onun üçün Ləmandan sonra o hallara düşdüm, ağlımı itirdim. O, yaşama səbəbimdi və mən bunu bilərək ondan, yəni həyatdan, yaşamaqdan uzaqlaşmışdım.

Sonra yenə həyata o qaytardı məni. Ona olan sevgimi xatırladığım an həyatı da xatırladım. Onu görəndən sonra, bir neçə gün boş-boşuna küçələrdə gəzərək üzərimdən o şoku atmağa çalışdım. Sonra başqa bir itirdiyimi görmək üçün bir zamanlar işlədiyim ali məktəbə getməyi qərarlaşdırdım. Bu həm də təhsil aldığım yerdi. Bura gənclik xatirələrimi özündə gizlədirdi, həmçinin Ləmanı da... Onu da burada görmüşdüm. Ora gedəndə saat on olardı. Darvazadan keçdim və içəri daxil oldum. Böyük bir ərazisi vardı üniversitetin. Minlərlə gəncin təhsil aldığı bir təhsil ocağı idi. Dərs vaxtı idi, lakin həyətdə yetəri qədər insan vardı. Kimi dərsə tələsir, kimi başqa bir iş üçün gəlib bura. Darvazanın yanında isə çoxlu oğlan dayanmışdı. Bunlardan kimisi arvadını, kimisi nişanlısını gözləyir, bəziləri də özü üçün qız bəyənirdi. Bir sözlə, hər addımında həyat vardı. Fakültəmizin yerləşdiyi binaya tərəf gedərkən nələri, kimləri gördüm. Bir zaman iş yoldaşım olan insanları, tələbələrimi... Etdiklərimdən sonra demək olar ki, onların çoxunu itirmişdim. İndi mənə bir heyvana baxan kimi baxırdılar. Bunun üçün onlara əsəbiləşmirdim. Tamamilə haqlı idilər bu iradlarında. Elə darıxmışdım ki, buralar üçün. Hər daşını, ağacını gördükcə kövrəlirdim. Birdən-birə içəri keçəcək gücü özümdə tapa bilmədim. Ona görə də həyətdə olan bufetə tərəf gedib əyləşdim. Burada nə qədər gözəl günlərimiz

olmuşdu. Deyəsən, bir çaydan çayı qırx qəpiyə verirdilər o zamanlar. Tələbə vaxtı qrup yoldaşlarımla, sonra isə dostlarımla burada nə qədər çay içmişdik. Saatlarla əyləşir, dünyada baş verən hadisələrdən danışırdıq. Bura, ən azı mühazirə otaqları qədər çox şey öyrədirdi bizlərə. Demək olar ki, ideologiyamız burada formalaşırdı. Buranı bitirən hər tələbə mütləq zəngin dünyagörüşünə sahib olurdu. Bax, bunları vermişdi mənə sevimli üniversitetim. Əyləşib bir çaydan çay sifariş verdim, ancaq sonra xatırladım ki, burada çayı gedib özümüz götürməliyik. Bu qısa zamanda bunu unutduğum üçün utandım özümdən. Özümü danlaya- danlaya çayı alıb, yerimə qayıtdım. Çaydanın yanında bir yox, iki stəkan aldım. Nədənsə elə hiss edirdim ki, kimsə gəlib əyləşəcək yanıma. Yenidən köhnə günlərdəki kimi dərdləşəcəyik. Əllərim əsirdi. Burada heç tək əyləşməmiş, heç vaxt belə qəmli olmamışdım. Çay almışdım, ancaq süzmək istəmirdim. Ətrafda olan gənclər necə maraqlı mövzulardan danışır, həyəcanla mübahisə edirdilər. Nələr itirmişdim mən, nələr...

İnsan burada bir başqa olurmuş. İlk sevgimiz, ilk acımız, uğurlarımız hamsı buranın adı ilə bağlı idi. İndi xatırladım, birinci kursa təzə gələn vaxtlarım idi. Bir qızdan xoşum gəlmişdi. O zamanlar Ləman yəqin ki, məktəbli olardı. İlk dərs günü görmüşdüm onu. Gördüyüm ilk şey də dodağının üstündəki xalı idi. İlk baxışda vurulmaq, aşiq olmaq belə bir şeydi. O gün fürsət düşdükcə ona baxdım. Axşam qaldığım yataqxanaya qayıdanda çox qəribə bir hala düşmüşdüm. Yalnız o qızı düşünürdüm. Di gəl sevdiyim, düşündüyüm qızın nə adı, nə də görünüşü yadımda deyildi. Xatırladığım tək şey, dodağının üzərindəki xal, bir də incə səsi idi. O gecə sabaha qədər səsini bir mahnı kimi eşitdim. Yuxuda neçə-neçə qız gördüm. Onu görür, onunla danışırdım, ancaq gördüklərimin heç biri o deyildi. Axı, onun görnüşünü unutmuşdum. Daha doğrusu, yaddaşım, gözlərim unutmuşdu, amma ürəyim unutmamışdı. Unutsaydı, belə sevərdimi, əlbəttə yox. Sabah az qala qaça- qaça gəlmişdim üniversitetə. Hələ dərs otaqlarının yerini bilmirdim. Neçə dəfə azmışdım, indi hər yeri mənə əziz olan bu ərazidə. Ondan sonraki günlərin bir-birinin eyni olaraq keçirdi. Mən dərsə onun üçün

gəlir, onu görə biləcəyim bir yerdə əyləşirdim. Bəzən doxsan dəqiqə ona yorulmadan baxdığım zamanlar olurdu. Ancaq bir an mən tərəfə çevrilsə, beş-on saniyə gözlərinin içinə baxa bilmirdim. Bax, belə bir şeydi, mənim ilk həyəcanım. İndi burada oturub çayımı içərkən, o günlər hamsı bir- bir gözlərimin önünə gəlirdi.

Peşmanlıq yaşadığım anlar da az olmamışdı. Məsələn, idman dərsi idi, bir gün. İdman müəllimi bütün uşaqları iki- iki yarışdırırdı. Axıra Tərlan və mən qalmışdım. O zamanlar deyəsən, baxışlarımdan anlamışdı onu sevdiyimi. İkimizin qaldığını görəndə bir az utanmışdı. Bunu baxışlarından anlamaq olurdu. Onun üçün müəllimə utana- utana" müəllim, bəs mən kiminlə yarışacam"- demişdi. Bu zaman qrup yoldaşım, oğlanlardan biri gülərək" Bəxtiyarla"- dedi. O an ikimiz də, qıpqırmızı olmuşduq. Və müəllim bizi yarışdıranda mən onu keçdim. Bax, özümü bağışlamadığım anlardan biri də o idi. Axı, niyə mən onu keçdim ki?! Məsələn, onunla birlikdə qaçmaq, finişə çatanda ondan geri qalmaq necə gözəl bir davranış olardı. Ya da, yolda ona xəlvətcə " səni sevirəm"- demək. Ancaq bunların heç birini etməmişdim. Oxuduğumuz dörd il ərzində heç vaxt onun qarşısına keçib, sevdiyimi deyə bilmədim. Onu elə sevmişdim... Bəlkə də, sadəcə ilk sevginin təcrübəsizliyi idi. Axı, Ləmana onu sevdiyimi çox asan demişdim. Deyəsən, dördüncü günlər olurdu idman dərsləri. Həmişə, onda niyyətlənirdim sevdiyimi söyləməyə. Çünki, idman zalı fakültədən bir az kənarda yerləşirdi. Tərlan da öz rəfiqəsi ilə axıra qalır, bütün uşaqlar getdikdən sonra gedirdi. Mən də qıraqda onu gözləyirdim ki, çıxsın onu sevdiyimi deyim. Ancaq heç vaxt deyə bilmirdim. O, sakitcə gəlib yanımdan keçir, mən isə ürəyimin döyüntüsünə təslim olur, yerimdəcə donub qalırdım. O gözdən itdikdən sonra divarlara sillə-təpik atırdım. Belə anlarda dostum güclə məni divardan aralayıb qaldığımız yataqxanaya apara bilirdi.

Kaş bircə dəfə deyə biləydim ona sevdiyimi. Necə təmiz duyğulardı, o zamanlar ürəyimizdə baş qaldıran bu hisslər. Oğlanları növbə ilə dəhlizdə növbətçi qoyurdular. Mənim növbəm olanda az qalırdım ağlayam. O, içəridə, dərsdə oturacaq, mən isə dəhlizdə boş-

boşuna gəzəcəm. Üç il beləcə keçmişdi. Bir gün uşaqlardan biri onun nişanlandığını söylədi. İnanmadım, ancaq mənim inanmamağım həqiqəti dəyişməmişdi. O zamanlar başqa bir yerdə qalırdım. Evə gəlib necə uzanmışdımsa, iki gün yerimdən qalxa bilməmişəm. İki gündən sonra birtəhər ayağa qalxıb həyatıma davam etdim. Qısa bir zamandan sonra toyu oldu. Bu günki kimi yadımdadı o, toydan sonra zala daxil olanda, mən çölə çıxmışdım. Sonra zamanla onun başqasının olması ilə barışdım. Daha doğrusu, barışmaqdan başqa yolum qalmadı.

İllər keçdi, əsgərlik, maqistr... Ləman gələndə başqa kimsə qalmamışdı ürəyimdə də, xatirələrimdə də. İndi nədənsə burada əyləşib çayımı təkbaşıma içərkən bu köhnə xatirələr baş qaldırmışdı. Yaşadığım hər gün, hər an mənim həyatımın bir parçası idi. İstər keçmiş olsun, istər gələcək... Bu həyatı doğruları ilə, yalnışları ilə qəbul etməliyəm.

İkinci dəfə doldurdum deyəsən çay stəkanını. Bu an inanılmaz bir hadisə oldu. Belə ki, uzun müddət mən özümə gələ bilmədim, kövrəldim. Başımı önə əyib, çayımı içirdim. Birdən bir səs eşitdim.” Bəxtiyarım”- deyirdi kimsə mənə. Bu cür səslənişi mənə yalnız bir nəfər edirdi. Tələbəlik dostum, indi də üniversitetdə işləyən Beytullah. Cəld ayağa qalxdım, mənə baxıb gülümsəyirdi. Deməк, dostum üçün mən dəyişməmişdim, yenə sevilirdim. Heç nə demədən ona sarıldım. Bir neçə dəqiqə beləcə qaldıq. Bəli, onun üçün dəyişməmişdim. Səhvlərimlə, düzlərimlə hər zaman onun üçün eyni Bəxtiyardım. Demək, o ikinci stəkanı onun üçün almışam... Necə də olsa həqiqi dostlar bir- birilərinin qoxusunu çox uzaqlardan duya bilirdilər. Şəmsin qoxusunu duymamışdımı Mövlanə. Çayını süzdüm və söhbətə başladı. İndi  bir az əhvalım düzəlmişdi. Mənim də söhbət edəcək, dərdləşəcək bir dostum vardı yanımda. Beytullah tələbəliyimin ən gözəl xatirəsi idi bəlkə də. İki ad vardı ki, aradan illər keçsə də, mənim üçün əzizdi. Onlardan biri Tərlan, digəri də Beytullah. Bir az boyu məndən uzundu. Deyəsən üç-dörd yaş da böyükdü. O, əsgərlikdən sonra qəbul olmuşdu ali məktəbə. Gur, günəşdə parıldayan, elə də uzun olmayan saçları vardı. Bir də hilala

bənzər bir bığ saxlayırdı. Bu bığın üzündən bir xeyli problem yaşamışdı. Lakin heç vaxt toxunmamışdı bığına. Küləkli günlərdə şəhəri gəzməyə çıxır, dəniz kənarına gedirdik. Bu zaman saçlarını dalğalandırmaq çox xoşuna gəlirdi. Külək nə qədər əlləşsə də, onun saçlarının gözəlliyini poza bilmirdi. Bəzən bu halı çox qısqanırdım. Mənim saçlarım azca uzanan kimi, külək onu elə hala salırdı ki, cinə oxşayırdım. Bir az da çəkisi artıq idi, bu da ona yaraşırdı. Mənim dostum gözəl bir insandı- ürəyi, ruhu ilə...

İndiyə qədər çox insanlar tanımışam, ancaq onun kimisinə çox az rast gəlinir. O qədər duyğusal, küsəyən biri idi ki, ən xırda sözdən, hərəkətdən inciyirdi. Ona görə də onunla danışanda çox ehtiyatlı davranırdım. İndi çay içərkən, o günlər gəlir gözlərimizin önünə. Onun qaldığı yerə qonaq gedərdim hərdən. Onda ikimiz üçün də əsl bayram olardı. Bir çay dəmləyərdi, bilgisayarından da sevdiyimiz mahnılardan açardı və söhbətə başlayardıq. Elə də olurdu ki, sabaha qədər danışırdıq. Söhbətlərimiz əsasən, parçalanmış Türk dünyasından, Turan ellərindən olurdu. Ali Kınık, Ahmet Şafak mahnıları bu söhbətin duzu olurdu. Sonra şeirlər oxuyardı və birlikdə ağlayardıq. Ən çox Sezayi Karakoç, Nihal Atsızın şeirlərini sevirdik. İndi xatırlayıram ki, “ Mona Rozanın” hekayəsinə nə qədər ağlamışdıq. Sezayi bəyin sevdiyinin baş hərfləri ilə başlayan bir şeir yazması bizə yaman təsir edirdi, “zanbaklar ən ıssız yerlərdə açardı” və “gözləri atəşdəndi” bütün sevgililərə xoş gələrdi. Beytullahla olan söhbətlərimizdə sanki ruhum dirilir, yeni bir mən yaranırdı. Bəzən dərsdən qaçıb şəhərin ucqar yerlərinə gedər, ədəbiyyat haqqında uzun-uzadı söhbətlər edərdik. Həmişə deyirdi- “nə qədər isimdən, sifətdən danışmaq olar. Bunları onsuz da bilirik və ya başqa zaman da öyrənə bilərik. Biz burada əsas düşünməyi öyrənməli, şəxsiyyət kimi formalaşmalıyıq”. Onun sözlərinə əməl etdiyim üçün çox şeyə sahib olmuşdum. Maraqsız dərslərdə arxa sıralarda əyləşib kitab oxuyardıq. Bu kitab alışqanlığımız o qədər inkişaf etmişdi ki, günə əlli, bəzən də yüz səhifə oxuya bilirdik. Oxuduğumuz hər kitab bizi, bir az da biz edirdi. Elə Türkologiya kafedrasına getməyimizin kökündə də bu səbəblər dayanırdı. Millətin kökünü, ədəbiyyatını öyrənmək lazımdı.

Məsələn "Manas" dastanını bilmədən, Əhməd Yəsəvini oxumadan heç vaxt özümüz ola bilməzdik. Əhməd Yəsəvi türklüyü islamla birləşdirib, yeni bir mədəniyyətin başlanğıcının əsasını qoymuşdu. Ona kimi şairlər fars, ərəb dilini sanki islamın dili kimi qəbul edir və bu dillərdə yazıb-yaradırdılar. Əhməd bəy isə bizə islamın türkcəsini yazmışdı və ya islamı türk dilinə tərcümə etmişdi...

Bax, bütün bunları birlikdə öyrənmişdik Beytullahla. Və mən əslində necə bir insan olmalıydım. Bildiklərimi, elədiklərimi sizə danışıram ki, kimin necə bir səhv etdiyini daha yaxşı anlayasınız. Ləman, bax, bu Bəxtiyarı sevmişdi. O zamanlar həqiqətən seviləcək, sevilməyə layiq biri idim. Ancaq qorxaqlığımla, səhvlərimlə məhv etmişdim hər şeyi. Bütün yaşadıqlarımı danışdım dostuma və ondan itirdiklərimi geri qaytara bilmək üçün yardım istədim. Mənə baxıb gülümsəyirdi. Deyəsən, özümə dönməm onu çox xoşbəxt etmişdi. Nədən mənimlə maraqlanmadığını, o çətin günlərdə yanımda olmadığını da danışdı. Hər zaman inanırmış mənə, bir gün özümə qayıdacağımı səbirsizliklə gözləyirmiş. Axı bizim ürəyimizdə elə bir sevda atəşi vardı ki, yıxılsaq da ayağa qalxmağı bacara bilərdik. Mənə ayağa qalxmağım, itirdiklərimi yenidən qazana bilməm üçün yardım edəcəkdi. İnanırdım ona və bilirdim ki, əgər onun mənə olan inamı yaşayırsa, digər itirdiklərimi də qazana biləcəm. Sadəcə, Ləmanı qazana biləcəyimə inanmıram, çünki bu, mənim düzəlməyimlə, savaşmağımla olacaq şey deyil. Ləmanın sevgisini öldürmüşdüm mən. Ölən sevgi isə, çox nadir hallarda yenidən həyata qayıdır. Çayı içdikdən sonra fakültəmizə doğru getməyə başladıq. Uzun zamandan sonra ilk dəfə içəri keçəcəkdim. Həyəcan məni yıxardı, ancaq yanımda Beytullah vardı. İndi onunla birlikdə addımlayırdım və bu, mənə güc verirdi. Binanın qapısından içəri keçəndə qapıda dayanan güvənlik məni içəri buraxmaq istəmədi, lakin, tezliklə bu fikirlərindən daşındılar. Əlbəttə, yenə dostumun sayəsində. İçəri keçib, pilləkənlərlə yuxarı qalxmağa başladıq. Burada hər addımbaşı bir tanışa rast gəlirdik. Kimisi salam verir, kimisi də ağzını büzüb yanımdan düz keçirdi. Yenə deyirəm, heç kimə qəlbimdə kin, nifrət yoxdu. Onların yerində mən də olsam, elə edərdim. Fakültəmiz

üçüncü mərtəbədə yerləşirdi. Yavaş- yavaş pilləkənləri çıxdıq. Dekanlığa getməmişdən öncə doğma kafedramıza – Türkologiya kafedrasına getməyi qərara aldıq. Buradakı ağsaqqal müəllimlərimiz mənə doğru yol göstərəcəkdi. İndi dərs vaxtı olsa da, arabir dəhlizdə tələblərimdən bəzilərini də görürdüm. Böyüklərdən fərqli olaraq onlar salamsız keçmirdi yanımdan. Hələ yaxınlaşıb kefimi soruşanlar da olurdu. İnşallah bura geri dönəcək, yenidən tələbələrimə qovuşacaqdım.

Kafedranın yanına çatmışdıq. Beytullah hər zamankı kimi rahat içəri keçdi. Mən bir az çəkindim içəri girməyə. Utanırdım, etdiklərimdən sonra hansı üzlə baxacaqdım, bu gözəl insanların üzünə. Xoşbəxtlikdən, müəllimlərdən çoxu dərsdə idi. İçəridə bir-iki nəfər müəllimə, bir də kafedra müdirimiz idi. Salam verib, içəri keçdim. Heç də gözlədiyim kimi pis qarşılanmadım. Mənimlə normal şəkildə görüşdülər. Onda anladım ki, mən bildiklərimin çoxunu bu gözəl insanlardan öyrənmişdim. İndi bir səhvimə görə məni silsələr, əslində öz öyrətdiklərinə xəyanət etmiş olardılar. Bir müddət kafedra müdirimizlə söhbət etdik. Bütün başıma gələnləri ona danışdım. Bir daha eyni səhvləri etməyəcəyimə söz verdim. Mənim işə qayıtmağım üçün dekanla özü danışacaqdı. Bu nə qədər çəkəcəkdi, bilmirəm, ancaq əlindən gələn hər şeyi edəcəyinə söz verdi. Bir qədər də danışdıqdan sonra, oradan ayrıldıq.

Beytullah məni tək buraxmadı. Bu günü birlikdə keçirəcək, köhnə vaxtlardakı kimi şeirlər oxuyacaq, kövrələcəkdik. Tələbə vaxtı, axşamlar kiçik bir alış- veriş edib, şəhərin hündür yerlərindən birinə gedər, oradan şəhərə baxardıq. Bu gecəni də elə başladıq. Yenidən iki nəfərlə Turan qurduq xəyallarımızda. Atamız Oğuz Xaqandan danışdı bizə ulduzlar. Sonra baxışlarımıza gecə gəldi- dumanlı, çiskinli bir gecə. Kürşadın qırx çerisinin arasına qarışdıq, bir ordu ilə savaşdıq. Səhərə yaxın qanımızla yazıldı Türk tarixi. Sonra neçə dəfə dövlətlər qurub, dövlətlər yıxdıq. Malazgird meydanında Alp Arslanı dinlədik, kəfənlərimiz əynimizdə, sonra Fatihlə peyğənbərin övgüsünü qazandıq. Daha nələrin xəyalını qurduq unutmuşam, ancaq ən son Milli Qəhrəmanımız Mübariz olmuşduq,

yenə qaranlıq bir gecədə ordu ilə savaşdıq. Şeir olduq, türkü olduq, özümüz olduq. Mənim qonağım olası oldu Beytullah. Birlikdə bizə gəldik. Bir zamanlar evimizin ən əziz qonağı idi. Atamla da çox gözəl münasibəti vardı. Uzun-uzun söhbətlər edərdilər. Onun gəlişi ilə bəlkə də özümə qayıdaram....

Fərhad

Noyabrın sonları idi. İndi payız özünün bütün dəcəlliyi ilə şəhərimizə savaş açmışdı. Bir az sonra qış gələcək, havalar bundan da pis olacaqdı. Hələ ki, payız idi. Payız həm soyuq, həm də hüznlü keçirdi. Xatırladığım bütün payızlar, Nəriman Həsənzadənin sevgi şeirləri kimi duyğusal, kövrək keçmişdi. İndi də bir şeir kimi keçir, bütün varlığımı titrədirdi.

Ləman nisbətən yaxşılaşmışdı. Arada onu şəhərə gəzməyə çıxarırdım. Çox vaxt sadəcə dükana gəlmək istədiyini deyir, bəzən də başqa yerlərə gedirdik. Ancaq ən çox dükanda çay içməyi sevirdi. Dediyinə görə, mənimlə ilk qarşılaşdığı yer olduğu üçün buranın dəyəri çox böyükdü. Yayda qarşılaşmışdıq, indi pazyızın sonları idi. Görəsən, birlikdə neçə payız keçirə biləcəkdik?

Bu günlərdə uşaqlığının keçdiyi şəhərə getmək istədiyini söylədi. Həyətlərindəki ağaclardan ötrü çox darıxmışdı. Keçən dəfə gedəndə həyəti pis vəziyyətdə görməyim məni incitmişdi. Ot basmış həyət, az qala uçub dağılmaq üzrə olan hasar... Onun üçün də evə nəzarət edəcək qoca bir kişi tapmışdım. Elə qonşuluqda yaşayırdı Anar baba. İşləyəcək yaşı deyildi, ancaq evdə çox darıxırdı. Burada həm işləyib başını qatacaq, həm də həyət-bacanı qaydaya salacaqdı. Bunun üçün elə çox pul istəmirdi. Ləmanın ailəsini yaxşı tanıdığından ora öz evi kimi baxacağına söz vermişdi. Ləmana deməmişdim, istəyirdim bu dəfə gedəndə oranı səliqəli görsün və əhvalı düzəlsin. Özlüyümdə onun üçün kiçik bir sürpriz hazırlamışdım. İndi darıxdığını, bir- iki günlük də olsa, evlərinə- doğma şəhərinə getmək istədiyini deyirdi. İki gün sonra yola çıxa biləcəyimi söylədim. Bu arada da digər işlərimi qaydaya salmaq istəyirdim. Son zamanlarda

dükana vaxt ayıra bilmirdim. Ona görə də, bura bir işçi götürmək istəyirdim. Bu düşüncəmi Ləmanla da bölüşdüm. Əvvəlcə ona görə belə olduğunu düşünüb üzüldü, sonra birtəhər bunun belə olmadığını ona başa saldım və razılaşmalı oldu. Həm də işləri bir az da böyütmək istəyirdim. Son zamanlarda xərclərim yaman artmışdı. İşçi, mən burada olduğum zamanlarda yardımcı olacaq, mən olmayanda işləri dayanmağa qoymayacaqdı. Ləmanın xəstəxana və digər xərclərini də verirdim. Ailəmdən də müəyyən yardım alırdım, ancaq yenə də yaxında kifayət etməyəcəkdi bu pullar. Onun üçün dükanı - işləri böyütmək mütləq lazımdı. Elə bu günlərdə Ləman da bir iş tapmışdı. Saytlardan birinə həftədə bir yazı yazıb iyrimi beş manat alacaqdı. Onun işləməsini, əziyyət çəkməsini heç istəmirdim. Ancaq ayda qazanacağı yüz manatın bizə nə qədər yardım edəcəyini düşünəndə bir az sakitləşirdim.

Bu şəhərdə həyat çox bahalı idi. Pulun olmasa, nəfəs belə ala bilməzdin. Ləman evlənməyi qəbul etsəydi, heç olmasa bir evdə yaşayar, ona özüm qulluq edərdim. Ancaq mənim xəstə bir qadınla ömür keçirməyimə onun könlü razı ola bilmirdi. Beləcə, probelmlərin içində boğula-boğula yaşayırdıq. İki gün sonra yola çıxacaqdıq. Dükanda işləməyə etibarlı birini tapmalı idim. Elan yazıb qapının şüşəsinə yerləşdirdim və gözləməyə başladım. Elə birinci günü bir neçə adam maraqlandı, ancaq heç biri ilə anlaşa bilmədik. Kimi çox pul istədi, kimisini də mənim gözüm tutmadı. İkinci gün, günortadan sonra başımın bəlası - Mariya gəldi. O da görmüşdü elanı. İşləyə biləcəyini dedi, hətta məndən o qədər də çox pul tələb etmirdi. Mən ondan uzaq durmağa çalışdıqca, o, daha da yaxına gəlirdi. İndi nə edəcəkdim, yox deyə bilmirdim, amma hə də demək olmurdu. Bir qədər düşündükdən sonra, məcburən onu işə götürdüm. Bir neçə gün burada olmayacağımı, dükanı onun açmalı olduğunu söylədim. Bütün kitabların qiyməti üzərində yazılırdı. Çətinlik çəkəcəyi bir şey yox idi. Məni də aldatmazdı. Elə onun üçün də açarı ona verib, dükandan çıxdım. Qoy necə bilir, elə də etsin. Bircə məndən uzaq olsun. Çiyinlərimdən böyük bir yük götürülmüşdü. Sabah tezdən Ləmanla yola çıxacaqdıq. Axşama qədər boş vaxtım vardı. Nə zamandır tək

başına gəzmir, özümlə dərdləşmirdim. Qulaqcıqlarımı taxaraq yeriməyə başladım. Bütün şəhəri dolaşmaq, ayaqlarım yorulana qədər gəzmək istəyirdim. Hərdən yağış çisələyir, hərdən də külək sürətini artırıb şəhərin bütün tozunu saçlarıma qonaq edirdi. Ancaq yenə yerimək ləzzət edirdi mənə. Yol gedə- gedə bütün həyatımı gözdən keçirir, səhvlərimi, doğrularımı imtahan edirdim.

Saqqalım yaman uzanmışdı bu günlərdə. Saç-saqqal bir-birinə qarışmışdı, məni lap dərvişə oxşadırdı. Mən öz cihadımı - savaşımı başlayırdım. Mənim savaşım, bir qadını ömrünün son zamanlarında xoşbəxt etməkdi. Bu şəhərdə, bu dünyada nə qədər qadın sevilmədən ölürdü, kim bilir? Gücüm yetsəydi, bütün sevgisiz qadınlara sevgimdən pay verərdim. Ancaq mən bir insanam və ürəyimə ancaq bir qadın sığırdı.

Axşama az qalırdı. Yağış və külək öz sürətini daha da artırmışdı. Yolumu Ləman qalan evin yanından salmalı oldum. Yarım saat sonra onların qapısının ağzında dayanmışdım. Zəngi bir- iki dəfə sıxandan sonra Gülnar qapını açdı. Ləman hər zamankı yerində - pəncərənin kənarında əyləşib nəsə yazırdı. Məni görəndə tez bilgisayarını bağladı və ayağa qalxmağa çalışdı. Lakin mən ondan cəld davranıb, onun yanına qaçdım və ayağa qalxmağa qoymadım. Qarşısında diz çöküb, əlindən öpdüm. İlahi, mən nə qədər çox sevirdim, bu qadını. Ürəyimin zikri olmuşdu onun adı. Hava soyuq olduğundan, bu gün qızılgülünü pencəyimin içində gizlədərək gətirmişdim. Gül bir az əzilmişdi, deyə, utana- utana ona uzatdım. Əlləri mehribanlıqla saçlarıma sığal çəkdi. Onun əlləri saçlarıma toxunanda sanki ruhuma cənnətdən əsən külək toxundu. O anın bitməsini istəməzdim. Eləcə onun qarşısında dayanıb, qiyamətin qopmasını gözləyə bilərdim. Ancaq onun ürəyi, qarşısında diziüstə çox dayanmağıma razı olmazdı. Qalxıb divanda əyləşməyimi istədi və qalxmağa məcbur oldum.

Onun hər sözü mənim üçün bir əmrdi. Mən onun dediklərini yerinə yetirəndə xoşbəxt oluram. İnsanları heç vaxt anlaya bilmirəm. Məsələn, ailədə kişininmi, qadınınmı sözü keçməlidi, deyib, mübahisələr edirlər. Bunu həm adi, savadsız insanlar, həm də

cəmiyyətin ağıllı – ziyalı hesab etdiyi insanlar edirdi. İnsan sevdiyinin sözünü necə yerə sala bilər, insan sevdiyinə necə əmrlər verə bilərdi axı... Sən ondan çay istəyirsən, o sənin üçün nəsə etdiyindən xoşbəxt olur və o, çayı sevə- sevə süzür sənə. Ya da, onun bir paltardan xoşu gəlir- bir az bahalı bir paltardan. Onu almaq üçün, sən bir az çox işləməlisən. Məsələn, işdən sonra əlavə bir iş də görməlisən, ya da həftə sonu bir tikintidə fəhlə kimi işləməlisən. Bundan necə xoşbəxt olmayasan, necə sevinməyəsən?

İnsanlar sevgidən uzaq düşdüyündən, belə mənasız işlərlə məşğul olurlar. İndi onun "qalx" sözü, dodaqlarından düşən kimi, qalxıb əyləşmişdim və xoşbəxt idim. Hər gün olduğu kimi, bu gün də ondan romanın necə getdiyini soruşdum. O, əsərindən- yazdıqlarından danışanda necə sevinclə danışırdı. O anlarda sanki coşqun axan bir nəhirdi, özü səhralara doğru qaçırdı. Bu gün də romanında kiçik bir hissəni mənə oxuyacaqdı və mən böyük həyəcanla onu gözləyirdim. Onun təsvirləri, böyük hadisələrin içində gizlətdiyi kiçik epizodları lap çox xoşuma gəlirdi. Və başladı oxumağa...

Bir zamanlar, böyük bir meşədə yaşayan iki ağac bir- birinə aşiq olur. Ancaq aralarındakı məsafə çox böyük olduğundan, onlar heç vaxt qovuşa bilməyəcəklərini düşünürmüşlər. Biri meşənin bu başında, o biri digər başında. Yalnız bir-birinə baxa bilirmişlər uzaqdan. Bir də külək əsdiyi zaman, sevgi məktubları göndərirmişlər... Məsələn, meşənin bu başında, bir az yuxarıda olan palıd ağacı yarpaqlarından birini qoparıb, meşənin aşağısında yerləşən vələs ağacına göndərir. Vələs də sevgilisinin yarpağına- məktubuna öz köklərinin arasında yer açır, onun sevgi sözlərini dinləyərmiş. Sonra, haçansa yağış yağsa, yenə palıd ağacı dibindən aşağıya doğru axan yağış sularına göz yaşlarını da qatarmış. Vələsin kökləri isə onun göz yaşını içinə çəkər, damarlarından keçib qəlbinə çatdırarmış. Vələsin qəlbi sevdiyinin göz yaşı ilə döyünərmiş. Bu hadisə on illər boyunca davam edir. Ancaq bir gün meşəyə gələn odunçu palıdı kəsib, kiçik parçalara doğrayır. Ondan qopan parçalar, düz Vələsin yanına qədər yuvarlanır. Bir sevgi nağılı da beləcə ölümsüzlüyə

qovuşur. Palıddan sonra da yaşayır vələs, ölə bilmir. Tək təsəllisi də ürəyində, canında palıdın göz yaşlarını yaşatması, qoruması olur...

Bitirmişdi hekayəsini, ancaq mən də bitmişdim. Daha deyəcəyim bir sözüm qalmamışdı ürəyimdə. Ayağa qalxdım, çıxmaq istədiyimi söylədim. Onun yanında ağlamaq istəmirdim. Nə isə, sağ olsun, getməyimə izn verdi. Sabah tezdən hazır olacaqdılar Gülnarla və biz yola düşəcəkdik. Onunla sağollaşıb həyətə düşdüm. Mən də vələs ağacımı olacaqdım? Ləman bu hekayəni niyə yazmışdı... Yoxsa, ağlımdan keçənləri oxuya bilirdimi? Bilirdimi görəsən, içində bir gümüş güllə olan silahımı... Ancaq bilməsə də, hiss edirdi. Çünki sevən qadınların hissiyatı çox güclü olur. Bəzən ağlıma qəribə- qəribə fikirlər gəlirdi. Görəsən, Ləman həqiqətən məni sevirdimi, sevə bilmişdimi? Nə qədər nifrət etdiyini desə də, Bəxtiyarın yeri- yarası hələ də hiss olunurdu. Yenə deyirəm, bunlar sadəcə mənim düşüncələrimdi.

Pilləkənlərlə aşağı düşən kimi siqaretimi yandırdım. Son zamanlarda yaman çox çəkirdim. Günə iki qutu bəs etmirdi bəzən. Nə zaman ürəyim sıxılsa siqaret yandırırdım. Bəlkə də, mənim ən yaxın dostum elə siqaretim idi. Dost demişkən, bu şəhərdə mənim heç dostum yoxdu. İnsanlardan- onların sevgisindən, dostluğundan hər zaman uzaq qaçmışdım. Ləman məni sevgi ilə tanış etmişdi, ancaq hələ dostluğun nə demək olduğunu bilmirdim. Mariya vardı, əgər məni sevməsə, bəlkə də onunla dost ola bilərdik. Görəsən, dost ancaq insanlardanmı olmalıdır? Məsələn, hər ürəyim sıxılanda dodaqlarımdan öpən siqaretim, kitablarım, dinlədiyim mahnılar dostum deyildimi?!

Bir həftəyə yaxın bu şəhərdə olmayacaqdım. Na görə də ailəmin yanına gedib, sağollaşmaq istədim. Və başladım evimizə tərəf getməyə. Nədənsə, uzun zamandan sonra ilk dəfə anam üçün yaman darıxmışdım. Canım o qədər yanırdı ki, başımı onun sinəsinə sıxıb doyunca ağlamaq istəyirdim. Aradakı bütün körpüləri yıxmışdım. Qorxurdum ki, anam mənim kimi bir oğlu olduğunu unutmuş olar. Atamdan heç danışmasam da olardı. Elə uşaqlıqdan hər zaman bizə qarşı soyuq, sərhədli davranırdı. Doğrudur, heç nəyimizi əksik

etməmişdi. Hər zaman ən yaxşı yeməkləri yeyib, ən gözəl paltarları geyinmişdik, ancaq ata sevgisinə möhtac qalmışdıq. Balaca uşaq olanda belə, bir dəfə qucağına almamış, üzümüzdən öpməmişdi. Mən, ən çox atamı qucaqlamaq, öpmək istəyirdim. Ancaq bunu etməyə qorxurdum. Sonra bu istəyim ürəyimdəcə boğulub öldü. Bir daha atamı qucaqlamaq, öpmək istəmədim. Bəlkə də, insanlardan bu qədər uzaq olmağımın səbəbi elə bu idi. Bir az böyüyən kimi evi tərk etdim, tək yaşamağa başladım. İndi evimizə gedirəm və sadəcə anam üçün darıxıram. Nə ola, kaş qapını o aça. Elə qapının ağzındaca doyunca qucaqlayam anamı. Ali məktəbi bitirib, indi çox yüksək vəzifələrdə işləyən qardaşlarım vardı. Mən nəslin və ailənin üz qarası sayılırdım. Ancaq heç vecimə də deyil. O dar düşüncəli insanların haqqımda nə düşündüyü ilə başımı yormuram.

Nə toya, nə yasa getmirdim. Bilirəm ki, görən kimi başlayacaqlar məsləhət verməyə. Axı, kimin nə haqqı var başqasının həyatına qarışmağa? Həyat mənimdi və bir dəfə gəldiyim bu həyatı öz istədiyim kimi yaşamaq istəyirəm.

Lap az qalmışdı evimizə çatmağa. İndi uşaqlığımın keçdiyi küçəyə daxil oluram. Hava yaman soyuqdu. Onun üçün kimsələr gözümə dəymir çöldə. Bircə bəzi dükanlar hələ bağlanmayıb. Onların içində yuxulayan işçiləri görmək olar. Saat on ikiyə yaxınlaşır. Budur, qapımızın ağzında dayanmışam. Nə ola, atam yatmış ola. Onun tənəli baxışlarını görmək istəmirəm. Əllərim əsə-əsə qapının zəngini basıram. Bir az sonra qapı açılır, qapını açan atamdı. Demək ki, yatmayıb hələ. Məni gözlədiyimdən gözəl qarşılayır, əl verib görüşür, ancaq yenə qucaqlamaq, öpmək olmur. İçəri keçirəm, anam mətbəxdə çay dəmləyir. Çayın qoxusunu izləyərək içəri daxil oluram. Məni görən kimi qollarını açıb gülümsəyir. Özümü bu balaca boylu qadının qollarına atıram. Doyunca qucaqlayıb öpürəm üz-gözündən. Çox darıxmışam, çox, bunu bütün varlığım etiraf edir. Bu zaman salondan atamın səsini eşidirəm. Məni içəri çağırır. Salona gedib atamın qarşısında əyləşirəm. Anam da, çaylarımızı gətirib yanımızda əyləşir. Bir xeyli işdən-gücdən söhbət edirik. Atam yenə çox dərinə gedib qanımı qaraltmaq istəmirdi.

Gecə qara yorğanını dünyanın üzünə çəkdi, indi yatmaq vaxtı idi. Utanırdım ürəyimdən keçənləri anama deməyə. Başımı onun sinəsinə qoyub ağlamağa elə möhtacdım ki. Neçə ildi görəsən, anamın qoxusu ilə yatmırdım. Ancaq olmadı, bacara bilmədim. Ürəyimdəkiləri deyə bilmədim.Yenə təkbaşına ağlamalı olacaqdım. Daha burada qala bilmədim, bacarmadım. İndi ağlamaq istəyirdim, ancaq ağlasam atamın sözləri məni elə yaralayacaqdı ki, bir daha bura gəlməyəcəkdim. Getmək istədiyimi söyləyəndə atam heç nə demədi, anam bir az danladı, ancaq o, da yaxşı tanıyırdı məni. Qapıdan çıxan kimi bir siqaret yandırdım. Daha gözlərimi danlamağa məcbur da deyildim. Göz yaşlarımdan öpürdü gecənin qaranlığı, ayazı.

Hava soyuqdu, ancaq ürəyim elə yanırdı ki, üşümək yadıma düşmürdü. Deyəsən yağış yağırdı. Buludlar da gecənin gəlməsini fürsət bilib ağlayırdı. Axı, buludlar niyə ağlasın ki... Ləman olsaydı indi ona da bir hekayə yazardı. Mən isə yaza bilmirdim. Mənim işim yazmaq yox, yaşamaqdı. Sevgi hekayələrinin ən gözəlini yaşayırdım indi. Bu soyuqda ürəyimdə gah güllər açırdı, gah da zülmətə elə yuvarlanırdım ki... Özüm də bilmədən, Ləmanın pəncərəsinin qarşısına gəlmişdim. İşıqları hələ də yanırdı. Yəqin ki, hələ yazır. Saat neçə olardı, qaranlıqda saata baxmaq istəmədim. Axı nə fərqi vardı vaxtın, zamanın? O, pəncərənin kənarında əyləşib, mənim hekayəmi yazır, mənsə pəncərənin altında dayanıb, onun hekayəsini yaşayırdım. Aşiqlər üşüməz, aşiqlər ölməz. Pişiklər də qaçıb gizlənmişdi bu noyabr axşamının soyuğundan, yağışından, ancaq mən buradayam... Nə qədər siqaret çəkmək olardı? Bilirəm, bir gün ağ ciyərlərim sinəmdən çıxıb üzümə tüpürəcək, amma, nə edəsən?

Daha heç ulduzlar da görünmürdü, şəhərin işıqları da yavaş-yavaş sönürdü. Sabah yola çıxacağıq. Gedib yatsam yaxşı olacaq. Özüm cəhənnəmə, o maşında Ləman da olacaq. Onun üçün yatmalıyam. Evə gəlib, yatağıma uzanıram. Paltarlarımı soyunmağa belə ərinirəm. Ancaq yağış isladıb məni. Belə yatsam xəstələnə bilərəm və sabah yola çıxa bilmərəm. Axı, Ləman həyəcanla sabahın açılmasını gözləyir. Bəlkə də bu gecə sevincindən yatmayacaq. Bir an

öncə sabahın açılmağını istəyir, uşaqlığına doğru qanadlanıb uçmaq istəyir. Paltarımı dəyişib yerimə uzanıram. Deyəsən, elə uzanan kimi də yuxu tutur məni...

Yuxular şəhərindəyəm indi. İki məzar daşı var gözəl, mənzərəli bir yerdə. Gənclər dəstə- dəstə gəlib güllər qoyur, dualar oxuyur. Göyün üzündə bir dənə də olsa bulud yoxdu, ancaq ulduzlar görsənir. Məzarlardan bir azca o tərəfdə masmavi bir göl də var. Ulduzların əksi gölə düşür. Bu məzarların kimə aid olduğunu görmək, bilmək istəyirəm. Onun üçün insanlara qarışıb, mən də məzarlara tərəf irəliləyirəm. Balaca bir uşaq gül verir mənə, axı, ora gülsüz getmək olmaz. Uzun bir yol gedirik. Biz getdikcə insanlar çoxalır, məzarlar uzaqlaşır... Ancaq nəhayət ki, gəlib çatırıq. Gülü qəbirlərin arasına qoyub, bir fatihə oxuyuram. Sonra birdən gözüm başdaşındakı yazılara sataşır. " Fərhad"..." Ləman".... Aman Allah, bu ki bizim məzarlarımızdı! Demək, öz qəbrimə gül qoymuşam. Mən oradayam, ancaq indi kimsə məni görmür. Bəs, Ləman hanı? Mən buradayamsa, o da buralarda olmalıdır. Yerimdə dayanmışam. Bir qədər sonra gölün içindən keçib ulduzlara çatıram. Bir ulduza tərəf gedirəm, gedirəm... sonra yaxınlaşanda, onun ulduz yox, Ləman olduğunu anlayıram. Qollarını açıb məni çağırır. Sevinə- sevinə ona tərəf qaçıram. Bu zaman ayaqlarım bir-birinə dolaşır və göy üzündən aşağıya - yerə düşürəm.

Ayılıram yuxudan. Günəş bir azdan doğacaq. Qalxıb hazırlaşmaq lazımdı. Ləman indi həyəcanla mənim yolumu gözləyir. Onu gözlətməyə haqqım yoxdur. Bəs, o gördüyüm nə yuxu idi? Son zamanlarda yaşadıqlarım məni elə hala salıb ki, xəyal ilə həqiqəti seçə bilmirəm. Bircə onu bilirəm ki, həqiqətim də, xəyalım da Ləmandı. Gözlə məni, sevgilim, gəlirəm. Sadəcə axşamdan bəridir görmürəm, ancaq yaman darıxıram...

Ləman

Gecə onun pəncərəmin qabağında nə gəzdiyini anlamışdım. Ancaq nə o yuxarı çıxmağa cəsarət etdi, nə də mən onu çağırmağa. Kaş sağlam bir qadın olaydım. Bu gün ilk dəfə onunla bir ömür yaşamağı, dəlilər kimi sevişməyi düşündüm, ancaq... O aşağıda dayanıb ağlayır, mən isə onun göz yaşlarını yazırdım. Görəsən, nə vaxtdan sevirdim onu? Bəlkə də, hələ ruhlarımız yarandığı zaman, elest bəzmində görmüşdük bir- birimizi. Onu elə gözəl tanıyır, anlayırdım ki... İndi əlimdən sadəcə yazmaq gəlirdi. Ağrılarım vardı. Anlaşılan bu idi ki, xəstəlikdən sağala bilməyəcəkdim. Bircə, romanı yazıb bitirə bilsəydim. Yarımçıq qalsa, bu da bir dərd olacaqdı ona. Yazacaqdım, romanımı və çap etdirməyi Fərhada tapşıracaqdım. Belə olsa, məndən sonra yaşamaq üçün səbəbi olacaqdı. Yazdıqlarım, sözlərim onu həyata bağlayacaqdı. Bir-iki saat yatmışdım bu gecə. Yaman darıxmışam evimizdən ötrü. Bəlkə də, bu son gedişim olacaqdı, nə bilim? Ona görə də bu qədər həyəcanlı idim.

Səhər açılmışdı. Bir azdan Fərhad gələcəkdi. Hazırlaşmaq lazımdı. Məni mümkün qədər şux görməliydi. Onun üçün ayağa qalxıb, əl- üzümü yudum. Gözəl bir səhər yeməyindən sonra, Gülnarın da yardımı ilə üzümə bir az əl gəzdirdim. Boyalar solmuş rəngimi az da olsa özünə gətirdi. Xəstə olsam da, gözəldim. Bir qadın sevdiyi zaman, sevdiyi üçün bəzəndiyi zaman fərqli bir gözəlliyə qovuşurdu. İndi mən də Fərhad üçün bəzənirdim. Yarım saat sonra Fərhadın maşını binanın qabağında dayandı. Özü yuxarı çıxdı və məni aşağı düşürdü. Bir həftə qalacaqdıq. Elə çox yükümüz yox idi. Gülnar da, mən də bir yüngül çanta götürmüşdük. Fərhad qoluma girib, məni aşağı düşürdü. Çantaları da Gülnar gətirirdi. Axşamdan yol üçün yemək də hazırlamışdıq. Yol kənarında gözəl bir yerdə qəlyanaltı etmək istəyirdim. Bu qısa həyatımda onunla yaşamadığım heç nəyin qalmasını istəmirdim. Maşın asta-asta yola düşdü, səhəri çıxana qədər də sürətini artırmadı. Yəqin ki, məni incitməmək üçün belə yavaş sürürdü maşını. Saçlarındakı ağ tüklərin sayı xeyli artmışdı.

Bağışla məni sevgilim, bağışla, həyatına girəndən bəri sənə acıdan, dərddən başqa heç nə verə bilmədim. Könül istərdi ki, bu

həyatdakı bütün xoşbəxtlikləri, gözəllikləri yaşadım sənə, ancaq olmadı. Bağışla məni... Ürəyimdən keçənləri yəqin ki, duydu, hiss etdi. Axı biz bir-birimizi danışmadan da duyuruq, eşidə bilirik. Ancaq görürdüm ki, o, mənim üçün nəsə edəndə xoşbəxt olur. İndi gəl belə bir insan üçün ölümə meydan oxuma da...

Maşın şəhərdən çıxandan sonra sürətini bir qədər artırdı. Yolda maşınlar çox olsa da, gözəl idarə edirdi sükanı. İnsanlar harasa tələsir, hardansa qayıdırdı. Gülnar öz həyatından, başına gələnlərdən danışır, bizi darıxmağa qoymurdu. Əslində o, özü darıxdığı üçün danışırdı. Yoxsa bizim darıxmağımız üçün heç bir səbəb yoxdu. Eyni maşında yol gedirdik. Saçlarının qoxusunu duyur, saçlarına toxuna bilirdim baxışlarımla. Niyə darıxaydıq ki... Bir neçə saat yol gedəndən sonra maşın yoldan çıxıb, rayonlardan birinə gedən səmtə döndü. Bir qədər də gedib, yolun kənarında dayandı. Burada, ağacların altında əyləşib nahar etmək olardı. Götürdüklərimizdən çıxarıb süfrə açdıq. Fərhad özü də boş gəlməmişdi.

Ah, o necə incə bir insandı! Axı, biz ona yolda yemək istədiyimizi ancaq yola düşəndən sonra dedik. Hardan bilirdi bu istəyimizi? Sonra, bir az öncə düşündüklərimi xatırladım. Axı, biz danışmadan da anlayırdıq bir-birimizi. Buna görə də, onun gözlərinə baxanda qorxurdum. Orada məndən sonra həyat görə bilmirdim. Mən onun yaşamasını, ikimizi də yaşatmasını istəyirdim. Burada ilk dəfə roman haqqında düşüncələrimi ona bildirdim. Əgər mənə nəsə olarsa, romanımı ona əmanət etdiyimi deyəndə gözləri doldu, ancaq heç nə deyə bilmədi.

İstəyimə çatmışdım. İndi məzarım da ölməyəcəkdi. Yazıq sevgilim, ölümümdən sonra belə, səni yaşadan mənim hansısa istəyimi həyata keçirmək olacaq demək ki... Vəsiyyətə oxşar sözlərimi eşidəndən sonra ağzına heç nə almadı. Biz bir az yedik, ancaq bütün israrlarıma baxmayaraq o, heç nə yemədi. Sözlərimdən sonra nə yesin ki.....

Yenidən maşın yola düşdü. Ondan, sevdiyimiz mahnılardan birini açmasını istədim. Bir az sonra Firudun Düzağacın “beni bırakma, bəlkə bir gün günəş ikimiz üçün doğacaq” mahnısı qonaq

gəlmişdi, qulaqlarımıza. “Bundan sonra bütün günəşlər bizim üçün doğacaq, sevgilim”- deyirdim, baxışlarımla. Ölüm nədir ki, ayıra bilsin bizi. Nə qəribə bir həyatdı bu, ilahi... Çox vaxt sevənləri ən xırda bir səbəb ayırır. Elə bu zaman müəllifini unutduğum bir sözü xatırladım “ bizi ölüm ayıra bilməzdi, ancaq ən kiçik səbəblər ayırdı” - deyirdi. İndi bizi ölüm ayıra bilərdimi? Maşın sürətlə yolun üstündən keçib doğma şəhərimə doğru gedirdi.

Fərhadın saçlarına düşən ağ dənləri necə yazacaqdım romanımda? Səbəb kimi, nəyi göstərəcəkdim? Bəzən, ümidlənir, ölümə belə meydan oxuyurdum. Ancaq bəzən də canım elə yanırdı ki... Mən ölürdüm, onu burada tək qoyub gedəcəkdim. Bəs, sonra nə olacaqdı? Deyək ki, lap o romanı yazıb tamamladım. Fərhad da onu çap etdirdi və işin milyonların sevərək oxuduğu bir əsər oldu. Ancaq bütün bu olanları mən görə, duya bilməyəcəm. Əlimdən başqa nə gəlirdi ki... İnsanın yazmaqdan savayı əlindən başqa işin gəlməməsi ən böyük acı idi. Mən öləcəkdim, bəlkə o da yaşaya bilməyəcəkdi? İki insanın yerinə “Eşqin kölgəsi..” yaşamalı olacaqdı.

Bax, ömür də bu maşın kimi sürətlə gedirdi. Bir gün mənzil başına çatacaqdım. Sən özün yardım et bizə, Allahım. Bütün günahlarımızla səndən başqa gedəcəyimiz bir yer, bir kimsəmiz yoxdu. Bizə yardım et! Ölümdən əvvəl, ölümdə və ölümdən sonra bizi tək qoyma. Bütün acılara dayanmaq olar. Bircə sənsizliyə dayanmaq imkansızdır. Sən ümidsən- elə bir ümid ki, ölüm belə acizdi onun qarşısında. Bizi gözəl yaşat, Allahım və gözəl öldür. Gələcək nəsillərə gözəl bir hekayə qalsın bizdən. Bizim həyatımızla insanlara sevgini öyrət. Eybi yoxdu, bu dünyadakı hekayəmiz yarımçıq qalsın, ancaq öz yanında- dərgahında bizi bir-birimizə və sənə qovuşdur. Dua elədim ürəyimdə və xeyli sakitləşdim. Allahdan başqa dostmu vardı, sirdaşmı, məni anlayacaq...

Maşın sürətlə gedir, bir an öncə mənzil başına çatmaq istəyirdi. İndi Gülnar da alışmışdı bu sükuta. Daha o da danışmırdı. Sevdiyimiz mahnılar isə bir- birini əvəz edir, bizi xəyallardan ayrılmağa qoymurdu. Deyilənə görə ölüm anında gələn ölüm mələyi sevdiyimiz birinin cildində gəlirmiş- ən çox kimi sevsək, onun

görkəmində. Bu həyatda Fərhaddan daha sevimli biri yox idi mənim üçün. Bir də bunun üçün dua etdim. Allahım, canımı almağa göndərdiyin mələk Fərhadın görkəmində gəlsin! Məni sevdiyimin əli ilə ayır bu dünyadan. O zaman canım acımaz, gülə- gülə ayrılaram bu dünyadan. Daha gözlərimə hökm edə bilmədim və hıçqıra- hıçqıra ağladım. Mənim ağladığımı görüb maşını yoldan çıxardı və saxladı. Evə çatmağımıza az qalmışdı, heç yaxşı olmadı bu. Onu üzdüyüm üçün çox peşman olmuşdum. Maşından düşdü və mənim də düşməyim üçün yardım etdi. Göz yaşlarımı silib, yaşlı barmaqlarını dodaqlarına, gözlərinə sürtdü. Başımı qucaqlayıb, məni çox sevdiyini söyləyirdi. İndi onun sinəsinə sığınmışdım, uşaq kimi ağlayırdım. Bütün cəhdlərimə baxmayaraq, özümü saxlaya bilmirdim. İndi nə olmuşdu, axı.. Yol ilə getdiyimiz yerdə bu, nə idi başıma gəldi...

Başa düşürdüm, bilirdim ki, mənim bu hərəkətim onu mənəvi cəhətdən öldürür. Özümü ələ almalıydım, ancaq bacara bilmirdim. Daha göz yaşlarıma dayana bilmədi, məndən bir az kənarlaşdı və siqaretini yandırdı. Həmişə mən üzüləndə, ağlayanda külək də mütləq əsməli idi. O, bir az kənarda yuxarıya doğru baxır, siqaretini tüstülədirdi. Hündür boylu oğlanın başını yuxarı qaldırıb göy üzünə baxmasını bircə şeylə izah etmək olardı - indi o da ağlayırdı və mənim bunu görməmi istəmirdi. Beş- on dəqiqə eləcə qaldı. Külək, soyuq hava gətirmişdi. Mənə soyuq ola bilərdi. Gülnar qoluma girib, məni maşına əyləşdirdi. O, ikinci siqaretini də yandırmışdı. Elədiklərim üçün özümə acığım tuturdu. Mən sakitləşmişdim. O isə hələ də baxışları ilə buludlardan nəm çəkirdi. İndi onun göz yaşları buludlarla qovuşacaq və nə zamansa yenidən yerə enəcəkdi. Kim bilir, nə zaman olacaqdı bu... Bəlkə də sevgililər gəzməyə çıxdığı zaman onların saçlarına qonacaq, ya da bir çiçəyin üstündə şeh olub işıldayacaqdı. Nəhayət, o da gəldi maşına. Biz yenidən yola düzəldik.

Bayaq olanlardan sonra sadəcə susmuşduq və məkana çatmağımızı gözləyirdik. Bir saatdan sonra doğma şəhərimizə daxil olduq. Bir neçə aydı buraya gəldiyim, ancaq yaman darıxmışdım. Bura dağlara yaxın olduğundan daha soyuqdu. Yağmur da çisələmir,

əməlli- başlı yağırdı. Yağışla qarşılamışdı bizi ata ocağım. Buranın yağışları çox da dəcəl deyildi. Şəhərimiz küləkdən uzaq olduğundan yağan yağış sakitcə yerə düşürdü. Sağlam olsaydım, yağışın altında doyunca islanardım. Maşın şəhərin küçələrindən keçdikcə, sanki, uşaqlığım yağmur kimi düşürdü yaddaşıma. Bax, bu iki mərtəbəli böyük bina oxuduğum orta məktəbdi. Düz on bir il burada oxumuşam. İlk xatirələr, ilk sevinclər... hər biri burada olmuşdu. Hətta ilk sevgimiz də bu partaların arxasında olurdu. Sonra biz böyüdük və sevgimiz niyə kiçildi... Bax, onu anlamaqda çətinlik çəkir insan. Birinci sinifdə oxuyurdum, deyəsən, məndə oxu kitabı iki dənə idi. Oğlanlardan birində isə yoxdu. O zamanlar müharibə illəri idi. Adi kitablar belə çətinliklə tapılırdı. Atam haradansa tapmış, hətta birini də artıq gətirmişdi. Müəlliməmin xahişi ilə artıq oxu kitabını sinif yoldaşım Yüsifə verdim. Kitabı ona uzadanda utanıb-qızarmışdı. Hardan biləydim ki, bu balaca ürəyə sevgim düşüb. Kitabı verib, ürəyini almışdım. Lakin onun ürəyi mənə lazım deyildi. Heç o zamanlar anlamırdım sevgi nədir. Yüsif düz on bir il məni sevdi. On bir il birini, ancaq uşaq qəlbi ilə sevmək olardı. İndi elə sevgilər olur ki, heç on gün davam etmir. Bircə damcı çətinə düşdü, yox cavabı aldı... getdi başqa birinin yanına. Bu on bir ildə bir dəfə olsun, Yüsifin üzünə gülməmişdim, ancaq o, yenə sevmişdi məni... İndi xatırladıqca özümü danlayıram. Bəzən, onu elə incidirdim ki, canından bezdirirdim. Nə üçün, yəqin ki, məni sevir deyə... Qəribə olan isə o idi ki, bu illər ərzində bircə dəfə də, qarşıma çıxıb məni sevdiyini söyləmədi. Yalnız dəfə balaca bir kağıza "səni sevirəm" yazıb mənə verdi və tez məktəbdən uzaqlaşdı. Necə əsəbləşmişdim onda! Hətta müəlliməyə şikayət belə etmək istəmişdim. Deyəsən, onda altıncı sinifdə oxuyurduq. Yazıq uşaq, düz bir həftə qorxusundan gəlməmişdi dərsə. İkinci həftə gələndə uşaqların içində kağızı parçalayıb başına atmışdım. İndi bunları düşündükcə canım elə yanır ki... Yüsifin elədiyi tək şey bütün günü mənə baxmaqdı. Bu baxışlara o qədər alışmışdım ki, baxmayanda darıxırdım bəzən. Ancaq heç vaxt qiymət vermirdim ona. Məktəbdən sonra hərbi xidmətə yola düşdü. Deyəsən, keçən il görmüşdüm onu. Evlənib, iki dənə də balaca balası var- bir

oğlan, bir dənə də qız. Elə şirin uşaqlardı ki, lap atalarının uşaqlığına bənzəyirdi. Yəqin Yüsif onların anasını da çox sevir və uşaqlarına da sevgini öyrədir. Bax, məktəbin yanından keçəndə bunları xatırlamışdım.

İndi maşın evimizə çatmaq üzrəydi, az qalmışdı. Deyəsən. zavodun yanından keçirik. O zavod ki, atamı almışdı məndən. Bir yandan da oranın hesabına böyümüşdüm. Həyat nə qəribədir. Ora olmasa, bəlkə də, atamı elə tez itirməyəcək, anam da ağır işlərə düşüb tez qocalmayacaqdı. Bir yandan da ora olmasa, mən necə böyüyəcəkdim, atam necə saxlayacaqdı ailəmizi? Nəhayət ki, maşın gəlib darvazamızın yanında dayandı. Qapının ağzında yaşlı bir kişi bizi qarşıladı. Onu tanıdım - Anar dayı idi. Görəsən, onun nə işi var axı burada? İçəri keçirik. Bütün həyət nizam içindədir. Ağacların dibini ala basmayıb, uçan divarlar da təmir olunub. Çöl soyuq olduğundan biz evə keçirik. Fərhad çöldə Anar dayı ilə nəsə danışır. İndi hər şeyi anlayıram. Demək, bunu da Fərhad edib. Anar dayının burada olması sevindirmişdi məni. Onu uşaqlıqdan tanıyıram. Atamla çox gözəl münasibəti vardı. İndi o da qocalıb, nə hala düşüb. İnsan niyə qocalır görəsən? Bunu düşündükdən sonra utanıram. Anamla atam qocalmadan ölmüşdülər. Demək ki, qocalmaq da bir nemətdir. Hər adama qismət olmur. Birdən, məni dəli bir gülmək tutdu. Hələ, ata-anamdan danışıram, güya özüm çox uzun yaşayacağam, eh...

Hələ də çardağın altında Fərhad Anar dayı ilə nəsə ciddi söhbət edir. Bu kişinin də çox maraqlı hekayəsi var deyəcəm, düşünəcəksiz ki, ay canı sağ olmuş maraqsız hekayəsi olan varmı? Gör Tanrı nə qədər böyükdür ki, bu qədər insan yaradır və onların hər birinə fərqli hekayə qədər yazır. Bir yazıçı maraqlı bir obraz yazanda ona dahi deyirik. İndi bir düşünün, bu qədər insanı hekayəsi ilə birlikdə yazan,yaradan Tanrı nədir?!

İki uşağı vardı Anar kişinin. İkisi də oğlandı. Bir az bizdən aralıda yaşayırdılar. Uşaqları sadəcə məktəbə gedərkən, dönərkən görürdüm. O zamanlar bir qardaş qayğısı ilə mənə yoldaşlıq edirdilər. Məndən beş yaş balacaydı yekəsi, ancaq yenə də yanımda kişi- kişi gedir, məni təhlükələrdən qoruyurdular. Uşaqların anası xarici ölkə

vətəndaşı idi, səhv etmirəmsə ya rus, ya da xaxoldu. Mən birinci kursda oxuyanda eşitdim ki, arvad oğlanlarını da götürüb, öz ölkəsinə gedib. Anar dayıya da təklif ediblər, ancaq o, vətənini tərk edə bilməyib. Beləliklə də, ailə dağılıb. İndi bilmirəm, əlaqələri varmı, yoxmu... bax, Anar kişi həmin adamdır.

Nəhayət ki, söhbət bitmişdi. Fərhad da içəri girdi. Gülnar ətrafı təmizləyir, mətbəxdə nəsə işlə məşğul olurdu. Yəqin ki, çay dəmləyirdi...

Sakitcə divanda əyləşib gülümsəyirdi. Onun gülüşü, sevgisi mənə güc verirdi. Onun gülüşü, uşaqlığımın xatirələri ilə birləşmişdi. Bax, budur, Gülnar çayları gətirir. Masanın ətrafında əyləşib söhbət edirik. Uşaqlığımdan, ata-anamdan danışıram. Mən danışdıqca, o da hərdən uşaqlıq xatirələrindən danışır. Mənə çox maraqlı idi. Görəsən, Fərhadın uşaqlıq sevgisi olmuşdumu, ümumiyyətlə uşaqlıq illəri necə keçmişdi? Ancaq nə qədər qəribə olsa da, onun ilk sevdiyi qadın mən idim. Bu yaşına qədər kimsəni sevməmişdi. Görəsən, niyə qorxurdu, nə üçün qorxurmuş qadınlardan? Məktəb illərində də qızların sevimlisi olmuşdu. Mənə elə gəlirdi ki, bu özünə əminlikdən də olur bəzən. Məsələn, məktəbin ən yaraşıqlı oğlanı və ya ən gözəl qızı çox vaxt yalnız olurdu. Ya kimsəni bəyənmir, ya da çox çətin sevirdilər belə insanlar. Əslində, Tanrı onları belə yaradaraq qoruyur. Yoxsa, bu yaraşıq, bu gözəlliklə həyatlarını məhv edə bilərdilər. Onlarla birlikdə olmaq istəyən çox olur, ancaq onlar bircə dəfə sevir, birinə aid olurlar.

Çayı içmişdik. Bayaqdan yağan yağış da kəsmişdi. İndi çölə çıxıb, həyətdə gəzmək olardı. Fərhadın qoluna girib bağçaya çıxdım. Uşaqlıqda altında əyləşdiyim ağacı göstərdim, çiçəklərdən, kəpənəklərdən danışırdım. Bir gün oynadığım zaman dizimi yaralamışdım. Deyəsən, o zamanlar hələ məktəbə də getmirdim. Dizimdəki qanı gördükdə başladım ağlamağa. Atam işdə, anam qonşuya nə isə iş dalınca getmişdi. Elə çox qanamasa da, şirin bir ağrı vardı. Hıçqıra-hıçqıra ağlayır, anamı köməyə çağırırdım. Ancaq anam gəlmədi. Mən ağlayıb yoruldum və ağaclardan birinə sığındım. Gözlərimi açanda yatağımda idim. Yaralı dizim də sarınmışdı. Deməli, anam gələndə məni ağacın dibində yatan görüb. İndi o ağacın

yanında dayanıram, ürəyimdən ruhuma axır göz yaşlarım. Görəsən, yenə ağlasam, yenə bu ağacın dibində yatsam, gözlərimi açanda anamı başımın üstündə görə bilərəmmi? Buranın hər daşında, hər qarış torpağında minlərcə xatirəm var. İndi bütün bunları ona tək-tək danışmaq, onu həyatımla tanış etmək istəyirdim. " Kaş ki"lər yorur insanın ruhunu, varlığını.... Kaş ki, anam sağ olaydı... Kaş, indi Fərhadı onunla tanış edərdim. Bu həyatda qızını bu qədər sevən birini o da çox sevərdi yəqin... Kaş sağlam olaydım... Kaş....

Bir az sonra Fərhad qalacağı yerə gedir. Anar dayının qonağı olacaq. Elə keçən dəfə də onunla qalıbmış. Mən isə otağıma qayıdır, bilgisayarımı açıram və yazmağa başlayıram. İndi yazdığım fəsildə bir jurnalist xanımın yaşadığı hadisəni qələmə alacam.

" Afət səhər tezdən evdən çıxdı. Çox həyəcanlı idi. Uzun zamandan sonra bir iş tapmışdı. Tanınmış qəzetlərdən birində tərcüməçi kimi fəaliyyət göstərəcəkdi. Ürəyi döyünə- döyünə redaktorun qapısına yaxınlaşdı. Yaşı əllidən çox olan bu adam qıraqdan baxanda kişiyə oxşayırdı. İş söhbəti bitəndən sonra redaktor Afəti tərifləməyə başladı. " Bilirsənmi, çox gözəlsən. Sənin bir dırnağına dəyməz evdəki arvadım" - deyə, Afətə onunla sevgili olmağı təklif etdi. Bu zaman özünü itirən Afət onun üzünə tüpürdü və otaqdan çıxdı. Çıxarkən də " ay əclaf, qızın yaşındayam. Sabah indi mən tək gəlməyəcəm bura" - dedi. Qardaşı, əri yox idi Afətin. Əgər olanları atasına desə, onu işləməyə qoymayacaqdı. Onun üçün də bir zamanlar tələbəsi, dostu olan oğlandan yardım istədi. Sabah birlikdə redaktorun otağına getdilər. Dünən yataq təklif edən yaşlı kişicik, indi Afətə bacı deyə yalvarıb, üzr istəyirdi....."

Uşaqlıq illərimin daha bir səhifəsinə yolçuluq etmək istəyirəm. Yay aylarında kəndə, babamın yanına gedirdim. Orada əmim, onun uşaqları ilə keçən maraqlı, gözəl günlərimdən ötrü indi çox darıxıram. Kəndə getmək istəmişdim. Sevdiklərimin məzarını ziyarət etmək üçün. Öləndə onsuz da bura gətirəcəkdilər məni, ancaq dünya gözü ilə kəndimizi, sevdiklərimi görməyi çox istəyirdim. Ata-anam da kənddəki məzarlıqda yatırdı. Sabah Fərhad gələndə bu istəyimi ona bildirdim. Kimsə görmədən kəndə gedib, məzarlığı ziyarət edəcək və

geri dönəcəkdik. Uşaqlıqda qaçıb gəzdiyim yerlərin, orada yaşayanların, qonşuların məni belə xəstə görməsini istəmirdim. Bütün istəklərimlə razılaşan Fərhadım bununla da razılaşmışdı. Beş-on dəqiqə içində hazırlaşıb yola düşdük. Gülnar evdə qalmışdı. Onu özümlə getdiyim hər yerə aparmağa haqqım yox idi. Kənd elə də uzaqda deyildi. Uzağı bir saata çatmaq olurdu. Şəhər dağın ətəyində, kənd isə başında yerləşirdi. Kəndə getmək üçün dağların sinəsindən açılmış yoldan istifadə edirdik. Yuxarı qalxdıqca yavaş- yavaş hava soyuqlaşır, təmizlənirdi. İndi uzaqdakı böyük dağların zirvəsində qar da görmək mümkündü. Yuxarı qalxanda maşını saxlamasını istədim. Həmişə gələndə buralarda maşınlar dayanır, insanlar təmiz hava ilə tanış olurdu. Mən də uzun zamandan sonra bu təmiz havanı ciyərlərimə çəkdim. Bütün acılarım, ağrılarım dinmişdi. Dağ havası damarlarımda dolaşdıqca, sanki xatirələrim də qanıma qarışıb, beynimə doğru gəlirdi. Qan dedim, ağlıma gör nə düşdü. Yayda buralara gələndə o şəhərdəki Ləmandan əsər- əlamət qalmırdı. Oğlan uşaqları ilə futbol oynayır, onları döyürdüm. Bunun üçün də adıma kənddə "Oğlan Ləman" deyilirdi. Bu hal uzun müddət davam etmədi. Bir gün yenə uşaqlarla top oynayırdım. Birdən ayağım dolaşdı, möhkəmcə yerə dəydim. Bütün bədənim qan içində idi. Ağlaya-ağlaya oradan ayrıldım. Elə qorxurdum ki, ilk dəfə idi belə bir şey görürdüm. Öncə məndən bir neçə yaş böyük olan əmim qızının yanına qaçdım, bu qanın nə olduğunu soruşdum. O, mənə doğru- düzgün bir söz deyə bilmədi. Məcbur olub anamın yanına gəlməli oldum. Sən demə, o gün "Oğlan Ləmanın" qadın olmağa məhkum olduğu günmüş. Daha böyümüşdüm. Bir günün, bir saatın içində bütün həyatım dəyişdi. Daha oğlanlarla top oynamır, onlarla dalaşmırdım.

Çöldə çox dayanmaq olmazdı. Fərhad qoluma girib məni maşına əyləşdirdi. Yolumuza davam etdik. Elə istərdim ki, bu dağ bulaqlarının suyundan içməyi, ancaq olmazdı. Soyuq su onsuz da qısa olan həyatımı, daha da qısalda bilərdi. İndi anlayıram, uşaqlıqda necə xoşbəxt olduğumu. Babamgilin həyətində soyuq bir bulaq vardı. İsti yay günlərində o bulaqdan nə qədər su içir, sərinləyirdik. Bəzən,

uşaqlarla dağlarda ot biçən babam və əmimə də bu sudan aparırdıq. Nə gözəl günlərdi....

Maşın indi bizim kəndə doğru gedirdi. Gəl də ağlama, gəl də ölmə ay Ləman... Ancaq ağlamağa, onu üzməyə haqqım yoxdu. Onsuz da yolda gələndə başına oyun açmışdım. Bu dağ başında yenə eyni şeyləri etmək istəmədim. Göz yaşlarım yavaşca ürəyimə axırdı, ancaq dözürdüm- onun üçün, mənə görə bu qədər şeylərə qatlanan Fərhad üçün dözürdüm. Uzaqdan kəndimiz göründü. Kənd məzarlığı kənddən xeyli aralıda idi. Elə istəyirdim ki, kəndi görəm, babamın həyətində olan o armud ağacına toxunam. Ancaq yox, bunu edə bilməzdim. Məzarlığı ziyarət edib geri dönməliydim. Maşın məzarlığın kənarında dayanmışdı. Fərhada burada gözləməsini söylədim. Doyunca dərdləşmək, ağlamaq istəyirdim. Ürəyim o qədər dolmuşdu ki... Əvvəllər başımı anamın, nənəmin dizlərinə qoyub ağlayardım. İndi isə, məzar daşlarının üstündə ağlayacaqdım. Elə məzarlıqda içəri girən kimi, ilk məzar daşı məni yaman üzdü. Bilmirdim, onun belə tez öldüyünü. Niyə, nə zaman köçmüşdü bu dünyadan, ondan da xəbərim yoxdu . Kök bir oğlandı, Əli adlı. Mən sizə uşaqlıq sevgimin olmadığını söyləmişdim. Ancaq bəlkə də vardı, bəlkə də ola bilərdi... İndi heç bir şeyə əmin deyiləm. Əli ilə oynamağa gedirdim tez- tez. Bəzən əmim həyətə çıxmağı qadağan edirdi mənə. Lakin hasarın üzərindən aşıb qaçır və Əli ilə oynayırdıq. İlk sevgim ola bilərdi, dediyim kimi. Bircə damcı cəsarəti olsaydı. Bir gün yenə oynadığımız yerdə qonşu oğlanlardan biri mənə daş atdı. O an Əlinin yanında özümü güvənli hiss edir, məni qoruyacağına inanırdım. Uşaq mənə daşı atandan sonra çox gözlədim ki, Əli qabağa çıxacaq və onun payını verəcək. Ancaq Əli yerindən tərpənmirdi. Oğlan bir az bizi lağa qoyub getdi. O gedəndən sonra Əli heç nə olmamış kimi yenidən mənimlə oynamaq istəmişdi. Ancaq daha bitmişdi hər şey. O, ilk dəfə sevdiyini itirirdi, məni isə biri itirmişdi.. İndi məzarının üstündəki şəkildə arıq, uzun, yaraşıqlı bir oğlan var. Budur, indi burada dayanıb. Əlini, itirdiyim uşaqlığıma qatıb ağlamaq istəmişdim. Ağladım da. Kaş o daş atan oğlana hücum edib, məni müdafiə edəydin. O sənə əlini qaldırsaydı, daşı-ağacı onun başına

ələyərdim. Ay Əli, niyə o gün qorxaq davrandın? Bəlkə, mənim də bir uşaqlıq sevgim olardı, bəlkə, mənim də qədərim fərqli olardı. İlk sən yarı yolda qoymuşdun məni... İlk sən qoruya bilməmişdin. Sonra da Bəxtiyar...

Əlinimi ağlayırdım, yoxsa özümümü, bilmirəm.. Ancaq axşama qədər burada qala bilməzdim. Məzarlığın yuxarı tərəfində məni gözləyirdi sevdiklərim. Necə danışım indi bu mənzərəni. Düzdü, yazaram, gözəl cümlələr qura bilərəm. Di gəl ki, anasının məzarı başında ağlayan bir qızın hisslərini anladacaq qədər güclü deyiləm. Budur, cərgə ilə dayanıblar. Öncə atamın, anamın məzarları, sonra isə babamla, nənəmin. Məzarların ayaq tərəfinə yaxınlaşıram, daha ayaq üstə dayanacaq halım qalmayıb. Dizlərimi yerə qoyub çökürəm. Əlim güclə çatır anamın sinə daşına. “Ay ana”- deyib, boğuluram. Boğazımda düyümlənir bütün sözlərim. Ağlamaq istəyirəm, o da olmur. Gözlərim donub sanki, sadəcə anamın başdaşındakı şəkilə - anamın daşa dönmüş gözlərinə baxıram. Görəsən, məzarların da ürəyi olurmu, hiss edirlərmi ətrafda olanları? Yəqin ki, qısa zamandan sonra cavab tapa biləcəkdim bütün suallarıma.

Bəs məni hara basıracaqlar? Atamla-anamın məzarının arasında bir boş yer var. Elə bil, mənim üçün saxlayıblar. Bax, mənim məzar yerim bura olacaq. Buradan baxa bilməyəcəm dünyaya. Birtəhər həmin yerə doğru sürünür, torpağın üstünə uzanıram. Məzarımın üzərindəyəm indi. Bir zaman gələcək mən torpağın yox, torpaq mənim üzərimdə olacaq. Göy üzünə - buludlara baxıram. Hava tutqundu, bir azdan yağış yağacaq. Bir də görürəm, kimsə məni yerimdən qaldırmaq istəyir.” Qalx, ayağa soyuqdu” – deyir. Kim ola bilər ki, ondan başqa? Qoluma girib məni maşına gətirir. Yeriyə bilmirəm, elə bil sürünürəm.

Baxışlarım məzarımın olacağı yerdədir. Bu zaman əlimi qaldırıb, oranı göstərirəm Fərhada. “ Bax ora, düz atamla-anamın məzarlarının arasında dəfn edərsiniz məni” - deyirəm. Heç nə deyə bilmir. Gözləri dolaraq sadəcə “yaxşı”- deyə bilir. Mən bura gələndə doyunca ağlayacağımı düşünürdüm. Ancaq olmamışdı. Bu dəfə gözlərimdən yaş çıxarda bilməmişdim. Mən onlara çox yaxın

olduğumdan onları deyil, özümü ağlayırdım, qurumuş- donmuş göz yaşlarımla. Ağlaya bilməmişdim mən. Birtəhər sürüyüb, məni maşına salır. Deyəsən, bura gətirdiyi üçün çox peşman olub. Axı, soyuq olar, ağrılarım arta bilər. Nə işi vardı, əməliyyatdan yeni çıxmış birinin məzarlıqda. Tez sükana əyləşib maşını işə salır. Hələ də baxışlarım məzarlıqda- məzar yerimdə qalıb.

Torpaq məni özünə çağırır. İlk dəfə ölümdən qorxmasam da, yaşamaq istədiyimi hiss edirəm. Bəli, yaşamaq, sevmək istəyirəm mən. Maşın yavaşca kəndin əyri- üyrü yolları ilə geriyə doğru hərəkət edir. Nələr düşmür ki, yadıma. Babamın, nənəmin hər hərəkəti, hər sözü beynimdə canlanır. Əmim uşaqları ilə elədiyimiz dəcəlliklər, səhvlər, oynadığımız oyunlar hamısı indi düşüncələrimə qonaq gəlir. Kəndimiz yavaş- yavaş balacalaşır. İki uşağı vardı əmimin. Bir oğlu və bir qızı. Vüsalə məndən böyük olduğundan onunla elə də yaxın münasibətim yox idi. Böyüklərə yaraşan bir hal ilə həmişə bizə məsləhətlər verirdi. Bəzən onun sözləri məni qıcıqlandırır, ona kiçik tələlər qururdum. Bir dəfə yay axşamlarının biri idi yenə. Babam, əmim və digərləri həyətdə, ağacın altında əyləşib çay içə- içə söhbət edirdilər. Günortadan Vüsalə məni əsəbləşdirmişdi. Əslində haqsız deyildi. Qonşunun özümdən iki yaş böyük oğlunu döyüb evə qaçmışdım. O da mənə uzun- uzun nəsihətlər vermişdi. Və bu, mənim heç xoşuma gəlməmişdi. Səbirsizliklə axşamın olmasını gözləyirdim ki, ondan heyfimi çıxım. Nəhayət ki, istədiyim olmuşdu. Hər kəs həyətdə idi. Mən isə evdə Vüsaləni gözləyirdim. Başıma da ağ mələfə salmışdım. Birdən onun gəldiyini hiss etdim. Deyəsən, yatdığı otaqdan nə isə götürməyə gəlirdi. Tez otağa gedib qapının arxasında gizləndim. İçəri girmək istəyəndə qaranlıqda başımdakı ağ ilə qarşısına necə çıxıb qorxutdumsa, vahiməli bir səs çıxarıb həyətə qaçdı. O hadisədən sonra necə qorxmuşdusa, bir həftə danışa bilmədi. Mən də qorxumdan heç nə demədim. Özünə gələndən sonra hər şeyi danışdı, ancaq daha gecdi. Mən evimizdəydim. O biri yaya qədər isə hər şey unudulmuşdu.

Necə fərqli olurdum, buralarda ilahi. Şəhərdəki o sakit Ləman bura gələn kimi dağ keçisinə çevrilirdi. Vüsalədən fərqli

olaraq, əmim oğlu ilə eyni yaşda idik. Azər uşaqlıq dostum, sirdaşımdı. Deməck olar ki, bütün qələtləri bir yerdə edirdik. Uşaqlıqdan çıxıb ağlımız kəsəndən sonra deyəsən məndən xoşu gəlməyə başlamışdı. Bunu hiss edəndən sonra ona qaqa deyirdim. O, bu sözümdən əsəbləşir, mənim isə xoşuma gəlir, əlimi-əlimə vurub gülürdüm. Düzdü, məndən xoşu gəlsə də, bunu mənə heç vaxt demədi. Hər zaman bir qardaş kimi kənddə mənə arxa oldu. İndi xarici ölkələrdən birində yaşayır. Evlənibmi, bilən yoxdu. Maşın kənddən uzaqlaşdıqca, Azər yadıma düşür, kədərlənirəm. Yay tətili zamanı kəndə gələndə uça-uça gəlirdim. Ən çox da Azərlə oynaya biləcəm deyə sevinirdim. Şəhərdə tək idim - bacı, qardaşım yoxdu. Ancaq burada, Azəri qardaş yerinə qoyub könlümcə əylənə bilirdim. Elə ki, yay tətili bitirdi, bax bu yolla evimizə tərəf gedəndə düz şəhərə çatana kimi ağlayırdım. Bilirdim ki, Azər də günlərcə özünə gələ bilmirdi.

Maşın məni bəlkə də, sonuncu dəfə aparır buradan, son dəfə geri dönüb kəndimizə baxır, kövrəlirəm. Azərlə etdiyimiz dəcəlliklərin sayı-hesabı olmurdu. İndi düşünürəm ki, bəlkə də onunla heç bacı-qardaş olmamışıq, bəlkə də sevmişik bir-birimizi, ancaq sevginin nə olduğunu bilmədən. Ən çox dağlarda quzu otarmağı sevirdik. Bu zamanlarda doyunca oynayır, əylənə bilirdik. İndi yanından keçdiyimiz dağların hər qayasında bir xatirəmiz vardı. Bir qaya vardı. Onun ətrafını daşla hörüb, balaca bir otaq düzəltmişdik- iki nəfərin sığa biləcəyi, üstü olmayan otaq. Yağış yağdığı zamanlar şineli başımıza çəkib, bura sığınardıq. Bəzən, yağış çox bərk yağırdı buralarda. Şimşək çaxır, göy guruldayırdı. Ən çox göy gurultusundan qorxurduq. Elə ki, şimşək çaxırdı, qulaqlarımızı tutub gurultunun keçməsini gözləyirdik. Bu zaman bir- birimizə elə sığınırdıq ki... Sonra yağış kəsir, torpaqda gözəl bir qoxu yaranırdı. Dağ olduğundan palçıq da əmələ gəlmirdi. Heç istəmirdik axşamın olmasını. Bütün günü o qədər qaçırdıq ki, quzuların ardınca, evə çatanda yorğunluqdan elə masanın arxasında yuxulayırdıq. Bəzən də, yağış leysana çevrilirdi. Bu zaman babam yanımıza gəlirdi. Yoxsa, leysanda qorxa bilərdik. O gələn kimi hərəmiz bir qolunun altına girib

başımızı gizlədirdik. Necə güvənli idi, babamın şineli, ilahi! Kaş indi də babam sağ olaydı və onun şinelinə sığına biləydim. Görəsən dinərdimi bütün acılarım?

Bəzən, babam quzulardan birini kəsmək istəyirdi. Bu zaman Azərlə səs-səsə verib elə ağlaşma qururduq ki, gəl görəsən. Vüsalə məcbur olub bizi harasa aparırdı. Gəldiyimiz zaman isə, manqalın üstündə bişən kababa baxıb, ağzımızın suyunu axıdırdıq. O zaman heç quzu da yadımıza düşmürdü. Quzunun ürəyindən, böyrəyindən çörəyin arasına qoyub bizə verərdilər. Ətin geridə qalanı bişib hazır olanacan, biz doyurduq. Yadıma gəlmir ki, bir dəfə hamı ilə masa arxasında əyləşək. Görəsən, Azərin də yadına düşürmü, o günlər? Yəqin ki, düşər. Axı, insan yaşlandıqca, daha çox bağlı olur keçmişinə, daha artıq xatırlayır uşaqlığını....

Daha kəndimiz görünmürdü, dağların arxasında gözdən itmişdi. Sanki uşaqlıq xatirələrim də yavaş- yavaş uzaqlaşırdı. Dağlarda üşümürdüm, ancaq aşağı düşdükcə qəribə bir titrətmə bürüyürdü canımı. Xatirələr isə əl çəkmirdi məndən. Uzaqlardan gələn duman kimi düşüncələrimə çökür, məni keçmişə yuvarlayırdı. İndi sadəcə Azər və onunla uşaqlıqda etdiklərimiz, dəcəlliklərimiz vardı bu dumanın içində.

Deyəsən, onuncu sinifin yayı idi. Yenə hər zamankı kimi məktəb bitər- bitməz kəndə üz tutmuşdum. Həmişə olduğu kimi, babam mən gələn günü quzu kəsdi, axşamına isə nənəm xəngəl bişirdi. Gecə- gecə  xəngəl yeyilməzdi, düzdü, ancaq nənəm mənim çox sevdiyimi nəzərə alıb bişirirdi. Həmin yay da günlər əvvəlkilər kimi keçirdi. Bir şey vardı ki, indi mən balaca uşaq deyildim. Əvvəlki kimi azad, dağları- daşları dolaşmaq imkanım yox idi. Həyətə çıxan kimi oğlanların baxışlarını bütün varlığımda duya bilirdim. Ancaq heç biri babama, əmimə görə mənə bir söz deməyə cəsarət etmirdi. Hələ, Azəri demirəm... Yəqin ki, kimsə xətrimə dəysə, onun başını-gözünü dağıdardı. Azər demişkən, daha o da uşaq deyildi, bir il sonra əsgər gedəcəkdi. Hə, bu cavan oğlanın da baxışları dəyişmişdi. İndi o, çox yaraşıqlı biri olmuşdu. Əmim kimi hündürboylu, babam təki enlikürəkli bir dəliqanlı. Baxışları dəyişsə də, münasibətimiz

dəyişməz olaraq qalırdı. Əmim qızı artıq bir neçə il idi ki, ərə getmiş, qonşu kəndlərdən birinə gəlin köçmüşdü. Mənim tək dostum, sirdaşım bircə Azər qalmışdı. İndi evdə nənəmə, əmimin yoldaşına da ev işlərində yardım etməliydim. Məsələn, yeməkdən sonra qabları mən dura- dura onların yuması düzgün olamazdı. Yenə də, içimdəki uşağı öldürə bilmir, hərdən Azərlə dağlara gəzməyə çıxırdım. Ancaq bu tez- tez olmurdu. Görürdüm ki, istər babam, istərsə də əmim bizim birlikdə uzaqlara getməyimizi istəmirlər. Onlar da böyüdüyümüzü hiss edirdilər. Nə bilim, bəlkə də, Azərin baxışlarını görən tək mən deyildim.

Yay tətilinin bitməsinə bir həftə qalmışdı. Son günlər olduğundan evdə xətrimə də çox dəymirdilər. Bu günləri doya- doya yaşamaq istəyirdim. Gələn yay gələ bilməyəcəkdim, gəlsəm də bir- iki günlük səfər olacaqdı bu. Məktəb bitir, ali məktəb imtahanı məni gözləyirdi. Gələn yay imtahanlara qədər ancaq oxumalıydım. Ona görə də bütün günü gəzirdim, kəndimizin gözəl dağlarında, meşələrində. Uşaqlıqdan bəri gəldiyimiz bir yer vardı. Tez-tez bura gəlib oyun oynardıq. Kəndin üst tərəfində, qayalıqlar içində tək bir ağac bitmişdi. Hündür, köklü bir ağac. Yəqin ki, bu ağacın yaşı lap çoxdu. Buradan bütün kənd, hətta qonşu kəndlər də görünürdü. Balacalığımızdan doğma məskənimiz olan ağacın altına gəlmişdik yenə. Ora yaxınlaşdıqca, Azərin həyəcanlandığını hiss etsəm də, görməzdən gəlirdim. Ağacın altına çatanda rəngi qıpqırmızı olmuşdu. Əlləri titrəyir, uçunurdu. Birtəhər özünü ələ alıb, əlini ağacın gövdəsinə tərəf uzatdı. Ağacın gövdəsinə bir ürək qazınmış, ürəyin içinə də, iki hərf yazılmışdı- “ L A”. “ Səni sevirəm, Ləman”- dedi, titrəyə- titrəyə. Mənim isə ona deyəcək bir sözüm yoxdu. Nə verə biləcəyim bir ürəyim vardı, nə də ona acıqlana bilirdim. İndi böyük qız idim. Onsuz da məni sevdiyini bilirdim. Bunun üçün uşaqlıq dostumu, sirdaşımı incidəsi deyildim. Sadəcə ondan bıçağını alıb, ürəyin içindəki hərfləri oxunmaz hala saldım. Heç nə demədi mənə, bir daha bir söz eşitmədim ondan. Sakitcə kəndə gəldik. Bu bir həftəni də heç nə olmamış kimi keçirdik və mən şəhərə geri döndüm. Hər zaman məni yola salan Azər, bu dəfə də maşının arxasınca baxırdı.

Sonra Azər daha məktəbə davam etmədi, bir ay sonra da xarici ölkələrdən birinə- dayısının yanına işləməyə getdi. Bax, indi bunları niyə xatırladım, bilmirəm. Keçmişə baxanda mənim də qırdığım ürəklər vardı. Azəri incitmişdi mənim hərəkətim. O, bir daha qayıtmadı kəndə. Babam, nənəm öldükdə belə gəlmədi....

İndi maşın evimizin yanında dayanmışdı. Sanki duman çəkildi və geriyə sadəcə Fərhadın üzü qaldı. Məni maşından düşürüb içəri gətirdi. Gülnar yeməyi bişirib bizi gözləyirdi. Heç bir söz danışmadan masanın ətrafında əyləşdik.

Ah, Fərhad! Sevgimin, ümidimin adı! Sən olmasan görəsən mən necə ölə bilərdim, necə... Bəli, sən mənə ölüm ayağında gəldin. Sən mənə ölməyə yardım edirsən. Nə yazıq ki, indi anlayıram, insan sadəcə yaşamaq üçün yox, ölmək üçün də onu sevən birinə möhtac imiş. Səni çox sevirəm sevgilim, çox..

## Mariya

Dərslərim səhər tezdən, saat səkkizdə başlayırdı, hardasa, iki-üç arasında da bitirdi. Dərsdən çıxan kimi tez dükana qaçır, Fərhadın əmanətinə sahib çıxmağa çalışırdım. Bu, düz o gələnə qədər davam etdi. İndi yadımda deyil, neçə günü onsuz keçirdim, ancaq bildiyim tək şey, bu günlər onu daha yaxşı anlamağa, çox kömək etdi. İndi dərsdən çıxır, yemək belə yeməmiş gəlib dükanı açırdım. İşlər elə çətin deyildi. Gələn müştərilərlə maraqlan, kitablar haqqında məlumat ver və bu cür xırda işlər. İndi mən də eyni ilə onun kimi edirdim. Yoldakı köşkdən bir, bəzən də iki simit alır, dükanda çay dəmləyir, yoldaş gözləyirdim. Çayı bəzən kofe ilə də əvəz edirdim. Deyəsən, indi tamamilə ona dönmüşdüm. Məndən heç nə qalmamışdı geridə. Onun kimi axşama qədər dükanda dayanır, müştəri olmadığı zamanlarda kitab oxuyur, axşam qaranlıq qarışanda isə evə gedirdim. Fərhad hər an burada, mənimlə idi. Kitablarda, çay içdiyi fincanda, qapının önündə... Bəzən onun kimi siqaret yandırmaq istəyərdim, ancaq onun sözləri ilə özümə gəlirdim. Bircə kitab alan gənclərlə dost

olmağı bacarmırdım. Necə edirdi Fərhad. Sanki içəri girən hər gənci illərdir tanıyırmış kimi, onunla danışır, gülürdü. Mən isə rəsmiyyətdən kənara çıxa bilmirdim. Halbuki, bir zamanlar mən də bu işlərin ustasıydım. Burada ən çox xoşuma gələn şeylərdən biri də, gündə beş dəfə oxunan azan idi. Məscid çox yaxın olduğundan azanın səsini aydın şəkildə duyurdum. Bu zaman içimə bir rahatlıq dolur, rəbbimlə baş-başa qalırdım. Fərhad üçündü bütün dualarım. Kitablar, çay, onu düşünmək, ona dua etmək. Bax, mənim həyatım bunlardan ibarətdi indi.

Eşq bütün varlığıma hopmuşdu. Getdikcə soyuyan havalar da bir yandan yandırırdı qəlbimi. Bəli, soyuq məni üşütmür, əksinə yandırırdı. Bax, belə bir şeydi eşq. Azan səsi ilə çox uzaqlara gedirdim. Burada sufizmə aid kitablar oxuduqca, sanki eşqim iman edirdi. Rumini, İbni- Ərəbini həyəcanlanmadan, kövrəlmədən oxumaq olmurdu. Rumi ilə Şəms arasında olan dostluq, Ərəbinin eşq yolçuluğu, Yunus Əmrənin öz şeyxinin qızına aşiq olması da yeni öyrəndiyim bilgilərdən idi. Sən demə, eşq elə insandan başlayırmış. Bir insanı sevmədən, Tanrını necə sevə bilərik ki?! İndi mən də çayı daha çox sevirdim. Şəmsi tanıdıqca Yüsifi anlayır, Yüsifi – onun atıldığı quyunu öyrəndikcə, öz quyumun içindən xilas ola bilirdim. Bəli, hər bir Allah dostunun həyatından çıxaracağımız dərslər vardı. Bizim işimiz Şəmsi tapıb, qaranlıqlarımızı aydınlatmaqdı. Ondan sonra, bir sehrli karvan bizi düşdüyümüz quyudan çıxaracaq və sultan olacağımız yerə aparacaqdı. Ölüm gecəsini, şəbi- arus adlandıracaq qədər. Allah aşiqi ola bilmək üçün sadəcə eşq lazımdı, eşq...

Yüsif dedim axı, ən çox Züleyxanın hekayəsini, onun eşqini sevmişdim. Öz sevdiyinə qovuşmaq üçün nələrdən keçməmişdi? Züleyxanın ilk vaxtlarında özümü görmüşdüm sanki. Mən də sadəcə Fərhadı istəmirdimmi?! Ancaq çiləsini çəkmədən, bir yağmur dənəsinə belə sahib ola bilməzdik. Bax, bunu indi anlayırdım. Züleyxa gəncliyindən, var- dövlətindən keçəndən sonra qovuşa bilmişdi öz Yüsifinə. Sanki, bu hekayədən sonra mənim qaranlıq quyum – fikirlərim aydınlanmışdı. Mənə düşən səbrlə gözləmək idi. Bəzən yanılırıq. Birini sevdiyimiz zaman, onu bir an öncə bizə

verməsi üçün Allaha dua edirik. Ancaq duamız qəbul olunmur... Yüsif quyuda " məni xilas et deyə" yalvarmamışdı, sadəcə səbrlə gözləmişdi. Bax, bu, bizə açıq mesajdı. Bəzən şikayət etmədən, üsyanalara yelkən açmadan sadəcə səbrlə gözləməliyik. İstədiyimiz hər nə isə, yalnız səbrimizin, sədaqətimizin qarşılığında verilirdi bizə. Bəzən ən gözəl dua susaraq edilmirdimi? Həyat bəzən bizə istədiklərimizi verir, həm də həqiqətən, ürəkdən istədiklərimizi...

Başıma maraqlı bir hadisə gəldi bu günlərdə. Bir cavan oğlan gəlmişdi kitab almağa. Axtardığı kitabı uzun müddət tapa bilmədi. Nəhayətində, mən də axtarışa qoşuldum. Kitabı tapmağına tapdıq, ancaq bir qəza keçirdim. Yuxarı rəflərdəki qalın kitablardan biri başıma düşdü və gözlüyümü sındırdı. Gözlərimdə elə böyük problem yox idi. Sadəcə, bəzən gözlük taxırdım ki, gözlərimi qorusun. Bu hadisədən oğlan da çox pis olmuşdu. Ancaq hər şərdə bir xeyir var, məsələsindən baxdıq hadisəyə və böyütmədik. Ancaq o, xəcalət çəkdiyi üçün mənə yardım etmək istəyirdi. Mən razılaşmaq istəməsəm də, əl çəkmədi. Elə bu yaxınlarda gözlük hazırlayan, təmir edən bir dayı varmış, hətta tələbələrə pulsuz olaraq gözlüklər düzəldirmiş. Uzun sözün qısası, dükanı bağlayıb ora gedəsi olduq. Həqiqətən uzaqda deyildi. Binaların arasından keçib, bir xeyli getdikdən sonra çatdıq. Birinci mərtəbədə, balaca otaqda nur üzlü bir dayı işləyirdi. Gözlərində gözlük vardı, əlindəki şüşəni yonurdu. Bir müddət qapının ağzında dayanıb işini bitirməsini gözlədik. İşinə başı elə qarışmışdı ki, bizi görmürdü. İşi bitməmiş də görəcək deyildi. Bu arada mən də otağı gözdən keçirdim. Diqqətimi çəkən ilk şey fincanlar, kofe və çaydan oldu. Demək ki, bu dayı da çay sevənlərdən idi. Son zamanlarda başa düşmüşdüm ki, çay yaxşı insanların ilham qaynağıdı. Maşınlar benzinlə işlədiyi kimi, onlar da çayla işləyirdi. Otaqdakı divanda əyləşib gözləyirdik. Dayı hələ də öz işində idi. Üzündən-gözündən elə bir mehribanlıq yağırdı ki, insana elə gəlirdi, uzun illərdi tanıyır bu ustanı. Əllidən çox olardı yaşı. Nəhayət, dayı işini bitirib, bizi qarşıladı. Oğlanı çoxdan tanıyırmış, onunla çox səmimi görüşdü. Oğlan da dükanda olan qəzanı dayıya danışdı və məni tanış elədi. Mehribanlıqla gözlüyü məndən alıb, bir neçə

dəqiqənin içində təmir etdi. Sən demə, bir azca əyilibmiş. Bundan sonra haçan bir problem olsa, yanına gələ biləcəyimi dedi. Gözlüyü təmir edərkən boş dayanmamışdı. Dediyi bir- iki cümlə ilə, özünü tanıtmış, necə bir dərya olduğunu göstərmişdi. Əvvələr kitablarda rast gəldiyim bir söz vardı " könül insanı"- deyə. Bu dayı da həqiqətən elə insanlardandı. Bundan öncə hərbiçi olub. Təqaüdçü olduqdan sonra isə, bu işlə məşğul olmağa başlayıb. Belə anlayırdım ki, aldığı aylıq yaşaması üçün kifayət edərdi, ancaq o, yenə də işləyir, insanlara faydalı olmağa çalışırdı. Kaş belə insanlardan çox olaydı. Təsəvvür et, hara gedirsən get, nəsə öyrənirsən, ruhun dincəlir. Ancaq nə yazıq ki, bu cür yerlərdən çox azdı. İndi hər kəs bir- birini aldatmağa çalışır. Dayını dinlədikcə, həqiqətən insanın ruhu dincəlirdi. Utanmasam, deyərdim ki, Şəmsi tapmışam. Bəzi insanlar var ki, səni danışmadan anlayır, sözlər olmadan dərdini sezir və ona uyğun dərman deyir. İndi dayının sözləri yaralarıma məlhəm olurdu. Mən ondan heç nə soruşmamış, heç nə deməmişdim. Gözlüyü təmir etdiyi bir neçə dəqiqəyə bu qədər sözü necə sığdırmışdı! Bunu qoyduq bir kənara.. Bəs, bu qədər mənanı, anlamı bu sayılı cümlələrlə necə yükləyə bilmişdi? O anda ağlıma Nazan Bəkiroğlunun bir cümləsi gəldi, "Hikmətləri sözlərin qəlbinə endirən Allaha həmd olsun"- deyirdi. Bəli, həqiqətən də, sözləri yaradıb, onlara məna, hikmət verən Allaha həmd olsun! Buradan çıxarkən, düşündüyüm tək şey bir də haçan gözlüyümün sınacağı idi, kaş bu hal tez baş verəydi...

Canım elə yanırdı ki, Fərhad üçün, anlatmaqla olmaz. Dərsdə, dükanda birtəhər başımı qata bilirdim. Elə ki, gecə gəlirdi, bax, mənim cəhənnəmim onda başlayırdı. Yatmaq istəyirsən, yata bilmirsən. Sonunda bədən yorulur, yuxuya gedirsən, ancaq bu dəfə də kabuslarla oyanırsan. İndi mənim günlərim belə keçirdi. Bir günün içində insanın halı neçə dəfə dəyişə bilərmiş, ilahi... Məsələn, optika dükanından çıxanda elə xoşbəxt idim ki.... sevirdim, sevdiyimə əlim çatmasa, belə xoşbəxtdim. Sonra axşam oldu, bir az kitab oxuyub yatmaq istədim. Yuxda kimi görsəm yaxşıdı, Ləmanı. Bir sinif otağında əyləşmişdi. Müəllim masası ilə üzbəüz olan masada əyləşmişdi. Mən də içəri keçib müəllimlərin əyləşdiyi yerdə otururam.

Bir qədər söhbət edirik. Mən Fərhadı necə sevdiyimi deyirəm ona, deyəsən yalvarıram. O isə acıqlanır və Fərhaddan əl çək deyir. Bax, beləcə qorxu içində oyanıram. Oyandıqdan bir müddət sonra anlayıram yuxuda olmadığımı, bax, o an sinəmdən elə bir ağrı qopur ki, utanmasan gecənin bu vaxtında uşaq kimi ağlayaram. Sonra, bir az daha vaxt keçir... yuxulu olduğum üçün bu əzab çox çəkmir. Mən yenidən yox olduğumu hiss edirəm. Yavaş-yavaş acım azalır. Sonra yuxuya gedirəm...

Bu dəfə gözəl bir röyaya qonaq edir Tanrı məni. Çoxlu insanlar var, nəyisə, kimisə gözləyirlər. Ətraf yamyaşıldı ... Hə, indi anlayıram burada kiminsə toyu olacaq. Və bir az daha dərinləşir yuxum, indi yuxuya kənardan baxmır, düz içinə daxil oluram. Əynimdə bəmbəyaz gəlinlik var, addımlayıram. Gəlinliyin ətəyi ayağıma dolaşıb, məni yıxmasın deyə bir əl yardım edir. Aman Allahım, özüdü ki, var... Mən Fərhadla evlənirəm. Arxadan balaca uşaqlar gəlir- balaca, şirin qız uşaqları. Bizim qabağımızla da biri gedir. Əlində gül səbəti, yolumuza gül səpir. Sevincdən, həyəcandan az qala ürəyim yerindən çıxa. Gözlərimə əngəl ola bilmirəm. İndi anlayıram, toyunda ağlayan gəlinləri. İndiyəcən elə bilirdim ki, nəsə evlərindən ayrıldıqları üçün, anaları üçün darıxacaqlarından ötrü ağlayırlar. Sən demə, bu göz yaşları sevinc göz yaşı imiş. O an insan heç nə düşünə bilmir. Sadəcə xoşbəxt olur. Biz yanaşı addımlayırıq, ətafdakı insanlarsa bizi alqışlayır. Nədənsə bu insanların heç birini tanımıram, ancaq bunun nə fərqi var ki, əsas odur ki, mən sevdiyim adamla xoşbəxtəm. Sonra gözlərimə bir işıq düşür haradansa. Əvvəl elə bilirəm toya gələn oğlan uşaqlarından kimsə dəcəllik edib gözümə ayna salır. Ancaq bir az sonra elə olmadığını anlayıram... Axşamtərəfi ki, günəş buludların arasından süzüləndə qəribə bir gözəllik yaranır, sanki göy üzündən nur yağır. Bax, elə bir mənzərə əmələ gəlir. Ancaq bu dəfə yerdən göyə doğru qalxır işıq şuaları. Yavaş- yavaş qonaqlar, qız uşaqları o işığa qoşulub göy üzünə süzülür. Bu an qəlbimi qorxu bürüyür. Fərhadın da gedə biləcəyindən qorxduğumdan, gözlərimi yumub qışqırıram. Sonra o işıq daha da gurlaşır, mən öz səsimə

yuxudan ayılıram, qan- tər içində. O andaki peşmanlığı yəqin ki, sevgi acısı çəkənlər anlaya bilər. Başqa birinin anlaması mümkün deyil.

Birtəhər yerimdən qalxıb dərsə hazırlaşıram. Tez çıxmalıyam, neçə ki, metroda seyrəklikdi, çatmalıyam. Basabasdan zəhləm gedir. Onun üçün də bir az tez çıxıram evdən hər zaman. Elə birinci dərs müəllimələrdən biri ilə bərk mübahisəmiz düşür. Söhbət sevgidən, sevgi əzabı çəkməkdən gedir. Müəllimə belə insanları aciz adlandırır, az qala onları ələ salır. Güclü insan da, bir oğlandan və ya qızdan ötrü əzab çəkərmi, hələ bunun üçün özünü öldürənlər var - deyir müəllimə. Şəxsi həyatını az- çox bilirik bu insanın. Sevmədiyi biri ilə ailə qurub illər öncə. Uşaqların dediyinə görə bir oğlanı sevirmiş, oğlanın da ondan xoşu gəlirmiş, ancaq bu elə üz göstərir ki, yazıq oğlan qorxusundan sevgisini etiraf edə bilmir. Bu zaman ailəsinin tapdığı oğlana ərə gedir. İndi bizə sevgi əzabı çəkənlərin aciz olduğunu anladır bu "güclü" insan. Onun sevgini, gözəlliyi bu qədər aşağılamasına dözə bilmirəm. Əlimi qaldırıb söz istəyirəm və xahiş edirəm ki, məni sona qədər - sözümü kəsmədən dinləsinlər. Və başlayıram:

- Kimdir zəif, sevdiyi üçün mübarizə aparıb bu yolda əzab çəkənmi, yoxsa heç sevmədiyi bir insanın yatağına girənmi?!

Sözümü kəsməyin deməyimə baxmayaraq, bu sözlərim müəlliməyə od qoyur.

-Sevgi onsuz da yataqda bitir, ondan sonra hörmət əsas olur, ailədə- deyir

bizim ağıllı müəlliməmiz. Yenə ayağa qalxıram....

- Bunu sevdiyi ilə yatağa girməyən biri haradan bilə bilər ki?- deyirəm. Bu son sözlərim onu lap özündən çıxarır. Rənginin boğulduğunu görür, ancaq dayana bilmirəm. Qorxub qaçdığı doğruları ona xatırlatmağı özümə borc bilirəm...

- Sevən əzab çəkə bilər, özü də çox, ancaq onun əzabı sevgisizliyin əzabından yüngül olur. Sevdiyinə qovuşsan da, qovuşmasan da ürəyini eşqin atəşi ilə təmizləyirsən. Axıtdığın göz yaşları ruhunun yolunu təmizləyir....

Tənəffüsdə hər kəs məni danlayırdı. Axı, mən müəllimlə mübahisə etmişəm. O da bunun hesabını iki ay sonrakı imtahanlarda mütləq çıxacaq. Bəli, yəqin ki, belə də olacaq. Bizim müəllimlərdə belə qəribə hallar çox olur. Savadlı olsa da, ona qarşı səhv edən tələbəni bağışlamırlar. Bir dəfə vacib bir işim olduğundan sonuncu dərsə girə bilməmişdim. Ərizə yazıb, izn aldım və evə tərəf yollandım. Onda deyəsən qış aylarından biri idi. Sən demə qarşıdan bizim politologiya fənninin seminarını aparan müəllimə gəlirmiş. O, başını, gözünü elə bükmüşdü ki, ancaq yanından keçəndən sonra tanıya bildim və təbii olaraq salam vermədən keçdim. Növbəti dərslərin birində məni ayağa qaldırıb," məni tanıyırsanmı"- sualını verdi. Mən heç nə demədim, çünki işin nə yerdə olduğunu yaxşı bilirdim. O, isə " eybi yox, tanış olarıq"- dedi . Ondan sonra hər şey öz qaydasında gedirdi. Ta ki, imtahan vaxtı gələnə qədər. İmtahan günü düz yanımda dayandı. Bütün sinif köçürür, bir- birinə yardım edir, o, isə bunları elə bil ki, görmürdü, ancaq mənimlə maraqlanırdı. Uzun sözün qısası, kəsilib qaldım payız imtahanına. Əslində indi də uşaqlar haqlı idilər, dilimi dinc qoymamışdım. Böyük ehtimalla bu dərsdən də kəsiləcəkdim. Ancaq nə edəsən, haqsızlıq qarşısında susa bilmirəm. Uşaqlar məni yaxşı tanıyırdılar. Əvvəllər də belə idi, öz doğrularımı nəyin bahasına olursa olsun, müdafiə edirdim. Dəyişən sadəcə mənim doğrularım idi. Bəlkə, qabaqlar mən də elə bu müəllimə kimi düşünürdüm. İndi isə Fərhadı sevir, onun üçün bu qədər əzab çəkirdim. Axı, mənim əzablarımı təhqir etməyə heç kimin haqqı yoxdur.

Əslində acını da güclü insanlar çəkir, zəiflər acıdan, əzabdan qaçırlar. Məsələn, ayrılıqdan qorxduqları üçün heç vaxt sevmir, daş kimi, ağac kimi ömürlərini başa vurub ölürdülər. Ancaq bəzi adamlar dəfələrlə eyni acıları yaşayır və bundan şikayətçi də olmurdular. İndi o müəllimə mənə zəif deyir. Bəs, mən zəif biriyəmmi, məncə yox... Bax, bu qədər patokda mənim təki düşünən onlarca tələbə vardı, ancaq müəllimlə tərs düşməmək üçün heç biri ayağa qalxıb sözünü demədi. Ancaq kəsilməyi gözə alıb, sözümü demişdim. İndi mən necə qorxaq, zəif ola bilərdim axı?! Birtəhər

bugünkü dərsləri başa vurub dükana getdim. Fərhadımın əmanəti məni gözləyirdi. Bu dəfə yolun kənarındakı kafelərin birindən dönər və ayran da aldım. Nə zamandı özüm olmağı unutmuşdum, Fərhad kimi simit və çayla idarə edirdim. Bəzən isə özümüz olmağa, özümüzü xatırlamağa ehtiyacımız var. Bəli, dönərlə ayranı alıb içəri keçdim. Qapını da arxadan bağladım ki, yeyib bitirənə qədər kimsə narahat etməsin. Mariyanı unutmaq olmazdı, axı Fərhadı sevən o idi. Onu unutsaydım, sadəcə Fərhad olsaydım, özümü sevə bilməzdim. Sevgi iki nəfərlikdi. Bəzən bunu səhv anlayırlar ki, bunun üçün mütləq iki nəfər də bir- birini sevməlidir. Əslində, bu belə deyil. İki insan olmalıdır, bəli, sevən və sevilən. Yüzlərcə qarşılıqsız sevgi əfsanələri var və yüz illərin sınağından üzüağ çıxa biliblər. Demək ki, insan sevilmədən də sevə bilərmiş.

Dönərlə, ayranı bitirəndən sonra qapını açdım. Tələblələrin dərsdən çıxan vaxtı idi. Dükanı çox bağlı saxlamaq olmazdı. Özüm də boş dayanmır, müştəri olmayanda oxuyurdum, eyni ilə Fərhadım kimi. Bu günlərdə Xalid Hüseyninin "Min möhtəşəm Günəş" əsərini oxuyub bitirdim. Orada Nizami Gəncəvi və Saib Təbrizidən sevgi ilə bəhs edildiyini görüb çox sevinmişdim, ancaq əsərin sonunda müəllif Saib Təbrizini fars şairi kimi göstərir. Bu da mənə çox pis təsir etmişdi. Əlbəttə, burada yalnız Hüseynini günahlandırmaq düzgün olmazdı. Günah bizdədir ki, öz şairimizi qoruya, sahiblənə bilməmişik, eyni ilə torpaqlarımızı qoruyub, bilmədiyimiz kimi...

Bu arada deyəsən bir nəfərin də məndən yaman xoşu gəlirdi, bəlkə də sevirdi. Mən burada işləyəndən hər gün bir cavan oğlan gəlir, kitablara baxır və ən ucuz olanını seçib alırdı. Demək olar ki, on günə yaxındır buradayam. İndi yavaş- yavaş onun bu halına acıyıram. Bəlkə də, tələbədir, pulu yoxdur, bütün pulunu məni görmək, mənimlə danışmaq üçün xərcləyir. Bəlkə də, buradan çıxandan sonra ac gedir evinə... Bu düşüncələr məni rahat qoymurdu. Ona görə də sabah bura gələndə ona:

- Görürəm, oxumağı sevirsən və bir gecədə kitabı bitirirsən. Gəl, səninlə belə razılaşaq. Bizim kitab dükanı işlətməkdə əsas

məqsədimiz insanlarda oxumaq həvəsi yaratmaqdı. Maşallah, sən də çox oxuyursan, ancaq bu qədər kitaba pul çatdırmaq olmaz. Gəl, oxuduğun kitabı geri qaytar və yenisini al. Bircə şərtim var, kitabları elə vəziyyətdə gətir ki, sata bilək- dedim və gülümsədim.

Mənimlə razılaşmışdı. Apardığı kitabları həqiqətən oxuyurdu, bunu onunla söhbətimizdən anlaya bilirdim. Bu sevgi onu xoşbəxt etməsə də, çox şey öyrədəcəkdi. Birdən onu düşünməm mənə birini xatırlatdı, daha doğrusu, birinin mənə münasibətini - Fərhadın. Demək, bunun üçün mənə pis davranmırdı. Sevgini bilən biri, heç vaxt onu sevəni incidə bilməzdi. Bəzən insanları sırf bizi sevdiyi üçün incidirik. Onu elə gözəl anlayırdım ki! İndi necə əzablar çəkdiyini bilirdim. Ancaq o, mənim qədər əzab çəkə bilməzdi, çünki hələ mənim başqasını sevdiyimi bilmirdi. Mən onun üçün yenicə görüb, vurulduğu biri idim. Hələ sevgisinin həyəcanı ilə döyünürdü qəlbi. İndi düşündüyü tək şey məni görə bilmək üçün yeni bəhanələr tapması idi. Bir qədər sonra görmək, danışmaq kifayət etməyəcək və öz eşqini bildirəcəkdi. Bax, əsl əzabı onda başlayacaqdı onun. Ürəyi acıyacaqdı, mən də bütün varlığımla bu acını duyacaqıdım. Axı, bir insanın mənim ucbatımdan əzab çəkməsini heç istəməzdim.

Ah, yazıq Fərhadım, ona nə əzablar çəkdirmişdim. Hər kəs əzab çəkmirmi, əslində bu həyatda, bu hekayədə. Ləman ailəsi dağıldığı, Fərhadın yanında hər zaman ola bilməyəcəyi üçün, Fərhad Ləmanı itirəcəyi və mənim sevgimə cavab verə bilmədiyi üçün.... Ancaq bu insanların heç biri pis insan deyildi. Pis insanlar sevgi üçün əzab çəkmir, göz yaşı axıtmırdılar. Ancaq pis insanların da özünə görə əzabları vardı. Məsələn, filankəs daha yaxşı yerdə işləyir, filankəsin daha bahalı maşını var... Bax, belə ucuz şeylərdən ötrü əzab çəkir, həyatlarını cəhənnəmə çevirirdilər. Yaxşı insanlar isə şeir oxuyur, sevdiyi üçün göz yaşı axıdırdılar. Yaxşı insanların mükafatı heç zaman qaralmayacaq bir qəlbdi...

Birtəhər günü başa vura bildim. Havalar yaman soyuq keçirdi. Qışın gəlməsinə çox az qalmışdı. Günlər sonra, qış öz soyuq nəfəsi ilə donduracaqdı şəhərləri, kəndləri...

Demək olar ki, hər gün yağış yağırdı. Yağış, nə yağış, küləkli-boranlı, sanki düşmən üzərinə hücuma keçən bir ordu. Qapını bağlayıb yola düzəldim. Beş dəqiqəlik yol olardı metroya qədər, ancaq bu qısa zamanda az qaldım birtəhər olam. Saçlarımı məndən alıb aparmaq istəyirdi külək, yağış isə özünü üzümə vurub intihar edirdi sanki. Bu yağış damcılarını pərvanəyə, üzümü isə şama bənzətmək olardı. Hər kəs mənim halımda idi. İnsanlar harasa tələsir, hardansa qaça-qaça evlərinə dönürdülər. İndi ailsəinin, sevdiklərinin yanına qayıdanlar necə xoşbəxtdi! Bəlkə də, yanılırdım, axı bu dünya gülmək üçün deyil. Hər cür problemlər, bəlalar gəlir başımıza. Hər şey yaxşı olacaq deyirik, lakin heç nə yaxşı olmur. Bax, bu düşüncələrlə metronun içinə girdim. İçəri qəşəng isti idi. Bayaqkı soyuqdan sonra, bu isti dərman kimi gəlirdi adama. Yaşlı insanlar əyləşir, cavanlar isə güclə ayaq üstə dayanırdılar. Metro yavaş- yavaş hərəkət edir. Hər zamankı kimi pəncərədən baxıram. Metro qaranlıq tunellərlə sürətlə keçib gedirəm. Sonra hansısa bir stansiyada dayanır, içindəkilərdən bəziləri düşür, sonra yenidən yola düşür... Bax, bu insanlar da növbə ilə həyat adlı qatara minir, düşürlər. Bunları düşündükcə həyat necə də mənasız gəlir adama, ancaq elə ki, qatardan endin, yenidən öz acılarımız ilə baş- başa qalırıq. Artıq mənim düşmək vaxtım gəlmişdi. Metrodan çıxıb evimizə tərəf yol aldım. Yağış dayansa da, külək hələ öz işində idi. Evdəkilər artıq alışmışdı mənim sabahları çıxıb, axşam qaytımağıma. İndi seviniridilər ki, heç olmasa işləyirəm, başım qarışır. Qapını anam açdı. Hər zamankı kimi paltarımı, çantamı otağıma atıb duşa girdim. İsti su bədənimə dəydikcə sanki əzablarım da yüngülləşirdi bir az. Duşdan çıxmağa qorxurdum. Çıxacam, yeməyimi yeyib, bir az sonra yatmalı olacam və eyni kabuslar, eyni acılar yenidən qonaq olacaq mənə. Bəzən sinəmdə heç nə hiss etmirəm, sanki bir boşluğun içindəyəm. Birdən isə, elə bir ağırlıq çökür ki, qışqırıb,ağlamaq, ürəyimi sinəmdən qoparıb atmaq keçir ağlımdan. Ancaq heç birini edə bilmirəm. Bu acıları çəkməyə, bişənə qədər yanmağa məcburuq. Hər insan özünün yükü ilə başbaşadır, ta ki, ölənə qədər...

## Beytullah

Bəxtiyarın ən yaxın dostuyam. Yəqin ki, mənim haqqımda sizə danışıb. Məni və onu bir də məndən dinləyin. Bəlkə, o zaman daha yaxşı anlayarsınız bu hekayəni. Uzun illərdi tanıyırıq bir- birimizi. Onu deyim ki, ilk zamanlar onu tanıyanda ürəyində sevgidən başqa bir şey olmayan cavan oğlandı. Mən ondan bir az böyük olduğumdan hər zaman böyük qardaş kimi hörmət edir, mən də onu balaca qardaşım kimi sevirdim. İlk dərs günü yadıma gəlir ki, necə həyəcanlı idi. O zamanlar ailəsi rayonda yaşayırdı. İlk dəfə böyük şəhərə gələn bu oğlan sanki qorxurdu hündür binalardan, tanımadığı insanlardan... İlk dərs günü qorxa- qorxa ön sıralardan birində əyləşmişdi. Mən də hər zamankı kimi arxa sıralarda əyləşmişdim. Bu qədər uşağın içində ilk baxışda qanım ona isinmişdi. Onun üçün arxaya, yanıma çağırdım. Elə ilk gündən başladı bizim tanışlığımız və dostluğumuz. Mənim yanımda əyləşdikdən sonra, gözü bir qıza sataşmışdı. Dərs boyunca mənimlə söhbət edir, ona baxırdı. Dörd il boyunca Tərlanı sevdi, ancaq bir dəfə belə onu sevdiyini deməyə cəsarəti çatmadı. Daha doğrusu, Tərlan ona imkan vermədi. Bax, onun həyatını dəyişən bu hadisə olmuşdu. Bu qədər sevən bir insan, bu qədər sevgi ilə dolu bir insan sonradan necə ola bilərdi ki, sevdiyi qadını atsın...

Mən onun hələ də Tərlanı sevdiyini düşünürəm. O qədər çox sevmişdi ki, unutdum desə, bilərəm ki, ən çox indi sevir. Onu düşünmürəm desə, anlayaram ki, ən çox Tərlanı düşünür... İnsan dəfələrlə aşiq ola bilər, ancaq bir dəfə elə sevir ki... Nə yazıq ki, Bəxtiyarın o böyük sevgisi uğursuz oldu və o, bir daha özünü toparlaya bilmədi. Tərlanın nişanlandığını öyrənəndən sonra günlərcə özünə gələ bilmədi. Birlikdə nə qədər ağlamışdıq. Ağlaya- ağlaya mənə “Beytullah, sanki ürəyimdən bir şey düşdü yerə, ayaqlarımın altına” - demişdi. O zaman o boşluğun nə olduğunu bilmirdi, yeri hələ təzə idi. Mən isə çoxdan tanış idim o hal ilə. Və yaxşı bilirdim ki, o boşluqla bir ömür yaşayacaq, aldığı hər nəfəsdə yoxluğunu duyacaq.

Ona görə də, heç vaxt həyatıma kimsəni qəbul etmədim, evlənmədim. Xoşlandığım qızlar oldu, ancaq onlardan hər zaman uzaq qaçdım. Bəxtiyar isə özünə bir şans vemişdi, lakin bacarmadı. İndi yenidən ayağa qalxıb savaşmaq, itirdiklərini qazanmaq istəyir. Bəlkə, bacara biləcək, bəlkə də, yox...

Onun iş yerinə qayıtması üçün hər şey edəcəm. Elə bir insanın millətimizə çox xeyiri dəyə bilər. Onlarca tələbələr yetişdirəcək. Əslində o, məndən çox güclüdür, çünki ikinci bir şans verə bilmişdi özünə. Onun üçün istəyirəm ayağa qalxsın, özüylə savaş etsin, özünə qalib gəlsin. Ləmanı yenidən qazana bilməsə belə, aşiq ola bilər, yenidən ailəsi olar... Tələbə vaxtı şeirlər də yazırdı. Sonra " mənim ədəbiyyata ən böyük qazancım, xeyirim o ola bilər ki, bir daha şeir yazmayım" - dedi və həqiqətən də yazmadı. Haqlı idi, şeirləri sevgisi qədər gözəl deyildi. Ancaq yenə onun ürəyindən süzüldüyü üçün xoşuma gəlirdi. Bəzən, şeirlər yazır, dərslərdə oxuyurdu. Bu şeirlər ilə Tərlana öz sevgisini deməyə çalışırdı. Onu şeir oxuyarkən bir görsəydiniz! Həyəcandan az qalırdı ölsün. Tərlan da sağ olsun, onu heç vaxt incitmədi. Dörd il boyunca demək olar ki, hər dərs ona baxır, gözünü çəkmirdi. Ürəyə söz demək olmur, Tərlan onu sevmirdi, nə edəsən? Ancaq bunun üçün də Bəxtiyara acıqlanmır, onu anlayırdı. Bəzən, gözəl insanlar bir- birindən uzaq qalır. Nə olardı ki, Tərlan da onu sevsəydi, xoşbəxt bir ailələri olsaydı. Ancaq hər işdə Tanrının bir hikməti var. Bir bildiyi olmasa, yəqin ki, belə etməzdi. Bəxtiyar ən çox bir şey üçün üzülürdü. İkimizin də çox sevdiyi Sezai Karakoç, gəncliyində sevdiyi qız üçün bir şeir yazır "  Mona Roza"- deyə. Şeirin hər misrası qızın adının, soyadının bir hərfi ilə başlayırdı. Bax, Bəxtiyar da belə bir şeir yazmaq istəyirdi, Tərlan üçün, ancaq yaza bilmədi. Sonra Tərlan evləndi, toyuna çağırdı bir dəfə öldü Bəxtiyar, toydan sonra dərsə gəldi, bir də onda öldü... Bal ayından sonra ilk dəfə dərsə gəldiyi gün gecikmişdi. Haradasa, beş-on dəqiqə keçmişdi ki, qapı açıldı və içəri girdi. Bəxtiyar dayana bilməyib çölə çıxmışdı onda. Bax, buna görə deyirəm, bu qədər acılardan sonra ayağa qalxa bilirsə, güclü adamdı. Ləmanı da çox sevirdi, ancaq ürəyinin möhürünü Tərlan alıb ayağının altına atmışdı. Elə bu

səbəbdən də yanında ola bilmədi evləndiyi qadının... Mənim də bir həyatım, hekayəm var. Danışmaq istəyirəm...

Mən bir az güclü insanam. Yəni, bir sevgili üçün ağlayacaq biri deyiləm. Mənim göz yaşlarım ürəyimə axır hər zaman. Şeir kimi bir qız tanımışdım bir zamanlar. Deyəsən, onda orta məktəbi bitirmək üzrəydim. O zamanlar ali təhsil haqqında düşünmürdüm. Məktəbi bitirən kimi, işə girib əsgərlik vaxtını gözləyirdim. Hələ bir il vardı on səkkiz yaşımın düzəlməsinə. Bu şəhərdə gözümü açmışdım dünyaya, bu şəhərdə keçmişdi bütün ömrüm. Cavan bir oğlanın yaşamaq istədiyi nə varsa, mən də onları istəyirdim. Zəngin olmaq, gözəl bir qadınla evlənmək ... Ancaq o günə qədər sevginin nə olduğunu hələ bilmirdim. Hər sabah qalxıb işə gedən vaxtlarım deyildi. Gənc, təhsilsiz bir oğlanın yaxşı iş tapması da imkansızdı. Mənim işim restoranlarda toy olduğu zamanlar olurdu. Kabab çəkən bir dayının yanında işləyir, iş olan gecələr iyirmi manat pul alırdım. Haradasa, həftədə iki-üç toy olurdu. Belə baxanda çox şükür, öz xərcimi çıxara bilirdim. İnsanlar əylənir, sevincli günlərini yaşayır, biz isə isti manqalın yanında kabab çəkirdik. Müsiqinin səsi ilə xəyallar qurmağa belə vaxtım olmurdu. Şişləri tez- tez çevirməsəm yanardı və mən işsiz qalardım. Ət yavaş-yavaş bişir, üzərində piy olan tikələrdən ərinmiş yağ közün üzərinə damcılayırdı. Ayaqüstü biz də kababdan çörəyin arasına qoyub yeyə bilirdik. Bunun üçün kimsə əsəbləşə bilməzdi bizə. Hələ toydan sonra o qədər yemək qalırdı ki, evə də gətirirdik bəzən. Bax, belə keçirdi günlər. Gecələr işlədiyimdən, çox vaxt gündüz yuxuda olurdum, axşamtərəfi yenidən işə. Bu rejimə elə alışmışdım ki, hətta iş olmadığı zamanlarda belə gecələr oyaq, gündüzlər yuxuda olurdum. Günlərim belə mənasız keçərkən, bir gün başıma maraqlı hadisə gəldi. Evimizə gələn yol universitetlərdən birinin qabağından keçirdi. Bir gün fikirli-fikirli gedərkən, birdən bərk külək əsdi. Elə əsdi ki, güclə ayaqda dayana bilirdim. Külək həm də toz-torpağı üzərimə dağıdırdı. Gözlərimi qorumaq üçün əlimi üzümə tutdum. Bu zaman balaca, arıq bir qızın hasarın dəmirlərindən tutduğunu gördüm. Qorxduğu üzündən hiss olunurdu. Dəmirdən elə bərk yapışmışdı ki, elə bil külək bu dəqiqə

aparacaqdı. Ancaq onu deyim ki, həqiqətən güclü küləkdi. Mənim boyda adam güclə ayaq üstə dayana bilirdi. Bu balaca qız dəmirdən tutmasa, yıxıla bilərdi. Bu zaman hər şeyi unudub ona tərəf getdim. Düşünmədən qucaqlayıb, onu özümə sıxdım. Necə qorxmuşdusa, etiraz etmədən mənə sığındı. İndi başı ürəyimin üstündə idi. İlk dəfə ürəyim belə döyünürdü. Hələlik üzünə diqqətlə baxmaq imkanım olmamışdı. Sonra külək dayandı. Bir az özümüzə gəldik. Ona bir yerdə əyləşməyi təklif etdim. Bir su içsə, üzünü yusa, özünə gələrdi. Sakitcə dediyimə əməl etdi. Tez qaçıb su aldım və elə üniversitetin həyətindəki skamyalardan birində əyləşdik. Üzünü yudu, su içdi, indi sakitləşmişdi. İlk dəfə deyildi bura gəlməyim. Hərdən dostlarla gözətçilərdən xəlvət univeristetin həyətində gəzirdik. Ancaq bu gün bir az fərqli idi. İndi tamam başqa gözlə baxırdım bura. Birinci dərsə onsuz da gecikmişdi. Qalxıb getməyə tələsmirdi. Çoxlu təşəkkür edir, mənə olan borcunu necə ödəyə biləcəyini deyirdi. Mən nə etmişdim ki?.. Yenə də özünü narahat hiss edirdi. Məni çaya qonaq etdi. Bir çaydan çay və iki fincan alıb, qarşımda əyləşdi. Sən demə, bu balaca qızcığaz heç də balaca deyilmiş. Məndən nə az, nə çox düz dörd yaş böyükdü. Bu il də dördüncü kursda oxuyurmuş. Diqqətlə baxanda onun həqiqətən də elə balaca olmadığını gördüm. Qara, şirin bir qızdı. Elə gözəl danışırdı ki, onu sonsuza qədər dinləyə bilərdim. Bir saata yaxın söhbətləşdik. Rayonların birindən oxumaq üçün gəlmişdi bu şəhərə. Və bu il universiteti bitirib rayonlarına geri dönəcəkdi. Özünün dünyaya gəldiyi yerdə müəllim işləmək istəyirdi. Mənim məktəbi bu il bitirdiyimi duyunca təəccübləndi. Görkəmim heç də on yeddi yaşlı bir oğlanın görkəmi deyildi. Ali təhsil almaq istəmədiyimi deyəndə, məni bir balaca danladı da... Bu qısa söhbətdə ona vurulmuşdum. İndi harada oxuduğunu bilirdim. Nə qədər istədim başqa şeylər də deyim, ancaq alınmadı, deyə bilmədim. Sağollaşıb ayrıldıq. Mən evə, o, dərsə getdi. İlk dəfədən bəlkə də, insan anlayır imkansız olduğunu, çəkəcəyi acıları anlayır, ancaq dur deyə bilmir ürəyinə. Mən əsgər gedəcək, bir il altı ay burada olmayacaqdım. O isə rayonlarına qayıdıb, müəllimə işləyəcəkdi. Bəlkə, onu gözləyən bir

sevdiyi vardı? Axı, niyə düşünə bilməmişdim bütün bunları? Düşünsəydim, yəqin ki, indi belə olmazdım.

Sabahı gün də eyni vaxtda orada, onu gözləyirdim. Elə istəyirdim ki, yenə külək əssin, yenə... Ancaq həyat xəyallara heç bənzəmir. Nə külək əsdi, nə də o gəldi. Birtəhər evə getdim. Sabah bir də eyni şeylər baş verdi. Az qala dəli olacaqdım. Axı, niyə gəlmir? Yenə gəlməmişdi. İlk dəfə idi ki, bu qədər acı çəkirdim. Sevgi çox qəribə bir duyğuymuş. İnsan qəlbində sevdiyini daşıdığı üçün həyəcanlanır, sevinir, ancaq sevdiyindən uzaqda olduğu üçün canı yanır. Mən indi onu, bir ananın öz övladını bətnində qoruduğu kimi qəlbimdə qoruyurdum və bu hələ də davam edir... Bu doğuş heç gerçəkləşmədi, bu acı heç bitmədi... aradan bu qədər illər keçib, ancaq ilk dəfə olduğu kimi yanır ürəyim. O günü axşamacan şəhərdə veyilləndim. Yol gedirdim, ancaq sanki bir boşluqda, qaranlıqdaydım. Yeriməklə elə bil bu zülmətdən xilas olmaq istəyirdim. Gedirdim, ancaq geridə qoymaq istədiyim şey ürəyimdə olduğu üçün uzaqlaşa bilmirdim. İndi çox fərqli görünürdü dünya gözlərimdə. Məsələn, o metronun çıxışında gül satan dayının hekayəsini düşünürdüm. Axı, niyə başqa bir şey yox da, məhz gül satırdı? Ya da, dəniz kənarında kamança çalan başqa bir qoca. Görəsən, hansı dərdlərindən xilas olmaq istəyir, hansı əzabını müsiqiyə qatıb dənizin boşluğuna yola salırdı? Ona görə də, bir gül aldım o metronun çıxışında dayanan dayıdan. Sonra dəniz kənarına gəlib kamança dinlədim. Bir balaca dalğa vardı dənizdə. Ləpələr özünü sahilə vurur, sanki onları da müsiqi çağırırdı. Elə yanıqlı çalırdı ki, gənc oğlan. Sanki gəlmiş-getmiş bütün sevgililərin əzabını dilə gətirirdi kamançada. Axşama az qalırdı, ancaq mən buradan ayrılmaq istəmirdim. Bəs gülləri nə edəcəm, kimə verəcəm... Bu düşüncələrlə evə tərəf yola düşdüm. Bu zaman qaraçı dilənçilər yolumu kəsdi:

– Sevdiyinin canı üçün, sevdiyin üçün ay oğlan bir sədəqə ver-deyə ətrafımda hərlənirdilər. Bu sözlər onların şablonları idi. Mən də bəlkə yüz dəfə eşitmişdim, ancaq bu dəfə fərqli idi. İndi mənim də sevdiyim vardı, bu sözlərin dəyərini anlaya bilirdim. Mənim yaşlarımda gözəl bir qız vardı aralarında. Gözəldi, ancaq bu səliqəsiz

gözəlliyə insan baxmaq istəmirdi. İnsan özünü niyə bu hala salır ki... Nə isə, bu mənim məsələm deyildi. Mən sevdiyim üçün bir sədəqə verməliydim. Bir manat verdim o səliqəsiz gözələ, bir də əlimdəki gül dəstəsini. Mən oradan uzaqlaşarkən, qara qız gülü sevgilisi ilə gəzən bir cavana satmaq istəyirdi. Gördüyüm bu mənzərə bütün həyatım boyunca unutmayacağım bir şey oldu. Addımlarımı sürətləndirib evə gəldim. Bir duş alıb paltarımı dəyişdikdən sonra işə gedəcəkdim. Bu gün yenə toy vardı. Kim bilir, kimsə öz sevdiyinə qovuşacaqdı. Ya da ki, hansısa gənc qız öz sevdiyi oğlanı bir bəhanə ilə başından edib, zəngin dayısı oğlu ilə evlənəcəkdi. Bir qız vardı mən onuncu sinifdə oxuyanda. Yaşı az olsa da, sevgilisi vardı. Sinifdə hamı ona Leyli deyə müraciət edirdi. Mən də o zamanlar sevgi nədir, bilmirdim. Elə bilirdim ki, bu qız əsl sevgini yaşayandır. Lakin bir gün qızlarla onun bir danışığının şahidi oldum...

- Üç yol arasında qalmışam. Bir sevdiyim var, eşqimi çox sevirəm. Bir də dayım oğlu var məni istəyən, bir də əmim oğlu. Hər ikisinin də imkanı əladı. İndi bilmirəm hansını seçim. Ana tərəfi də, ata tərəfi də küsdürmək istəmirəm – deyirdi.

Əslində elə o gün anlamışdım bu həyatı az-çox...

İşdən sabaha yaxın çıxdım. Hər zaman evə gəlib yatırdım, ancaq bu gün yatmadım, yata bilmədim. Bir az dincəldikdən sonra, universitetin qabağına getdim. Ürəyimdən bir səs bu gün küləyin əsəcəyini deyirdi. Həyəcanla darvazanın qabağında o tərəf, bu tərəfə addımlayarkən birdən qarşıdan onun gəldiyini gördüm. Özümü itirmədən ona tərəf yönəldim. Məni gördükdə gülümsəyib yaxınlaşdı. Bir qədər danışdıqdan sonra onu çaya dəvət etdim. Yəqin ki, o günkü minnət borcunu düşünərək qəbul etdi. Saat ikidə burada olacaqdı. İndi isə dərsə getməli olduğunu dedi və üzr istəyərək məndən uzaqlaşdı. Saat ikiyə qədər bir az yatmalıydım. Yoxsa, o vaxtadək ayaq üstə dayana bilməyəcəkdim. Evə gəldim. Yol boyu ayaqlarıma gücüm çatmırdı. Mən evə, ayaqlarım isə geriyə qayıtmaq istəyirdi. İndi hər ağac, göydəki hər bulud, mavilik tamam fərqli görünürdü. Bunun adı eşq idi. Restoranda kabab çəkərkən, hərdən atəş üzümə vurur, canımı acıdırdı. Lakin indi ürəyimdəki acı bundan min betərdi. Canım elə

yanırdı ki, ölmək yox, yox olmaq istəyirdim. Manqaldakı atəşdən xilas olmaq üçün uzaqlaşmaq lazım idi, bu ürəyimdəki atəşin dərmanı isə yaxınlaşmaq, ona yaxın olmaqdı. Bax, beləcə evə gəldim. Yatmaq istəyirdim, ancaq nafilə, bir damcı yuxu getmirdi gözlərimə. Gözlərimi açsam da o, yumsam da...

Saat birə qədər yerimdə eşələndim. Yata bilməsəm də, gümrah hiss edirdim özümü. Ürəyim həyəcanla döyünür, bədənimdə dövr edən qan məni dinc saxlayırdı. Bir duş alıb, hazırlaşmağa başladım. Ən sevdiyim geyim forması qara pencək, şalvar və ağ köynəkdi. Saçlarım isə indiki kimi uzundu. Daha doğrusu, saçlarımı arxadan uzanmağa qoymur, üstünü isə daima uzun saxlayırdım. O illərdən dəyişməyən tək şey, elə saçlarım idi. Nə zaman külək əssə, saçlarıma sığal çəkir, dalğalandırırdı. Bu hal çox xoşuma gəlirdi, elə indi də gəlir. Nə zaman külək əssə şəhəri gəzməyə çıxıram, hələ yağış da yağsa tam olur... Yağış yağanda küləyin gücü çatmır saçlarıma və o zaman başqa bir romantika yaranır.

Sevdiyim ətri də vurduqdan sonra üniversitetin qabağına gəldim. Dərsdən çıxmasına on- on beş dəqiqə vardı. Həyəcanla gözləyir, yerimdə dayana bilmirdim. Bir az sonra, o, bu darvazadan çıxacaqdı. Elə istəyirdim ki, küləyin əsməsini. Sanki külək əssə, mən daha cəsarətli olacaqdım. Ancaq bu yaz günü külək əsmirdi, xoş bir hava vardı. Təbiət yavaş-yavaş oyanırdı. Ağaclara baxanda həyatı, dirilişi görmək mümkündü. Bax, beləcə düşüncələrə dalarkən vaxt uçub keçdi. İndi o, gəlirdi. Darvazanın yanında onu gözlədiyimi görüb üzündəki o xoş təbəssümlə mənə tərəf gəldi. Mənə doğru atdığı hər addımda ürəyimin döyüntüsü bir az daha artır, damarlarımda qan sürətlə özünü ora- bura vururdu. Gəlib yanımda dayananda üzümün qızarmasına əngəl ola bilmədim. Bir an ürəyimdəki bütün düşüncələr söz olmaqdan boyun qaçırdı, bir müddət danışa bilmədim. Mədəmdə də, şirin bir ağrı əmələ gəldi. Haçan belə həyəcanlansam, mədəm ağrıyar və bütün günü keçməzdi. Nəhayət özümü toparlayıb, onun salamını ala bildim. Axşama qədər bir işi yox idi. Mənimlə bir- neçə saat vaxt keçirə biləcəyini söylədi. Birlikdə sahilə - dəniz kənarına doğru addımlamağa başladıq. Mən adətən bərk yeriməyi sevən biri

idim. Ancaq ilk dəfə idi ki, yanımda bir qızla gedirdim. İndi yerişimə fikir verməli, addımlarımı ona uyğun olaraq atmalıydım. Hələ ki havadan, sudan danışırdıq. Cəsarət edə bilmirdim ona ürəyimdəkilərdən söz açmağa. Qorxurdum nəsə deməyə, rədd edəcəyindən, küsəcəyindən qorxurdum. Düz sahilə qədər beləcə yeridik. Yolda dondurma aldıq, dənizə yaxınlaşarkən qağayıların səsi güc verirdi sanki bizə. Dediyinə görə o da çox sevirmiş bu quşları. Bəlkə də, bu şəhərdə ən çox sevdiyi şey dəniz üzərində rəqs edən qağayıları seyr etməkdi. Ən çox da, qağayılar üçün darıxacaqdı... Beləcə söhbət yavaş- yavaş onun həyatından, gələcək planlarından düşdü. Bir az sonra eşidəcəklərim bütün həyatım boyu daşıyacağım müqəddəs bir yaraya çevrildi.

Bir sevdiyi varmış. Orta məktəbi birlikdə oxuyublar. Sonra o əsgərliyə gedib. İndi sevdiyi oğlan rayonlarında işləyir, onun universiteti bitirməsini gözləyirdi. Oğlandan danışarkən gözlərindəki sevinci, həyəcanı görməmək üçün kor olmaq lazımdı. Daha mənim deyəcəyim bir söz qalmamışdı. Bundan sonra ona sevgi sözləri demək, ona, sevdiyi oğlana, ən əsası da sevginin özünə hörmətsizlik olardı... Bu, mənə yaraşmazdı. İndi düşünürəm ki, gərək şansımı sınayaydım. Nə olacaqdı ki, bir sevgi etirafından?

Ancaq o gün elə düşünmədim. Bir neçə saat dənizin kənarında gəzdik, dərdləşdik. Söhbətin çox hissəsi ali təhsil almaqdan getdi. Mütləq oxumamı, təhsilimi davam etdirməmi istəyirdi. Altı ay qalırdı imtahanların başlamasına. Altı ay qalırdı mənim əsgər getməyimə. Ancaq, çalışsam bu qısa zamanda bacara bilərdim. Əlindən gələn qədər mənə yardımçı olacaqdı. Boş vaxtlarında məşğələ keçməyə belə hazırdı. Elə həyəcanla danışırdı ki, ona yox deyə bilmədim. Bir-iki saat öncə bura gələrkən nələr düşünürdüm, indi nə düşünürəm... Beləliklə, qərara gəldik ki, mən ali məktəb imtahanlarına hazırlaşacam. O günə qədər düz- əməlli məktəbə belə getməmişdim. Heç nədən başım çıxmırdı. O, böyük səbrlə mənə imtahanları, qrupları, hansı qrupda hansı fənnlər var, onu başa saldı. Ən yaxşısı, onun qrupuna, üçüncü qrupa hazırlaşmaqdı. Çox savadlı qızdı. Demək olar ki, hazırlaşdığı bütün fənnlər yadında idi. Beləliklə,

həftədə üç dəfə görüşəcək, məşğələlər keçəcəkdik. Mənə lazım olan kitabların, testlərin siyahısını yazıb verdi. İki gün ərzində bütün deyilənlər alınmalı və hazırlıq başlamalı idi. Ondan ayrılandan sonra qarşımda ömür boyu daşıyacağım bir əzabım və bir hədəfim vardı. Bəli, altı aydan sonra onu bir daha görməyəcəkdim. Ancaq bu aylar ərzində ondan çox şey öyrənməli və ömrümü onun öyrətdiklərinə həsr etməliydim.

Ondan sonrakı günlərim daha bir- birinin eynisi olaraq keçmədi. Hazırlıqlar başladı. O, böyük səylə məni başa salır, oxumağın yollarını öyrədirdi. Mən başqa müəllimin dediklərini heç vaxt nə bu qədər diqqətlə dinləyir, nə də yadımda saxlayırdım. Mənim müəllimim sevdiyim qadındı və mən hər yeni bilgini eşqlə oxuyurdum. Fərhad dağı necə külünglə dağıtmışdısa, mən də eləcə üniversitetə qəbul olmalıydım. Bəzən danışarkən xəyallara dalır, ancaq onun gözlərinə baxırdım. Bu zaman mənə əsəbləşmir, sadəcə ara verirdi. Deyəsən, anlamışdı ona olan münasibətimi. Ancaq mən bir söz demədiyimdən, o da üzə vurmur, yalnız hazırlıqla məşğul olurduq. Hər keçən gün bir-birimizə daha da yaxınlaşırdıq, dostlaşırdıq. Gecələr bəzən işdə olur, gündüzlərsə, çox az yataraq dərslərə hazırlaşırdım. Özümün də bilmədiyim bir cəhətimi kəşf eləmişdik birlikdə. El arasında da deyildiyi kimi, çox yaxşı başım varmış. Bir dəfə oxuduqlarım yaddaşıma həkk olunur, silinmirdi. İlk vaxtlarda hədəfimiz sadəcə üniversitetə daxil olmaqdısa, aylar keçdikcə indi daha yaxşı bir yerə qəbul olmaq üçün çalışırdım. Müəllimim, dostum isə böyük fədakarlıq göstərək, öz işlərindən zaman ayırıb mənimlə məşğul olurdu. Sonuncu kursda oxuduğu üçün, onun da işləri həddindən artıq çox idi. Dövlət imtahanı, diplom işi kimi ağır işlər onu gözləyirdi. Yenə də həm öz işlərini həll edir, həm də mənim dərslərimə yardımçı olurdu. Bu arada, o, mənə həm də bədii kitab oxumağı da aşıladı. Dərslərdən yorulduğum zamanlarda dincəlmək üçün kitab oxumağımı tövsiyə edirdi. Öz kitablarından gətirir, bitirdikdən sonra geri alır, yenisini verirdi. O, bir müəllim kimi kitabdan suallar verir, oxuyub-oxumadığımı yoxlayırdı. Mən

oxuyurdum, nə həddim vardı oxumayım, onun dediyi bir şeyi etməyim.

Vaxt azaldıqca, ürəyim sıxılırdı. İndi sadəcə iki ay qalmışdı ayrılığa. Nə imtahanları, nə dərsləri düşünmürdüm. Bu dərsləri də, kitabları da yalnız o istədiyi üçün oxuyurdum. Ancaq zaman keçdikcə, kitabları sevməyə başladım. Oxuduğum hər kitab düşüncə üfüqlərimdə yeni limanlar göstərir, həyata baxışımı dəyişdirirdi. Mənə sevgini öyrədən qadın, kitabları da sevdirməyi bacarmışdı. İndi oxumaq istəyirdim, ali məktəbə daxil olmaq və ondan sonra da təhsilimi davam etdirmək. Onu indi həm də bir müəllim kimi sevirdim. İlk dəfə bir müəllimim mənə bu qədər can yandırıb, bu qədər çox istəmişdi mənim təhsil almağımı. Bəzən ağlımdan onun kimi bir müəllim olmaq keçirdi. İndi özüm müəlliməm, şagirdlərim var, ancaq yenə ən böyük hədəfim, onun kimi olmaqdı.

Mən ali məktəbə qəbul oldum, özü də yüksək balla. Həm də, onun oxuduğu fakültəyə. O isə rayonlarına, sevdiyi adamın yanına qayıtdı. İndi ondan mənə qalan yalnız təhsilimi davam etdirmək, kitablarımı sevməkdi. Ancaq onun oxuduğu fakültədə, onun ayaq izləri silinməmiş oxuya bilmədim. Hərbi xidmətə yollandım. Təhsilimi gəldikdən sonra davam etdirəcəkdim. Beləliklə, düz iki ildən sonra fakültəyə gələ bildim. Elə bilirdim ki, zaman keçdikcə onu unuda biləcəm. Ancaq olmamışdı, on səkkiz ay əsgərlik, ondan sonrakı dörd ay heç nəyi dəyişdirmədi. Elə indi də heç nə dəyişməyib, elə indi də onun olan qəlbimi onun üçün qoruyub saxlayıram. Dörd illik bakalavr təshsili, sonra maqistr, sonra müdafiə etmək və ən nəhayətində müəllim kimi fəaliyyət göstərmək. Baxın, mənim də belə bir hekayəm var. Bəlkə də, onun üçün Bəxtiyarın dostu ola bilmişdim. Bəxtiyar da gözəl bir müəllimdi. Tələbələrinə can yandıran, onlara gözəllikləri öyrədən bir müəllim. Necə olursa-olsun, onun işinə qayıtmasına nail olmalıyam. Həm dostumun yenidən həyata dönməsini, həm də yeni nəsillər yetişdirməsini istəyirəm.

Dekabr ayı özünü çatdırmışdı. Havalar olduqca soyuq keçsə də, qar yağmırdı. Ümumiyyətlə, qar bu şəhərə çox az yağır. Bir-

iki günlük işim vardı. Ancaq bu işimdə onu da özümlə aparacaqdım. Bu günə qədər məndən sevgi ilə bağlı soruşsa da, hekayəmi ona danışmamışdım. Məncə indi vaxtıdı. Yenə ona heç nə demədən həftə sonu bir yerə gedəcəyimizi söylədim. Qatarla gedəcəkdik. Beşinci gün axşamı buradan çıxacaq, altıncı gün işlərimizi gördükdən sonra, axşama geri qayıdacaqdıq. Heç nə demədən sözlərimlə razılaşdı. Beşinci gün axşam dəmiryol vağzalında məni gözləyirdi. Qatara əyləşdik. Hələ ki, heç nə soruşmurdu. Xoşbəxtlikdən vaqonda bizdən başqa kimsə yox idi. Doyunca paylaşa bilirdik öz sükutumuzu. Bir az sonra hava qaraldı və qatar qaranlıqda uğultu ilə getməyə başladı. Bir qurşunun havanı yarmasına bənzəyirdi bu hal. Sakitcə qaranlıqlara meydan oxuyur, bizi uzaqlara aparırdı. Elə bir uzağa ki, mən o uzağı hər zaman ürəyimdə daşımışam.

Yavaş-yavaş söhbətləşməyə başladıq. Tələbəlik illərimizdən, Tərlandan, Ləmandan.... Məndən hələ danışmırdıq. Hələ ki, gözləyirdi məni. Ancaq vaxtına vardı. Bir az da gözləməli idi, mənim hekayəmi dinləmək üçün. Qatar yenə öz yolu ilə gedir, bizi yeni- yeni insanların olduğu yerlərdən keçirirdi. Telefonumu açıb sevdiyimiz mahnılardan birini qoydum. Bu o demək idi ki, söhbət bitmişdi. İndi düşüncənin, xəyalların zamanı idi. Başımızı qatarın şüşəsinə söykəyib, çölü, qaranlığı seyr edə-edə, bu mahnının sədaları altında gözlərimizə təslim olmuşduq. Səhər tezdən yuxudan oyananda hələ də yanaqlarımızda qurumuş göz yaşı vardı.

Rayon yerlərində səhər tezdən açıq bir yer tapmaq imkansız bir şeydi. Ən yaxşısı bir-iki saat elə vağzalda gözləməkdi. Sonra hamı oyanacaq, həyat başlayacaqdı. Beləliklə, rayonda həyat başlayana qədər gözlədik. Sonra səhər yeməyi yeyəcəyimiz bir yer tapıb əyləşdik və mən hekayəmi danışmağa başladım. İldə bir neçə dəfə gəlirdim bu rayona- Onun yaşadığı yerə. Ancaq bir dəfə də olsun görə bilməmişdim. Onun böyüdüyü, gəzdiyi və indi də yaşadığı yerlərdə gəzmək bəs edirdi mənə. Burada özümü elə rahat, xoşbəxt hiss edirdim ki, sanki öz vətənimdi - doğulub, böyüdüyüm torpaqlardı. Sən demə, sevgilinin yaşadığı yerin adı imiş, eşq kitabında vətən sözünün mənası. Mən indi vətənimdə idim. Axşama

qədər gəzib dolaşdıq və bütün hekayəmi Bəxtiyara danışdım. Rayon yerlərində insanlar çox şeydən uzaq qalmışdılar. İndi onu daha yaxşı başa düşürdüm ki, niyə bura qayıtmaq, müəllimə işləmək istəyirdi. Yəqin ki, burada olan məktəblərdən birində işləyir və gözəl şagirdlər yetişdirir. Bəlkə də, onun dərs keçdiyi şagirdlərdən hansısa mənim tələbəm olacaqdı. İlk müəllimim, dostum, sevdiyim qadın, xoşca qal...

Qatara mindik. İndi, deyiləcək bütün sözlər deyilmişdi. Bizə sadəcə susmaq qalırdı. Vaqonda bizimlə bərabər iki nəfər də vardı. Bunu bəhanə edib, heç nə demədən yatağımıza girdik. Ancaq inanmıram ki, kimsə yata bilsin bu gecə. İndi qatar bildiyim, yaşadığım yerə doğru gedirdi, ancaq ondan uzaqlaşırdım. Əlacım olsa, yalvarardım qatara ki, getmə, aparma məni buralardan. Kaş xəyal etdiyimiz şeyləri edəcək gücümüz olaydı! O qədər xəyallar qururam ki,... Məsələn, bu rayona köçüb gəlir, kiçik bir iş tapıb, onunla eyni yerdə yaşayıram. Ancaq olmur, insan xəyallar qura biləcək qədər güclü olsa da, onları həyata keçirəcək qədər dəli ola bilmir...

Görəsən, Bəxtiyar indi nə düşünür?.. Tərlanımı, yoxsa Ləmanımı? Ancaq mənə elə gəlir o, indi sadəcə sevgini düşünür. O, sevgiyə aşiqdi. Dünən Tərlan, bu gün Ləman... bəlkə də sabah bir başqası, ancaq mən sadəcə Ona aşiqdim. Ömrümün sonuna qədər də, bunu heç bir şey dəyişdirə bilməyəcəkdi. Deyəsən, göz qapaqlarım ağırlaşır.... Bəlkə də, bayaq böyük danışdım.... Bəlkə də...

## Bəxtiyar

Neçə illik dostumu, bu gün daha yaxından tanımışdım. İndi onun hisslərinin qarşısında səcdə etmək istəyirdim. Kaş mən də onun qədər güclü ola biləydim, kaş mən də Tərlanla bağlayaydım könül kitabını. Ancaq olmamışdı. Ləmana bağlanmışdım, sevmişdim onu. Yanında ola bilməmişdim... Kaş, bağlayaydım könül kitabımı-deyirəm, əslində bağlamışdım. Tərlanla bitmişdi hər şey. Sadəcə mən bunu qəbul etmir, yaşamaq, xoşbəxt olmaq istəyirdim. Bu nəyə

bənzəyir bilirsinizmi, dənizə atılan bir insanın, onu xilas edə bilməyəcək balaca bir taxta parçasına ümid etməsinə. Bitmişdi bu məsələ, ancaq qəbul edə bilmədim və bir insanın həyatını alt-üst etdim. Hələ özümün çəkdiyim əzabları demirəm...

Rayondan qayıdandan sonra Beytullah həqiqətən də mənim işimlə ciddi məşğul olmağa başladı. Heç də asan olmadı. Etdiklərimdən sonra insanlar haqlı olaraq mənə güvənə bilmirdilər. Bu iş sıradan bir iş deyildi- müəllimlikdi. Millətin gələcəyini təhlükəyə atmaq olmazdı. Mən həqiqətən də ağlımı itirmişdim bir ara. Ancaq indi səhvimi anlamışdım, düzəlmişdim. Lakin insanlara bunu inandırmaq çox çətindi. Bir müddət Ləman buralarda olmadı. Evlərinə gedibmiş, təzə öyrəndim bunu. Qəribədir, ondan ötrü darıxmağa belə utanıram, buna haqqım yoxdur. İndi onun yanındakı adamın da bütün hekayəsini bilirəm, mənim etmədiklərimi edən adamın! Maraqlıdır, daha onu qısqanmıram, əksinə, hörmət edirəm. Ləmanı son zamanlarında tək qoymamış, indi də bütün gücü ilə onun xoşbəxt ölməsi üçün çalışırdı. Bir səhv etmişdim və səhvimin cəzası bir ömür unutmamaq, bu vicdan əzabı ilə yaşamaq olacaqdı.

Beytullahın səyləri sonunda öz bəhrəsini verməyə başlamışdı. İkinci semestrdən işimin başına qayıda biləcəkdim. Nə yalan deyim, ilk dəfə sinif otağına girəndə indiki qədər həyəcanlanmırdım. Uzun ayrılıqdan sonra, yenidən tələbələrimə qovuşacaqdım. Əslində, onlara nəsə deyəndə, öyrədəndə özüm də onlarla bərabər dinləyirəm. Xoşbəxt olduğum bir neçə yerdən biridir sinif otaqları. Bu arzuma çatacaqdım dostumun, qardaşımın sayəsində. İtirdiyimi geri qaytara biləcəkdim, ancaq Ləman qatarı çoxdan keçmişdi. Həkimlərindən eşitdiyimə görə elə bir ömrü qalmamışdı. Mənim Ləmanım son günlərini yaşayırdı. İndi o, sadəcə ölümü, bir də Fərhadı düşünürdü. Ondan istədiyim son aylarını mənimlə keçirməsi yox, sadəcə məni bağışlaması idi. Bir dəfə evlərindən qayıdandan sonra yanına getdim. Bu dəfə məni içəri dəvət etdi. O, tək deyildi, Fərhad da oradaydı. Fərhad məni görüncə ayağa qalxdı, məni bayıra atmaq istəsə də, Ləman buna izn vermədi. Keçib əyləşdim. Bir zamanlar qadınım, hər şeyim olan insanı, indi bir

başqası məndən qoruyurdu. Ürəyimdə " öl ay Bəxtiyar, öl"- dedim. Ancaq ,ölə bilmir insan... Vallah, bu utancı yaşamaqdan ölmək yaxşıdı.

Rəngi solmuşdu, artıq ölümün nəğmələri oxunurdu gözlərindən. Ancaq yenə təslim olmamışdı. Nə yaşadıqlarına, nə ölümə... Bilgisayarı qarşısında idi. Özünün dediyinə görə romanını bitirmək istəyirdi, ölüm çatana qədər. Bu dəfə mənimlə hər şeyi unudub, bir köhnə dost kimi danışırdı. Gözlərim dolmuşdu. Onun hər sözü, söhbəti sağalmaz yaralar açırdı ruhumda. İşimə geri döncəyimi deyəndə, çox sevindiyini dedi. Bir qədər sonra özümü toparlayıb " bağışla, məni, bağışla Ləman" - deyə pıçıldadım. Bir neçə dəqiqə susdu. Otağı səssizlik bürüdü. O, danışmırdı deyə, heç kim bir söz deməyə cəsarət etmirdi. Bir qədər sonra baxışlarını uzaqlardan geri çağırıb " mən səni çoxdan bağışladım, sən özünü bağışlaya biləcəksənmi?" – dedi. Bəli, mən özümü bağışlaya biləcəkdimmi, deyəsən, bu sualın cavabı yoxdu.  Gülnar bizə çay gətirmişdi. Gülümsəyərək: çayını iç, söylədi. Fincanı əlimə aldım, dodaqlarıma yaxınlaşdırıb güclə onları islatdım. Çox çətinliklə uda bildim bir qurtum çayı. Sanki boğazımdan aşağıya qurğuşun töküldü. Daha özümdə güc tapa bilməyib, fincanı yerinə qoydum. Ləmanın bu halı, görünüşü məni məhv edirdi. Bir zamanlar necə də gözəl, təravətli idi sevdiyim qadın. Mənə inanmışdı, ancaq mən əclaf, onu yarı yolda qoydum. Arada onun Fərhada necə baxdığını gördüm. Bu baxışda nəsə çatmırdı. Hər halından onu sevdiyi bəlli idi, ancaq yenə də bu sevgidə çatmayan bir şey vardı. Axı, Ləmanın sevgi dolu gözlərini çox gözəl tanıyırdım. Kimsəni mənim qədər sevə bilməyəcəyini o an anladım və məhv oldum. Məni belə sevən bir qadını necə yarı yolda qoya bilmişdim?! Daha burada qalmağın mənası yoxdu. Onsuz bir az da qalsam, Ləmanın etirazlarına baxmayıb, Fərhad özü atacaqdı məni çölə. Onun üçün də üzüsulu ikən sağollaşıb evdən çıxdım. Qapının ağzından ayaqlarımı birtəhər sürüyə-sürüyə həyətə saldım. Üsyan edirdi bütün bədənim mənə. Bir an yenidən ağlımı itirəcəyimdən çox qorxdum. Ancaq əzabım o qədər çox idi ki, bu əzabları ancaq ağıllı insan daşıya bilərdi. Allah bu dəfə ağlımı almayacaqdı, çünki

peşmanlığı, acıları iliklərimə qədər yaşamağımı istəyirdi. Bax, beləcə təmizlənə, yenidən insan ola bilərdim.

Onsuz da uzun zamandı doğru-düzgün yaşamırdım. Ən çox rahat bir yuxu üçün darıxmışdım. Çox az yatır, yatanda da daima Ləmanı görürdüm. Hər yuxu bir-birindən fərqli olsa da, hamısının sonu eyni olurdu, mən Ləmanı itirirdim...

Güclə özümü universitetin həyətinə çatdırdım. Ehtiyacım olan şey Beytullahla dərdləşməkdi. Mən ora çatanda dərsdəydi. Həyətdə oturub onu gözləməyə başladım. Tələbələri seyr etmək əhvalımı bir az yüngülləşdirmişdi. Bircə vaxt tez keçsə, qovuşsam işimə! Bəlkə, yaşamaq üçün bir səbəbim olardı. Bura gələndə də, Tərlanı xatırladırdı hər şey mənə. Ah, Tərlan nə olardı məni sevsəydin, belə yarımçıq qoymasaydın. O zaman Ləmanın qarşısına çıxıb, həyatını məhv etməzdim. Nə qədər bu qapının ağzında onu gözləmişdim. Zəng vurulan kimi tez çölə qaçır, onu gözləyirdim ki, bəlkə nə isə deyə bildim, ancaq heç vaxt cəsarətimi toplaya bilmirdim. Nə zaman gözlərinə baxsam, özümü itirir, bütün sözləri unudurdum. Dodaqlarının üzərindəki xalı, o uşaq üzünü unuda bilmirdim. Gör neçə ildir ki, onu görə bilmirəm. Daha doğrusu, görməkdən qaçıram. Bir dəfə görsəm, yenidən öləcəyimdən qorxuram. Tərlana görə tələbə yoldaşlarımızdan neçəsinin toyuna getmədim. Buna görə məndən küsənlər də oldu. Ancaq heç biri anlamadı məni, niyə qaçdığımı... Yenidən tələbə olmağı o qədər çox istəyirdim ki... Bircə dərslik keçmişə qayıda bilsəydim, onu doyunca seyr edib, dəftərimə nələrsə yazaydım. İndi o dəftəri açmağa belə qorxuram. Hər gün ona nəsə yazırdım, cavan bir oğlan qəlbinin həyəcanı ilə. Yaz yağışım, deyirdim, ona, yaz yağışım. Bu, ancaq mənim ürəyimlə bölüşdüyüm bir sirdi. Çünki, bir yaz yağışı kimi yağmışdı ömrümə. Ondan sonra bir daha günəş çıxmadı, bir daha qurumadı göz yaşlarım. İndi onunla bağlı daha çox şey xatırlamaq istəyirəm. Zaman keçdikcə bəzi xatirələr unudulur, yaddan çıxır. Elə qorxuram ki, bir gün onu tamamilə unutmaqdan.

Ləman vicdan əzabımdı, nəfəs alqdıca, mənimlə yaşayacaqdı. Ancaq Tərlan, yoxluğu ilə belə məni xoşbəxt etməyi

bacaran bir xəyaldı, yaz yağışı idi. İndi məni bir şeirlər, bir də Beytullah anlaya bilərdi. Beytullah, Tərlandan danışa biləcəyim yeganə insandı. Onun üzünə baxanda tələbəlik illərimi- onlu günlərimi xatırlayırdım. İndi Beytullah qapıdan çıxır və mənə yaxınlaşır. Gözlərimdən hər şeyi anlayır. Bir müddət heç nə danışmadan susuruq. Gedib bufetdə əyləşir, çay içirik. Dəftərini açıb sevdiyimiz şeirlərdən oxuyur. İndi Karakoçun " en sevgiliyə" şeirini daha yaxşı anlayırıq. Şair " ey sevgili, ən sevgili artıq bitir, şu dünya sürgünümü"- deyir. Bəli, hər ikimiz gözəl anlayırıq bu həyatda sürgündə, qürbətdə olduğumuzu və bu sürgünün, yalnız ölümlə sona çatacağını. Oradan çıxandan sonra axşama qədər şəhərdə gəzir, dərdləşirik.

Havalar yaman soyuq keçir, günlər də qısalır. Dekabr bütün sərt üzünü bizə göstərmək istəyir deyəsən. Əslində, gecələrin belə uzun olması bizim kimi insanların ürəyindəndi. Gecənin nə isə başqa bir havası var. Günəş gözdən itəndən sonra meydan itlərə və igidlərə, aşiqlərə qalır. Bir çıxıb gecələr gəzsəniz, ya narkomanlara, ya da aşiqlərə rast gələrsiniz. İndi zaman yaman dəyişib. İgidlik, mərdlik çoxdan yoxa çıxıb. Bir zamanlar hər yerdə igid adamlar vardı. Ürəkləri dəli, saf... Bu adamlar harada bir zalım zülm etsə, orada olar, məzlumun, zəifin yardımına gələrdilər. İndi küçələrimizi yolkəsənlər, cibsoyanlar doldurub, ancaq igidlər nədənsə, yoxa çıxıb. Axşam olur, lakin hələ də şəhərdə gəzirik. Mən o qədər cəsur biri deyiləm. Beytullah isə mənim tam əksimdi. Onun üçün deyirəm də, ondan çox şey öyrəndim. O, cəsurdur. Gecə sabaha qədər ən qaranlıq küçələrdə gəzsəm, onunla bir damcı qorxu duymaz qəlbim. Onunla bir savaşa girmək də gözəl olardı. Soyuqdan titrəyə-titrəyə bir az gəzdik. Mənim üşüdüyümü görüb, Yunusun bir sözünü dəyişdirərək mənə zarafat edir. Yunus Əmrə " aşiqlər ölməz" demişdi, Beytullah isə "aşiqlər üşüməz, Bəxtiyarım" - deyir. Deməli, " həqiqi aşiq ola bilməmişəm ki, üşüyürəm" – deyirəm. " Bu həyat bir dərgahdı" - deyir və sözlərinə davam edir.

- Bu həyat bir dərhag, bir məktəbdi, başımıza gələn hadisələr də müəllimlərimiz. Acılarla, əzablarla bişirik. Yoxsa çiy- çiy kimə aşiq

deyilər, kimə insan deyilər ki... Aşiq olmaq üşün, öncə insan olmaq lazımdı, Bəxtiyar. İnsan olmayan birindən aşiq – filan olmaz. Eşq təmiz olduğu üçün kirli qəlblərdə yuva sala bilmir. Təmiz qəlbin sahibi acı çəksə də, əzablarla qovrulsa da, nəticədə bişir, tamamlanır. Vay yarımçıq qalanların, bütövləşmədən köçənlərin halına....

Hər sözü ilə məni bir az da həyata, özümə qaytarır. İndi hava daha da soyuqlaşır və qaranlıqdı. Hələ ki, evə də getmək istəmirik. Bu zaman gözümüzə türk kafelərdən biri ilişir. Həm isti bir şorba içər, həm də söhbətimizi davam etdirərik deyə, düşünürdüm. Ancaq onunla yemək yeməyə getmək istəmirdim. Nə zaman əyləşsək, hesabı məndən öncə ödəyir, məni utandırırdı. Bəzən eşidirdim ki, dostlar hesabı bir-birinin boynuna atmaq üçün dalaşırlar. Onun üçün tələbələrimə məsləhət verəndə " bir yerdə yemək yeməyə gedin, hesabı özü vermək istəsə, dostunuzu tapmısınız, yox sizə verdirmək istəsə, ondan uzaq qaçın" - deyirdim. İçəridə xoş təbəssümlə qarşılayırlar bizi. Soyuq olduğundan başqa bir adam yoxdu. Bir küncdə əyləşib, söhbətə başlayırıq. Bu soyuq havada şorba, dost söhbəti dərman kimi gəlir. Bu zaman içəri on-on beş yaşlarında bir uşaq girir və ac olduğunu söyləyir. Soyuq havada əynində elə də qalın paltar yoxdu. İşçilər onu uzaqlaşdırmaq istəyirlər. Nəsə etmək istəyirəm, ürəyimdən yardım keçirərkən Beytullah ayağa qalxıb, kassaya yaxınlaşır. " Bu balaca mənim qonağımdı, ona da bir şorba gətirin" – deyib, uşağı bizim əyləşdiyimiz masaya gətirir. O an balacanın gözlərindəki sevinci, işığı görmək dünyanın bütün zənginliklərinə dəyərdi. Əyləşir, bizimlə və şorbasını acgözlüklə içməyə başlayır. Əynindəki paltar nazik, köhnə olsa da, təmizdi. Özü də təmiz uşağa bənzəyir. Aydın məsələdir ki, qaraçılardan deyil. Bir az sonra yəqin ki, kim olduğunu öyrənərik. Hələlik mane olmayaq, yeməyini yesin. Bu zaman Beytullah bir hekayə danışmaq istəyir adəti üzrə. Deyir, balaca dostumuz da dinləsin, öyrənsin və nəticə çıxarıb Hz.Hüseyn kimi olsun. Belə deyəndə anlayıram ki, söhbət şəhidlər sultanından gedəcək. Və dostum sözə başlayır:

- O zamanlar Kufə əhli bir məktubla Hz.Hüseynə müraciət edib, yardıma çağırır, Yezid və onun ordusu ilə savaşmaq üçün. Və söz

verirlər ki, bu döyüşdə onu tək qoymayacaqlar. Hüseyn əfəndimiz də bu çağrışı qəbul edir və getməyə hazırlaşır, ancaq kufəliləri yaxşı tanıyanlar ona " getmə" - deyir. Onlar sənə yalan söyləyir, səni döyüş meydanında tək qoyacaqlar. Bu zaman Hz. Hüseyn əsrlərə meydan oxuyacaq bu sözləri deyir." Mən də bilirəm onların yalan danışdığını, məni savaş meydanında tək qoyacaqlarını, ancaq bu gün mən zalımın ordusunun üzərinə getməsəm, bir daha heç kim özündə bu gücü tapa bilməyəcək". Və gedib bir dəstə adamı, silahdaşı ilə şəhid olur.

Beytullah danışdıqca mən kövrəlir, balaca dostumuz isə diqqətlə bizi dinləyir. Və sözlərinə davam edir Beytullah:

- Baxın, indi iki yol var, daha doğrusu hər zaman bu iki yol ayrıcında olub insanlıq. Biri Hz.Hüseynin yoludur ki, bu eşqin-aşiqlərin yoludur. Digər yol isə Yezidin, yəni kinin, nifrətin yoludur. İndi biz özümüzə sual verək görək, hansı yolun yolçusuyuq, əgər yolumuz eşq yolu isə, ona görə yaşamalıyıq. Həm sevirəm, aşiqəm deyib, həm də Yezidin yolu ilə getmək olmaz, qardaşım. Birinci özümüzü, qəlbimizi təmizləyəcəyik ki, insanlara, tələbələrimizə də bir faydamız olsun. O danışarkən, balaca qonağımız şorbasını içib bitirir. Ancaq anlayırıq ki, bir şorba ilə doymaq olmaz və yeni yeməklər sifariş veririk. Təkcə onun üçün desək, birdən utanar, yeməz, deyə ona yoldaşlıq edirik. Əslində, bizim düşüncəmiz sadəcə şorba içməkdi. Ancaq onu deyim ki, indiyə qədər heç bir yemək bu qədər ləzzət etməmişdi mənə. Budur, yeməklər gəlir, yanında da ayranı... Ayran atalarımızın içkisi olduğu üçün bizim də sevimlimizdir. İndi kimsə danışmır, ləzzətlə yeməyimizi yeyirik. Bu arada çöldə hava təmiz qaralıb, yağış da yağır deyəsən. Yağmur dənələri özünü kafenin pəncərəsinə vurur. Ürəyimizdən şeirlər keçir. Həmişə belə yağışlı, dumanlı havalarda bir ordu ilə savaşan Kürşad və qırx döyüşçüsü düşür yadımıza. Yağış elə gözəl yağır ki, insanın damarlarında qanı coşur, eyni ilə Kürşad kimi ordularla savaşmaq istəyir. Nəhayət, yeməyi bitirib çölə çıxırıq. İndi balaca dostumuzdan ayrılmaq zamanıdır. Ancaq hava çox soyuqdu, onun əyni isə nazikdi. Bu zaman heç nə demədən gödəkçəmi çıxarıb onun çiyninə salıram. Etiraz etsə də, etirazını qəbul etmirəm. Gülümsəyərək başına sığal çəkib, onu

evinə yola salırıq. Bax, indi üşümürəm. Yağış, külək, mənim əynimdə isə bəyaz bir köynək, ancaq üşümrəm. Deyəsən eşq, aşiqlik belə bir şeydi. Axı, bayaq Beytullah deyirdi- aşiqlər üşüməz.

Bir az da gəzmək istəyirik. Yağış saçlarımızdan süzülür, üz-gözümüzü dalayır külək, lakin yenə də gəzmək istəyirik. Hava getdikcə qaralır, daha küçələrdə insanlara rast gəlmək olmur. Aradabir evinə tələsən kimisə görmək mümkündür. Biz isə qaranlıq küçələrdə irəlilləyir, Tanrının dediyi şeiri dinləyirik. Əynimizdəki paltar demək olar ki, tamamilə islanıb. Bir az da gəzsək, xəstələnə bilərik. Evim yaxın olduğuna görə bizə doğru yola çıxırıq. Buradan xeyli var, ancaq marşuruta minmək əvəzinə yeriməyi üstün bilirik.

Bu gecə havada başqa bir şey var ki, özünə çəkir insanı. Bir xeyli gedirik. Qaranlıq küçələrdən birindən keçərkən, beş- altı nəfərin siqaret çəkib, söhbət etdiyini görürük. Hər halda xeyirli adamlara oxşamırlar. Onlar gecələri yol kəsib, xuliqanlıq edən qaqaşlara bənzəyirlər. Yağışdan qorunmaq üçün, böyük bir ağacın altında dayanıblar. Yolumuz düz onların yanından keçir. Tək olsaydım yəqin ki, yolumu dəyişdirərdim, bəlkə də, daha yox... İndi nə olursa, olsun yoluma davam edərdim. Ancaq indi tək deyiləm, yanımda Beytullah var. Ölüm də olsa, onunla birlikdə addımlamalıyam. Yavaş-yavaş onlara yaxınlaşırıq. Oxuduğum bütün şeirlər, romanlar yadıma düşür. Bayaq kafedə Kürşadı xatırlayarkən, bir ordu ilə savaşmaq istədiyimi söyləmişdim. Bəlkə də, gün qorxularımla üzləşmək günü idi. Bu günə qədər heç savaşmamışdım. Uşaqlığımdan bu günə qədər demək olar ki, bir qorxaq kimi yaşamışdım. Bu, bəzən özümdən belə gizlətdiyim həqiqət idi. Bəlkə də, bu axşam bu qorxunun sonu olacaqdı. Beytullah nə olursa-olsun qaçmayacaqdı. Buna adım kimi əmin idim, ancaq özümə inana bilmirdim. Son ana qədər fikrimi dəyişdirib qaça bilərdim. İndi bütün həyatım gözümün önündən keçirdi. Ləmanı da belə qoyub qaçmamışdımmı, əgər bu gecə Beytullahı tək qoysam, bir daha üzünə baxa bilməyəcək, əvvəlki lənət həyatıma qayıdacaqdım. Ancaq mən yaşamaq, yaşamaq istəyirdim. Nə olacaqsa, olsun. Qoy, bu yağışlı gecədə qanım yağan yağmura qarışsın. Bəlkə, qəlbim təmizlənər,

bəlkə mən də insan kimi rahat yaşaya bilərəm. İndi ağacın altına yaxınlşamağımıza çox az qalır, haradasa, bir- iki addım. Oğlanların bizə baxıb gülə- gülə nəsə danışdığını eşidirəm. Beytullah heç nə demədən sakitcə irəliləyir. Ona baxıram, elə gedir ki, sanki sevgilisi ilə görüşə tələsir, o ağacın altında onu savaş yox, sevdiyi gözləyir. O anda anlayıram ölümə sevgi ilə qoşan igidləri, şəhidləri.

Dediyim kimi də olur. Bu gecə havada nə isə var və mənim son şansımdı bu. Bax, budur, onlara yaxınlaşırıq. Oğlanlardan ən iri olanı mənə yaxınlaşıb danışmaq üçün telefonumu istəyir. Beytullah nə edəcəyimi bilmədiyimi görüb “ ver qoy danışsın” - deyir. Telefonu sakitcə çıxarıb verirəm. Ancaq bildiyimiz kimi oğlanın telefonu qaytarmaq fikri yoxdu. Heç nə bilmirəm, belə söhbətlərdən başım da çıxmır... Nə olacağını maraqla gözləmək istəyirəm. Oğlan ağzını açıb nəsə demək istəyir, ancaq Beytullah onu qabaqlayaraq” indi də sən, şalvarını çıxar ver, bir lazım olana verəcəm” - deyir. Onun bu sözləri məni çox təəccübləndirir. Belə bir sözü heç gözləmirdim. Ancaq onsuz da savaş olacaqdı. Hər halda telefonumuzu eləcə aparmalarını izləyəcək deyilik... Bu zaman digər qaqaşlar da ətrafımızı sarır. Beytullah mənə baxıb, gülümsəyir. Üzündə, gözlərində ən xırda bir qorxu yoxdur. Sadəcə “ hazırsanmı” – deyir mənə. O, hazırsanmı, deyər də, mən hazır olmarammı? Çox gözləmək olmaz. Şalvarını istədiyi qaqaş əllərini ölçə-ölçə ona yaxınlaşıb, nəsə öz aləmində söz demək istəyir. Bir anın içində nə olduğunu anlamadan sillə qulağının dibindən açılır. Yerə düşərkən tez əlindən telefonu alıb cibinə qoyur Beytullah və savaş başlayır. Üç nəfər onun üstünə gedərkən, ikisi də mənim qismətimə düşür. Ömründə bir dəfə belə savaşmamış bir adam gəl, indi iki nəfərlə birdən savaş, ya da savaşma, qoy ölümünə çırpsınlar. Bu zaman heç nə düşünə bilmir insan. Yağış daha da möhkəm yağır, ancaq külək dayanıb deyəsən, bu savaşın sonunu maraqla gözləyir...

Heç nə demədən mənə doğru gələnlərdən birinin üzərinə atılıram. Boğazından yapışıb var gücümlə sıxıram. Bu zaman yer də yaş olduğundan, yerə yuvarlanırıq, ancaq yenə əllərim boğazındadır. Nə qədər əlləşirsə, çıxa bilmir əlimdən. O biri isə var gücü ilə məni

təpikləyir. Başqa yol yoxdu, əgər buraxsam o, da, o birinə qoşulub vurmağa başlayacaq. İndi heç olmasa, birini əlimin altında saxlayıram. Bir az sonra dəyən zərbələri hiss etmirəm. Deyəsən, biri üzümə dəyir. Ağzımdan, burnumdan qan axır. Bu zaman altımdakı adamın boğazını buraxıb, üzünü yumruqlamağa başlayıram. O biri məni nə qədər bərk vurursa, mən də eyni şiddətlə onu vururam. Hətta deyəsən, mən daha bərk vurmağa başlamışam. O, bayaq məni vuran yoldaşını əlimdən almağa çalışır. Mənsə, hələ də onun üzünə zərbələr vururam. Bu zaman Beytullahın səsi gəlir qulağıma “ burax, Bəxtiyar yoxsa, adam öləcək” - deyir. Yenə də özümə əngəl ola bilmirəm. Bu zaman birləşib məni onun üzərindən qaldırırlar. Demək olar ki, hamının üz-gözü qan içindədi. Ancaq mənim dəliliyim digər dalaşanları bizi ayırmağa məcbur etmişdi. Ayağa qalxandan sonra daha kimsə-kimisə vurmağa cəhd etmədi. Yerdəki yoldaşlarını qaldırıb, aradan çıxdılar. Biz də birtəhər evə doğru yollandıq. Yolda gülərək Beytullaha “ şalvarını ala bildinmi, oğlanın” - dedim. O da güldü. Bədənimdə ağrımayan, göyərməyən tək yer qalmamışdı. İndi içimdə nəsə düzəlmişdi, daha özümü əvvəlki kimi aciz, gücsüz hesab etmirdim. Bu gecə Beytullah ruhumu, vicdanımı xilas etmiş, qaranlıqların əlindən ala bilmişdi. Evə kimi heç bir söz demədən gəldik. Qapını açan anam bizi belə gördükdə bir az qorxdu, ancaq ona hər şeyin qaydasında olduğunu birtəhər başa sala bildik. Atam isə tək olmadığım üçün bir söz demədi. Paltarımızı dəyişib, qurulandıq. Bundan sonra gözəl bir gecə, çay və şeirlər bizi gözləyirdi. Bu gecənin asi ruhuna ən uyğun şeirlər Nihal Atsızın ola bilərdi ancaq.... Beytullah “ gözlərinmi, atəş, yoxsa ruhunmu alevden” şeirini deməyə başlayanda artıq çayımız dəmlənmişdi. Çayı dəmli sevirdik, tələbəlikdən bəri bu beləydi. Bu gecə çayımızı gedən bütün sevgililərin şərəfinə  içdik, şeirlər söylədik sonra, şeirlərlə sardıq ürəyimizdəki yaraları. Bu qədər dava-dalaşdan sonra ürəyimizin daha çox ağrıması da başqa bir məsələdir ha... Ancaq içdən- içdən bütün bədənim sızıldayırdı. Beytullah ayağa qalxıb pəncərədən yağan yağışı izləyir, mən də çayları təzələyirdim. Necə üsyankardır yağış, ancaq bu üsyanı, yaradana qarşı deyil, bu üsyanı toxunmaq istədiyi tellərə,

dodaqlaradır. Şeir kimi keçirdi gecə. Daha deyiləcək bütün sözlər bitmişdi. Şeir demək, dinləmək istəmirdik. Çay soyumuşdu, lakin təzələməyi düşünmür, sadəcə ürəyimizin sonsuz sularında gəzirdik. Nələr var, ilahi bu balaca insan ürəyində?! Bütün dünya, axirət nə desən, sığırdı... Mənə maraqlı gələn içinə bu qədər şeyin sığdığı ürəyin, bu balaca bədəndə necə dayana bilməsi idi. Bir quş kimi köksümüzü yarıb çoxdan göylərə qalxmalıydı ürəyimiz. Bir-iki damcı yaş gəlir gözlərimdən. Tərlanı çoxdan itirmişdim, Ləman isə ölür.. Ölməsə belə, məni bağışlamaz. İndi onun həyatında başqa biri var. Ürəyimsə sevgi nəğmələri yaşamaq istəyir. Mənim kimi insanlar ancaq sevgi ilə yaşaya bilər. Gözlərinə baxacağı bir sevgili olmadan qurumuş bir çay, kökü çürümüş bir çinar kimi olarıq. Daha möhkəm ağlayıram... Ah, Tərlan ...Ah eşq...Ah...

Fərhad

Şəhərə qayıdandan sonra, Ləman hər gün bir az geriyə doğru gedirdi. Həkimlərin dediyinə görə bu yayı görməyə bilərdi. Onun gözlərimin önündə əriməsi, kəndlərindəki məzarlıqda elədikləri... bütün bunlara dözə bilmirdim. Yenə də, mən güclü olmalıydım, yaşamalıydım o yaşadığı müddətdə. Dekabr son günlərini yaşayır. Bir az sonra, yeni bir il gələcək. Qış gətirəcək yeni ili. Sevdiyim qadının qarşılayacağı, sonuncu il olacaq, bu... Bəlkə, mənim də.

Bəs, mən onsuz necə nəfəs alacam, necə yaşayacam?! Anlaya bilmirəm sevdiyini atanları, tək buraxanları... Bir neçə gün öncə Bəxtiyar gəlmişdi Ləmanı görməyə. Sevdiyimin xətri olmasaydı, onu elə oradaca öldürərdim. Peşman olubmuş, nəyə yarar... Bir zamanlar Ləmana elədikləri üçün ciddi- ciddi onu öldürməyi düşünmüşdüm. Hətta uzun müddət izlədim ki, bir xəlvət yerdə məsələni həll edim. Ancaq bir şey əngəl oldu mənə. O, Ləmandı. Onu öldürsəm, zindana düşərdim və sevdiyim tək qalardı. Bu zaman mənim də, Bəxtiyardan heç bir fərqim qalmazdı. Ləman öldükdən sonra da, ona toxunmayacam. Qoy yaşasın öz peşmanlığı ilə. Vicdanı varsa, bu ona bir ömür bəs edəcək. Ölüm onun üçün xilas yolu olardı. Ləman daha evdən çox nadir hallarda çıxırdı. Hər gün bir az da solur, hər gün bir az da uzaqlaşırdı həyatdan. Ancaq yazmaqdan vaz keçmir, romanını bitirmək üçün hər şeyi edirdi. Bəzən, şiddətli ağrıları günlərcə imkan vermirdi ona yazmağa, yenə özünə gələn kimi yazırdı. İndi ən böyük arzusu bu romanı bitirməkdi. Elə mənim də, Tanrıdan tək istəyim bu idi... Bu günə qədər demək olar ki, heç nə istəməmişdim. Verdiyi ilə qane olub, hər zaman şükr etmişdim. Bu gün isə, sevdiyim üçün bir şey istəyirdim. O romanı bitirsin, sağlığında çap oldunduğunu görsün...

İnsanın içindəki ölümsüzlük duyğusu hər zaman onu yaratmağa, ölümdən sonra xatırlanmağa sövq edir. Ləman həm bunun üçün, həm də mənim üçün yazırdı. Yazdıqlarını hələ tam hazır olmadığı üçün mənə göstərmirdi. Ancaq bilirəm ki, “ Eşqin kölgəsində” bizi- sevgimizi yazır. Elə bir əsər yazmaq istəyir ki, məni

ölməyə qoymasın və sevgimiz insanlıq yaşadıqca yaşasın. Belə bir qadını tanımaq, sevmək hətta onun üçün ölmək də gözəldi.

Son günlərdə demək olar ki, hər gün yağış yağır. Bu yağışlar bəzən sulu qara da çevrilir. Kaş bahar olaydı, doyunca gəzdirə biləydim sevdiyimi. Ancaq Tanrının yazısından kənara çıxmaq olmaz, mümkün deyil. Madam qışdı, soyuqdu, o zaman biz də baharı öz içimizdə yaşamalı, yaşatmalıyıq. Otağını güllərlə bəzəmişdim. Otaq tempraturunda bu güllər, yaxşı qulluq olunduğu zaman tez- tez çiçək açırdı. Bülbül də almaq istədim. Ancaq sonra anladım ki, nə onu, nə mənim özümü qəfəsdəki bir quş xoşbəxt edə bilməzdi.

Mariyanın dükanda işləməsi işimi xeyli asanlaşdırmışdı. O, dərsdən çıxandan sonra sevdiyimin yanına qaçır, onunla daha çox vaxt keçirirdim. Mariya dedim də, bu qızın dərdi də məni bir yandan öldürürdü. Elə bir əzabın, imtahanın içindəyəm ki... Bir yandan sevdiyim qadın ölür, o biri tərəfdə, bir gənc qız mənim üçün əzab çəkir. Həqiqətən, bütün bu olanlar ağır gəlir, daşıya bilmirəm. Bundan aylar öncə necə sakit, monoton bir həyatım vardı. Xoşbəxt deyildim, ancaq əzab da çəkmirdim. Bu düşüncələr beynimdən bir işıq kimi keçir və çox utanıram. Ləman necə olursa-olsun, həyatıma rəng, məna qatmışdı. Tanrının bu hədiyyəsinə ancaq şükr etmək olardı. Ayrılıq dünya həyatının bir başqa adı deyildimi, onun üçün Tanrıdan əbədi aləmində- cənnətində bizi qovuşdurması üçün dua edirdim. Bəs Mariya necə olacaq? Bu sual çox ağırdı. Ləmanı sevirdim. Yaşadığı müddətdə yanında olacaq, öldükdən sonra isə... uzaqbaşı mən də öləcəm. Ancaq Mariya həyat dolu gənc bir qızdı. O, yaşamaq istəyir- mənimlə yaşamaq. Bax, bu çətin sual, problem qarşısında çıxılmaz vəziyyətdə idim. Ləmana ondan danışsam, o dəqiqə bizi evləndirərdi. Onsuz da məni həyata bağlamağa bir bəhanə gəzirdi. Buna görə də qətiyyən Ləmanın yanında Mariyadan danışmırdım. Günlərin bir günü dükana getmək istədiyini söylədi. Hava soyuqdu, ancaq onu qıra bilmədim. Günortaya yaxın hazırlaşıb getdik kitab dükanına. O narahat olmasın deyə, qapını bağlamaq istədim. Ancaq bunu istəmədi. Kitab almağa gələn gəncləri görmək istəyirdi. Daha nələri... nələri

görmək istəyirdi Allah bilir... Millətinin savadlı, güclü olmasını, gənclərin kitab oxumasını, düşüncəsini... Ömrü vəfa etsəydi, onlarca kitab yazardı, ancaq o, iki kitabla tərk edəcəkdi bu həyatı. Biri məni ona aşiq edən, o biri də məni yaşadacaq kitab. Dükanın içi isti idi. Burada istədiyi qədər əyləşə bilərdi. Çay dəmlədim onunçün, simitsiz də olmazdı, əlbəttə.. Çay dəmlənənə qədər ilk tanış olduğumuz zamanlardan danışdıq. Nə gözəl gündü o gün. Buludlar bir anda dağılmış, günəş göz vurmuşdu hər ikimizə. O qədər qısadır ki, həyat. Hər kəsə nəsib olmur sevib-sevilmək bu həyatda. "Bunun üçün, bütün bu gözəllikləri mənə yaşatdığın üçün çox sağ ol sevgilim"- dedi, Ləmanım. Ölümə qədər və ondan sonra sevgimiz daim yaşayacaqdı. Sevgi Tanrının bizə ərmağanı idi, bəlkə də, elə Tanrının özü idi...

Çayımız dəmlənmişdi. Fincanları doldurdum, simiti ikiyə bölüb onun gözlərinə baxa-baxa çayı içməyə başladım. Bu arada ona yeni oxuduğum bir kitab haqqında danışmaq istədim. Adını deyən kimi müəllifi tanıdı, ancaq o əsəri oxumamışdı. Qısa məlumat verməyimi istədi məndən. Roman Türk yazıçısı Nurullah Gənçin " İntizar"-ı idi. Romanda kövrək bir sevgi hekayəsindən danışılır. Bir zamanlar sərxoş olduğu üçün, Ayşə Əmrənin evlənmə təklifini qəbul etmir. Aradan illər keçsə də, onlar bir-birini unutmur və bir gün yolları kəsişir. Əmrə Ayşənin istədiyi kimi biri olsa da, artıq evlənmiş olur. Bu zaman Əmrə Ayşədən bir xahiş edir. Dünyada qovuşa bilmədik, ancaq söz ver ki, cənnətdə bir seçim haqqın olsa, məni seçəcəksən. Ayşə bu təkliflə razılaşır. Mən danışdıqca Ləmanın gözləri dolmuşdu. Bu hekayə bizim hekayəmizə oxşayırdı, haradasa. Biz də qovuşa bilməyəcəkdik bu dünyada, daha doğrusu çox tez ayrılmalı olacaqdıq.

Çayını mənim gözlərimə baxaraq içirdi, çayımı onun baxışları ilə qarışdırıb içirdim... Hər zaman yaşlı insanların bir-birinə olan sevgisi mənə qəribə gəlirdi. İnsan qocanı və ya qarını necə sevə bilər axı?! İndi anlayıram, indi Ləmanın xəstəlikdən solan vaxtlarında, onu əvvəlkindən də çox sevdiyim zamanlarda anlayıram. İnsan sevdiyinin gözlərini, ürəyini, ruhunu sevir ki, onlar da, heç qocalmaz.

Cənnətdən danışmağımı istədi Ləmanım. Dedi ki, cənnətə gedə bilsəm, Tanrı məni ora layiq görsə, yalnız səni istəyəcəm. Ancaq bunun üçün sən də ömrünün geri qalanını gözəl yaşamalısan. Allah eləməsin, sən cənnətə düşə bilməsən, mən də getməyəcəm sənsiz, oturub rəbbim səni cəhənnəmindən çıxarana qədər ona yalvaracam. İndi mənim də gözlərim sözlərimə baxmırdı. Belə bir qadını tanıtdığım üçün yaradana nə qədər şükr etsəm, azdı. Qadın deyil sanki, bir mələkdi. Bəlkə də, mələk olduğu üçün, Tanrı onu öz yanına tez aparmaq istəyirdi. Ondan icazə aldım, qapının ağzına çıxıb siqaret yandırdım. Son zamanlar bu andıra qalmışı yaman artırmışam. Günə bir paket yetmir bəzən. Ancaq çəkməsəm də, ürəyim dağılır, dözə bilmirəm əzablarıma. Gözlərimin önündə əriyir, solur sevdiyim qadın və mənim əlimdən heç nə gəlmir. Bir az sonra Mariya da gələcək. Ləman burada bir qızın işlədiyini bilirdi, lakin Mariyanın mənə olan münasibətindən xəbərsizdi. Bayaq yemək yeməyi təklif edəndə istəmədi, "qızı gözləyək, dərsdən gələcək, birlikdə yeyərik"- dedi. İndi Mariyanın dərsdən gəlməsini gözləyirəm və nələrin olacağını düşünmək istəmirəm. Yox, Ləman üçün o istəsə belə, bu həyatda ondan başqasının əlindən tuta bilmərəm. Kaş Ləmanla ölə biləydim, rəbbim ikimizin canını birlikdə alsaydı! Ancaq olmur belə, istədiyimiz hər şey asan olmur. Bu atəşə, bu eşqə talibiksə, yanmadan, imtahan olmadan qovuşa bilmərik nura. Ləmanın imtahanı bu xəstəlik və dünyadan tez köçmək, mənimki isə, uzun illər bəlkə də, onun hicranı ilə yanmaqdı. Onu tək qoymamaq üçün içəri keçirəm. Hələ ki çayımız var, söhbət də, yar da var, daha nə istəyək ki, bu həyatdan...

Arada bir nəfər içəri keçib, kitablara baxır. Alan da olur, almayan da... Ləman ümman kimi bir qadındı. İnsan onunla danışanda, gözlərinə baxanda bütün dərinliyi hiss edir, duyur. Yorulmursan onun yanında. Xəstəlik onu nə qədər əldən salsa da, fincanı dodaqlarına yaxınlaşdırması hələ də əvvəlki kimi gözəldi. Bu hərəkəti ilə aşiq etmişdi bəlkə də məni özünə. Çay içə- içə "gəl xəyal quraq" – dedi. Onunla xəyallar belə gözəldi. Öncə bir xəyal quracaqdıq, sonra onu romanında- "Eşqin kölgəsində" yazacaqdı.

Əlimdən tutub məni xəyallar ölkəsinə, şairin dediyi, söyüdlər kölgəsinə apardı...

Qaranlıqdı, göy üzündə bir dənə də ulduz görünmürdü. Ucqar bir dağ kəndindən keçib, meşəyə çatdıq. Ətrafı yalnız maşının işıqları aydınladırdı. Maşın getdikcə qabağımıza tülkü, dovşan kimi heyvanlar da çıxırdı. Maşının işığından gözü tutulan bu heyvanlar, qaça bilmir, biz oradan uzaqlaşana qədər yerlərindəcə donub qalırdılar. Hər şey o qədər gözəldi ki, gecə bütün çirkinliklərin üzərinə öz siyah örpəyini sarmışdı. Ən əsası Ləman sağlamdı, gəncdi. On doqquz yaşlarında gənc bir qız əyləşmişdi yanımda. Onun üzü qaranlıqda yaxşı görünməsə də, işıq saçan gözləri, dodaqları məni həyəcanlandıra bilirdi. Maşın isə meşənin dərinliklərinə doğru gedir, ağacların arasından rüzgar kimi keçirdi. İndi qulağımıza çaqqalların səsi gəlməyə başladı. Uşaq səsini xatırladırdı- anasından ayrı düşən, ağlayan uşaq səsini. Deyəsən, bir az qorxur Ləman, əlini dizimin üstünə qoyur. Ona baxıb gülümsəyirəm. Qorxmaq nəyə gərək, onun yanında mən varam. Bir az da gedirik. Sanki təbiət Ləmanın qorxusunu duyur, ətraf bir az işıqlanır. Göy üzündən buludlar yavaş-yavaş dağılır. Öncə ay, sonra ulduzlar səmadan bizə baxıb gülümsəyir. Bu mənzərə onu bir az ürəkləndirir. İndi onun üzünü daha aydın görə bilirəm. Necə gözəldir, ilahi! Bir tala kimi yerə çatırıq. Bir tərəfdə uca dağlar görünür, ətafda isə çoxlu ağaclar, meşə. Maşından enirik. Bu zaman bir qayanın başında ulayan canavarı görürük. Elə də qorxmuruq, xəyalda da qorxacaq deyilik ki.... Ancaq Ləman bir azca qorxur, mənə qısılır. Maşına söykənmişəm. O da başını sinəmə qoyub, belimi qucaqlayıb. Maşından mahnı səsi gəlmir, istəmirik. Gecə özü nəğmələr söyləyir bizə. Saçlarını qoxlayıram doyunca. Bu qaranlıqda, işıqlı bahar səhərinin ətri vurur məni. Dodaqlarımı alnına yaxınlaşdırmaq istəyirəm, ancaq olmaz. Ləman belə bir şeyi istəmir. Onun dünyasında eşq o qədər təmizdi ki, alnına qonacaq bir balaca öpücüklə belə kirlətmək istəmirəm xəyal dünyasını. Onu öpsəm, toxunmaq istəsəm, bu meşənin qaranlığında nə o, etiraz edə bilər... nə də bir başqası görərdi. Ancaq heç bir şey etmədim. Kirlətmədim sevgimizin adını. Sadəcə, doyunca saçlarının

ətrini çəkdim içimə. Başını düz ürəyimin üstünə qoymuşdu. Qəlbim elə həyəcanla atırdı ki... Ancaq elə ki onun başı yaxınlaşdı sinəmə, birdən-birə sakitləşdim, fərəh doldu içimə. Demişdim axı, okean kimi qadındı Ləman. Onun içində yox olmuşdum, batırdım, lakin boğulmurdum. Gecə isə öz işində... Hərdən əsən külək bir ağacın budağı ilə oynayırdı, mənim onun saçları ilə oynadığım kimi...

Şeirə dönmüşdük hər ikimiz. Daha sözlər yoxa çıxmışdı, bu qaranlıqda gözlər, baxışlar da sıradan çıxır. İndi bizi bir- birimizə bağlayan tamam fərqli bir şeydi. Bu dünyaya aid olmayan bir şey. Mən onu hiss edir, duyurdum. Qəlbinin atmasını sinəmdə hiss edir, nəfəsini ciyərlərimdə duyurdum. Getdikcə daha çox sıxılırdı mənə. Elə bil, ikimiz birləşib, bir olmuşduq. Sonra haradan çıxdığı bəlli olmayan qara buludlar gəldi ayın, ulduzların önünə. Külək daha bərk əsir, deyəsən göy də guruldayırdı. Bəli, hətta şimşək də çaxırdı. Düşünə bilirsinizmi, gecə qaranlıqda şimşəklə aydınlanan meşənin gözəlliyini?! Sonra yağış da yağdı. Hər ikimiz islanır, ancaq maşına minmirdik. Bu anın kefini sonacan yaşamaq istəyirdik. Bu an dodaqlarından öpmək istədim, ancaq sadəcə ona”  səni sevirəm” - dedim və daha möhkəm sarıldım ona. Bir az sonra yağış leysana çevrildi və biz maşına minməyə məcbur olduq. Maşının şüşəsinə düşən yağışı aynasilən qovur, beləliklə ikisinin – aynasilənlə yağışın arasında savaş gedirdi. Hər şey o qədər gözəldi ki, ayrılmaq, ayılmaq istəmirdim bu xəyaldan. Ancaq bütün gözəl xəyalların sonu olur bu həyatda. Ləman mənə baxıb gülümsəyirdi. O qədər gözəl nağıl etmişdi ki, sanki o anları yaşamışdım. Bu qədər gözəl danışan, necə gözəl yazacaqdı bunları. Və ikimizin xəyalını neçə gənc, qoca yaşayacaqdı. Bax, ikimizi, sevgimizi belə ölümsüz edəcəkdi Ləmanım. Ay ışığım, yaz yağmurum, ömrümün son yağmuru, bax, beləcə yaşadacaqdı bizi...

Bir az sonra Mariya gəlir. Dərslərini bitirən kimi dükana qaçır hər gün. Həftə sonları isə mənimlə birlikdə  gəlib açır dükanı və qaranlıq düşənə qədər ayrılmır. Onun bura gəlməsi dükana yeni nəfəs qatmışdı. Gənc bir qızın kitab satması, çox cavanlarda kitaba həvəs yaratmışdı. Ancaq çox vaxt o burada olanda qaçırdım. Bəzən belə

imkanım olmurdu. Bütün işi onun boynuna atmaq da insafsızlıq olardı. Bəli, o, gəlir. İçəri girən kimi gözü Ləmana sataşır. Onu görəndə bir an özünü itirir, həyəcanlanır. Belə ki, onun bu hərəkətlərini balaca uşaq da anlayardı. Məcbur olub onu Ləmana təqdim edirəm. Çox mehribanlıqla qarşılayır, görüşür onunla. Mariyanı anlayıram. Özünü Ləmanın yanında günahkar hiss edir, utanır ondan. Ləman üçünsə o, işləyən sevimli tələbə qızdı. Bir az daha gözləyirik, tələbələr tamamilə çəkilir. Dükana gələnlər azalır. Bu zaman Mariyanı yemək almaq üçün kafeyə göndəririk. Ləman şorba istəyir, çox yeməyi yeyə bilmir xəstəliyinə görə. Mən də şorba istəyirəm. Özü isə nə istəyir alsın. Və o, çıxır dükandan. Ləmanın üzünə baxa bilmirəm nə isə. Ancaq bu hal onu şübhələndirə bilər. Bütün gücümü toplayıb başımı qaldırır, gözlərinə baxıb gülümsəyirəm. O da gülümsəyir. Gülüşünü soldura bilməyib xəstəlik. Mariya gələnə qədər ona şeir oxumaq istəyirəm. Sevdiyi şeirlərdən. Ən çox Nəriman Həsənzadənin şeirlərini sevir, ən çox onu oxuyur. Hər zaman deyir: - mənə elə gəlir Nəriman müəllim böyük şairlərdən (şəklini sinif otaqlarından asacaq qədər) sonuncusudur. Onun üçün mən də, Həsənzadənin şeirlərindən oxuyuram. Bayırda hava getdikcə pisləşir. Belə getsə, bu il qar tez yağacaq deyəsən. Çöldə sulu qar, fırtına, içəridə çay və şeirlər. Bir az sonra Mariya gəlir. Qapını arxadan bağlayıb yeməyə başlayırıq. Özü üçün də şorba alıb. Biz şorba içərkən başqa bir şey yeməyi düzgün hesab etməyib. Baxıram, onun bu hərəkəti Ləmanı sevindirir. Yəqin ki, ürəyindən ” maşallah, nə düşüncəli qızdı”- deyə keçirir. İsti şorba soyuqdan donan Mariyanın bədəninə həyat verir, yavaş- yavaş canlanır. Ləman ona suallar verir, dərsləri ilə əlaqədər olaraq. İkisinin söhbəti gözlədiyimin əksinə olaraq çox maraqlı alınır. Bəlkə də, Ləman, Mariyanın gözlərində özünü, öz gəncliyi görür. Çox maraqlıdır, görəsən, Mariya nə görür Ləmanın gözlərində, baxışlarında? Ölümümü, bəlkə hə.... bəlkə də, yox... Mariyanın bir sözü vardı. Bir şey soruşanda, işin içindən çıxa bilməyəndə “ hə, yox” deyirdi. Əslində, elə həyatımız da bir hə, bir yox... bax, bu ardıcıllıqla ötüb keçir. Bir baxırsan varsan, bir də yox olursan, ölürsən. Yavaş- yavaş yeməyi yekunlaşdırırdıq.

Biz bu gün çox çay içmişdik. Mariya özünə bir çay süzdü. Biz isə, qalxmalı olduq. Bu qədər oturmaq Ləmana pis təsir edə bilərdi. Dincəlməliydi. Qalxdıq, pencəyimi Ləmanın çiyninə atıb, maşına gətirdim onu. Evə gedərkən bir az maşınla gəzmək istədiyini söylədi. Sadəcə, yolmuzu bir az uzadaraq, dənizin kənarından keçək- dedi. Özləmişdi dənizi, qağayıları, ən əsası da sahildə əl- ələ gəzən sevgililəri görmək üçün. Dediyini etmək ən böyük xoşbəxtliyim deyildimi?! Bayaqkı, xəyalmızdakı kimi yağış və aynasilən arasında bir savaş başlamışdı. Maşın şəhərin küçələri ilə keçib, dəniz kənarına yaxın yola çatdı. Maşınlar çox idi. Yavaşlamaq, və ya dayanmaq imkanımız olmadı. Sahildən, qağayılardan keçdik, xəyallarımızdan keçə bilmədik. İnsanlar hara isə tələsirdi. Belə soyuq hava olmasına baxmayaraq, yenə də sevgililəri görmək mümkündü. Gənclər bura nə üçün gəlirdi, onu özləri bilər. Bəlkə dənizi seyr etmək, bəlkə də tək qalıb doyunca öpüşə bilmək üçün? Bu zaman elə burada Mariyanın məni öpməsini xatırlayıb çox pis oldum, utandım. Görəsən, bu xəyanət sayılırdımı Ləmana...

Ancaq bildiyim tək şey vardı ki, o da ürəyimin hər iki dünyada tək sahibi olacaq, o da LƏMAN. Mən bu qadını sevirdim. Bu sevgi dünyəvi bir həvəs deyildi. Elə olsaydı bir döşü kəsilmiş, günü- gündən solan birini sevməzdim. Yenə deyirəm, mən onun ruhunu, gözlərinin dərinliyindəki cənnəti sevirdim. Ürəyimdən “ bizi cənnətində qovuşdur, Tanrım”- deyə keçirdim. İndi maşın binanın qarşısında dayanmışdı. Ləmanı evə çıxardım və geri döndüm. Hara gedəcəkdim, bilmirdim. Sadəcə maşını işə salıb, qazı sıxdım. Maşın gedir, içində də sevdiyim mahnılar... Piyada gedərkən mahnı dinləməyi daha çox sevsəm də, maşında da pis alınmırdı. O da qalsın, yağmurlu havalarda.

Uzaqlaşmaq istəyirəm özümdən, əzablarımdan. İndi düşünürəm ki, mən heç vaxt xoşbəxt ola bilməmişdim. Nə uşaqlıqda- ailəmdə, nə də gənclik illərimdə. Bircə damcı xoşbəxt olsaydım özümü kitabların arasına həbs edərdimmi? Yəqin ki yox. Düzdü, kitab oxumaq gözəldi, insanı çox- çox uzaqlara aparır. Ancaq yaşamaq da lazımdı... Nə vaxta kimi başqalarının sevgi hekayələri ilə ovuna bilər

ki, insan? Ləmanı tapmışdım, lakin onu itirmək qorxusu izn vermirdi xoşbəxt olmağa. Mən əslində dəli kimi bir sevgi arzulamışam- sevmək, sevilmək. Ailəmdə tapa bilmədiyim sevgini bir qadınla quracağım yuvada yaşamaq istəmişdim. Bunu da qıymadı həyat. Yenə böyük danışmayım, bəlkə gözəl olacaq nələrsə... Bu gözəllik Mariya ola bilərmi, Ləmanı bu qədər çox sevərkən onunla yaşaya bilərəmmi?! Bax, bu sualların cavabını tapa bilmirəm. Deyək ki, Mariya ilə evləndim. Bəs, Ləmanla bir- birimizə verdiyimiz cənnət sözü necə olacaq?! Bəs, orada Mariya mənimlə bərabər olmaq istəsə?

Şəhərin sulu küçələrində şütüyürəm, amma cavab tapa bilmirəm ürəyimdəki suallara. Yox, belə olmaz, piyada gəzmək, islanmaq istəyirəm. Axşama az qalır, bir az sonra dükana getmək lazımdı. Bağlamaq üçün Mariyaya yardım etməliyəm. Düşünürəm, maşını saxlayım parkda, doyunca islandıqdan sonra da dükana gedərəm. Belə də edirəm. Maşını hər zaman saxladığım yerə tərəf sürürəm. Yağış isə dayanmır, özünü insanların üzünə vurmağa cəhd edir. Bəlkə, yağış damcıları da vurulur, nə demək olar ki... İndi yer üzündə nə qədər mələk var. Yağmur damlası sayı qədər mələk... Maşın gedə- gedə ürəyimdəkiləri dodaqlarımın ucuna gətirir, dua edirəm. Mələklər “amin” deyirmi görəsən, yoxsa dualarım dodaqlarımda yerə tökülür... Mələklər “amin” desə də, deməsə də məni eşidən biri var. Onun üçün doyunca dua edir, Ləmanın romanı bitirməsini, bizi cənnətdə birləşdirməsini istəyirəm ondan. Bax, budur, maşın hər zamankı yerinə gəlib çatdı. İndi bir saata yaxın vaxtım var. Paltomu geyinib parka tərəf gedirəm, qullaqlarımda da qulaqcıqlar. Bütün hüznlü mahnılar var, qonaqdı telefonuma. Yeriməyə başlayıram. Dekabrın son günlərində yayı xatırlayır, gözlərimi yağmurla isladaraq yeriyirəm. Elə soyuq var ki, külək də lap zəhləsini tökür insanın. Saçalarımı istədiyi kimi oynadır. Heç vaxt papaqdan istifadə etmədiyimdən saçalarım artıq alışıb yağışa, qara...

Ətrafda çox az adam var. Bu qısa dekabr günlərində hər kəs işini görüb, evinə qaçmaq istəyir. Ancaq dükanlar açıqdı, bəziləri hətta sabaha qədər açıq olur. Neçə dəfə fırlanıram parkı, bilmirəm.

Hələ də gəzirəm. Demək olar bütün paltarım islanıb. Ancaq üşümürəm.

Ləman, Mariya... Bütün ağlım, ürəyim bir-birinə qarışıb. Bu, nə işdi, düşmüşəm, çıxa bilmirəm. Mənə əzab verən əslində Mariyanı bu qədər çox düşünməyimdi. Axı, bu qız niyə ağlımı, düşüncələrimi bu qədər məşğul edir?! Düşünürəm, sonra da düşüncələrimdən ötrü utanır, əzab çəkirəm. İnsan eyni anda iki qadını sevə bilərmi? Yox, bu mümkün deyil. Bir ürəkdə iki sevgi ola bilməz axı. Elə isə nədir onu düşünməyimə səbə? Axı, bu qız niyə beynimin içindən getmir? Öz düşüncəmlə anlayıram həqiqəti. Bəli, Mariya beynimin içindəydi. Hələlik ürəyimə enməmişdi. Ləman olduğu müddətdə isə heç vaxt enməyəcəkdi. Bu zaman başqa bir sual hücum edir mənə. Yaxşı, insan ağlı ilə sevə bilərmi?..

İçimdən bir səs " sevə bilməz, ancaq evlənə bilər"- deyir. Lənət sənə kor şeytan! Bu nə haldı mən düşdüm? Daha möhkəm gedirəm, daha uzaqlara getmək istəyirəm özümdən. Mümkün olmayacağını anladıqca, daha çox əzab çəkirəm. Hava qaralmaq üzrədi. Dükana getmək istəyirəm, daha doğrusu getməliyəm. Ancaq qorxuram. Bəs nədən, niyə, hansı səbəbə qorxuram.... sakitcə dükana tərəf addımlayıram. Qapını açıb içəri girirəm. Mariyadan başqa kimsə yoxdu. Kitab oxuya- oxuya məni gözləyir. İçəri girən kimi çay təklif edir. Elə soyuqdu ki, elə üşümüşəm ki, bu təklifi rədd edə bilmirəm. Tez bir fincan çay süzür mənə. İsti çay bədənimin donunu açır. Bir fincan da, deyərkən hava əməllicə qaralır. Artıq getmək lazımdır. Bu zaman Mariya gözlənilmədən " məni, evində bir fincan qəhvəyə qonaq edə bilərsənmi?"- deyir. Donub yerimdəcə qalıram. Bu nə idi indi, bu qız niyə belə bir təklif etdi?! Və ən əsası, mən niyə bu qədər həyəcanlandım?! Bu zaman içimdə bir şeylər hərəkətə keçdi sanki. Yəqin ki, bu hər kişidə olan ehtiras duyğusu idi. İndi mən ehtiraslanmışdımmı? Gözəl, gənc bir qız, gecə vaxtı mənə deyir məni evinə dəvət et. Bu gecənin necə bitəcəyini bilmək olmazdı. Bəs mən niyə yox deyə bilmirdim bu təklifə?! Bəs Ləman necə olacaqdı? Külək daha da möhkəmlənmiş, yağış özünü içəri dəvət etdirmək

istəyirdi. Dodaqlarım titrəyə-titrəyə - yaxşı dedim, yaxşı gedək səni bir qəhvəyə qonaq edim- dedim. Dükanı bağlayıb maşına əyləşdik. İndi qorxurdum, ilk dəfə idi ki, sevdiyim qadını itirməkdən qorxurdum- unudaraq itirməkdən... Demək ki, insan olmaq belə bir şeymiş. Bu gecə ölməyəcəyimi, yaşayacağımı anladım. Canım elə yanır, elə əzablar çəkirdim ki... Əvvəllər düşünürdüm, Ləmansız öləcəm, ancaq indi yanımda bir qızla evə gedirəm. Özü də Ləmanın mənim yolumu gözlədiyi bir vaxtda. Nifrət edirdim özümə, ancaq yenə yolumu dəyişib, Mariyanı öz evlərinə aparmadım. Maşın mən yaşadığım binanın qarşısında dayandı. Daha bundan sonra geriyə dönmək olmazdı. Maşından düşüb, yuxarıya - evə qalxdıq. Qapının kilidini açarkən həyəcandan əllərim əsirdi. Aman Allah, mənə nə olur?! İçəri keçdik, ev, çölə baxanda isti idi. Mən Mariyadan paltarlarımı dəyişmək üçün izn istədim. Əynimi dəyişənə qədər o da qazı yandırıb, çaydanı üstünə qoysaydı pis olmazdı. Otağıma keçib, yaş paltarlarımı çıxardım və ev üçün olan rahat geyimlərdən geyindim. İstədim Ləmana zəng edib, bir az gecikəcəyimi deyim, ancaq bacarmadım. Qorxdum ki, tək olmadığımı anlayar. Bəs, bir az sonra Mariyanı evinə aparıb, Ləmanın yanına gedəcəmsə, niyə normal bir paltar geymirəm əynimə? Artıq düşünməkdən dəli olacaqdım. İndi salona keçmək lazımdı. Orada məni qonaq gözləyir. Di gəl ki, qorxurdum. İçəridə başıma gələcəklərdən çox qorxurdum. Ancaq içəri girdim. Çaydanı qazın üstünə qoyub məni gözləyirdi. Mən də keçib əyləşdim. Hər halda suyun qaynaması lazımdı, qəhvə hazırlamaq üçün. Evə, əşiyalara diqqətlə baxır, hər şeyi yaddaşında gizlətmək istəyirdi sanki. Evimi təmiz saxlayırdım hər zaman. Hər həftə bir vaxtım vardı ki, evin təmizliyi ilə məşğul olurdum. Çirkli bir yerdə yaşamaqdan zəhləm gedir. İnsanamsa, insan kimi də yaşamalıydım.

Su qaynamışdı. Qəhvə hazırlamaq üçün ayağa qalxıb, mətbəxə tərəf getdim. Bir az sonra iki fincan qəhvə ilə geri dönmüşdüm. Mariya da boş dayanmayıb, telefonundan romantik bir melodiya açmışdı. Ürəyimdə " bax, indi sonum çatdı" - deyə düşündüm. Əyləşib qəhvələrimizi içərkən gözlərini məndən çəkmirdi. O baxışlardan oxuduqlarımı deməyə utanıram, ancaq o

baxışlar məni atəşə dəvət edirdi. Yavaş- yavaş həyəcanlandığımı, ürəyimin döyüntüsünün artdığını gördüm. Ayaqlarımdan sinəmə doğru bir atəş məni sarırdı. Daha özümə əngəl ola bilmir, ağlıma başqa şeylər gətirirdim. Ləmanla otaqda tək qalanda necə gözəl, təsirli şeylər düşünürdüm, ancaq indi... Dodağına apardığı fincana baxarkən istər- istəməz gözüm dodaqlarına sataşdı. Necə də gözəl, incə dodaqları vardı. Hələ, hələ alt dodağı bir lalənin ləçəyini xatırladırdı. Bu an ürəyimin daha möhkəm döyündüyünü hiss etdim. Az qalırdı sinəmdən çölə yox, Mariyanın dodaqlarına qaçsın. Deyəsən, ilk dəfə idi belə bir hal yaşayırdım. Telefondakı melodya da məni ona dəvət edirdi. Ancaq hələ ki yerimdən qalxmır, sakit-sakit qəhvəmi içirdim. İnsan oğlunun ən təbii ehtiyacı idi sevişmək. Qadın və kişi ayrı-ayrıykən bir olub tamamlanmasaydı... Ancaq bu cürmü?

Otuz altı yaşıma az qalırdı, ancaq bu günə qədər hər zaman qaçmışdım qadınlardan - sevgidən və sevişməkdən. Bu gün nə edəcəkdim? Qadın vardı, sevişmək də ola bilərdi, ancaq sevgi yoxdu... Digər yanda isə qadın və sevgi vardı, sevişmək yoxdu... Bax, bu düşüncələr içində xəyala dalır, yorğun- yorğun düşünürdüm. Çöldə hava getdikcə daha pis vəziyyətə düşürdü. Deyəsən, qar yağacaqdı bu gecə.. Pəncərəmə vuran qar, gözlərimə vuran dodaqları... Deyəsən, yavaş- yavaş özümdən uzaqlaşırdım. Mariya qəhvə fincanını dodaqlarına fərqli aparırdı, Ləmandan fərqli... Ləmanda eşq vardı, Mariyada isə ehtiras. İndi gənc bir qadının atəşində yanmaq üzrəydim. İlk dəfə bəlkə də bir qadınla sevişəcəkdim. Bədənimdə qəribə bir həyəcan, titrətiş vardı. Daha düşüncələrim beynimdən tamamilə silinmişdi. Ən son Ləman bir duman içində itdi beynimdə. İndi mən tamamıilə müdafiəsiz halda Mariyanın ixtiyarındaydım. O isə hələ heç nə etmirdi. Sadəcə qəhvəsini içir və mənə baxırdı. Bir də mahnılar.... bütün acıları unutmaq olardı bu gecə. Bəs sonra, bəs sabah açılınca?!

Canım çox yanmışdı, çox əzablarım olmuşdu. Bütün zamanlarda tək idim. Ləmandan öncə də, ində də... Mariya bütün həyat eşqi ilə qarşımda dayanıb. Bütün acıların sonu ola bilərmi görəsən? İndi onun atəşinə atılsam, belə sabahlar açılacaq və mən

daha möhkəm yanacaqdım. İndi xəyal ilə həqiqət, əzab və sevinc eyni anda hücüm edirdi beynimə, düşüncələrimə. Yalnız olduğum gecələrdə nə qədər gözlərimə məğlub olmuş, nə qədər xoşbəxtliyin xəyalını qurmuşdum. Gündüzləri güclü, laqeyd olan mən, axşam olduğu zaman yaralı bir canavar kimi inləyirdim. Yatmağa qorxurdum, çünki yuxunun sonunda oyanmaq vardı. Hər sabah yeni acılar, bəlkə də, yeni yox təkrar olunan acılardı. Bax, buna görə digərləri oyanmamaqdan qorxduqları zaman, mən oyanmaqdan qorxurdum.

Qəhvəsini bitirmişdi. İndi normalda onu evinə aparmalıydım, bunu ona təklif etməliyəm. Ancaq susuram, gözlərim dodaqlarında, dodaqlarımı dişləyirəm. Nələr olur mənə görəsən? Heç vaxt sevişməmiş mən qəribə-qəribə hərəkətlər edir, dilimlə dodaqlarımı isladıram. O, ayağa qalxır və mənə doğru addımlayır. Damarlarımdakı qanın necə möhkəm dövr elədiyini hiss edirəm. İndi bir addımlığımda dayanıb mənə baxır. Saçlarım üzümə dağılır, saçlarımız qarışır. Mən nə edirəm... yenə düşüncələr hücum edir. Ancaq daha gecdi. Ayağa qalxmağa qoymur məni. Dizlərimin üstündə oturur. İndi bütün bədənimdə qəribə atəş dolaşır. Qucaqlayıram onu. Bayaqdan gizli-gizli baxdığım dodaqların dadını indi hiss edə bilirəm. Bu dodaqların dadını bilirdim əslində. Sahildə öpmüşdü məni, ancaq bu dəfə mən öpürdüm onu. İlk dəfə insan qorxa- qorxa yaxınlaşıdırır dodaqlarını. Sonra isə alışırsan. Bütün gücünlə, nəfəsin kəsilənə qədər öpmək istəyirsən. Dodaqlarını, çənəsini öpürəm. Əllərim qadağan olan yerlərə doğru hərəkət edir. Bu zaman çöldə əsən güclü külək, səsi ilə qorxutmaq istəyir bizi, bacarmır. Sonra yağış damcıları bütün gücü ilə özünü vurur pəncərəmə. Yatağa gedəcək qədər belə zamanımız olmur.

Mariyanın paltarları döşəmənin üzərinə dağılıb. Bir rəssam olaydı, kaş bu mənzərəni çəkmək üçün. Ətrafa dağılmış qadın paltarları... sevişən iki insan, daha nələr... nələr. Bədənimi parçalamaq istəyirdi sanki barmaqları ilə. Bir qadının necə ehtiraslı ola biləcəyini öyrənirdim. Atəşlə, atəşin qovuşması idi, bu. Dodaqlarım Mariyanın bədənində gəzdikcə, sanki acılarımı unudur, bütün əzablarımdan

intiqam alırdım. Bax, beləcə ilk dəfə bir qadın bədəninin, onun gözləri, baxışları qədər gözəl ola biləcəyini öyrənirdim. Başımı sinəsinə sıxarkən saçlarımda gəzən barmaqlar bütün rəssamların əlləri ilə ustalıqda yarışa bilərdi. Dağ laləsinin, yasəmənin qoxusu vardı sinəsində. Və mən o qoxunu indi bütün iliklərimə qədər yaşayırdım.

Külək dayanmışdı, daha yağış da yağmırdı. İndi uzanmışdım döşəmənin üstünə və başını sinəmə qoyub, məni qucaqlamışdı. Bundan sonra həyatımda iki qadın olacaqdı. Bu gecədən sonra Mariyanı da özümdən uzaqlaşdıra bilməzdim. Ləmanı düşünərkən içim titrəyirdi. Bu gecə gedə bilməmişdim onun yanına. Görəsən, indi nə edir, nə düşünür...

Bəs, sabah mən nə deyəcəm ona?! Daha gecdi, yatağa gedirik. İlk dəfə balaca yatağımı biri ilə bölüşməli oluram. Bir qədər sonra şeytanlıqlar edir və yenidən başlayır film... Elə gözəl öpür ki, mən yaşamaq istəyirəm. İlk dəfə cibimdə gəzdirdiyim gümüş gülləni uzaqlara atmaq keçir ürəyimdən. Sonra yorğunluq güc gəlir və onu qucaqlayıb yuxuya gedirəm. Bir qadının nəfəsi, istiliyi ilə yatmaq gözəlmiş. İlk dəfə yastıqdan daha yumşaq bir şeyin üzərində yumulur gözlərim, ilk dəfə əllərim bir qadının sinəsində isinir... İlk dəfə bir qadının saçları dodaqlarımdan öpür...

## Ləman

Bu gecə gəlmədi. Narahatam, darıxıram, ancaq onu da anlamaq lazımdı. Günorta bir yerdə deyildikmi, indi də bəlkə ailəsənin yanına gedib, bəlkə də başqa bir işi var?! Elə istərdim ki, bu yağışlı, küləkli payız gecəsində başımı onun sinəsinə qoyaraq yuxuya getmək. Qış gəlir və bu mənə ölümü xatırladır. Ayaq səslərini duyduğum ölümü. İndi bahar olsaydı, heç olmasa təbiət ölüm adlı donunda olmasaydı. Ancaq gör ki, bütün acılar, bütün ayrılıqlar birdən gəlirdi. Əlimdənsə, yazmaqdan savayı heç nə gəlmirdi. Göz yaşları içində yazıram, yaşamadıqalarımı, heç vaxt yaşaya bilmədiklərimi...

Saat bir olar. Gülnar çoxdan yatıb, mən isə hələ də bilgisayarın başında yazıram. Gah öz həyatımı, gah yazdıqalarımı ağlayır... yenə yazıram. Dünyanın bütün acılarını, bütün sevgilərini bir romanın içində gizlətmək keçir ürəyimdən. Çox sevənləri yazıram bir yanda, digər yanda onları ürəyi oyuncaq hesab edənlərlə qarşılaşdırıram, eynilə həyatda olduğu kimi. Məsələn, oğlan gedən sevdiyinə tək bir sual vermək istəyir " mənim bu qədər canım yanarkən, necə gülə bilirsən?" Hər gün görür oğlan sevdiyi qızı, hər gün onun gülüşü ilə ölür. O, acı çəkir, əzablarında boğulur, qız isə yenə öz kefində gülür... Oğlan siqareti siqaretin ardınca yandırır, lakin bütün bu olanları qız görmür, yenə gülür. Görəsən, bir zamanlar baxışları ilə, sözləri ilə ürəyini aldığın birinin acı çəkməsini insan necə seyr edə bilər.

Bax, bunu yaza bilmədim, çünki bu duyğular yaddır mənə. Ancaq o oğlanın acısını anladığım üçün yaza bildim və o qızın gedişini, Bəxtiyarın gedişi kimi anlatdım. Külək sanki bu dünyadan nə isə qoparmaq istəyir, yağış nələri isə yumaq, təmizləmək arzusundadı. Bu düşüncələrlə yuxuya gedirəm. Bəli, öləcək olsam da, öləcəyimi bilsəm də yatır, yemək yeyirəm. Hətta bəzən gülə də bilirəm. İnsanın bu halı çox qəribə gəlir mənə. Sabah yuxudan Gülnar oyadır məni. Yazı yazdığım yerdə, divanın üstündəcə yuxulamışam. Fərhadı düşünürəm yenə. Görəsən, gələcəkmi, bu gün və ya dünən işdən çıxandan sonra nə üçün gəlmədi?

Qalxıb əl-üzümü yuyuram ki, bir az özümə gəlim. Gəlsə, məni belə dağınıq halda görməsin. Ancaq saat bir-bir uzaqlaşır mən qalxdığım vaxtdan. Günortdan sonra qapı döyülür və o, gəlir. İçəri keçir, ancaq nəsə bir hal var onda. Mən soruşmuram niyə gəlmədiyini, o, da demir. Gətirdiyi gülləri pəncərənin qabağına qoyur, əyləşir qarşımda. Gözlərinə baxmaq istəyirəm və baxıram...

Gözlərində yenə mən varam, sevgim var, ancaq başqa bir şey də var ki, onu hiss edə bilmirəm. Gülnar çay süzür, birlikdə çay içirik. Hər zamankı kimi səhhətimi, romanımı soruşur. Yalandan da olsa " yaxşıdır"- deyirəm. Sonra havalardan düşür söhbət. Nədənsə, dünənki gecədən danışanda gözlərini qaçırır məndən.

Ürəyimə sanki bir iynə sancılır, nə isə hiss edirəm, bir şeylərin qaydasında getmədiyini... Hər zaman qorxmuşam hisslərimdən. Yox, yox, mən Fərhadı itirmək istəmirəm. Həyat uzun illər yaşamaq şansımı əlimdən alıb, indi Fərhadı da alsa, nə edərəm, ölüm onsuz da gələcək. Yalnız ürəyi olan insanlar yaxşı bilir, bu həyatda ölümdən betər şeylərin olduğunu. Qorxa- qorxa ona yaxınlaşıb, əllərindən tuturam. İlk dəfə ona " səni itirməkdən çox qorxuram"- deyirəm. Bəli, onu itirməkdən qorxuram. Əgər o, getsə ölümüm belə yarımçıq olar. Mən tam yaşaya bilmədim, heç olmasa ölümüm tam olsun istəyirəm. Bu sözləri deyəndə gözləri yaşarır. Qarşımda diz çöküb, əllərimi öpə-öpə başını dizimin üstünə qoyur. " Sən eşqsən, Ləman, sevgisən sən. Nəfəsin olduqca səninlə döyünəcək ürəyim. Bir gün nəfəsini üzümdə hiss etməsəm, mən də yarımçıq qalacam"- deyir. Onun yoxluğu mənim ölümümü yarım qoyar, ancaq indi anlayıram ki, mənim yoxluğum- ölümüm onun ömrünü yarımçıq qoyacaq. Yaşayacaq bəlkə, ancaq yarımçıq.

Bayaq düşündüklərim üçün çox utanıram. Mənim üçün bu qədər çox şey edən birini, bir gecə gəlmədi deyə, vəfasızlıqda günahlandırmışdım. İstəmirdim məndən sonra yarımçıq qalsın, istəmirdim... Sən yaşamalısan sevgilim, ikimizin yerinə də... Məsələn, ən böyük arzum bir qızımın olmasıydı - adını Mələk qoyacaqdım, sonra bir oğlum olacaqdı, bəlkə də, onun adını da Ümid qoyacaqdım. İndi bunların heç biri olmayacaq, ancaq ola bilər, sənin övladların ola bilər, əzizim. Məndən sonra iki insanın xəyalı, arzuları ilə yaşamalı olacaqsan. Anlayırsanmı məni, bu ömrü iki nəfərlik yaşamalısan. Oğlun Ümidə məndən danışarsan, Mələk böyüyər ilk oxduğu roman, mənim bu xəstə- xəstə yazdığım olar. Bax, sevgilim bütün bunlar olarsa, boşuna yaşamış olmaram, nə də ki, boşuna ölmüş... Sən yaşayacaqsan, sən xoşbəxt olmağa layiq birisən, Fərhadım. Bu sözləri deyərəkən başı hələ də dizlərimin üzərində idi. Barmaqlarım sığal çəkirdi uzun, yumşaq saçlarına. Bu saçları yağışlı havalarda islanarkən, küləklə rəqs edərkən görmək daha gözəl olurdu. İlk dəfə onu görəndə də saçları ilə oğurlamışdı ürəyimi. Çoxlu sığal çəkmək

istəyirdim başına ki, barmaqlarımın izi qalsın, mən öldükdən sonra da...

Bir-iki saat oturduqdan sonra qalxıb getdi. Mən yenə öz yalnızlığımla baş- başa qalmışdım. İndi düşüncələrdən, xəyallardan başqa bir şeyim yoxdu yaşayacaq... Yaxşı ki, Gülnar var. Sağ olsun, bu günlərdə mənə bir xidmətçidən artıq bacı olmuşdu. O da olmasa qaranlığımda, təkliyimdə yox olardım. Romanı bitirməyimə çox az qalırdı. Həm həyat romanımı, həm də yazdığımı...

Fərhad getdikdən bir qədər sonra Bəxtiyar gəldi. Onun son zamanlarda çox dəyişdiyini görürdüm. Gəlişləri məni geri qazanmaq üçün deyildi daha, sadəcə köhnə bir dostu, sevgilini ziyarət edirdi. Bilmirəm, bu qədər dəyişsə də, belə xəstə bir qadını sevməyə gücü çatardımı?! Bütün etdiklərinə baxmayaraq, bu adam mənə ömrümün ən gözəl illərini- gəncliyimi, gözəlliyimi, sağlamlığımı xatırladırdı. Nəticədə bir zamanlar sevdiyim, sevdişdiyim biriydi. Daha çox danışmırdı. Sakitcə keçib qarşımda əyləşmişdi. Salam, sağ oldan sonra mən sual verməsəm, ağzını açmırdı. Yenidən dərslərinin başına qayıdacağı üçün çox sevinirdi. Bu dəfəki söhbət daha səmimi keçirdi. Mənim dünyada kiməsə kin güdəcək halım qalmamışdı, hər şey adi görünürdü. gözlərimə. Bütün acılar, əzablar...

İnsan ölüm yaxınlaşdığı zaman sadəcə yaşamaq haqqında düşünür. Sağlam vaxtı çəkdiyi əzablar o qədər cılız görsənir ki, gülmək istəyirsən. Bəxtiyar məni atmışdı. Hə, nə olsun ilk ayrılan biz idikmi, əgər xəstəlik olmasa, Fərhadla hər şeyi yenidən başlaya, xoşbəxt ola bilərdim. Gözəllik, sevgi ürəyimizdədi, ürəyimizdi. Biz kimi sevsək, ora kimi qoysaq, sevgili o olur. İndi Bəxtiyar başına gələnləri danışır, mən də nəzakət xatirinə dinləyirəm. Necə ağlını itirdiyini, pis hala düşdüyünü, hamısını bir-bir danışır. Bundan sonra da vicdanı onu rahat qoymayacaq yaşamağa. İndi ona baxıram, əslində pis insan deyil, sadəcə acizdi, qorxaqdı milyonlarla insan kimi. Onun yerində olsaydı, çoxları elə onun elədiyini edərdi. Sadəcə, Fərhad kimi insanlar sevgisizlikdən ölüm qədər qorxa bilir. Dildə bir əsas, bir də köməkçi- mənası olmayan sözlər var. Bax, insan sevdiyi zaman əsas olur, məna qazanır, ancaq sevgisiz insan, köməkçi söz

kimidir. Yaşasa da, nəfəs alsa da, mənasız olur. Bəxtiyar isə omonim sözlərə bənzəyir. Omonim olan əsas və köməkçi sözlərə. Məndən əvvəl sevdiyi olmuşdu, məndən sonra da olacaqdı. Ölümüm onun sadəcə vicdanını sızladacaqdı. Ancaq Fərhadın ilk sevdiyi idim, son da olacaqdım. Yoxluğum onun ürəyində hiss olunacaqdı. Fərhadın həyatında qadını olsa belə, ürəyində hər zaman mən olacaqdım. Bəxtiyar böyük həvəslə çəkdiyi acılardan danışarkən gözümün önündə sadəcə bir obraz görürdüm- yazdığım, xəyal vurğunu olan obrazlardan birini. Bəxtiyara gözəl olan hər şeyi vermişdim, Fərhada isə yalnız əzablar qalırdı... Bax, bütün bunlar mənim son zamanlarda düşündüklərimdi. İndi mənim həyatım keçmiş düşüncələrdən ibarətdi. Bəxtiyar çayını içə- içə danışırdı. Hətta Beytullahla gecə başına gələnləri belə danışdı. İlk dəfə kişi olub savaşmış, yoldaşını yarı yolda qoymamışdı. Ancaq nəyə yarar, bütün bu sözlərin mənə nə dəxli var? İndi bir an öncə bu söhbətin bitməsini gözləyirdim, çünki yazacağım, məni gözləyən bir romanım, hekayəm vardı... Çayını bitirdikdən sonra, qalxıb getdi. Bu zaman öz- özümə düşündüm ki, görəsən, ürəyimdən keçənləri dodaqlarıma qədər gətirə bilmişdimmi?! Eh, nə isə, deyib bilgisayarı açdım. Ürəyim ilk dəfə aşiq olmuş kimi döyünürdü. Yazmaq istəyirdim...

Eşqin kölgəsindən bir hissə....

Eşq günəş kimidir, demişdi qoca bağban. Bəzən buludlar onun önünü kəssə də, bəzən gecə gəlsə də, əslində heç vaxt yox olmur. Daim biz onun varlığını hiss edir, duyuruq. Eşq günəş, dünya, insanlar isə buludlar, gecələrdi. Onun üçün çox vaxt insan oğlu ilə eşqin yolları kəsişmir. Çox maraqlı bir hekayəsi vardı, bağbanın. Bundan uzun illər öncə, cavan oğlan olduğu zamanlarda bir qıza sevdalanır, çox sevir onu. Adı Gül olan bu qız deyəsən onu sevir. Qocanın özü danışarkən " deyəsən" sözündən istifadə edir. Çünki, indi belə tam əmin deyil, o qızın onu sevdiyindən. Elə ona görə də - "heç vaxt sevildiyinə əmin ola bilməzsən"- deyir. İnsanlar sevsə də, sevməsə də gedir. Bir dəfə ailə qurub ayrılmışdı Gül. Onun üçün ürəyində kişilərə qarşı hədsiz nifrət vardı. Onun nəzərində bütün kişilər yalançı idi. Tanıdığı hər kişidən intiqam almaq istəyirdi. Bu intiqam isə, elə gözəlliklə, gül ilə olurdu. Elə gözəl bir qız deyildi, ancaq ürəyimə yatmışdı, sevmişdim onu. O isə məni digərləri kimi görür, inanmırdı mənə. Məsələn, ona sevgilim desəm, " sənsən sevgilim" - deyirdi. Sevgi, sevgilim sözləri belə gözlərindən düşmüşdü. Çox çətindi onu sevmək, çox... Bir ilə yaxın "sevgili" oyunu oynadıq. Bu bir il ərzində sadəcə bir dəfə onun qadın olduğunu, ürəyinin olduğunu hiss etdim. Başqa bir şəhərdə yaşayırdı və mən tez- tez onu ziyarət üçün gedirdim. O səfərlərin birində görüşümüz axşama qədər çəkmişdi. Şəhərin hündür yerlərinin birində söhbət edirdik. Günəş yavaş- yavaş solurdu. Yaz axşamı idi. Sakit hava, ayaqlarımızın altında şəhər... İlk dəfə hər iki əlindən tutdum və son dəfə olmuşdu bu... Onun gözlərinin içində həqiqi onu - sevgiyə möhtac bir qadını görmüşdüm. Ağaca söykənmiş, qollarımda bir balaca sərçə kimi titrəyirdi. İlk dəfə dodaqları mənə bu qədər yaxındı, ilk dəfə bədənlərimiz bir- birinə dəyirdi. Bu zaman gözlərinin yaşardığını gördüm. Özü boynuna almadı. " Havadandı"- dedi. Ancaq o, ağlamışdı. Barmaqlarımı göz yaşları ilə qovuşdurdum, göz yaşlarını sildim. Ürəyimdən onu öpmək keçirdi. İndi düşünürəm də, öpsəydim heç nə edə bilməzdi. Bəlkə də, öpməliydim. Sözlərin, baxışların deyə

bilmədiyini balaca bir öpüş deyərdi ona. Ancaq mən " səni öpə bilərmmi" - deyə soruşdum. Bəli, belə bir səhv etdim. Əlbəttə cavabı " yox" oldu. O zaman gənc, təcrübəsiz bir oğlandım. Bilmirdim, tanımırdım qadınları. Qadın cəsarəti olan kişini mükafatlandırır, təklif edəni yox. Öpmək istəyirsənmi, öp... darıxdınmı, get gör... Yoxsa daha öpə bilərəmmi, səni görməyə gələ bilərəmmi kimi mənasız suallar vermə. Mən də bu səhvi etmişdim. Öpə bilmədim onu, ancaq orada elə yaxınlaşmışdıq ki, saçlarının qoxusunu hiss edə bilirdim. Bədənlərimiz elə yaxındı ki, bir- birinə, bir addım atacaq cəsarətim olsaydı bu yaxınlıq iki atəşin qovuşması olardı. Ancaq öpsəm onu itirəcəyimdən qorxmuşdum. O, ilk dəfə kişilərə nifrət edən bir robot yox, qadın olmuşdu qarşımda. Mən isə istifadə edə bilməmişdim bu şansdan. Oradan ayrılıb, marşuruta gedənə qədər sürdü bu yaxınlıq. İlk dəfə qucaqlaya bildim onu, sarıldım sevdiyim qadına. İndi də onun çiyinlərinə, kürəyinə toxunan sağ əlimin xüsusi yer var mənim yanımda. Ondan öncə də görüşlər olmuşdu, ondan sonra da oldu. Bir dəfə dəniz sahilində əl- ələ tutub çoxlu gəzdik, başqa bir səfər onu qatarla yola saldım. Qısa da olsa, az da olsa yaşanmışlar oldu, yaşadıq sevgini. Ancaq heç vaxt bilmədim, əmin olmadım məni sevib-sevmədiyinə... İndi bu, o qədər də vecimə deyil. Ondan sonra bağban oldum. Çoxlu güllərim oldu. Mən güllərə qulluq etməklə keçirdim ömrümü. Mən gülü sevdim, gülləri seçdim...Eşq gül qoxusu kimidi. Sənin bağında olmasa belə hiss edərsən, külək onun ətrini sənə gətirər...

Gülün hekayəsini yazıb bitirəndə haradasa axşam olurdu. Külək yenə dəli- dəli əsir, yağmur göy üzündən yerə can atırdı. Çöldə çox soyuq olmalıydı, bəlkə də bu gecə qar yağacaqdı, bəlkə də mənim son gecəm olacaqdı. Uşaqlıqdan külək əsəndə üşümüşəm, indi də yaman üşüyürəm. Bu axşam gəlsə, Fərhadı qoymayacam getməyə. Mənimlə qalsın bir gecəni də. Bu soyuq dekabr gecəsində onun nəfəsi ilə isinmək istəyirəm. Bəs, görəsən, indi nə edir, hardadır? Yəqin Mariya ilə dükanı bağlamağa hazırlaşırlar. Bu qızı qısqanardım əvvəllər olsa, indi isə elə istərdim ki, Fərhadı sevsin, onu heç buraxmasın. O,

gəncdi, həyat dolu bir qızdı. Məndən sonra Fərhadı yaşada, həyatda tuta bilərdi.

Külək niyə dəli olub bu gecə? Nə fərqi var, bu gecənin digər gecələrdən? Bax, bu külək kimi olsaydım, Mariyanı qısqanmayan mən indi küləyi qısqanıram. Külək olsaydım, sevdiyimin saçlarını oynadardım, ya da yağış olsaydım- Fərhadın o ipək kimi saçlarına qonar, ona gözəllik qatardım. Saatın saniyələri göstərən əqrəbi elə yavaş- yavaş hərəkət edir ki, ürəyim sıxılır. Sağlam olsaydım, qalxıb onun üçün bəzənərdim, bu gecə onunla bir olub, soyuğa meydan oxuyardım. İndi bu halımla onunla sevişməm ona işgəncə olar. Onunla qovuşma istəyim bir ehtirasın yox, ruhun-ruhumun ehtiyacıdır. Gülnar axşam üçün yemək hazırlayır. Ətrafıma baxıram, bir dənə xoşbəxt insan görə bilmirəm. Mən xəstə, Bəxtiyarın ruhu, vicdanı xəstə, Gülnarın həyatı dağılıb. Fərhad və Mariya qalır geriyə. Bu qədər problemlərin içində Fərhadı həmişə xoşbəxt görürdüm. Çünki, onun həyatında mən vardım, eşq vardı. Mariya isə gəncliyin qayğısız günləri ilə xoşbəxtdi. Yenə ağlıma gəlir, kaş bu qız Fərhadı sevəydi, bir ömür onun üzünü güldürə bilərdi öz enerjisi ilə. Ancaq yenə yarım qalacaqdı mənim sevdiyim, sevgilim. Elə bu düşüncələr içində pəncərədən baxarkən birdən qapı döyülür. Bəli, gələn Fərhaddı, yanılmıram. İçəri keçir. Onu görəndə ürəyimdə bahar fəsli olur, lalələr dalğalanır könül bağçamda. Yaxınlaşır və alnımdan öpür. Boynunu qucaqlayıb bir xeyli buraxmıram, doyunca bağrıma basmaq istəyirəm, ancaq kim sevdiyindən doyub ki...Qulağına onu çox sevdiyimi pıçıldayıram. Gülümsəyir, gözlərindən ürəyimə günəş işıqları düşür bu soyuq dekabr axşamında. Bir az sonra süfrə başında əyləşirik. Ona bu gecə burada, mənimlə qalmasını söyləyirəm. Gözlərinə elə bir baxıram ki, yox deyə bilmir. Qəbul edir. Elə sevinirəm ki... Bu gecə başımı onun sinəsinə qoyub yatmaq istəyirəm. Bəlkə, bu ilk və son dəfə olacaq, ancaq olsun. Bəzən bir an, bir gün bütöv ömrə dəymirmi, bu o çox sevdiyim mahnıda oxunurdu " bəzən, bir an üçün, bir ömür verilir"- deyə.

İndi, bu gecə o an yaşanmalıydı. Bu gecə Bəxtiyarla keçirdiyi gecələrin heç birinə bənzəməyəcəkdi. Bu gecədə ölümlə həyat qol-

qola, sevgi ilə ayrılıq çiyin- çiyinə olacaqdı. Nəhayət, yemək bitir, çaylar içilir. Gülnar qabları yuduqdan sonra izn istəyib, yatmağa gedir. Yəqin ki, bizi narahat etmək istəmir. Divanda əyləşir, yanına gedib mən də otururam. Başımı sinəsinə qoyub, onu qucaqlayıram. Birlikdə pəncərədən çölə- artıq qara çevrilmək üzrə olan yağışa tamaşa edirik. Küləyin səsi daha da möhkəmlənir, mən daha artıq qısılıram ona. Ürəyinin səsini dinləyir, saçıma vuran nəfəsi ilə xəyallar qururam. Yox, tez ayılıram bu dəfə xəyallardan. Bu gecə xəyal, xatirə istəmirəm. Hər nə olacaqsa, yaşanacaqsa qoy həqiqət olsun. Daha xəyallardan yorulmuşam, xatirələr isə acıdır, əzab verir. Saçıma sığal çəkir, öpüb qoxlayır. İndi bütün acılarım dinib. Heç bir ağrım yoxdu. Onun yanımda olması ən kəskin ağrıkəsicilərdən daha təsirlidir. Onun bir öpüşü....dodaqlarından öpsəm, nə deyər deyə düşünürəm. Xəstə olsam da, hələ ki, dodaqlarım tamamilə solmayıb. Aylar, bəlkə günlər sonra torpağa qarışacaq bu dodaqlarla onu öpməyə qıya bilmirəm. Kövrəlirəm, ancaq onun görməsini istəmədiyim üçün başımı onun sinəsində gizlədirəm. Göz yaşlarım bəyaz köynəyini isladır, ancaq o, bunu görmür.

Uzun zamandır ki, özümü bu qədər rahat hiss etməmişdim. Bəzən məni qorxu bürüyür- ölüm qorxusu. Təkbaşına soyuq, qaranlıq məzarda çürüyəcəyini düşünmək kimin qəlbinə qorxu salmaz ki... Ancaq mən məzarda yox, sevdiyimin ürəyində olacam. Bu düşüncə ilə özümü ovudub onun boynunu qucaqlayıram... Dodaqlarım özünə hakim ola bilmir, əllərim saçlarını mehribanlıqla qucaqlayır. Bütün ayrılıqların sağlığına yaşayırıq, bütün ayrılıqların acığına...Bir ömür yazmaq, dünyanın ən böyük əsərlərini qələmə almaq belə, bu anın yerini verə bilməzdi.

Çöldə qar yağır indi, mələklər qar dənəsi ilə gəlir görüşümüzə. O mələklərə qoşulub cənnətə getmək istərdim. Elə qorxuram ki, Allahın məni bağışlamayacağından. Cəhənnəmdə heç ümid yoxdu deyilənə görə, cənnət isə xoşbəxtlikdir. Sevdiyim adamı cənnətdə gözləmək istəyirdim. Mənim cənnətim, mənim sevgimdi. Nələr, nələr keçir insanın ağlından, ilahi... Bəzən canın yanır, sonra ümid dolur ürəyinin pəncərəsindən. O zaman anlayırsan bu dünya

cənnətlə cəhənnəmin ortasında bir yerdir, çünki, burada ümidi və ümidsizliyi eyni anda və ya növbə ilə yaşaya bilirsən. Cənnətim Fərhad, cəhənnəmim onsuzluqdu, indi yaşadığım həyat isə ikisinin arasında bir şeydi - bu dünya kimi. İndi qucaqladığım bu adamı başqa biri ilə düşünəndə hərdən qısqanır, üzülürəm. Ancaq əlimiz, qolumuz belə bizim deyilkən, bir başqasınamı sahib olacaqdıq? Qısqansaq, ürəyimizi nifrətə, kinə qısqanaq. Bizimlə olmasa da, qoy xoşbəxt olsun sevdiklərimiz. Ürəyimin səsini dinləyə-dinləyə düşüncələrimlə savaşırdım. Bu adamı mənə mələklər göndərmişdi, ölümüm yarımçıq qalmasın deyə. Əslində elə ömrüm də yarım deyil, tamamlanmışdı onunla. Külək bir az möhkəmlənir, pəncərəmin qulağına bahardan nəğmələr pıçıldayır. Gözlərim yavaşca yumulur, Fərhad da yuxulayıb deyəsən. Başımı qaldıranda tamam fərqli bir yerdə görürəm özümü. Bir an qorxur, öldüyümü düşünürəm. Fərhad yanımdadır. Ölüm olsa belə yanımdadır. Və biz ölməmiş, gözəl bir yerdə gəzirik. Uca dağların başındayıq. Ətraf yamyaşıl, güllər rəngarəng. Qaça- qaça lalələrin olduğu yerə gedirik. Əlimiz gəlmir bu incə gülləri qoparmağa. Bu an ciyərimin yandığını hiss edirəm, susamışam. Bir az aralıda qayaların içindən gur bir bulaq qaynayır. Fərhad ovcunda su içirir mənə. Barmaqlarının dadını soyuq suya qatıb xoşbəxt oluram. Göy üzündə bir dənə də bulud yoxdu. Hər yan elə gözəldi ki, insan quş olub uçmaq istəyir. Çoxlu danışırıq, gülürük... Saçlarım əvvəlki qədər gözəl, döşlərim bir qızın döşü kimi şuxdu. Xəstə də deyiləm. Elə sevinirəm ki, səsimə quşlar ürküb göy üzünə qalxır. Bu qədər yerdə nə bir ev, nə insan var. Sadəcə gözəlliklər və biz varıq.

Doyunca yaşamaq lazımdır hər şeyi. Qaçıram ki, tutsun məni. Güllərin arasından, güllü donum ilə bir külək kimi keçirəm. Nəhayətində tutur məni, hər ikimiz yerə yıxılırıq. Uzanıb göy üzünü seyr etmək nə qədər də gözəldi! Bu zaman başımı onun sinəsinə qoyuram. Gözlərinin içi gülür. Saçları otlara qarışıb. Sakitcə süzülüb boynundan öpürəm. Saçlarına sığal çəkə- çəkə onu sevdiyimi söylədikcə gülür. Və birdən qolumdan tutub məni yerə yıxır. Əllərim kürəyində, saçlarında dolaşdıqca dodaqlarımdan həsrətlə öpür. Gözlərimdən yaş axır, ağlayıram, ancaq bunu görmür. Məni öpür,

ancaq dodaqlarının dadını hiss edə bilmirəm, çünki bunun bir yuxu, xəyal olduğunu anlayıram.

Hələ tamamilə oyanmasam da, yuxu ilə həqiqətin arasında qalmışam. Bir az sonra külək özünü pəncərəmə çırpır və mən yuxudan tam mənası ilə düşürəm. Yenə naşükür deyiləm. Fərhadım yanımdadı. Divanın üstündə yuxuya gedib, başım da sinəsinin üzərində. Daha dayana bilmirəm və ona tərəf uzanıram. Yuxulu dodaqlarından öpdüyüm zaman ayılır. İndi bu yuxu deyil... Bütün gözəlliyi ilə hiss edə bilirəm sevdiyim insanı. Qar yağsın, ya günəş çıxsın onun qollarında, onun nəfəsi ilə olduqdan sonra nə fərqi...

Eşq ölüm kimi bir şeydi, heç gözləmədiyimiz zamanda gəlir və bizi, bizdən alıb aparır bilmədiyimiz, ancaq eşitdiyimiz yerlərə. Eşqin tək fərqi ölümdən bir az öncə gəlməsidi...

## Mariya

Bir soyuq dekabr gecəsindən sonra heç bir şey əvvəlki kimi olmadı. O gecə mən onun qadını oldum. Daha bundan sonra məndən qaça bilməzdi, ancaq ürəyi heç vaxt mənim olmayacaqdı. Buna dözə biləckdimmi, bax, bunu bilmirəm. Yenə də xoşbəxt ola bilərik, deyə düşünürəm. Sevgi insanın ürəyinə bir neçə dəfə qonaq ola bilərdi. Ləmanın ölümündən sonra onu yaşada bilsəm, sevgisini də qazana bilərdim. Ləmanı tanıyandan sonra ona haqq verirdim. Bir mələkdi Ləman. Qar dənələrini gətirən mələklərdən biri insan olmağı seçmişdi deyəsən. O mələyin olduğu ürəkdə, onun kölgəsində belə olmaq dünyada xoşbəxt olmağa bəs edərdi. Fərhadın olmaq, onunla sevişmək, elə gözəldi ki...

Ağlıma qəribə bir fikir gəlmişdi, Ləmanı ziyarət edəcək, ondan yardım istəyəcəkdim. Fərhad bizi birləşdirən dəyərin adı olmuşdu. Hər ikimiz onu canımızdan çox sevir, yaşamasını istəyirdik. Ancaq, Ləman onu yaşadacaq qədər güclü idi. O, təkcə Ləmanın sözü ilə yaşaya bilərdi...

Günortaya qədər dükanda olurdu Fərhad. Bir gün dərsə getməmək qərarına gəldim. Sabahı birtəhər edib, tezdən Ləmanın evinə tərəf yollandım. İçimdə qəribə bir qorxu, həyəcan vardı. Deyək, getdim. Bəs nə deyəcək, necə danışacaqdım... Ya mənə acığı tutsa, ya pis olsa, mən nə edərdim? Ancaq başqa yolum qalmamışdı. Getməliydim və getdim. Qapının zəngini sıxarkən barmaqlarım titrəyirdi. Nəhayət qapı açıldı. Ləmanı görmək istədiyimi deyib, içəri keçdim. Pəncərənin kənarında əyləşib yazı yazırdı. Məni görən kimi tanıdı və çox gözəl qarşıladı. Soyuqdan gəldiyim üçün, yanındakı qıza çay süzməsini söylədi. Çay gələnə qədər məndən üzr istəyib, yazısını yazmağa davam etdi. Romanının sonuncu fəsillərindən birini bitirmək üzrəydi. Sakitcə oturub gözlədim. Bir az sonra çay gəldi. İsti çaydan içib, bir az özümə gəldim. Gözlərim isə Ləmanda idi. Nə qədər solmuş, zəifləmişdi. Onu belə görəndə canım elə yandı ki, Fərhadı düşündüm.

İlahi, bir insanın gözlərinin önündə sevdiyinin belə yavaş-yavaş solması nə deməkdi?! Necə dayana bilirdi buna... Nəhayət yazını tamamlayıb, bilgisayarını bağladı. Bir qədər havadan, sudan danışdıq. Romanı, səhhəti ilə bağlı suallar verdim. Mehribanlıqla bütün suallarımı cavabladı. Otaq başdan-başa güllərlə bəzənmişdi. Qışda bahar gəlmişdi Ləmanın evinə. Bu xəstə halı ilə belə, elə möhtəşəm, elə məğrur görünürdü ki... Gözlərimin içinə baxırdı və mən buna dayana bilmirdim. Sözə necə başlayacam, başlaya biləcəyəmmi?! Heç nə bilmirdim, donub qalmışdım. Nəhayət bütün gücümü toplayıb hər şeyi ona danışdım. Qorxduğumu söylədim ona, Fərhadın bir dəlilik etməsindən çox qorxuduğumu. Sonra ağlaya-ağlaya Fərhadı yaşada bilmək üçün ondan yardım istədim. Aradabir üzr də istəyirdim, onun sevdiyi haqqında bu cür düşündüyüm üçün. Ancaq o böyük qadın heç nə demədi mənə. Sadəcə baxıb gülümsəyirdi. Sanki bu dediklərim onun da ürəyindəndi. Bu dəqiqə onun yerində olmağı istəməzdim, buna dayanacaq qədər güclü deyildim. Ölüm ayağında da olsam, biri məndən sevdiyimi istəsə, o adamı qovardım... Nə bilim, bəlkə, mən də Ləman kimi davranardım. Sevgi nə idi, sevdiyinin sənin ölümündən sonra yaşamasını, xoşbəxt olmasını istəmirsənsə, buna necə sevgi deyə bilərdin? Ləman mənə yardım edəcəyini deyəndə, onun ürəyindəki günəş qədər möhtəşəm eşqi gördüm. Əgər bu qadın yaşasaydı, xəstə olmasaydı, bir ömür acı çəkəcəyimi bilsəm belə, onun sevdiyi adama sahib olmaq istəməzdim. Bu qısa söhbətdə mənə eşqin sahib olmaq olmadığını öyrətdi. Eşq kiminsə sənin olması ola bilməzdi, bu zaman sevgili yox, qul olardı həmin adam. Eşq ürəyimizin bahar donu geyinməsi idi, ya da göz yaşlarımızla bəzənəcəyini bilə- bilə bir ömrün əlini ona uzatmaq, uzada bilməkdi. Eh, insanlar haradan anlasın bu duyğuları, bu gözəllikləri... İnsanlar çoxdan unutmuşdu ruhlarını, ürəklərini... Sadəcə yemək üçün yaşayan insanların arasında boğulmağa, acı çəkməyə məhkumdu bizim kimi insanlar... Fərhadı da mənə tapşırdı. Onun üzünün gülməsi üçün hər şeyi edəcək, heç vaxt onu tək qoymayacaqdım. Hə, bir də cənnətdə onu məndən geri alacağını söylədi... Bu canımı acıtdı bir az. Ancaq cənnəti düşününcə bir az

sakitləşdim. Orada qısqanclıq, nifrət olmayacaqdı. Orada bir insan müxtəlif yerlərdə ola biləcəkdi. Rəbbim dilərsə, Fərhad həm Ləmanın, həm də mənim yanımda ola bilərdi... Onunla danışandan sonra, ürəyim az da olsa sakitləşmişdi. İndi geriyə bir şey qalırdı, birlikdə düşünüb Fərhadı yaşatmaq üçün bir yol tapmaq. Biz romantik xəyallar qurarkən, həyat öz realist silləsini boynumuzun kökünə elə vurur ki, nə olduğunu anlamağa belə zamanımız olmur. İndi tez vaxtda nə isə bir şey düşünmək lazımdı. Ləman çox xəstə idi. Hər an ölə bilərdi, onun ölümündən sonra Fərhadın axırı necə olardı, bax, onu Allah bilir... Bu düşüncələrlə Ləmanın yanından ayrılıb universitetə doğru addımlamağa başladım. Üçüncü, dördüncü dərslərə çatmaq olardı. Ayaqlarım gedir, beynim isə külək kimi havada uçurdu. Bir neçə gündən sonra başlayacaq imtahanlar, həyat imtahanı... Bəzən, bu qədər problemlərin içində ağlımı itirəcəyimdən qorxurdum.

Qar yağmışdı şəhərimizə. Uşaqlar, böyüklər hər kəs sevinirdi, bu qarın yağmasına demək istərdim, ancaq bu belə deyildi. Qar yağan kimi yollar buz bağlayır, sular donur, istilik sistemləri sıradan çıxırdı, çox yerdə. Bax, buna görə şəhərin insanları qarı heç sevmirdi. Birtəhər sürüşə- sürüşə gəlib universitetin həyətinə çıxa bildim. Tənəffüsdü deyəsən, çünki həyətdə tələbələr qartopu oynayır, ürəklərincə əylənirdilər. Nə qartopu oynamağa, nə də əylənməyə halım yox idi. Sakitcə pilləkənləri yuxarı qalxdım. Dərs cədvəli yadımdan çıxmışdı. Dua edirdim ki, seminar olmasın, mühazirə olsun. Bir də hansısa müəllim "niyə seminara hazır deyilsən"- deyə danlasa, əhvalım təmiz korlanacaqdı. Xoşbəxtlikdən mühazirə idi. İki qrupun uşaqları böyük otaqlardan birinə yığışmışdı. Ön sıralar dolu olduğundan arxada əyləşməli oldum və bu heç də pis olmadı. Çox vaxt müəllimlər kitablarda yazılan şeyləri yazdırır, uşaqlar isə dəftərə yazılacaq baldan ötrü bunu yazırdılar. Mənim isə belə problemlərim olmurdu. Sadəcə kitablardan tapa bilməyəcəyim nə isə olanda yazırdım. Onun üçün də bu illər ərzində dərslərin əksəriyyətindən mühazirə dəftərim olmadı. Müəllim danışır, mən isə arxada sakitcə kitabımı oxuyurdum. Doxsan dəqiqə boyunca əmməlli-başlı oxumaq

olardı. Gündə ikicə dərs belə mənasız olanda bir kitabı bitirirdim. Ancaq elə müəllimlərim də olurdu ki, onları dinləmək üçün ön sıralara qaçırdım, çünki onlar kitabların yazmadıqlarını, ya da kitablarda yazılanları öz bilikləri ilə deyirdilər. Belə müəllimlərimdən birini xatırlamasam olmaz. Xarici ölkələrdən birində yaşayırdı, bu gözəl ürəkli qadın. Sadəcə Avropa ədəbiyyatından dərs deməyə gəlmişdi bir semestrliyinə. O qədər gözəl danışırdı ki, diqqətlə onu dinləyir və yorulmurdum. Bəzən, dərsdən sonra söhbətlərimiz davam edirdi. Hər zaman deyirdi: "Mariya nə yaxşı ki, kitablar var, ədəbiyyat var, yoxsa biz nə edərdik?". Həqiqətən də, nə yaxşı ki, kitablar var. Nə zaman dünya dənizində yolumu azsam, dumana- çənə düşsəm, sığınacağım liman olurdu kitablar. Müəllimənin bir də ədəbiyyat dəftəri vardı. Burada sevdiyi şeirləri, sözləri saxlayırdı. Çox istəyirdi dəftərini mənə versin, baxım, ancaq olmadı, qismət olmadı.

İndi yenə arxa sıralardan birində əyləşib kitab oxuyuram. Drayzerin "Dahi" əsəridir. Kitab çox qalın və ağır olduğundan daşımaq çətin olsa da, elə maraqlı gəlir ki, ayrıla billmirəm. Yucin Vitlanın taleyi çox maraqlandırır məni. Kitabı haradasa yarı eləmişəm. Bir xeyli vaxt var idi ki, sevimli rəssamım şəkil çəkə billmirdi. O dəfə emalatxanada işçilərdən birinin şəkilini çəkəndə elə sevinmişdim ki, az qala bütün dərdim-sərim yadımdan çıxmışdı. Əsəri oxuduqca Ancelanı Ləmanın görkəmində görürdüm. Düzdü, Ləman daha cəsarətli, ağıllı idi. Ancaq yenə bu iki qadını bir-birinə bənzədirdim. İkisində də bir qadında olması vacib olan bütün gözəlliklər vardı. İndi düşünürəm ki, mən heç vaxt Ləman kimi ola bilmərəm, bilməyəcəm. Məsələn, Ləman olsaydı, o gecə sevişməzdi Fərhadla. Ancaq Ancela da evlənmədən sevişməmişdimi Yucinlə?! Bu düşüncələr içində Ancelanın, Karlotanın Yucinə yazdığı məktubu oxuduğu yerə gəlib çatdım. Elə bu zaman da zəng vuruldu. Tənəffüsə çıxmalı olduq.

Növbəti dərs seminar idi. Dərsə hazır olmasam da, oxuduğum kitabların, söz ehtiyatımın hesabına söhbəti fırladıb qiymət ala bildim. Bu dərsin son seminarı idi. Üçüncü qiymətim də yazılmışdı. Üç qiymət almağıma baxmayaraq, bir dəfə də olsun dərs

danışmamışdım. Müəllim elə əzazil, qorxunc insan idi ki, adam dərs danışmağa qorxurdu. Ancaq o, müəllimə idisə, mən də Mariya idim. Dərs danışmadan qiymətlərimi aldım, özü də digər uşaqlardan da yaxşı qiymət. Bir dəfə dərsin axırlarına yaxın aləm qarışdı. Necə oldusa, müəllimə dedim mənim keçən dəfə danışdığım dərsin qiymətini yazmamısınız. Onun da ağlı kəsdi və qiymətim yazıldı. Ondan sonra belə şeylərin də mümkün olacağını öyrəndim. Nə isə, birtəhər bu dərsi də başa vurub, dükana, Fərhadıma doğru qaçdım. Nə bir çay içmişdim, nə də bir qismət çörək kəsmişdim. Onunla birlikdə nə isə yemək, çayımı onun gözlərinə baxaraq içmək istəyirdim.

Qar yenidən yağmağa başlamışdı. Külək olmadığından qar ləzzət edir, insanı uzaqlara- yuxarılara çıxarırdı sanki. Yol gedə-gedə uşaqlıq illərim yadıma düşür, kövrəlib nənəmin sinəsinə sığınmaq istəyirəm. Sonra yadıma düşür ki, həyat uşaqlığımı aldığı kimi, nənəmi də məndən alıb. Həmişə qar yağanda pəncərədən çölə baxırdım. Bəzən mənə elə gəlirdi ki, qar dənələri yerə enmir, yer göy üzünə doğru qalxır. Saatlarla göy üzünə baxır, hərdən göylərə səyahət edirdim. İndi küləksiz yağan bu qar məni səmaya yox, keçmişə, uşaqlığıma aparırdı. Onun üçün addımlarımı yavaş atır, tələsmədən yeriyirdim. Beynimdən silinmişdi sanki, bütün əzab yüklü düşüncələrim. İndi sadəcə kirpiklərimdən öpən qarı, soyuğu düşünürdüm- daha doğrusu düşünmür, hiss edir, yaşayırdım. Bir az sonra bu gözəllik bitmiş, başqa bir gözəlliyə qovuşmuşdum. Dükanda əyləşmişdi. İçəridə heç kim yox idi. İçəri girən kimi boynundan qucaqlayıb onu öpdüm. Öpdüyüm üçün yox, insanlar görər deyə bir az əsəbləşdi, ancaq bu çox da uzun sürmədi. Tez özümə bir fincan çay süzdüm. Soyuqdan elə donmuşdum ki, bir az da çöldə gəzsəm, qar qız olardım. O gecədən sonra Fərhadın yanında özümü daha rahat aparır, bu dükanda da dükan sahibəsi olurdum. Necə olsa, o gecə Fərhadın qadını olmuşdum. Bundan sonra utanmaq, məsafəli davranmaq düzgün olmazdı. Mən çay içərkən mənə baxıb gülümsədiyini hiss edirdim. Bilirəm, sevməsə də mənim enerjim, həyat eşqim onun xoşuna gəlirdi. Elə ilk gündən, məni sahildə gördüyü gündən bəri xoşu gəlirdi. Ancaq Ləmanın olması bu xoşlanmağı sevgi olmağa

qoymurdu. Və heç vaxt da olmayacqdı. Daha bunu düşünmək canımı acıtmırdı. Ləman gözlərimdə elə yüksəlmişdi ki,Fərhadın onu sevməsi daha məni üzmürdü və qısqanmırdım onu. Bir böyük bacı, dost kimi sevirdim hətta onu. Fərhadın ürəyində, bizimlə yaşayacaqdı indi o. Bu həyatı üçümüz yaşamağa məhkumduq. Bir qızım olsa adını Ləman qoymaq istərdim. Kim bilir Fərhad, adı Ləman olan öz qızını necə çox sevərdi! Çayı içdikdən sonra çölə çıxarmaq üçün qanına girməyə başladım. Belə gözəl bir qarlı gündə gəzmək, kafelərdən birində pəncərəyə yaxın yerdə əyləşib yemək yemək necə də gözəl olardı. İsrarlarıma dayana bilmədimi, yoxsa özüdəmi çıxmaq istəyirdi, bilmədim. Ancaq bir az sonra biz çödlə gəzirdik. İndi qar ikimizi birlikdə bəzəyirdi. Fərhadın saçlarına qarın düşməsini anlada bilmək üçün ya gərək böyük bir rəssam olaydın, ya da yazıçı... O qədər gözəldi ki, insan gözlərini çəkə bilmirdi. Və heç vaxt papaq qoymurdu başına. Artıq bu şəhərin istisinə də, soyuğuna da alışmışdı. Bir qədər gəzdikdən sonra hər zaman getdiyimiz kafelərdən birində əyləşdik. Pəncərədən qarın yağmağını izləyə-izləyə şorbalarımızı içirik. Necə gözəldi sevdiyin insanla birlikdə nahar etmək, gəzmək... Onun ağzına aldığı hər tikə sanki sənin qarnına gedir. Bu sözü adətən analar öz uşaqları üçün söyləyir, lakin indi mən Fərhadım üçün deyirəm. Kim bilir, bəlkə də mən onu bir ananın öz övladını sevdiyi qədər sevirəm. İndi çölə qar, içəri eşq yağır. Bir anlığa qorxuram onu itirməkdən. Çünki bu həyatda ağlamaq gülməkdən, ayrılıq qovuşmaqdan daha çox olur. Qorxuram, görəsən, qovuşa biləcəmmi, üzümüz güləcəkmi...

Bu həyatda ən pis şey ümidsizlikdi, təslim olmaqdı. Milyonlarca insan məğlub olur savaşmadan. Elə ilk həmlədə ağ bayraq qaldırıb təslim olur. Bax, onları anlaya bilmirəm. Bir ömrü heç nə etmədən necə yaşamaq olar...

Dünyanın ən gözəl şeyi sevmək deyildi, sevdiyin insan üçün mübarizə aparmaqdı. Ondan önəmli olan isə, insanın özünü sevməsi idi. Bəli, özünü sevməsi, həyat dolu olması. O qədər həyat saçacaqsan ki, sevdiyin bir pərvanə kimi sənin işığına gələcək. Əgər mən işıq yox, qaranlıq olsam, onsuz da problemlərlə savaşan Fərhad məndən

qaçacaqdı. Anlayırdım ki, sevdiyim adam da bədbəxt olmaqdan, üzülməkdən yorulub. Bu qısa həyatda o da yaşamaq, gülmək istəyir. Ləmanı çox sevirdi, ancaq bu sevgi onu məhv edir, soldururdu. Mən isə onun xilaskarı olmalıydım. Mənim gözlərimə baxanda ancaq yaşamaq haqqında düşünməliydi. Bütün bunları Ləmanla danışanda məsləhətləşmişdik. Bir mələkdi Ləman və Fərhadı mənə əmanət edirdi. Bir mələyin sevdiyi adamı qorumaq üçün, ən azı onun qədər mələk olmalıydım.

Yeməkdən sonra da dükana getmək istəmirdim. Şəhərimizə gözəl qar yağırdı. Bu qarda gəzmək, əylənmək lazımdı. Məsələn, soyuqdan doyunca üşüməli, qartopu oynamalıyıq. Öz şirinliyimlə onu razı sala bilirəm. Kafedən çıxandan sonra şəhəri gəzməliyik. Bu soyuqda bir dəlilər, bir sevgililər çöldə gəzir. Bir az gəzdikdən sonra ağlıma gözəl bir fikir gəlir. Romantik bir film izləmək heç də pis olmazdı.

Beləliklə, film izləməyə gedirik. Şansımız bizi bu dəfə incitmir və çox gözləmədən filmə girə bilirik. Gözəl bir sevgi filmi. Filmdə uşaqlıqda bir- birini sevən, lakin yolları ayrılan iki insanın illər sonra yenidən qarşılaşmasından gedir söhbət. İllər sonrakı o ilk görüş səhnəsində insan kövrəlir. Nə yaxşı ki, yanımda sevdiyim adam var. Onlar qarşılaşır, bu qədər ildən sonra qucaqlaşa bilmir, ancaq mən başımı sevdiyim adamın çiyninə qoya bilirəm. Bir bahar vaxtıdı filmdə. Sevgililər dəniz kənarında gəzməyə çıxır, bir qədər sonra çay evində dayanırlar. Çay içə-içə uşaqlıq illərindən, birlikdə gəzdikləri dağlardan, yamaclardan danışırlar. Ən çox düşündükləri şey, görəsən, o adlarını yazdıqları ağac yerindədirmi? Sevgilərinin ilk şahidi olan ağacdan danışarkən gözləri ilə dənizə- uzaqlara baxır oğlan. Kaş bizim də belə bir sevgi hekayəmiz olaydı, deyə düşünürəm. Fərhadın heç vaxt məni sevməməsi düşüncəsi qorxudur məni, ancaq təslim olmaq olmaz. İllər sonra bəlkə Ləman yarası sağala, Fərhad onun ətrafında fırlanan bu balaca qızı da görə.

Heç nə demədən filmi izləyir. Yəqin ki, indi Ləmanı düşünür. Düşünsün, daha onu qısqanmıram. Filmdə qız sanki oğlanın gözlərinə baxmağa utanır. Qarşısında yad bir insan əyləşib. Ancaq

birdən- birə nə isə baş verir. Bir qağayı özünü dənizə vurur və bir qədər sonra ağzında bir balıqla yenidən səmaya havalanır. Bu zaman sevənlərin baxışları toqquşur. İllər sonra yenidən sevgi ilə baxırlar bir-birilərinə. O zaman anlayır qız, aradan illərin keçmədiyinə, oğlanın hər zaman ürəyində, baxışlarında olduğuna. Ürəyim həyəcanla döyünür. Qızın yerinə mən olsaydım, indi qalxar və oğlanın yanında əyləşərdim. Sahildə Fərhadı ilk dəfə öpəndə nə qədər cəhd etmişdim. Ancaq qız qorxur yaxınlaşmağa... Qız qorxur- qorxur, bəs mənə nə olub, deyə düşünürəm və başımı yuxarı qaldırıram. Öncə gözlərinə baxıram. Gözləri filmə baxsa da, baxışları çox uzaqlardadı deyəsən. Sağ əlimlə sakitcə üzünü özümə tərəf çevirirəm. Əlimi üzündə görəndə daha əsəbləşmir, sadəcə gülümsəyir. İlahi, gülümsərkən, gözlərinin içi gülərkən necə yaraşıqlı olur!

Zal qaranlıqdı, sadəcə filmin işığı ilə aydınlanır içəri. Bu alatoran onu daha da cazibəli edir. Sakitcə dodaqlarımı ona yaxınlaşdırıram. Ona tərəf süzülən dodaqlarıma hörmətsizlik olmasın deyə o da mənə yaxınlaşır. Bu zaman filmdə qız qorxaq olsa da, oğlan cəsarətli davranır. Ayağa qalxır və sevdiyinin əlindən tutaraq onu dənizin yaxınına aparır. Dalğalar sakitcə sahildə olan kobud daşlara vurur özünü. Oğlan sevdiyini özünə yaxınlaşdırarkən qızın ürəyi dəniz kimi çırpınır, lakin o, da etiraz etmir və budur, bayaqdan bəri gözlədiyim səhnə... Xoşbəxt son. İlk öncə başını, dodaqlarını qaçırmağa çalışır, ancaq bir az sonra daha müqavimət göstərmir. Zalda başqa sevgililər də var yəqin... Bəlkə də yoxdu. Onlar öpüşərkən gözəl, həzin bir müsiqi zalı doldurur. Doyunca öpürəm, doyunca itirəm Fərhadın dodaqlarında. Bir az sonra film bitir.

Qısa qış günlərində günəş çox tez batır. İndi də qaranlıqdı. Daha dükana getməyin mənası yoxdu. Fərhadın evinə getmək istəyirəm... O isə Ləmanın yanına getməlidir. Bu zaman ağlıma dəli bir fikir gəlir və “ məni də apar onun yanına” – deyirəm. Öncə buna etiraz edir, əsəbləşir. Haqlıdır, bu onun üçün tam bir əzab, işgəncə olar. Bir qədər deyişirik, sonunda yenə mənim inadkarlığım qalib gəlir. Maşına əyləşib, Ləmanın yaşadığı yerə doğru yola çıxırıq.

İndi qar yağmır, bir azca külək var. Bir azca qorxu bürüyür məni, görəsən, Ləmanın acığı tutmaz ki?! Nə olsun ki, razı oldu mənim yardım təklifimə. Axı, bu bir azca abırsızlıq olmurdumu, daha həyatda ikən onun sevdiyini əlindən alırdım, ya da alırdımmı.. Bu düşüncələrin içində itib-batmışdım. Fərhad da ağzını açıb bir söz demirdi. Mən bu qədər şey düşünərkən, gör indi o nə haldadır... Ona görə də heç bir söz demir, incitmirəm. Bir az sonra Ləmanın yaşadığı evin qapısında dayanmışıq. Sanki zili sıxmağa çəkinirik. Ancaq qorxunun əcələ faydası yoxdu, düşüncəsi ilə zılı sıxır Fərhad. Bax, indi içəridəyik. Sən demə qorxmağımıza, çəkinməyimizə gərək yox imiş. Çox gözəl qarşılayır Ləman bizi. Bu insan həqiqətən bir mələkdi, daha bu haqda düşünmürəm, çünki əminəm. İçəri girən kimi Fərhad özünü necə atır Ləmanın üstünə. Bu zaman gözlərim yaşarır. Anlayıram, görürəm bu sevginin böyüklüyünü. Fərhad mənimlə olanda xoşbəxt ola bilər, Ləmanın yanında da, xəstəliyindən üzülüb bədbəxt ola bilər, ancaq onunla olan bədbəxtlik, mənimlə olan xoşbəxtlikdən daha çox həyat qoxuyur, daha həyat doludur.

İçəri girən kimi Ləmanın yanına qaçır. İzn vermir əziyyət çəkib ayağa qalxa. Qarşısında diz çökür, əllərindən öpür. Sanki bütün dünya donur, yox olur. Geriyə Ləman, bir də Fərhad qalır. Titrək barmaqları ilə sevdiyi adamın saçlarını oxşayır. Dünyanın ən gözəl sevgi sözləri qonaq gəlir bu soyuq yanvar gecəsində otağa. Mənim burada olmağımın bir mənası varmı, deyə düşünürəm. İlk dəfə özümü bu qədər aciz, lazımsız hiss edirəm. İlahi, belə böyük bir sevginin sonunu niyə “ ölümlə” yazmısan deyə üsyan etmək istəyirəm...

Yox, buna haqqım yoxdu. Sevgini də, sevgilini də yaradan odursa, bir bildiyi var. Bu gecə yenə soyuqdu, yenə çöldə ağaclar donur, yenə pişiklər soyuqdan yorulur. Mən bu şeir kimi sevgini izləyirəm, izlədikcə də bayaqkı düşüncəmdən çox utanıram. Lazımsız deyiləm, Allah mənə elə bir vəzifə verib ki, ömrümün axrına qədər şərəflə yerinə yetirməliyəm. Vəzifəm, bu böyük qadının sevdiyi adamı qorumaq, yaşatmaqdı. İndi Ləmanın tək arzusu vardı, o da Fərhadın yaşaması. Bir az sonra hamı süfrə başında əyləşmişdi.

Ləmanın gözlərinə baxmağa utanırdım... Bəlkə də qorxuram, bilmirəm. Ancaq bu gecə onda fərqli bir gözəllik var. Gözlərinin içi gülür, üzünə sanki mələklərin gülüşü çöküb. Yeməyini də qaydasında yedi. Dediyinə görə romanı bitirib bu gün. Düşünürəm, yəqin bunun üçün sevinclidi. İlk kitabını oxuduğum üçün, bu romanı da oxumağı çox istəyirəm. Ləmanın yazdığı hər cümlədə sevgi və onun kölgəsinə sığınan həyat var. Bu sevgi nifrətlə savaşdadı hər an. Romanın çap olunmasından danışır, danışmaq istəyir. Ancaq hiss edirəm ki, bu mövzudan danışarkən gözləri dolur, necə danışacağını bilmir. Yenə də sözə başlayır:

- Əzizlərim, xahiş edirəm, sözümü kəsmədən, sonacan dinləyin məni. Əsas da sən, Fərhad. Dinlə, heç bir söz demədən məni dinlə. Romanımı bitirdim bu gün axşam. Elə sonuncu sözləri siz gəlməmişdən bir az öncə yazdım. Çox şükür, dualarım qəbul oldu, bitirə bildim əsərimi. Ancaq anlayıram ki, ömür romanımı bitirməyimə də çox az qalıb. Onun üçün son dəfə yaxşı-yaxşı dinləyin məni. Birdən son sözlərim olar. Bu əsəri çap etdirməyi, insanlara çatdırmağı Fərhada tapşırmışdım. Yenə də fikrimi dəyişməmişəm. Fərhad, ikimizin romanını insanlara sən çatdıracaqsan, sən, sevgilim.... Qoy bu roman ikimizin, sevgimizin adı, dadı olsun. İnsanlar yaşadıqca sevgimizi oxusun, bizi yaşatsın. Çox gözəl yazıldı roman. Tanrı ömrümün geri qalanında yaşayacağım bütün gözəllikləri, acıları bu romanda yazmaq üçün güc verdi mənə. Onun üçün də "Eşqin kölgəsi" seviləcək, oxunacaq... Sənə düşən, sadəcə insanlarla onu qovuşdurmaq olacaq. Fərhad, bu son vaxtlarımda yarımçıq qalmağa qoymadın məni, izn vermədin ömrümdən sonra ölümüm də yarımçıq qala. Bunun üçün yaradana nə qədər şükr etsəm, azdı. Səni sevmək, səninlə sevgili olmaq elə gözəldi ki... Bir şeir kimi keçdi bu son günlərim, bir nəğmə kimi dodaqlarıma qondun. Ancaq sevgilim, qorxuram mənim ölümüm sənin də sonun olar. Bu zaman məzarım yarım olar, cənnətim xəyal olar. Sən yaşamalısan, sevgilim, yaşamalı və sevgimizi yaşatmalısan. Bilirəm, sənə çox çətin olacaq, ancaq sən tək olmayacaqsan. Məndən sonra səni Mariyaya əmanət edirəm. Fərhad, onun əlindən tut və heç buraxama. Bu balaca qız sənə

yaşamaq üçün güc verəcək. İnan ki, sən onunla xoşbəxt olsan, bu dünya həyatında elə bilərəm uzun bir ömür yaşamışam. Bir də məni kəndə aparmazsan, öz evinə yaxın bir yerdə dəfn edərsən. Bilirəm, sevdiklərini insan ürəyinə basırır, ürəyində yaşadır... Ancaq yenə hərdən ziyarətə gələrsən. Evləndiyiniz zaman... Oğlun-qızın olduğu zaman. Mələk gəlib dua edər məzarımın üstündə, Ümid romanımın insanlar tərəfindən necə oxunduğunu, sevildiyini pıçıldayar mənə... Xoşbəxt olun əzizlərim, xoşbəxt olun....

Ləmanın sözləri bitmişdi, ancaq biz də bitmişdik. İndi Fərhaddan daha çox mən ağlayırdım. Ləman gedirdi, gedəcəkdi... Bəs Fərhad dözə bilməsə onsuzluğa, ya o gümüş güllə ilə öldürsə özünü?!

Bundan sonra gecə ancaq göz yaşı ilə keçdi. Nə qədər israr etsək də, orada qalmağımıza izn vermədi. Gülərək “ hələ getmək vaxtıma var”- dedi. Fərhad oradan ayrılarkən boynunu qucaqlamağını isə bir ömür unuda bilməyəcəkdim. Elə bir qucaqladı, elə bir ağladı ki. Göz yaşları Fərhadın ağ göynəyində ləkələr salmışdı. Bu vidada həyat, eyni zamanda ölüm vardı. Fərhad hiss eləyirdimi, bilmirəm, ancaq Ləmanın ölüm ayağında olduğunu mən anlamışdım. O, ölürdü və bu səhnənin şahidi olmasını istəmirdi sevdiyi adamın. İnsan nə istər ki, sevdiyinin əlindən tutaraq ölməyi... Ancaq mələklər sakit, tənha ölümü seçir, son anları ilə sevdiklərinə əzab verməmək üçün. Bu vida bir az da uzun çəksə idi, yıxılıb oradaca öləcəkdim. Mən bunlara dayanacaq qədər güclü biri deyildim. Ləman isə Fərhadı buraxmaq, ondan ayrılmaq istəmirdi. Boynunu qucaqlayıb uşaq kimi ağlayırdı. Ancaq şairin də dediyi kimi... Ayrılıq mütləqdir... Bir az uzatmaq, bir az ləngitmək olar, ancaq əngəlləmək mümkün deyil. Nə ayrılığı... Nə də ölümü... Birtəhər özünü ələ almağı bacardı Ləman. Son dəfə Fərhadın üz-gözündən öpüb bizi yola saldı. Qapı örtülərkən Ləmanın son baxışlarını Fərhad gördümü, bilmirəm... Ancaq mən gördüm. İnan ki, imkanım olsa, Ləmanın əvəzinə ölərdim. Bir ölüm olacaqsa, qoy mən ölüm də, onlar xoşbəxt olsun.... Ancaq olmadı. Oradan ayrılıb Fərhadın evinə gəldik. Bu gecə onu tək qoymaq istəmirdim. Sevdiyinin canını ölüm mələyi alarkən hiss edirmiş insan.

Bu gecə Ləmana bir şey olsa Fərhadı qorumalıydım, Ləmanın əmanətinə sahib çıxmasam...

Yol boyu siqareti siqaretə caladı. Gözlərindən yaş yox, ölüm axırdı Fərhadın. Ağıllı insandı, bəlkə o da anladı Ləmanı bir daha görə bilməyəcəyini. Ancaq söhbət sevdiklərimizdən getdiyi zaman anladığımız şeyləri belə özümüzə deməyə qorxuruq. Onun üçün də anlasaq da, əmin olsaq da... Bəlkə də yanılırıq... düşüncəsi ilə ümid veririk özümüzə... Bəlkə də yanılırıq, hər şey gözəl olacaq deyə. Evə gəldikdən sonra da kimsə gülməyi, sevişməyi düşünmədi. Fərhad pəncərənin qabağında əyləşib sabaha qədər yağan qarı, küləyin oynatdığı ağacları seyr etdi. Mən isə Fərhadı izlədim, gözlədim... Bu qədər yaxınında idim, ancaq o Ləmana daha yaxın dayanmışdı. Qorxurdum, görəsən, həyatda olmayan Ləman, nəfəs alan Mariyadan daha çoxmu yaxın olacaq Fərhada?! Bir ömür boyunca torpağın altını qısqanacaq qədər əclaf biri deyildim, ancaq torpağın üstündə olanın da yaşamağa, sevilməyə haqqı vardı... Mənim suçum, günahım nə idi?! Yaşamaqmı, yoxsa sevməkmi? Mən də ən azı Ləmanın sevdiyi qədər sevirdim Fərhadı... Külək qar dənələrini qabağına qatıb uzaqalşdırır pəncərdən və yağmur yağmağa başlayır, yağmur...

## Ləman - ömrün son yağmuru

Romanı bitirmişdim. Pis- yaxşı olmasından asılı olmayaraq bitmişdi. Bu gecə sonuncu cümlələri yazırdım... Həyat adlı romanı bitirmək, ölümlə tanışlıq... Bir az sonra nələr olacaqdı, bilmirəm. Heç kimsə ölümü anladacaq qədər cəsarətli, bilgili deyil. Mən də gedirdim... Fərhadı yanımda görmək istəyirdim, ancaq qıya bilmirdim ona. Mənim son nəfəsimdə yanımda olması ömrü boyunca daşıyacağı bir yara olacaqdı. Onun üçün sağollaşdım, yola saldım onu. Sonuncu dəfə gözlərinə baxdım, öpüb- qoxladım sevdiyim adamı. Ayrılıq nə qədər çətindi, ayrılıq nə qədər acı verirdi insana. Mən gedəcəkdim bu gecə, ancaq o qalacaqdı, qalacaq və bir ömür yas saxlayacaqdı mənim ölümümə.

Onun yanında ağlayırdım. O getdikdən sonra da qapını örtüb bir müddət uşaq kimi ağladım. Ancaq bu qısa ömrümü göz yaşı ilə keçirmək istəmirdim. Çöldə qar yağır, külək əsirdi. Birdən bir möcüzə baş verdi. Qar dayandı, külək uzaqlaşdı pəncərəmdən və gözəl bir yağmur başladı. Bu yağış yaz yağışına bənzəyirdi. Gözəl yaşamışdımmı, bilmirəm... Ancaq gözəl ölmək indi öz əlimdə idi. Pəncərənin qabağında əyləşdim. Telefonumdan da sevdiyim mahnılardan birini seçdim. Əslində, heç mahnıya da gərək yoxdu. Yağış özü ən gözəl nəğməni söyləyirdi. Bir az sonra sadəcə yağmur damlalarını deyil, onları gətirən mələkləri də görəcəkdim. Gülnar bir fincan çay süzmüşdü. Gətirib sakitcə yanıma qoydu. O da nə isə hiss etmişdi, narahat etmirdi məni. İndi bir ömrün mühakiməsini etməliydimmi? Məncə, buna gərək yoxdu. Bu onsuz da ölümdən sonra baş verəcəkdi. İndi həyatda idim və doyunca yaşamalıydım, doyunca...

Fincanı dodaqlarıma yaxınlaşdıranda Fərhad gəldi pəncərəmin şüşəsinə, mənə baxıb gülümsəyirdi. Hə, sevdiyimlə tanışlığımız da bir fincanla başlamışdı. Bir fincanla başlayan hekayəmin bir fincanla da bitməsini istəyirdim. Bu zaman binanın qabağında yağışın altında islanan, o tərəf-bu tərəfə qaçan bir adam da gördüm. Bu, Bəxtiyardı. Anlayıram, vicdanının yağmurunda islanacaqdı bir ömür, ancaq o tərəfə baxmıram. Daha onun bir önəmi yoxdu. İnsan bu son anlarını yaşadığı zaman, ona pislik edənləri düşünərək vaxtını itirmək istəmir. Sadəcə sevgini- onu sevənləri düşünür. İndi Fərhad vardı pəncərəmin şüşəsində, mənə baxıb gülümsəyirdi. Sonra ata-anam, uşaqlıq illərim, babamgilin kəndi, hər biri pəncərədə görünməyə başladı. Anamın əkdiyi güllər yenə çiçək açmışdı. Ağaclarımız da bar gətirmişdi. Yenə gəzirəm bağımızda, yenə məni qoruyan iki mələk var... Yox, yox mələklərin sayı indi üçdü. Fərhad da bağa gəlir. Dördümüz bağda olan bir masanın kənarında əyləşib çay içirik. Ata- anamla tanış edirəm Fərhadı. Atamla söhbəti çox gözəl alınır. Neçə ilin dostu kimi danışırlar. Anam da mənə belə bir seçim etdiyim üçün təşəkkürünü bildirir. Hər şey o qədər gözəldi ki... Havaya, buldulara baxsan, deyərsən yazdı.

Ağaclardakı meyvələrə baxsan, payız olduğunu düşünərsən. Bir də xəfifcə külək əsir. Anamın bişirdiyi xörəkləri Fərhada tərifləyirəm.... Sonra bir az da geri gedirəm.

Uşağam indi. Ağacın başına çıxmaq istərkən yıxılıram, dizim qanayır. Ağlamağa başlayıram. Axı, anam haradadır, niyə gəlib yaramı sarımır?! Qan axdıqca, canım yandıqca göz yaşlarım daha da artır. Balaca bir uşağam, elə uşaq kimi də hıçqıra- hıçqıra ağlayıram. Anam hələ də gəlib çıxmaq bilmir... Ağlamaqdan yorulur, yatmaq istəyirəm. Yox, yata bilmərəm axı... Fincanda çayım bitmək üzrədi, telefondakı mahnı da dayanıb, ancaq hələ də yağmur yağır. Bir az sonra anamın səsini eşidirəm. Yaxınlaşır, ağladığımı görüb o da ağlayır. Məni tez qucağına alıb evə aparır, yaramı təmizləyir. Başımı onun sinəsinə sıxıram. Daha ağlamıram, daha tək deyiləm, anam gəlib. Saçlarımı oxşayır, öpür... Gözəl sözlər deyir öz körpə balasına. Bir az sonra dizim sağalır. Bax, atam da işdən gəlir. Hərəsi bir əlimdən tutub, harasa aparırlar məni. Gözlərim sonuncu dəfə pəncəryə dikilir. Sonra geri dönürəm, geriyə baxmaq üçün. Pəncərənin içindən otağa baxıram indi. İçərində bir xəstə qadının başı çiyinlərinə düşür.... Onun kim olduğunu görə bilmirəm. Ata-anamla birlikdə harasa gedirik... Onu bilirəm ki, xoşbəxtəm...

Fərhad

Yanvar ayında yağan yaz yağmuru pəncərəmə ayrılıq şeiri yazdı. Gecə bütün gözəlliyi ilə yer üzünə qonaq gələrkən mənim Ləmanımı aldı. Ləman daha yoxdu, ölmüşdü. O ilk andakı acını necə yazım bilmirəm. İnsan öləcəyini, ağlını itirəcəyini düşünür, ancaq sonra keçir, alışırsan. Ən çox da alışdığına, bir gün unudacağına yanırsan. Ağıllı insan heç vaxt sevdiyini itirmiş birinə alışacaqsan, unudacaqsan deməz. Mən də bilirəm unudacağımı, ay adam, mən də bilirəm bu acının da keçəcəyini, ancaq istəmirəm bitsin, mən onu unutmaq istəmirəm. Unutmaq sevgisiz bir həyatdı, unutmaq yox olmaqdı. Bunu daş qəlbli insanlar anlaya bilməz.

Səhər tezdən işə getməyə hazırlaşarkən, Gülnar zəng edib bu acı xəbəri dedi. Evdən necə çıxdım, necə çıxdıq, yadıma gəlmir. Mariya da mənimlə gəldi, yazıq qız qorxudan tir- tir əsirdi. Mən sevdiyimi itirmişdim, o da itirməkdən qorxurdu sevdiyini. İndi bu acını yaşadıqdan sonra onu elə gözəl anlayıram ki. İtirmə sevdiyini balaca qız, onu yaşatmaq üçün savaş, mübarizə apar.

İçəri girəndə hələ də pəncərənin yanında idi. Gülnar qorxduğundan toxuna bilməmişdi. Sanki divanda əyləşib. Sadəcə başı çiyninə düşüb, saçlarının arasında gizlənib üzü. Onu elə gördükdən sonra mən necə yaşayım?! "Ləman, qalx ayağa, qalx sevdiyin adam gəlib" - deyirəm. Ancaq o, bir daha qalxmayacaq, qalxa bilməyəcək.

Yaxınlaşıram, bədəni buz kimidi. Qanı çəkilib, ölü kimidi mənim həyatım, Ləmanım. Ölü deməyə dilim varmır, deyirəm ölü kimidir. Əlim gəlmir onu yerə uzatmağa. Divanın üstünə uzadıram. Üzünü necə örtəcəm, sevdiyim qadını torpağa necə tapşıracam?!

Bir az kənarda bilgisayarı dayanıb. Bilirəm, romanı onun içindədi. İndi ondan geriyə qalan bu xatirənin başına nə isə gəlməsindən qorxuram. İndi sevdiyimi deyil, onun xatirəsini itirməkdən qorxuram. Bir az sonra burada qarışıqlıq olacaq. Buna görə də bilgisayarı Mariya mənim evimə aparır. İki işim qalır. Biri Ləmanımı son yolculuğa hazırlamaq, o biri də romanı çap etdirmək. Bu ayrılıq, bu ölüm çox acı verir, əzab çəkirəm. Ancaq tək deyiləm, yanımda Mariya var. Ləmanı itirdikdən sonra bu qız tək sığınacaq yerim, tək dostum olaraq qalır. Elə bir boşluğa düşdüm ki, bilirəm ömür boyu sürəcək. Mahnıda deyirdi "sən bir şarkısan, ömür boyu sürəcək..." indi, ay Ləman- sənsizlik bir şeirdi, ömür boyu gözlərimi yaşardacaq, sənsizlik bir qışdı, bütün baharlarım təslim olacaq ona, sənsizlik bir gecədi bütün günəşlərim batacaq zülmətində...

Mariya getmişdi, Gülnar da... İndi evdə Ləmanla ikimiz qalmışdıq. İndi deyə bilmədiyim bütün sözləri demək istəyirdim, ancaq deyə bilmədiyim, qorxduğum heç nə qalmamışdı. Ləman elə bir missing ki, ürəyimdəki bütün sözləri deyə bilmişdim. İndi bu mələk divanın üzərində uzanıb. Əlim gəlmədi üzünü örtməyə, ancaq

öz əllərimlə onu torpağa tapşırmağa məcburam. Yox, yox... torpaq səni ala bilməz məndən, sən hər zaman ürəyimdə olacaqsan. Ürəyim dayanmadan, torpaq olmadan biz ayrılmayacağıq. Səni ürəyimdə dəfn etməyəcəm, səni ürəyimə bir gül toxumu kimi əmanət edəcəm. Və ürəyimdə bir gül bitəcək- Ləman gülü, sevgi gülü... Sonra mən o gülün ətri ilə yaşayacam, o gülün ətri ilə yazdığın romanı insanlara çatdıracam. Baxıram, ölüm belə dəyişdirə bilmir səni, əslində səni dəyişdirib, dəyişdirə bilmədiyi mənim sənə olan baxışlarımdı. Ah, niyə izn vermədin bu gecəni sənin yanında keçirim, niyə izn vermədin səni yola salım?! Boynumu qucaqlayıb ağlamağını bir ömür necə gəzdirəcəm ürəyimdə? O sonuncu baxışlarını gözlərimə necə unutduracağam?

Bu hekayə belə olmamalıydı, demirəm... Elə belə də olmalıydı, sevgilim. Daha artıq dayana bilmirəm, üzünü örtürəm. Bir az sonra onun dostları, tanışlarımız gəlir. Mariya da yanımda dayanıb. Hər an, hər dəqiqə gözləri məndədi. Yıxılsam, qolumdan tutacaq qədər yaxınımdadı. Bundan sonra olanlar bir yuxu kimi olur və keçir. Elə o gün dəfn edirik Ləmanı. Daha kiməsə, nə isə deyə bilmirəm. Onu aparmayın, torpağa verməyin, deyə bilmirəm. Məni az da olsa sevindirən bu gün ailəmin də yanımda olması idi. Onlar çoxdan bilirdilər bu hekayəni. İndi də sağ olsunlar, yanımda dayanmışdılar, mənə dəstək olurdular. Bəlkə, onların bu dəstəyi ilk və son dəfə ehtiyacım olan zaman olurdu.

Yaşadığım yerə ən yaxın olan məzarlıqda dəfn etdik. Hər şey bir yuxu, xəyal kimi keçdi. Bir az sonra hər kəs getdi. İndi üçümüz qalmışdıq məzarlıqda. Torpağın altında Ləman, məzarın yanında Mariya ilə mən... Bundan sonra bura ən müqəddəs ziyarətgahımız olacaqdı. Cibimdəki gümüş gülləni də çıxarıb, məzarın bir küncünə basdırdım. Bəli, yaşayacaqdım - Ləmanın istədiyi kimi. Onun üçün, sevgimiz üçün yaşayacaqdım. “ Eşqin kölgəsi” çap olunacaq, insanlara çatdırılacaqdı. Ləmanın sevgisi, sözləri yaşayacaqdı. Mariya qoluma girib məni yıxılmağa qoymurdu. Çox qəribə bir mənzərə idi bu. Allah insana ölümlə həyatı eyni anda verir. Ləmanı məndən almışdı. Yıxılmaq üzrəydim, ayaq üstə dayanmağa

gücüm çatmırdı, ancaq yanımda dayanmış Mariya yıxılmağa qoymurdu məni. İndi yaşamaq üçün bir səbəbim də o olmuşdu. Bu balaca qıza əmanət etmişdi məni Ləman. İnanın, bu həyatı sözlərlə anlatmaq mümkün deyil. İndi Ləmandan sonra mən yaşayacamsa, yaşaya biləcəmsə, daha heç nə demirəm. İnsan sevdiyi üçün ölməzdimi?! Deyəsən, bu ancaq filmlərdə, romanlarda belə olurdu. Həyat isə fərqli idi. Yaşamalı, unutmalı... Ən yaxşı halda unutmadan yaşamalıydıq. Bu həyatdı, əzizim, bu həyatdı... Romantik bir hind filmi, ya sevgi romanı deyil. Mariya ilə evlənəcək, xoşbəxt olmağa çalışacaqdım. Əlbəttə, bunu bacara bilməyəcəkdim, çünki bu dünyada heç kim xoşbəxt ola bilmir.

Ləmanın məzarı başından ayrılmaq istəmirdim. Daha ayaqlarımın gücü çatmadı, məzarın yanına çökdüm. Bu soyuqda üşümürdümü sevdiyim məzarda görəsən?! Bir an məzarı açmaq, onu bağrıma basmaq istədim. Ancaq olmazdı, bu da olmazdı. Daha nə edəcəyimi, nə düşünəcəyimi bilmirdim. Dəli kimi, ölü kimi olmuşdum. Bir gül kimi solmuşdum, bu yanvar günündə. Sevdiyi torpağın altında olan biri nələr hiss edirsə, onları iliklərimə qədər yaşayırdım. İndi anlayıram, canın yanmağı nə deməkdi, indiyə qədərki bütün əzablarım sadəcə bir uşaq oyuncağı imiş. Dəfn mərasimində Bəxtiyar da iştirak edirdi. İlk dəfə ona əsəbləşmədim. Üzgündü, o da çox acı çəkirdi. Hər şeyin təqlidi ola bilər, lakin acının olmazdı. Bəli, o da acı çəkir, onun da canı yanırdı. Və əminəm ki, heç də məndən az yanmırdı. Mən sevdiyim qadının yanında olmuşdum, onun ölümə qədər olan həyatını gözəl etmək üçün hər şey etmişdim. Ancaq Bəxtiyar onu yarı yolda qoymuşdu. Mənim sadəcə ürəyim, canım yanırdı. Amma Bəxtiyarın eyni zamanda vicdanı da sızlayırdı. Bu gün ən bərbad vəziyyətdə olan o idi. Beləcə məzarlıqdan ayrılıb evə gəldik. Daha hər şey bitmişdi. Yenidən başlamalı, yenidən yaşamağa cəhd etməli idim. Evə gəlincə ilk işim Ləmanın bilgisayarını açıb, romanını oxumağa başlamaq oldu. İlk sətrindən sanki mənə məktub yazmışdı. İlk sətrindən mənə yazılmış kimi oxudum. Əslində elə mənə yazılmamışdımı? Bu oxuduğum ən gözəl romandı. İnsanlara çatmalıydı bu əsər. Mütləq başqaları da oxumalı,

belə bir yazarın yaşadığını, belə bir əsərin yazıldığını bilməliydilər. Birinci romanı o qədər də uğur qazanmamışdı. Ancaq inanıram ki, bu son roman dünyaya bir günəş kimi doğacaq, hər ürəkdə Ləmanı, bizim sevgimizi yaşadacaqdı. Başımı qaldırmadan oxuyurdum. Bu zaman Mariya bir fincan çay süzüb gətirdi. Fincana baxanda istər-istəməz uşaq kimi ağladım. Daha çay da istəmirdim. Bir fincan əzabla, göz yaşı ilə qoyub getmişdi məni Ləman. İndi onun yazdığını yox, özünü istəyirdim, özü deməli idi mənə, məni necə sevdiyini.

Bu gün hava bir az yaxşı idi. Nə qar yağırdı, nə də külək... Mən Ləmanı, Mariya da məni düşünürdü... Ancaq bu qıza qarşı da haqsızlıq etmək olmazdı. Sığınacağım, tək limanımdı. Ayağa qalxıb, onu sinəmə sıxdım. Ağlayacağıqsa, qoy birlikdə ağlayaq. İlk dəfə saçlarının qoxusu mənə Ləmanı xatırlatdı. Sən demə sevən bütün qadınların saçlarının ətri eyni olarmış. Eyni cür gülər, eyni üzüntü ilə ağlayarmış bütün qadınlar. Bunu Ləmanın ölümündən sonra başımı Mariyanın sinəsinə qoyub ağlayanda anladım. Bir neçə gün heç bir şey etmədən sadəcə romanı oxudum. Hər sözü, hər cümləsi mənə təsəlli verir, " ölmə, yaşa, sevgilim" deyirdi. Ağlaya- ağlaya bitirdim bu əsəri. Bu roman bizimdi, bizim yarım qalan sevgimizin hekayəsi idi. İndi Ləman qara torpağın altında, onun xəstə- xəstə yazdıqları isə bir gül kimi dünyaya ətir saçmaq üçün məni gözləyir. Ata evini satıb kitabın xərclərini çıxarmamı istəmişdi. Ondan sonra, o evə gedə bilməzdim. Ləmanın yeddisi çıxandan sonra kitabla məşğul oldum. Öncə yaxşı bir redaktor tapdım, ona romanı ən qısa zamanda redaktə edib, çapa hazırlamasını tapşırdım. Qalırdı evi satmaq. Bunun üçün nə qədər ağır olsa da, ora getməli, sonuncu dəfə görməliydim. Mariyanı özümlə aparmaq istərdim, ancaq ailəsinə qarşı hörmətsizlik olardı bu. Ləmanın ölümü mənə çox şey öyrətdi. Məsələn, yaşanması mümkün olan şeyləri sabahlara saxlamaq olmazdı. Nə bilirik, o gözlədiyimiz sabahların gəlib-gəlməyəcəyini... Onun üçün də Mariyaya ailəsi ilə danışmasını söylədim. Qoy desin ki, onunla evlənmək istəyirəm. Bunu deyəndə inana bilmirdi, şok olmuşdu. Onun üçün də dönə- dönə soruşdu bunun həqiqət olub-olmadığını. Ancaq həqiqətdi, mən Mariya ilə evlənmək istəyirəm. Bu qərarım üçün məni günahlandıranlar, hətta

Ləmana olan sevgimin yalan olduğunu söyləyənlər belə olacaq. Olsun, insanların nə dediyini düşünməyəli uzun illər olurdu. Hər zaman doğru olduğuna inandığım şeyləri etmişdim, bundan sonra da edəcəkdim. Doğru olan isə Ləmanın xatirəsini yaşatmaq, Mariyanın isə özünü.... Bax, budur, mənim həqiqətim. Mariya məni xoşbəxt etmək üçün hər şey edəcəkdi. Həm də onunla birlikdə Ləmanı xatırlayacaq, məzarını ziyarət edəcəkdik. Mən iki uşaq istədiyimi dedim ona. Ləmanın istədiyi kimi. Bir oğlan, bir də qız. Mələk və Ümidlə birlikdə gül qoymağa gedəcəkdik Ləmanın məzarına. Ancaq Mariya bununla razılaşmadı. O, iki qızımız, bir də oğlumuz olsun " ilk qızımın adını Ləman qoymaq istəyirəm"- dedi. Bu zaman gözlərim yaşardı. Ləmanın ölümündən sonra onun bütün gözəl cəhətlərini Allah sanki Mariyaya bəxş etmişdi. Göz yaşlarımı silib məni qucaqladı. Bu zaman bir siqaret yandırmaq istədim, ancaq buna izn vemədi. Siqaret paketini və yandıranı əlimdən alıb zibil qabına atdı." Bundan sonra tək mənim yox, sənin də dodaqlarına yaraşmasın siqaret. Gəl bu gündən at, daha çəkmə siqareti. Bütün acıları geridə qoyaq, bacardığımız qədər xoşbəxt olaq" - dedi.

Əslində haqlı idi. Ölümün, ayrılığın olduğu bu dünyada gözəl, sağlam yaşamaq lazım idi. Bundan sonra bir daha siqaret yandırmadım. Nə qədər böyük əzablarım, acılarım olsa da, bir neçə gündən sonra yola çıxdım. Ləmanın ata evini satmaq lazım idi. Yol boyu bütün xatirələr hücüm etsə də, mən ürəyimə, sevgimə sığındım. Onu sol yanımda hiss edirdim. İndi o, mənimlə bərabərdi. Deməli, demək istədiyi bu idi. Hər zaman" bundan sonra, sən iki nəfərin ömrünü yaşayacaqsan" - deyirdi.

Bəli, mən indi iki adam olmuşdum. Fərhad, bir də Ləman... Gözlərimdə onun baxışları, dodaqlarımda onun sözləri, ürəyimdə onun sevgisi... Buna görə də, nə zaman canım dayana bilməyəcəyim qədər yansa, onun baxışlarına, sözlərinə, sevgisinə sığınırdım. Dumanlı soyuq bir hava vardı şəhərə çatanda. Satışla məşğul olmaq üçün bir neçə gün bu şəhərdə qalmalı idim. Əvvəllər qaldığım qonşunu narahat etməmək üçün, bəri başdan oteldə yer tutdum. Burada dörd gün qalamlı oldum. Xoşbəxtlikdən bu dörd gün

ərzində evi sata bildim. Evi satarkən çalışdım ki, ailəli insana satım, burada ailə yaşasın. Bu ağacların dibində yenə uşaqlar oynasın, bağda boş qalan yerlərə evin xanımı güllər əksin. Ən nəhayətində, Ləman kimi gözəl insanlar olsun burada böyüyən uşaqlar. Çox şükür, istədiyim kimi də oldu. Evi dörd uşaqlı bir ailə satın aldı. Uşaqlar hələ balaca idilər. Böyüyü ikinci sinifdə oxuyurdu. Ortancıl uşaqlar da deyəsən ekiz idilər. Bu bağı, evi onlara əmanət etdim. Gedərkən buranın mənə nə qədər əziz olduğunu anlatdım və oradan ayrıldım. Bir daha bu şəhərə gəlməmək haqqında düşünürdüm. Ancaq həyatdı, bəlkə gələcəkdə acım dindiyi zaman uşaqlarıma Ləmanın yaşadığı yerləri göstərmək istəyəcəkdim...

Tez qayıtdım. Vaxtı itirmək olmazdı. Ləmanın vəsiyyəti üzrə evdən çıxan bütün pulu kitabın çapına sərf etməli idim. Və bu kitabları bir təqdimatla gənclərə paylayacaqdım. Haradasa, iyrimi min nüsxə ilə çap edə bilərdim evin pulu ilə. Redaktora haqqından bir az artıq pul təklif etdiyim üçün, işi on beş günə bitirmişdi. Şəhərə qayıdandan sonra həm kitabla məşğul olmalı, həm də Mariya ilə evlilik məsələsini qaydasına salmalı idim. Çox gözləmək fikrim yox idi. Ləmanın qırxı çıxan kimi bu işi görəcəkdim. Onun üçün də öncə Mariyanı öz ata-anamla tanış elədim. Ləmandan sonra evlənəcəyimi düşünməyən anam bu xəbərə çox sevindi. Mariyanı da çox bəyəndilər. Öz- özümə düşündüm ki, görəsən, Mariyanı o ilk vaxtlar göründüyü halı ilə görsələr nə deyərdilər?

Mariyanın ailəsi ilə tanış oldum. Elə o görüşdə qızları ilə evlənmək istədiyimi söylədim. Elçilik kimi adəti heç sevmirdim. İki müstəqil insan qərar verib evlənməlidir. Bu qərarı verə biləcək qədər müstəqil, dolğun deyillərsə, evlənməsələr yaxşıdı. Mariyanın ailəsi də müasir düşüncəli insanlar olduğundan bu qərarımıza hörmətlə yanaşdılar. Ancaq qəribə hisslər keçirirdim onlarla danışarkən. İlk dəfə evlilik haqqında düşünür, evlənəcəyim insanın ailəsi ilə danışır, söhbət edirdim. Ancaq mənə xoş olan o idi ki, öz işimi özüm görəcək qədər böyüdükdən sonra girişirdim bu məsələyə. Hər iki ailə ilə olan xoş tanışlıqdan sonra özümü tamamilə kitab işinə vermək istəyirdim.

Fervral ayı öz soyuğu ilə gəlmişdi. Ləmanın qırxının çıxmağına on gün qalırdı. İstədiyim, bu zamana kimi kitabı hazır edib, qırxı günü təqdimatı keçirməkdi. Öncə ölkədə olan ən yaxşı nəşriyyatla danışdım. Onlara xeyli qazanc verəcək bir işlə gəlirdim, ancaq onlar da bunun qarşılığında mənə təqdimat və kitabın reklam olunması ilə bağlı yardım edəcəkdilər. Hər şey razılaşdırıldı. Beləliklə, iyrimi min nüsxə ilə kitab bir həftə ərzində hazır olacaqdı. Belə qərara gəldik ki, beş min kitabı ölkə kitabxanalarına hədiyyə edək, yerdə qalanları isə, təqdimat günü və ondan sonra insalara çatdırılacaqdı. Bu işlərin hamısını nəşriyyat öz üzərinə götürürdü. Bu qədər qazanclı bir işə görə, gördükləri iş o qədər də çox deyildi əslində. Həyəcanla kitabın çapdan çıxacağı günü gözləməyə başladım. Bu kitab Ləmanımın xəyalı idi. Bizim hekayəmiz - sevgimiz bu romanla yaşayacaq, ölümsüz olacaqdı.

Məzarına qarlar yağırdı indi sevgilimin. O məzarda, mən həyatda... Ancaq mən ondan daha ölü, o, məndən dah canlı idi. İnanıram ki, yazdığı roman günəş kimi doğacaq insanların ürəyinə. İnsanlıq yaşadıqca o, xatırlanacaq, seviləcəkdi. Mən də dünyanı tutub yaşamayacaqdım ki, mən də öləcəkdim. Məni də , daha doğrusu mənim sevgimi də insanlar Ləmanın yazdığı romanla xatırlayacaqdı.

Ürəyim yaman sıxılır, hələ bir-iki gün var romanın çapdan çıxmağına. Darıxıram, dükanda da dura bilmirəm. Sanki hər an qapı açılacaq, Ləman içəri girib mənimlə birlikdə o sevdiyimiz fincandan çay içəcəkdi. Onu ziyarət etmək istədim. Qoy qar bütün dəcəlliyi ilə yağsın. Ləmanın sevdiyi saçlarımı qar dənələri bəzəsin. Bəlkə, mən də yaşamaqdan əl çəkər, onun yanına gedərəm.

Maşına minib məzarlığa gəldim. Hər yan ağarmışdı, onun məzarının üstünü də qar örtmüşdü. Sanki üşüməsin deyə bir ana mehribanlığı göstərirdi təbiət. Mən də daha üşümürdüm, bəlkə də çox üşüyür, ancaq sevdiyim məzarda- qara torpaqda yatarkən, üşüyürəm deməyə utanırdım. Diz çöküb fatihəmi oxuduqdan sonra, ondan hal-əhval tutmaq istədim. Ancaq verdiyim bütün suallar cavabsız qaldı, məzarın qulağı da yoxdu, pıçıldayasan ki, çox darıxmışam, çox sevirəm səni... Məzarın barmaqları da yoxdu ağladığın zaman göz

yaşlarını silə. Məzarın bir tək soyuq daşı, torpağı var: Yanan ürəyini söykəyib, ağlya- ağlaya sərinlədəsən deyə. Uşaq kimi ağalayırdım. Ağlamırdım, əslində, dişisi öldükdən sonra yalquzaq olmağı seçmiş bir canavar kimi ulayırdım. Külək əsir, səsimi qar dənələrinə qatıb uzaqlara aparırdı. Mən isə ən yüksək zirvəmdə, onun məzarında ulayırdım. Doyunca ağladım. Sonra isə onu qara torpağın altında qoyub, heç nə olmamış kimi oradan ayrıldım. Bax, belə idi həyat... Ölən mən olsaydım, Ləman da eynisini edəcəkdi, etməyə məcburdu çünki...

Nəhayət ki, o gün gəlib çatdı. Bu gün Ləmanın torpağa qoyulduğu gündən qırx gün keçir. Bu gün həm də onun kitabının təqdimatı olacaq. Ona verdiyim sözü yerinə yetirmək üçün ilk addımı atacam. Böyük bir zalda keçiriləcək təqdimat. Bir çox yazar, şair və tənqidçi dəvət edilib. Bir neçə televiziya kanallarından gələn muxbirlər gözə dəyir. Təqdimatın yaxşı reklam olunması sayəsində kitabı əldə etmək üçün gələnlər də az deyil. Bu, ölkə tarixində ən böyük kitab təqdimatı olacaq. İlk dəfə bu qədər kitab pulsuz olaraq oxuculara paylanacaq. Şəhərdə olan bütün ali məktəblərin önündə bildirişlər paylanıb, filologiya və jurnalistika fakültələrinin tələbələri isə xüsusi olaraq dəvət edilib. İnsanlar kitaba pul verməsə də, pulsuz kitab əldə etmək istəyəcək.

Hər şey çox gözəl keçdi. Axşama qədər minlərlə kitab paylandı. Geridə qalan kitabları paylamağı nəşriyyat öz üzərinə götürdü. Mən özüm də kitablardan dükana qoyub, gələnlərə hədiyyə edəcəkdim. Hər şey öz qaydasında gedəcək, Ləmanın kitabı paylanacaqdı. Dedim axı, bu gün onun öldüyü gündən qırx gün keçir. Mən qırx gündü ki, ondan ayrı yaşayıram. Axşam Mariya yanıma gəlmək istədi, ancaq buna izn vermədim. Bu gecəni təkbaşına, sevdiyim qadını düşünərək, ağlayaraq keçirmək istəyirdim. Hələ də düşündükcə dəli oluram, niyə ölmədim mən də... Niyə yaşayıram?! İnsan nə üçün yaşayır, sevir? İnsanın istədikləri olmaz. Olsa nə olar?! Həyat deyil, ürək ağrısı, ya da ağlamalı bir romandı. Bu həyatda nə üçün yaşasın insan? Bəzən çox suallar verməyə qorxuram, bu sualların sonum olacağından, ağlımı itirəcəyimdən qorxuram. Ən

yaxşısı, bir çay dəmləyib, "Eşqin kölgəsini" yenidən oxumaqdı. Ləmanla danışmağın tək yolu indi bu kitabı oxumaqdı. İlk kitabından sonra da onsuz qalmışdım, ancaq bir ümid vardı içimdə - O, gələcək deyə.

Əllərimlə torpağa tapşırmışdım, gəlməyəcəkdi... Çay dəmlənir. Çöldə yenidən qar yağır deyəsən, bir balaca da külək var. Fincanı doldurub, pəncərənin kənarında əyləşirəm və başlayıram oxumağa...

"Günəşli bir gündə yol gedirik - uzun bir yol. Elə ki, dilimiz-dodağımız quruyur, alnımızdan süzülən tər dodaqlarımızı yandırır. İndi bir ağac, yanında da bulaq olsa, nə gözəl olar deyə, düşünürük. Bir az da yol gedirik. Tamamilə əldən düşdüyümüz bir zamanda istədiyimiz olur. Uzaqda yaşıl, böyük bir ağac görürük. Əvvəlcə bunun bir sərab ola biləcəyindən qorxuruq. Axı, səhrada, çöldə susuz qalan insanların başına belə şeylər çox gəlir. Qorxa-qorxa ağaca yaxınlaşırıq. Eyni qorxu ilə toxunur, həqiqətmi, yalanmı olmasını yoxlayırıq. Yox, həqiqətdi. Ağacın yanında da sərin bir bulaq axır. Sudan doyunca içib, ağacın kölgəsində dincəlirik. Bir qədər dincəlir, sudan doyunca içir, sonra yenidən... Sonra yenidən içirik. Ancaq axıra qədər burada qala bilmərik. Yola davam etməliyik. Bu cənnəti tərk edib, yenidən cəhənnəmə ayaq basmalıyıq. Məcburən sudan sonuncu dəfə içir, qabları doldurur və yola düşürük. Bax, sevgi də belə bir şeydi. Sevgisiz həyat bir çöldə yol getmək kimidir. İnsan haradasa yorulur, dincəlməyə bir ağac kölgəsi axtarır, yəni eşq istəyir. Bu eşq olmasa, yolun davam edə bilməz. Ancaq eşqi tapdıqdan sonra da onunla qalmaq olmur, çünki dünyadakı bütün eşqlərin sonu eynidir-ayrılıq mütləqdir. Həqiqi sevgini tapmaq üçün, bu ağacın kölgəsini tərk etməyə məcburuq. Bəli, eşqin kölgəsində dincəlib, yenidən eşqə çatmaq üçün, çöllərə düşürük..."

Bu hissəni oxuduqdan sonra daha gerisini oxumaq istəmədim. Sadəcə düşünmək, düşünmək ... Qar indi bir başqa yağır, külək fərqli əsirdi. Sanki hər ikisi mənə sevgidən, sevgilimdən namələr gətirirdi. Maraqlıdır, indi mən burada eşq acısı çəkərkən, bəlkə də biri çöldə, soyuqda isti bir yuvanın xəyalını qururdu. Nədənsə, üşümək istədim.

Paltomu əynimə alıb həyətə düşdüm. Qar saçlarımdan öpsün, soyuq nəfəsimlə sevişsin istədim. Görəsən, pişiklər haradadır - havalar yaxşı keçdiyi zamanlarda sabaha qədər pəncərəmin altında oynaşan pişiklər. Çox az evlərin işığı yanır, şəhər isə işıqlıdır. Küçələrin, dükanların işıqları sabaha qədər yanır.

Hərdən maşın səsi gəlir qulağıma, hərdən qulağım sükütun səsi ilə həyəcanlanır.... Xəbərim olmur nə qədər gəzdiyimdən, neçə saat vaxtın keçməsindən. Bu cür fevral axşamında belə üşümürəm. Demişdim axı, Ləman torpağın altına girəndən sonra üşümürəm, daha doğrusu utanıram, üşüyürəm deməyə... Gecə hərdən avaralar, boş-bekar insanlar çıxır qarşıma. Kimisi pul istəyir, başqa biri özünü qorxunc göstərib siqaret almaq istəyir. Daha bilmirlər, anlamırlar ki, bu gecə ən qorxunc olan mənəm, bu şəhərdə qorxulacaq bir adam varsa, məndən başqası ola bilməz. Bu soyuqda belə küçələrdə insan tapmaq olar. Şəhər heç vaxt yuxuya getmir, həyat ölmür şəhərdə. Saat on olan kimi, yuxuya gedən kənd həyatından necə də fərqlənir. Kənddə uzaqbaşı itlər qorxuda bilər gecələri insanı, burada isə itdən betər insanlar var. Bax, budur, bir az qabaqda iki nəfər dayanıb meyxana deyir. Biri arıq, uzun oğlandı. O biri isə qısaboy, kök. Yəqin ki, mənim yaxınlaşdığımı görüb, ürəklərində sevinirlər. Bir çay pulu, ya da siqaret almaq olar. Hər ikisi məndən balaca görünür. Gündüz vaxtı olsa heç biri qarşıma çıxmağa cəsarət eləməz. İndi gecədir, güya onların qorxmaz olduğu vaxt. Böyük ehtimalla hərəsinin cibində bir bıçaq var. Ürəklərinə deyil, ona güvənirlər. Sakitcə onlara yaxınlaşıram. Son zamanlarda əsəblərim yaman korlanıb. Dalaşmaq, haranı isə vurub- dağıtmaq keçir ürəyimdən. Ləmanın yoxluğu məni elə hala salıb ki, indi özümü tanımaqda çətinlik çəkirəm. Mənim yaxınlaşdığımı görüb, daha həvəslə deyirlər meyxananı. İndi düz yanlarında dayanıb, onları dinləyirəm. İnsafən, pis də demirlər. Əslində hər zaman mənim də, üstümdə bıçaq olur. Bu, indiki gənclərin gəzdirdiyi bıçaqlardan deyil. Mənim ana babam kənddə çoban olub ömrünün sonunacan. Bildiyiniz kimi, çobanın da cibində hər zaman bıçağı olmalıdır ki, dağda hansısa heyvan xəstələnəndə murdar olmamış, başını kəsə bilsin. Bax, bu

cibimdə gəzdirdiyim o kişidən yadigar qalıb. Ölüm ayağında mənə verdi. Mən də babamın əziz xatirəsi kimi qoruyub saxladım onu. İndiyəcən bir dəfə də kimisə qorxutmaq məqsədi ilə çıxarmamışdım, ancaq nə isə bu gecə beynim çönmüşdü. Onsuz da bir azdan meyxananı bitirəcək, bıçaqlarını çıxarıb hədə-qorxuya başlayacaqlar. Skamyanın üstü yaş olsa da, əyləşdim. Soyuqqanlı hərəkətlə ayağımı ayağımın üstünə atıb, bıçağı cibimdən çıxardım. Mənim bu hərəkətlərimi görüb, dilləri bir az topuq çaldı. Ancaq yenə də özlərini itirməyib meyxanalarına davam etdilər. Canım elə yanırdı ki, əslində nə onlar, nə də bu soyuq gecə məni zərrəcə düşündürmürdü. Ağlım da, ürəyim də indi torpağın altında buz tutmuş dağ laləmin yanında idi. Bıçağı əlimdə oynadarkən bilmədən baş barmağımı yaralamışam. Düşüncələrim bir məzara sığınarkən, əlimdən qarın üzərinə damcılayan qanımı gördüm. Bəli, əlim yaralanmışdı. Baş barmağım iki yerindən kəsilmiş, əməllicə qan axırdı. Ancaq barmağım yox, canım yanırdı. İndi bu barmaq bəlkə də ağrı hiss etməyən tək yerimdi.

Meyxana susmuş, onu deyən cəngavərlər də çoxdan aradan çıxmışdı. Axı, ölümdən deyil, yaşamaqdan qorxan birini nə ilə qorxuda bilərsən ki? Yaralı barmağımdan axan qan bir az sonra laxtalandı. Ayağa qalxıb, əlimi qarla təmizlədim və evə doğru addımlamağa başladım.

Bu gecə bir dəfə də Ləmandan ölmək üçün izn istədim, ancaq o, yaşamamı istədi... Geriyə yaşamaq qalırdı. Mariya böyük həyəcanla toya hazırlaşır, mənimlə həyatını birləşdirəcəyi günü gözləyir. İndi məni ən çox düşündürən sual, görəsən yaşaya bilərəmmi, bacararammı Ləmansız bir həyatda gülməyi, ata olmağı?! Həqiqətən, mən ata olacam, ata... Ancaq övladımın anası Ləman olmayacaq. Bu həyat bir imtahandı, yoxsa başqa bir dünyanın cəhənnəmidir, deyə bilmərəm. Ləman, dağ laləm, sən hər nə qədər yaşamağımı istəsən də, o məzara səninlə birgə girə bilmədiyim üçün məni bağışla. Yox, bağışlama... Sən o soyuq məzarda çürüyərkən, mən çay içəcəm, kitab oxuyacam. Bağışlama məni, bağışlama, sevgilim...

Bəxtiyar

Mən yenidən sevirdim və yaşayırdım. İndi hər şey öz qaydasında gedir. Bircə bu lənət olası vicdanım imkan vermir ürəkdən gülməyə. Bəli, soyuq bir fevral günündə Ləmanı dəfn etdik. Sonra mən işimə geri döndüm. Mart ayıdır və baharın ayaq səsləri duyulur yavaş-yavaş. Tələbələrim, sevdiyim insanlar bir sözlə, hər şey gözəldir. Arada məzarlığa gedirəm, arada üzləşirəm, xatırlayıram, bir daha eyni səhvləri etməmək üçün. O gün yenə məzarlıqda idim. İndi havalar isindiyi üçün gözəl bir baş daşı qoyulub Ləmanın məzarı üstündə. Oradakı şəkil bilirsinizmi hansı şəkildir? Ən xoşbəxt olduğumuz günlərin birində mənim çəkdiyim şəkil. Ləman indi mənə ən xoşbəxt olduğumuz gündən baxıb gülümsəyir. O, mələk kimi bir insandı. Eşitdiyimə görə Fərhadla Mariyanın evlənməyini də o vəsiyyət edib. İnanıram ki, mənim belə, ona bu qədər acılar yaşadan mənim belə xoşbəxt olmamı istərdi. Doyunca ağlamaq istərdim bu məzarlıqda, ancaq ağlamağa da utanıram. Sanki buna haqqım yoxdur. Ağlasam, ürəyimi boşaltmaq istəsəm, elə bilirəm ki, məzarından qalxıb üzümə tüpürəcək. Mən indi necə yaşayacam, necə güləcək üzüm?! Son günlərdə həyatımda gözəl şeylər də baş vermişdi, ancaq bütün gözəlliklər, bu ölümün kölgəsində o qədər cılız görünürdü ki...

Bir həftə öncə həyatımı dəyişəcək bir hadisə oldu. Bu yaxşımı, yoxsa pis bir şeydimi, deyə bilmərəm, ancaq olmuşdu. Mənim Ləmana etdiyimi bir başqası mənim sevdiyim qadına etmiş, onu yarı yolda qoymuşdu. Tərlanın övladı olmadığı, heç vaxt da olmayacağı üçün ailəsi dağılmışdı. Yıxılmamaq, ayaqda qala bilmək üçün də tək yolu təhsilini davam etdirməkdə görürdü. Maqistraturaya hazırlaşmaq üçün üniversitetə gəlmişdi. Onunla yenə eyni pilləkənlərdə qarşılaşdıq. İllər öncə burada onu əri ilə görmüşdüm deyəsən. Bu dəfə tək idi. Bir az da qocalmışdı. Yaşadığı illər gördüyüm qədər heç də ürəkaçan keçməmişdi. Onunla rastlaşdıq, ancaq donub yerimdə qalmışdım. Danışa bilmirəm desəm, bu şablon bir fikir olardı, mən nəfəs ala bilmirdim. İllər sonra onu qarşımda görmək, inanılmaz bir duyğu idi. Bildiyim budur ki, sevdiyim bütün

şeirlər ürəyimdən dodaqlarıma doğru hücum etdi, gözlərim baxışlarından öpmək üçün səbirsizləndi. İlk qarşılaşmada bilmirdim boşandığını. Elə zənn etdim ki, yəqin hansısa bir iş üçün gəlib buraya. Onu yenə başqasının olaraq düşündüyüm üçün bu hala düşdüm. Ancaq o, salam verdi. Dodaqlarından çıxan ilk sözlə açıldı ürəyimdəki kilid – dodaqlarım qovuşdu unutduğu bütün sözlərə. Bir-iki kəlimə ayaqüstü danışdıqdan sonra özü: - "vaxtın varsa büfetə düşüb, bir çay içək"- dedi. Bu təklif qarşısında bir az tərəddüd etdiyimi görüb yenidən bir zamanlar vurğunu olduğum dodaqlarını araladı və " boşandım, Bəxtiyar, indi də maqistraturaya hazırlaşmaq istəyirəm" – sözləri ilə qulaqlarımdakı tilsimi də qırdı. Dediklərimə inanacaqsınızmı, bilmirəm, ancaq yenə utancaq birinci kurs oğlanı olmuşdum. Sanki yaşadığım bütün acılar silindi, sanki o, heç getməmişdi və biz burada, ilk dəfə idi qarşılaşırdıq. Və bizim hekayəmiz indi başlayırdı. Sakitcə bufetə düşdük. İlk dəfə idi burada çay almaq, içmək ağlıma belə gəlmədi. İlk dəfə idi, Tərlanla bir yerdə əyləşib söhbət edirdik. Söhbət əsnasında bütün olanları öyrəndim. Bir qadın üçün ana ola bilməməkdən böyük dərd ola bilməzdi. Tərlan ana ola bilməyəcək, bunun üçün də yalnız öləcəkdi. O, belə düşünürdü. İndi anladım, Ləmana etdiklərimin cəzasını necə çəkəcəyimi. Allah mənim bəlamı belə vermişdi. Ləman ölmüşdü. Tərlan isə ölməkdən betərdi, ancaq mən onu yaşada bilərdim. İndi Fərhada oxşamağa başlayırdım deyəsən. Bəlkə də öz yarım qoyduğum hekayəmi, başqa biri ilə tamamlamaq üçün Allah mənə bir şans vermişdi. Bircə onu bilirəm ki, Tərlan mənim yarımçıq qalan yarımdı. İndi o gəldi və mən onun əlindən tuta bilsəm, tamamlanacam, o isə yaşayacaqdı. O danışır,bəzən kövrəlir, mən isə sadəcə onu dinləyir, seyr edirdim. Elə darıxmışdım ki, onu seyr etməkdən ötrü. Əvvəlki qədər gözəl olmasa da, baxışlarım əvvəlki qədər ona aid idi. Demişdim, xatırlayırsınızsa,o gedən gün bir şey ayaqlarımın altına düşmüşdü sinəmdən. Bax, indi onun gəlişi ilə itirdiyimi tapdım, sinəmdəki boşluq tamamlandı. Gözlərinin içində gizlənmək istəyirdim, çünki bir tək orada yaşaya bilərdim mən. Bir tək orada mənliyimi qoruya bilərdim.... Dörd il boyunca bir dəfə də ona sevdiyimi söyləyə bilməmişdim, buna izn

vermirdi. Lakin bütün fakültə bu sevgidən xəbərdar idi. Sonra bir gün nişanlandığını, başqa bir gün məni toyuna dəvət etdiyini eşitdim. İndi düşünürəm ki, məni sevsəydi, bəlkə də ikimiz də bu acını yaşamazdıq. Keçmişi araşdırmaq olmaz, olmur, olsa da, faydasız bir şeydi. Bu qədər il keçəndən sonra qarşımda əyləşib. Qorxuram, ona nə isə deməyə. İndi "səni sevirəm "desəm, görəsən, nə deyər, necə davranar...

Ona sonuncu dəfə söz deməyə çalışdığım bu günkü kimi yadımdadı. Üçüncü kursun əvvəlləri idi. Dərs çıxışında sinifdə bir-iki tələbə qalmışdı. Bunu fürsət bilib, telefon nömrəmi balaca bir kağıza yazıb ona uzatdım. Təbii ki, nə olduğunu, nə üçün olduğunu deyərək. Kağızı almadı. Mən də yanında dayandığı partanın üstünə qoyub geri döndüm. Bunu edərkən "bəlkə götürər" deyə - düşünürdüm. Lakin olmadı, telefon nümrəm yazılan kağızı büküb yerə atdı. Bu an baxışlarımız bir-birinə dəydi, ancaq gözlərimdə olan dumanı, buludu görə bilmədi. Kağızı yerdən götürdüm və otaqdan çıxdım. Ah, yaz yağışım, görəsən indi görə bilirsənmi, gözlərimdə olanları? Bu an düşüncələrimi dağıdan bir şey oldu - mənə səsləndi. Bəxtiyar, məni hələ də sevirsən, hə?" Bu sual qarşısında nə cavab verəcəyimi bilmədim, canımı acıtdı bu sual. Dodaqlarıma gücüm çatmadı. Axı, ay Tərlan sən mənim " səni sevirəm" - deyə bilmədiyim halda, ürəkdən sevdiyim tək insansan. İndi necə deyirsən" məni hələ də sevirsənmi, deyə?!" Bütün bunları ona demək istədim, ancaq sözlərim ürəyimdən dodaqlarıma gəlmədi. O danışır, mən yaşayırdım. O danışdıqca bədənimdə, ürəyimdə buzlar əriyir, mən insan olurdum. Bir gün apardığı nə vardısa, geri gətirmişdi. İndi anlayırdım, bu qədər il yaşamadığımı, yaşaya bilmədiyimi. Sən demə, sadəcə nəfəs alırammış. Gəl gəzək- dedim, gəzək üniversitetin həyətini. Onu birinci kursda yarışdığımız yerə, onu gözlərkən yumruqladığım divarlara tərəf apardım. Meydançanın yanına çatanda : - üzr istəyirəm səndən Tərlan. O gün burada yarışanda uşaqlıq edib, səni keçdim. Yadına gəlirmi, qaçarkən yolda saatım düşümşdü. İnan ki, o gün dayanmışdı mənim üçün zaman, - dedim.

- Hə, bax bunun üçün üzr istəmək olar- dedi, gülərək. Mən o zaman düşünmüşdüm ki, bu necə kobud oğlandı. Bir yarışda qıza qalib gəlməyi özünə fəxr bildi. Ancaq bilirsənmi, Bəxtiyar, o gün elə həyəcanlanlanmışdım ki, səninlə yarışacam deyə. Orta məktəbdə məni istəyənlər olmuşdu, lakin ilk dəfə idi, biri məni ciddi- ciddi sevirdi. Bilmirəm, yadına gəlirmi, uşaqların hər biri iki-iki yarışdı, sona biz qalmışdıq. Mən, müəllimə kiminlə yarışacağımı söyləyəndə, uşaqlardan biri “ sən də Bəxtiyarla”- demişdi. İnan o an utandığımdan az qala yerin dibinə girəcəkdim.

Qolumdakı saatı çıxarıb, ona uzatdım. Daha doğrusu yerə- ayaqlarının altına atdım.

- Tərlan, mənim zamanımı, həyatımı özümə qaytar, məni özümə döndər. Bu saatı yerdən götür, qoluma bağla, xilas et məni bu lənətdən. Yalvarıram, bu dəfə də qolumdan düşən zamanımı yerdə qoyub getmə, dedim gözlərimdən sel axırdı. Bu duman və ya yaz yağışı deyildi ki, Tərlan bunu görməsin. Bu leysandan sonra axan seldi və o, gördü.

Universitetin həyətində olan skamyalardan birində əyləşdik. Mən də ona öz hekayəmi- Ləmanı anlatdım. Danışarkən mənə əsəbiləşəcəyini düşünürdüm, ancaq bu belə olmadı. Məni, mənim hekayəmi ağlayırdı. Bunun səbəbi o idi. Heç bir şeyi olmayan tələbə oğlanı sevməyə qorxmuşdu. Düşünmüşdümü sevməyi görəsən?! Bilmirəm, heç vaxt da bilməyəcəm. Ona bir sual verməyə belə qorxuram. Ləmanı bir yazar kimi eşitmişdi. Sonuncu – ölmədən öncə yazdığı “ Eşqin kölgəsi” əməllicə səs çıxarmışdı. Gənclərin ən çox oxuduğu roman olmuşdu son aylarda. Bu kövrək sevgi hekayəsini Tərlan da oxumuşdu. Dediyinə görə əsəri əvvəldən sonacan təsirlənmədən, kövrəlmədən oxumaq olmurmuş. İndi o, Ləmanın, mənim hekayəmin Ləmanı olduğunu öyrənmişdi. Sonra Tərlana həmin divarları göstərdim. İdman dərsi olduğu dördüncü günləri bir başqa həyəcanla gözləyirdim. Hər kəs dərsdən çıxır, Tərlan öz rəfiqəsi Ülkər ilə birlikdə axıra qalırdı. Onlar çıxana qədər ürəyimdə sözlər hazırlayır, lakin Tərlanı görən kimi hər şeyi unudurdum. Yanımdan sakitcə keçib gedir, o getdikdən sonra heyfimi divarlardan çıxırdım.

Birinci kursun sonuna qədər sağ əlimdə hər zaman yara oldu. İndi bax, o divarın yanında dayanmışıq. Aradan illər keçib. İndi nə o, nə də mən kövrək ürəkli tələbələr deyilik. İllərin yaşatdığı acı ilə bərkimiş, canı yanmış insanlarıq. Burada ona sevdiyimi demək istəyirəm, burada ona onun üçün öldüyümü demək istəyirəm. Yəqin ki, bu dəfə dinləyəcək məni. Qarşısına keçirəm. İllər öncəki kimi həyəcanlıyam, sanki cavan bir oğlan tələbəliyinin ilk günündə gördüyü qıza sevdiyini söyləyəcək...

– Səni sevirəm, yaz yağışım, səni çox sevirəm. Sən getdin, ancaq yenə sevdim səni. Başqası girdi həyatıma, lakin sənin yerini doldura bilmədi. İndi dinlə, anla məni. Gör, ürəyimdə yanan atəşi, anla, dodaqlarımda sən olan sözləri. Gözlərimdəki nəmi, yağışı gör. Dörd ilim sənə baxmaqla, səni uzaqdan izləməklə keçmişdi. Ancaq ondan sonrakı illər sənsiz, pərişan halda keçdi. Mən yaşamadım, Tərlan. Bir rəsmin vardı telefonumda, yalnızca bir rəsminlə xatırlayırdım səni. Sonralar o da silindi. Nə zaman səni görmək istəsəm, ürəyimə baxdım. Bütün gözəlliyin, gəncliyinlə ürəyimdə idin sən. Bilirsənmi, iki nəfərlik yaşadım bütün acılarımı. Sən getdin, ancaq mən – sən və məni yaşamağa məcbur oldum. Bu həyat bir nəfərin acısını çəkmək üçün belə çox ağırdı. O ki, qaldı iki insanın acısını yaşayasan. Sən ön sıralarda əyləşib müəllimi dinləyirdin, mən isə həmişə səni görə biləcəyim bir yerdə əyləşib, səni seyr edirdim. Hələ də saxlayıram o şeir dəftərimi. Hərdən açıb baxıram, şeir demək olmasa da, içindəkilərə sevgi demək olar. Cavan bir tələbə oğlanın ürəyindən sızan sevgiyə bələnmiş sözlərdi. Bilirsənmi, sənə yaz yağışım deyirdim. Yazdığım sözlərdə də belə müraciət etmişəm. Çünki, sən olduğun zaman qış da yaz olurdu mənim üçün. Əlli yaşında, ya yetmiş fərqi yoxdu. Sən yanımda olsan, mən hər zaman o tələbə oğlan olacam, sən isə mənim yaz yağışım. Ömrümün ilk və son yağışı sənsən. Qoy bütün yağmurlarda birlikdə gülək, dərdli günlərimizi birlikdə ağlayaq. Övladımız olmayacaqmı, olmasın. Digər insanlar övlad böyüdəndə, biz sevgimizi böyüdərik. Başqalarını uşaqları dəfn edəndə, bizi eşqimiz yola salar. İnan ki, sevdiyim bu həyat o qədər də uzun deyil. Və bu qısa həyatda sevgidən dəyərli bir şey yoxdu. Hər

birimizə bir dəfə verilir yaşamaq şansı. Onu da doyunca, sevgi ilə yaşamalıyıq...

Sözlərim bitməmişdi,bir ömür də bitməyəcəkdi. Tərlanın gözlərinə baxaraq, ölüm çatana qədər danışa bilərdim. İndi ikimiz də ağlayırdıq. Qəbul etmişdi bu dəfə sevgimi. Daha doğrusu, başqa seçim haqqı yoxdu. Mən onun yaşamaq üçün sonuncu şansı idim. Çox utanırdı. Gəncliyində yox, indi " hə" deyirdi mənə. Ancaq mənim çox sevdiyim mahnıda da deyildiyi kimi: "mən səni baharında deyil, qarlı qışında sevdim..." Ləman da mənə vermişdi gəncliyini, ancaq qiymətini bilməmişdim. Bu sevgi, bu vüsal gecikmiş bir qələbə olsa da, nəticədə qələbə idi.

Birlikdə fakültəyə qalxdıq. Otaqları, dəhlizləri doyunca gəzdik. Tərlanın təhslinini davam etdirməsi üçün hər şey edəcəkdim. Çünki, həyatın sabah nə gətirəcəyini bilə-bilmərik. Bu gün sevgimlə onu həyata bağlaya bilərəm. Ancaq sabah mən olmasam, ölsəm, onun qala biləcək bir limanı olsun.

Az sonra Beytullah da bizə qoşulmuşdu. Tərlanı mənim yanımda görəndə nə deyəcəyini bilmədi. Bir qədər sonra ona hekayəni anlatdım. Məni belə gülərüz görmək onu da xoşbəxt etdi. İndi tələbəlik illərindən iki ən çox sevdiyim insan yanımda idi. Beytullahla yemək yediyimiz yerə bu dəfə üçümüz getdik. İkimərtəbəli bu kafedə ancaq ev yeməkləri verilirdi. İllərdi burada əyləşir, burada dərdləşirdik. İndi Tərlan da yanımda idi. Mən çayı onun gözlərinə baxaraq içə biləcəkdim. Deyiləcək o qədər sözlər vardı ki... Bu sözlərə bir ömür belə yetməzdi. Hələ ki, tələbəlik illərindən, yoldaşlarımızdan, müəllimlərimizdən danışır, keçmişi gözəlliklə xatırlayırdıq.

SON.

Hər son yeni bir başlanğıcdı, bunu unutmayın və sonlardan qorxmayın.....

Kitabdakılar:

1. Ön söz............................................
2. Ləman............................................

Tural Sahab
(Nuriyev Tural Elmar oğlu)
("Ləman")